***AZƏRBAYCAN RESPUBLİKASI***
***TƏHSİL NAZİRLİYİ***

***GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ***

# *SƏDNİK PAŞA PİRSULTANLI*

## ***AZƏRBAYCAN AŞIQ YARADICILIĞINA DAİR ARAŞDIRMALAR***

*Gəncə Dövlət Universitetinin Nəşriyyat*
*şöbəsinin 12 may 2010-cu il tarixli*
*qərarı ilə çap olunur*

***BAKI – "AZƏRNƏŞR" - 2010***

***BBK-47***
***P-46***

***Elmi redaktor:***
***Prof: Məhərrəm Qasımlı***

# *Sədnik Paşa Pirsultanlı*

## *Azərbaycan aşıq yaradcılığına dair araşdırmalar - 260 səh.*

***Müəllifin ayrı-ayrı dövrlərdə elmi əsərlərdə, jurnal və qəzetlərdə ustad aşıqlara dair yazılmış oçerk, monoqrafik tədqiqatlar bu əsərə daxil edilmişdir ki, ali məktəb müəllimləri, tələbələri, tədqiqatçılar bundan cəm şəklində istifadə edə bilsinlər.***

***4700000000*** ***qrifli nəşr***
***M-651(07) 2010***

© ***Sədnik Pirsultanlı 2010***

## *TİKMƏDAŞLI XƏSTƏ QASIMIN SƏLƏFLƏRİ VƏ XƏLƏFLƏRİ*

Tikmədaşlı Xəstə Qasımın sələfi olan Dirili Qurbani Azərbaycan aşıq sənətinə bir sıra ənənələr qoyub getmişdir. Qurbani istedadlı şair olduğu qədər də aşıq ifaçılığına dərindən bələd bir sənətkardır. Qurbani dastanın əvvəlində sovetlər dönəmində deyilən ustadnamələri yox, çoxbəndli məsail formasında şeir demişdir. Məsail şeirinin ilk nümunəsini Qurbani yaratmışdır.

"Məsail" ərəbcə məsələlərin cəmi deməkdir. Hansı məsələlərin? Allahla, peyğəmbərlə əlaqəli dini məsələlərin cəmi nəzərdə tutulur. Apardığımız araşdırmalar müəyyən etmişdir ki, klassik ədəbiyyatda Nizami kimi dahi şairlərin irihəcmli əsərlərinin əvvəlində verilmiş «Minacat»larda, meracnamələrdə, yəni «Peyğəmbərin meracı»nda, «Peyğəmbərin mədhi»ndə hansı məsələlər qoyulmuşdursa, məsaillərdə də eyni məsələlərdən bəhs olunmuşdur. Fikrimizi əyaniləşdirmək üçün əvvəl Nizaminin əsərlərinə müraciət edək. «Sirlər xəzinə»sinin əvvəlində verilmiş minacatda Allaha belə müraciət olunur:

Sən, ey bütün varlığa həyat verən, can verən!
Gildən yaranmışlara nəfəs verən, qan verən!
Biz hamımız faniyik, əbədiyyət sənindir,
Uca göylər, qüdsiyyət, təmiz niyyət sənindir.[1]

«Xosrov və Şirin» poemasının əvvəlində isə deyilir:

---

[1] Nizami Gəncəvi «Sirlər xəzinəsi». Bakı, 1981, səh 24

Dilimdə hər şeydən uca bir ad var,
Bu ada bağlıdır bütün varlıqlar.
Yaranmışlar ona səcdə edərək,
Hər an varlığına sahibdir, gerçək.
Təkdir, misilsizdir, - kim deyil agah?
Ulular deyirlər ona tək Allah.[1]

«Peyğəmbərin mədhi», «Peyğəmbərin meracı» başlıqları altında Allahla peyğəmbərin yaxınlığı və aradakı möcüzələr təsvir olunur:

Məhəmməd seçilən, Allah seçəndir,
Yerdən göyə qədər duan var olsun,
Seçib seçilənə salamlar olsun.[2]

«Peyğəmbərin meracı» bölməsində oxuyuruq:

Açantək bu sirri Cəbrayıl ona,
Məhəmməd bu sözdən bu həycana,
Huşunu itirib ətrafa baxdı,
Qulluq sırğasını qulağa taxdı,
Peyğəmbər əmindir, Cəbrayıl əmin.
Onları qorxutmaz nə şeytan, nə cin.
O dedi: Allahın hər peyğamını,
Bu duydu elçinin sirr-kəlamını.[3]

Həmin hissədə Cəbrayılla yanaşı, Mikayılın, İsrafilin, Məhəmmədin atı Büraqın adları ehtiramla çəkilir. Adəm, Həvva nənə, digər müqəddəs kultların,

---

[1] Nizami Gəncəvi «Xosrov və Şirin». Bakı, 2004, səh 23-24
[2] Nizami Gəncəvi «Yeddi gözəl». Bakı,  2004, səh 22
[3] Yenə orada, səh 22-23

şəxslərin adları yad edilir. Qeyd edilir ki, «mənada Adəmin can kimyası, surətdə aləmin göz tutyası» olan Məhəmməd hər şeyə qadirdir. Burada eyni zamanda İsanın, Musanın, Süleymanın, İbrahimxəlilin adları yad edilir:

Ruhlara dərs öyrət, sən İsa kimi,
Eşqdən şam yandır bir Musa kimi.
Üzüyə füruzə qaş salanda sən
Bizdən Süleymantək əta görərsən.[1]

Başqa bir yerdə peyğəmbər haqqında deyilir:

Türbətinin qubarı döndü ənbər ətrinə,
Yurdun ənbər vətəni oldu sənin xətrinə.
Torpağın ətirlidir Süleymanın mehindən,
Cənnət də ətirlənər gülzarının şehindən.[2]

«Peyğəmbərin mədhi»nin davamında oxuyuruq:

Daim ədalətindən nəşə duydu Süleyman,
Peyğəmbərlik tacına sanma uydu Süleyman,
O quyudan qisməti, ah, nə oldu Yusifin?
Nəsibi bir kəndirdi, bir də doldu Yusifin,
Gedər-gəlməz səfərə atını çapdı Xızır.
Camı boşdu həqiqət sorağında Musanın,
Niyyət bais deyildi təlaşına İsanın.[3]

Hətta, «İskəndərnamə»nin əvvəlində verilmiş peyğəmbərin meracında Xızırın və Musanın bir qasid

---

[1] Nizami Gəncəvi «Xosrov və Şirin». Bakı, 2004, səh 34
[2] Nizami Gəncəv «Sirlər xəzinəsi». Bakı, 1981, səh 35
[3] Yenə orada, səh 39

kimi Məhəmməd peyğəmbərin atının önündə getdiklərini Nizami qeyd edirdi:

At sürdü yollardan, dağlardan keçdi,
Bir sıra təpəni bir anda biçdi,
Yanında qasiddi Xızr ilə Musa,
Atının önündə gedirdi İsa.[1]

Şifahi xalq ədəbiyyatına, onun canlı və hərəkətdə olan qoluna, aşıq sənətinə Dirili Qurbani dərindən bələd olduğu kimi, klassik yazılı ədəbiyyata da eyni dərəcədə bələd olmuş və onların hamısından tükənməz bir qaynaq kimi istifadə etmişdir.

Bizim arxivimizdə olan Qurbaninin 63 məsaili əsli Göyçənin Cil kəndindən olan, hazırda Şəmkir rayonunun Keçili kəndində yaşayan məşhur aşıq Qasımın oğlu, Cilli Museyibin qardaşı Aşıq Əlidən toplanılmışdır. Həmin 63 məsailin ilk bəndlərində deyilir:

Şükür dərgahına qadir Allahın,
Məhəmməd dinini bəyan eylədi,
Sidqinən çağırdı, saqi-kövsəri,
Tamam dərdlərə dərman eylədi.

Yaz ayında lala bürüyər dağı,
Mudəm səbzə olsun möminlər bağı.
Doqquzuncu imam Məhəmməd Tağı,
Əliyən Nağını əyan eylədi.

Havada kəşt edir Süleyman taxtı,
Bilin ki, nə vaxtdı qıvlanın vaxtı.

---

[1] Nizami Gəncəvi «İskəndərnamə». Bakı, 1964, səh 31

Məhəmmədə gələn Quran da haqdı,
Musa da Tövratı bəyan eylədi.

Məsailin ayrı-ayrı bəndlərində Fatmeyi-Zəhra xatundan, Museyi Kazımdan, Sahibi Zamandan, on iki imamdan, Firidudən, Sulidindən, müqəddimat-dan, müqərratdan, səkkiz namazından, Süleyman taxtından, Məhəmmədə gələn Qurandan, Qadir Sübhandan, Murtuza Əlidən, səkkiz cənnət otağından və digər dini məsələlərdən, müqəddəs şəxslərdən ətraflı bəhs olunur, Qurbani şeirinin möhürbəndində 63 məsailin adı qeyd edilir.

Bəzi ustad aşıqlar Qurbani məsailinin 53, bəziləri isə 63 olduğunu söyləyirlər. Lakin bizə görə Qurbaninin məsaili 53 yox, 63-dür.

Qurbaninin 63 məsaili aşıq yaradıcılığında ölməz bir sənət incisidir. Həm də o dövrdə buna böyük ehtiyac vardı. Nizami kimi dahi şairlər irihəcmli əsərlərinin əvvəlində «Minacat», «Peyğəmbərin mədhi», «Peyğəmbərin minacatı» kimi möcüzələrlə dolu islami dəyərləri xalqa çatdırırdısa, Qurbani kimi yüksək dini təhsil görmüş ustad sənətkarlar da məclisə daxil olarkən ustadnamə yerində dərin mündəricəli məsaillərini söyləyirdi. Qurbaninin ölməz əsəri olan məsaili aşıq Abbasa da, Xəstə Qasıma da, Abdalgülablı Valehə də, Şəmkirli Aşıq Hüseynə də, Aşıq Ələsgərə də güclü təsir etmiş, onlar da bu səpgili peyğəmbərin möcüzələrindən bəhs edən əsərlər yaratmışlar. Tufarqanlı Abbasın və Xəstə Qasımın dini ustadnamələri, şəmkirli Hüseynin zəncirləməsi və Aşıq Ələsgərin «peyğəmbərin meracı» adlı şeirləri dediklərimizə misal ola bilər.

İslam dininin xalqımızın mənəvi həyatında və mədəni inkişafında müstəsna rol oynadığını inkar etmək

qeyri-mümkündür. Dirili Qurbani islami dəyərləri yüksək qiymətləndirərək onu öz əsərlərinin canına hopdurur, məclislərdə deyir və geniş kütlə arasında yayırdı. Bir-birindən kəskin şəkildə fərqlənən məsaillər, vücudnamə kimi dastanların əvvəlində, cahannamələr isə dastanların sonunda deyilirdi.

Bəzi araşdırıcılar Dirili Qurbaninin Şah İsmayıl Xətayinin sarayına qədər inkişaf edib, yol tapmasını müxtəlif şəkildə elmi bir dillə yox, bədii nümunələr əsasında danışırlar. Bu doğru deyildir. Şah İsmayıl Xətayi Səfəvi dövlətinin ideologiyasını formalaşdırarkən islami dəyərlərə söykənirdi. Tədqiqatçılar çox zaman bu islami dəyərləri sufizm şəklində, yəni şəriət, təriqət, mərifət və həqiqət kimi izah etməyə çalışırlar. Şəriətin tələbi budur ki, təkcə Qurana deyil, bütün dini kitablara bələd olmalısan. Təriqət odur ki, seçdiyin dini yoldan dönməyəsən. Mərifət odur ki, hansı dinə mənsubsansa, xalq arasında o dini mərifətlə təmsil edəsən. Həqiqət odur ki, qardaşın bir adam öldürüb, yerinə isə başqasını həbs ediblər. Sən həqiqət naminə qardaşın olsa belə, kimin günahkar olduğunu aşkarlamalısan. Bax, bu dörd cəhət səndə cəmləşsə, insani-kamil olarsan, göydə Allahı, onun işığını görmək istəyən, onu sənin alnında, alnına yazılmış hərflərdə oxuya bilər, yerdə sən onun təcəllası olarsan. İslami dəyərlərin içərisində bu kiçik bir xətdir, bunlar Nəsimi, Şah İsmayıl Xətayi, Qurbani və Pirsultan Abdal yaradıcılığında özünü büruzə verir. İslami dəyərlərə çox məsələlər daxildir. Bunlar Dirili Qurbani yaradıcılığında öz təcəssümünü tapmışdır. Hələ ozanların son nümayəndəsi Dədə Yediyarla Qurbaninin deyişməsi, Qurbaninin dini ehkamlara nə qədər dərindən bələd olduğunu aşkar deyir. Dədə Yediyarla Qurbaninin deyişmələrindən bir nümunə:

***Dədə Yediyar:***

Nədən hasil oldu İsrafil suru?
Kim camal göstərdi, yandırdı Turu?
Hansı peyğəmbərin alnında nuru,
Onu kim görcəyin müsəlman oldu?

***Qurbani:***

Nurdan hasil oldu İsrafil suru,
Haqq camal göstərdi, yandırdı Turu.
Məhəmməd peyğəmbər – alnında nuru,
Xədicə görcəyin müsəlman oldu.

Qurbani saraya getməzdən əvvəl Şah İsmayıl Xətayi onun yaradıcılığı ilə, ağlı ilə, kamalı ilə dərindən tanış olmuş, Dədə Yediyarın meydanında qalib gəlib, sınaqdan çıxdıqdan sonra onu öz sarayına dəvət etmiş və aşıqlara başçı seçmişdir. Hətta, Qurbaninin elə şeirləri var ki, Xətayi şeirləri ilə səsləşir, eyni mənanı təqib edir. Xüsusilə, Xətayiyə məxsus vücudnamə və cahannamə parçalarını Qurbaninin təsiri ilə yazıldığına şübhə yeri qalmır. Xətayi də böyük həvəs göstərmişdir ki, onun şeirləri də dastan gecələrində ustadnamə yerində söylənilsin. Onun «Tövbənamə» qəzəli buna misal ola bilər.

Aşıqlar Xətayinin nəinki qoşmalarını, hətta qəzəllərini sazda oxumağa başlamışlar. Divani şeir şəkli onun qəzəlləri əsasında formalaşıb meydana çıxmışdır. Aşıqlar hətta məclisi Şah İsmayıl Xətayinin dini şeiri olan tövbənaməsi ilə açırmışlar. Akademik Həmid Araslı da

«Aşıq yaradıcılığı» adlı əsərində bu hadisəni xüsusi vurğulayır və Şah İsmayıl Xətayinin qəzəlindən bir beyt nümunə verir:

Şah Xətayi seyrə çıxdı açdı hürrün qəbrini,
Ya İlahi, sən bilirsən günahkaram doğrusu.[1]

XVI əsrdə yaşayıb-yaratmış, Səfəvi xənadanının böyük hörmət və nüfuzunu qazanmış Qurbani Şah İsmayıl Xətayi ilə birlikdə Çaldıran döyüşündə iştirak etmiş və o illərdə «Baş divani» («Xətayi divanisi»), «Ayaq divani» («Osmanlı divanisi») saz havalarını yaratmışdır.

Şah İsmayıl Xətayidən sonra, XVII əsrdə sənət meydanına gələn Tufarqanlı Abbas Şah İsmayıl Xətayinin və Qurbaninin yaradıcılıq yolunu intixab etmiş, Qurbaninin məsail şeirinin təsiri ilə yaddaqalan dini şeirlər yazmışdır. Tufarqanlı Abbas başqa sənətkarlardan fərqli olaraq öz şeirləri və həyat macəraları ilə bağlı «Abbas və Gülgəz» kimi bütöv bir dastan yaratmışdır. Prof. M.H.Təhmasib haqlı olaraq qeyd edir ki, Tufarqanlı Abbasın tərcümeyi-halı, ədəbi irsi onun dastanında cəmləşmişdir. Tufarqanlı Abbasın şeirlərindən nümunələrə diqqət yetirək:

Xətmi Rəsul merac üstə yeridi,
Mələkələr dörd bir yanın bürüdü,
Cənab Əmir şir donunda şiridi,
Özü kəsdi Mustafanın yolunu.

[1] Həmid Araslı. «Aşıq yaradıcılığı», Bakı, 1960, səh 34

Və yaxud:

Bir şəhərə vardım öz peşəsində,
Əyləşib cənnətin sər guşəsində,
On səkkiz min aləm bir küçəsində,
Bir yanı boş qalıb, min bəndərgahı var.

Bu şeir parçalarında Qurbaninin 63 məsailinin təsiri duyulmaqdadır. Qurbani aşıq poeziyasına ilk dəfə olaraq məsail, divani və təcnis şeir formalarını gətirdiyi kimi, bundan sonra sənət meydanına gəlmiş Tufarqanlı Abbas da aşıq yaradıcılığına örnək olaraq müləmmə təcnis (çoxdilli), cığalı təcnis və vücudnamə kimi şeir formalarını gətirmişdir.

XVII əsrin sonu XVIII əsrin əvvəllərində sənət meydanına gəlmiş Tikmədaşlı Xəstə Qasım özünə qədər mövcud olan klassik ədəbiyyatdan, zəngin folklorumuzdan, folklorumuzun hərəkətdə olan, çevik və tez-tez dəyişmələrə məruz qalan aşıq sənətindən istənilən qədər faydalanmışdır. Həmin qaynaqlardan bəhrələnmiş, öyrənə-öyrənə dərya-dəniz olmuş, bir dağ kimi ucalmış, geriyə boylananda Nizami, Füzuli, Qurbani və Tufarqanlı Abbas kimi azman söz ustadlarını görmüş və bununla da öz sənət yolunu müəyyənləşdirmişdir. Xəstə Qasım sələflərinin poetik və melodik əsərlərindən təsirləndiyi kimi, onun xələfləri də şair-aşığın ədəbi irsinə söykənərək gözəl sənət nümunələri yaratmışlar. Xəstə Qasım sələflərinin yaradıcılığından necə faydalanmışdır? Nizami yazır:

Əvvəl əyri bitən bir cavan budaq,
Zənn etmə, qocalsa düzgün olacaq.[1]

Xəstə Qasım həmin beytin təsiri ilə yazdığı qoşmasında fikrini belə ifadə edir:

Əzəl yerdən çıxan əyri ağacı,
Yüz min ustad rəndələsə düzəlməz.[2]

Dağıstana Ləzgi Əhmədin görüşünə gedən Xəstə Qasım öz hərbə-zorbasını fəxrlə belə başlayır:

Ləzgi Əhməd, mənəm Füzuli nəsli,
Bəhrlərdə mən ümmanam sən nəsən?
Dərin kitabları məna eylərəm,
Söz anlayan, dərd qananam sən nəsən?[3]

Xəstə Qasım Füzuli yaradıcılığından təkcə bəhrələndiyini demir, fəxrlə onun nəslindən olduğunu söyləyir. Xəstə Qasım, eləcə də Dirili Qurbaninin və Tufarqanlı Abbasın yaradıcılığına böyük ehtiramla yanaşır. Qurbaninin poeziyasından təsirlənərək təcnislər, Tufarqanlı Abbas yaradıcılığından təsirlənərək cığalı təcnislər yaradır. Qurbaninin 63 məsailinə cavab olaraq özünün 64 bəndlik ustadnaməsini yaradır. Xəstə Qasımın dini ustadnaməsi çox bitgin və zəngin məzmuna malik ölməz bir əsərdir. Xəstə Qasımın 64 bəndlik ustadnaməsindən bir neçə bənd nümunə göstərək:

---

[1] Nizami Gəncəvi «Xosrov və Şirin», Bakı, 1962, səh 222
[2] Xəstə Qasım. Bakı, 1975, səh 10
[3] Sədnik Paşayev. «Azərbaycan folkloru və aşıq yaradıcılığı». Bakı, 1989, səh 68

Cəbrayıla müjdə verdin,
Bir oğlan dünyaya gəldi.
Adını İsmayıl qoydu,
Gərək görsün o Minanı.

İbrahim nə xəyala daldı,
İsmayıl mətləbin aldı,
Qurban Minaya gəldi,
Həcər başladı fəqana.

Baş kəsmədi bıçaq durdu,
Çaldı daşı, iki böldü,
O dəm Cəbrayıl gəldi,
Gətirmişəm qoç qurbanı.

Xəstə Qasım öz sələflərinin, o cümlədən Qurbaninin yaradıcılığına böyük maraq göstərmiş, onun sənət çeşməsindən istədiyi qədər faydalanmışdır. Qurbani bir qoşmasında deyir:

Gecə-gündüz vaxtı-bivaxt ağlaram,
Çeşmim yaşı Ceyhun olar sellənər,
Yaz mövsümü bülbül dil-dil ötəndə,
Bağ-bağçalar nərgizlənər, güllənər.[1]

Qurbani şeirindən təsirlənərək nəzərə çarpma-yacaq tərzdə ona bənzər qoşmasını yazır. Nümunə üçün Xəstə Qasımın qoşmasının bir bəndini veririk:

Bağban olub zəhmət çəkə, əlləşə,
Saldığı bağ çiçəkləşə, gülləşə.

---

[1] Sədnik Paşayev «Azərbaycan folkloru və aşıq yaradıcılığı», Bakı, 1989, səh 32

Əgər gücsüz güclü ilə güləşə,
Olar tərlan ilə sar aşnalığı.[1]

Yuxarıda qeyd etdik ki, Tufarqanlı Abbas mülləmmə təcnisin (çoxdilli) ən mükəmməl nümunəsini yaratmışdır. Tufarqanlı Abbasın mülləmmə təcnisinin nadir bir örnək olduğunu nəzərə alaraq burada onu bütöv veririk:

Yaz dolandı, gəldik düşdük yayə də,
Dastanımız dildən-dilə yay, ədə.
Bir təhrindən bənzədirəm yayə də,
Ərəb soki, farsı əbru, türki qaş.

Yar geyinib qəddi-dala, incidir,
Gümüş kəmər, nazik beli incidir.
Düzdürmüsən dəhanına incidir,
Ərəb sinan, farsı dəndan, türki diş.

Müxənnətnən heç olmaynan aşına,
Bir gün olar zəhər qatar aşına,
Abbas deyər: sal müxənnət başına,
Ərəb səngi, farsı həcər, türki daş.[1]

Tufarqanlı Abbasın dini şeirləri də öz kamilliyi ilə seçilir. Həzrəti Əlinin onu zəhər quyusundan çıxarmasını aşağıdakı şəkildə mənalandırır və onun şəninə dəyərli sözlər deyir:

Kor olasan, a gözlərim,
Ağam burdan hara getdi?

---

[1] Azərbaycan aşıqları və el şairləri. I cild. Bakı, 1983
[1] Sədnik Paşayev. «Azərbaycan folkloru və aşıq yaradıcılığı». Bakı, 1989, səh 17

Gizli olan sirləri,
Aşkar qılan hara getdi?

Zülfüqar qalxıb havaya,
Salam gəldi Mürtəzaya,
Ərəb donunda davaya,
Girib varan hara getdi?…

Zülfüqarı vurdu daşa,
Bir cüt qulaq çıxdı qoşa.
Əjdahanı  başdan-başa
Yarı bölən  hara getdi?

Mən sevirəm ənbərini,
Düldülünü, Qəmbərini,
Cəbrayılın şahpərini,
Yarı bölən hara getdi?

Gözün aç, ağanı tanı,
Görgünən qədir sübhanı,
Qul Abbası, binəvanı,
Ağlar qoyan hara getdi?..[1]

Xəstə Qasım öz dini divanisi ilə aşıq poeziyasında bir Kəbə qurmuş, bir imarət ucaltmışdır. Bütün islami dəyərlər onun ayrı-ayrı misralarında yaşayır və Quranın islam dünyası üçün böyük dərslik olduğunu hamımıza anladır, onunla fəxr edir və bizi də fəxr etməyə çağırır. Həmin şeirə belə başlayır:

---

[1] Şeir Aşıq Məhəmməddən tam şəkildə yazıya alınmışdır. (Göyçənin Ağzıbir kəndi)

Adəmnən xatəmə,
Natiqi Quran mənim.
Din mənim, məssəb mənim,
Yol mənim, ərkan mənim,
Gül mənim, bülbül mənim,
Sünbülü reyhan mənim.

Xəstə Qasımdan sonra sənət meydanına gələn Aşıq Valeh, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn, Molla Cümə, Yəhya bəy Dilqəm, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Növrəs İman və başqaları onun sənətkarlığından faydalanmış, şeir xəzinəsindən istifadə etmiş, onu özlərinə ustad seçmişlər.

Xəstə Qasımda bu cür mükəmməl sənət inciləri çoxdur. Aşıq poeziyasında cığalı təcnisin ən gözəl nümunələri onundur. Müstəzad təcnisin ilkin nümunəsini Xəstə Qasım yaratmışdır. Xəstə Qasım aşıq yaradıcılığında elə örnəklər, elə nümunələr yaratmışdır ki, o nəinki aşıq yaradıcılığına, eləcə də yazılı ədəbiyyata da güclü təsir göstərmişdir. Azərbaycan folklorşünaslığının banilərindən biri olan professor M.H.Təhmasib yazır ki: «XVII-XVIII əsrlərdə aşıq ədəbiyyatı, aşıq şeiri o qədər geniş yayılmış, elə böyük şəxsiyyətlər yetirmişdir ki, hətta, əgər belə demək mümkünsə, yazılı ədəbiyyatın önündə getməyə, ona istiqamət verməyə başlamış, Vaqif ədəbi məktəbinin formalaşmasında həlledici rol oynamışdır».[1]

Xəstə Qasım «Dağıstan səfəri» dastanını yarat-dığı kimi, Xəstə Qasımın təsiri ilə XVIII əsrin böyük sənətkarı Abdalgülablı Valeh də özünün «Dərbənd səfəri» və yaxud «Valeh və Zərnigar» dastanını

[1] M.H. Təhmasib. «Azərbaycan xalq dastanları», (Orta əsrlər), Bakı, 1972.

yaratmışdır. Bundan başqa, Valeh kiçik hissələrdən, 3 bənddən, 5 bənddən ibarət cahannamələrdən fərqli olaraq, 15 bənddən ibarət cahannaməsini yaratmışdır.

Aşıq Valeh həmin cahannamədə Molla Pənah Vaqifi yad edərək deyir:

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dürr-əfşan.
İndi eyləmisən xak ilə yeksan,
Tapmaq olmaz o kamalda can, hanı?
Dünya, səndə Aşıq Səməd var idi,
Nəzmü şeiri, ləli, gövhərlər idi,
Bir gözəl eşqinə giriftar idi,
Onun kimi bir bəhri-ümman hanı?

Cəsarətlə demək olar ki, Xəstə Qasım «Dağıstan səfəri» ilə real tarixi dastanın ilkin nümunəsini yaratmış, bundan sonra sənət meydanına gələn Aşıq Valeh, Aşıq Alı, Şəmkirli Hüseyn onun real tarixi dastan yaratmaq ənənəsindən xeyli dərəcədə bəhrələnmişlər.

Aşıq Şəmkirli Hüseynin «Naxçıvan səfəri» («Aşıq Hüseyn və Reyhan»), «Aşıq Alının Türkiyə səfərı» («Aşıq Alı və Əsmər xanım»), Çoban Məhəmmədin «Qars səfəri» («Çoban Məhəmməd və Səlbi Xuraman») dastanları Xəstə Qasımdan xeyli sonrakı dövrlərdə yaranmışdır.

XIX əsr sənətkarlarının içərisində Şəmkirli Aşıq Hüseyn yüksək dini təhsil görmüş, 17 il Şamda qalmış azman bir sənətkardır. Aşıq Hüseyn məsail şeirində ifadə olan fikirləri başqa adla qələmə almışdır. Onun məsail səviyyəsində olunan «Zəncirləməsi» aşıq poeziyasında ölməz bir abidədir. Heç yerdə çap olunmadığı üçün

Şəmkirli Aşıq Hüseynin zəncirləməsini burada bütöv veririk:

Çağırram qadir Allahı,
Coşub girəndə meydana.
Yüz on dörd surə oxuram,
Sidqim bağlaram Qurana.

Qurandı mənim əzbərim,
Cahari-məsim gövhərim,
Kərimi Kərrari Kərim,
Qulluq eylərəm imana.

İmanı verən xaliqdi,
Mətləb diləyən məxluqdu,
Yunisi udan balıqdı,
Düşəndə dərya-ümmana.

Ol ümmanda oldu qəvvas,
Bil nə qədər qıldı namaz,
Ərz elədi Xızır İlyas,
Üzün tutdu asimana.

Asimanı yaratdı Kirdigar,
Təyyar oldu Şəmsi-Qəmər,
Neçə gündə belə hünər,
Yayıldı cümlə-cahana.

Cahanda gördü obanı,
Zərrəcə seçdi noğdanı,
Şeytan Adəmə verdi buğdanı,
Həsrət qoydu rizvana.

Rizvandan çıxdı Adəm,
O nemətdən bir də dadam,
Şükr elədim mən çox şadam,
Qismət oldu Həvva ana.

Həvvanı eylədi qəbul,
İşlərisə oldu məqbul,
Qan eylədi Habil, Qabil,
Onlar uymuşlar şeytana.

Şeytan eylədi zəlili.
Çağırın Cabbar-Cəlili,
Oda atdılar Xəlili,
Atəş döndü gülüstana.

Gülüstanda oxu kərəmullahı,
Oddan xilas oldu dahı,
Bənə qoydu qibləgahı,
İsmayılı gətdi qurbana.

Qurbanını qəbul eylədi,
Savabı sail eylədi,
Hünəri fail eylədi,
Tikdirdi müsafirxana.

Ol müsafirdən ötrü ağladı,
İblisi rey bağladı,
Sinəsin çarpaz dağladı,
Həsrət qaldı o mehmana.

Loğman dedi biris birisi,
Həzrət Yəhya, Şıx İdrisi,

Bizim düşmənimiz iblisi,
Rəhmət, nəhlət oxuyana,

Nəhlət oxuyan Şıx Əyyub,
Kafərlərin yağın yarıb,
İbni Həsən, İbni Yaqub,
Qurbanam Cəhli sultana.

Cəhli bənzər ərənlərə,
Təbi bizə verənlərə,
Rəsulu görənlərə,
Onlar səy eylər Firqana.

Firqanını car elədi,
Dinini aşkar elədi,
Hünəri Heydər elədi,
Qılınc vurdu ol düşmana,

Düşmanları çəkdi aman,
Sizdən uzaq olsun yaman,
Mənim ağam Sahib Zaman,
Can qurban Şahı-Mərdana.

Adəmi Seyfullah,
Nuh Nəbiyyullah,
Şıx Səfiyyullah,
Onlar qərq oldu tufana.

Ol tufandan aldı payın,
Cüt götürdü taylı tayın,

Sözə baxmayan oldu xain,
Həkimlik gəldi loğmana.

Şah-mərdan açar eyin,
İmanımız haqdı bugün,
Mənim adım aşıq Hüseyn,
Sakinəm Şəmkirstana.

Bu silsilədən məsailin ruhunu və məzmununu özündə yaşadan «meracnamə»sində Aşıq Ələsgər deyir:

Bu nə qurğu, nə fəzilətdi,
Bağışlandı hümmətlərin günahı.
Şad xürrəm olacaq islam pənahı,
Bir aslan gəldi kəsdi irahı,
Məhəmməd görcəyin xətabın atdı.
Yetişdi hicraya əzizi-əzim,
Əli dedi əmioğlu meracım qədim,
Buyurdu almanı etdi təbəssüm,
Dedi ki, hər işin sirri qüdrətdi.

Şeirin son misralarını oxuduqda merac evində Allahın rəsulu Məhəmmədlə Həzrət Əlinin görüşləri, alma əhvalatı Aşıq Ələsgərin şeirində öz əksini tapır. Beləliklə, Aşıq Ələsgər məclisə daxil olarkən xalqa islami dəyərləri, islam tarixini, islam mədəniyyətini bu yolla çatdırır. Bu mənada aşıq ictimai fikir tariximizdə, mənəviyyatımızın zənginləşməsində misilsiz rol oynamışdır.

Müasir dövrdə, yəni XX əsrdə Xəstə Qasımla maraqlanan, onun açılmamış qıfılbəndlərini açmağa səy göstərən Növrəs İman olmuşdur. Xəstə Qasımın qıfılbəndinin bir bəndini misal göstərək:

Xəstə Qasım:

Xəstə Qasım Tikmədaşlı sahibi cümlə xəta,
Ümidvaram meracına sənə eylər əta,
Bir ismin qul kəfadı, bir ismin əl-əta,
Əzmi qaf günahım olsa, əhv eylər rəhman məni.

Növrəs İmanın açması:

Növrəs İman Göyçə elli sığın şahi Heydərə,
Ərş əladan vəhy gəldi, biz yazdıq dəftərə,
Xaliq özü şəfayətçidi qoydu bunu məhşərə,
Qorxum yoxdur, qurulsa ədalət, divan mənim.

Növrəs İman ərəb, fars dilini, Quranı, onun ayələrini yaxşı oxuyub bildiyindən Xəstə Qasımın qıfılbəndlərini açmağa girişir və müvəffəq olur. Növrəs İman folklor yaradıcılığının, aşıq poeziyasının araşdırıcısı kimi bütün ustad sənətkarların, o cümlədən Xəstə Qasım poeziyasını yüksək qiymətləndirir:

Oyub ciyərimin möhnət alması,
Bu xəstə könlümün açılmaz pası,
Ələsgər, Xəstə Qasım, Şikəstə Abbası,
Ondan qalan aşıq üz gəlib gedib.

Xəstə Qasım Azərbaycan aşıq yaradıcılığının, onun poeziyasının, ifaçılıq sənətinin bel sütunudur, onurğa sütunudur. «Məsail, vücudnamə, meracnamə, zəncirləmə və cahannamə» folklor toplusunu tezliklə çap etdirmək niyyətindəyik. Ona görə ki, bu klassik nümunələri ustad görmüş sənətkarlar bilirlər. Onların isə sayı çox azdır. Ustad sənətkarları toy məclislərinə aparmırlar. Biz

arxivimizdə saxladığımız həmin nümunələrin sovet dönəmində çap olunmadığını və yayılmadığını nəzərə alaraq onların işıq üzü görməsinə çalışırıq.

Xəstə Qasım dini mövzunu poetik bir dillə təsvir və tərənnüm edirdi. Onun obrazlı təfəkkürü, rəvan dili şeiri bəzəyir, ona poetik don geyindirir. Məsələn:

Əzəl-əzəl bu dünyaya,
Adəm Ata maya gəldi.
Əmr olundu yaradandan,
İnsan üzünə həya gəldi.

On dörd dəstədir gülümüz,
Kəlmə gətirdi dilimiz,
Şahlar-şahıdır pirimiz,
Salman ona dayə gəldi.

Xəstə Qasım eylər bəsi,
Silinsin könlünün pası,
Behiştin bir dəst libası,
Fatmeyi-Zəhraya gəldi.

Biz bu yazının mərkəzində Xəstə Qasımı gördüyümüz üçün onun mövqeyini açıqlamağa çalışmışıq. Əlbəttə, bu böyük tədqiqatın kiçik bir hissəsidir. Yəqin ki, gələcək araşdırmalar daha çox söz deməyə imkan verəcəkdir.

# AŞIQ ƏLƏSGƏR SƏNƏTKARLIĞI
# AŞIQ ƏLƏSGƏR UCALIĞI

Hər bir sənətkarın sənət meydanında onun yerini müəyyənləşdirən sənətkarlığıdır, sənətə bələdçiliyidir. Dərin biliyinə, zəkasına və fitri istedadına görə Aşıq Ələsgəri aşıq sənətinin memarı hesab edirlər. XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Tufarqanlı Abbas, XVII-XVIII əsrdə Tikmədaşlı Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Şəmkirli Hüseyn kimi sənətkarlar meydana çıxmışdır. Aşıq Ələsgər bu cür azman sənətkarlar arasında sənətin fövqünə, sənətin zirvəsinə qalxa bilmişdir. Ona görə ki, aşıq yaradıcılığının poetik və melodik sistemini çox gözəl bilmişdir. Qurbaninin yaratdığı 63 məsaili ilə, təcnis və divani şeir formaları ilə tanış olduqdan sonra, həmin səpgidə şeirlər yazmışdır. Əgər Qurbani öz yaradıcılığında iki təcnis yaratmışdırsa, Ələsgər buna cavab olaraq iyirmi beş təcnis yazmışdır. Əgər Tufarqanlı Abbas cığalı təcnisin bir nümunəsini ("Gözəl, göz ala") yaratmışdırsa, Aşıq Ələsgər bunun müqabilində dörd cığalı təcnis yaratmışdır. Aşıq Ələsgər sələflərindən və xələflərindən irəli gedərək aşıq poeziyasına dodaqdəyməz, təcnislər və cığalı təcnislər gətirmişdir. Şeirin bu çətin növlərini, dilin qanunlarını, samit və sait səsləri bir-birindən seçməyi bacaran, cinaslarda gizlənən məna yükünü, məna çalarını bir-birindən fərqləndirməyi bacaran sənətkar bu işə girişə bilərdi. Aşıq Ələsgər təcnislərinin birində deyir:

Qəsri-eyvan tikdirmisən oda sən,
O, sevdiyin, o nökərin, o, da sən,

Qiya baxdın məni saldın oda sən,
İnsaf eylə bir könlümün narın üz[1].

Burada birinci misrada "oda sən" - oda ev mənasındadır. Üçüncü misrada gözəlin qiya baxması onu oda salmış, oda düşdüyü üçün, dördüncü misrada "Könlümün narın üz, yəni könlümü nardan-oddan azad et" deməkdir. Ələsgər başqalarından fərqli olaraq təcnislərini anlaşıqlı bir dildə söyləyir, həmçinin şeirdə yadda qalan bir lövhə yaradırdı.

Seyr elədim dost bağını dərində,
Oylağında, eyvanında, dərində,
Gövhər olar dəryalarda, dərində,
Onu qəvas çəkər ay üzə tək-tək.

Burada birinci misrada söhbət dost bağının meyvələrini dərməkdən, ikinci misrada dərində sözü qapısında, üçüncü misrada isə gövhər olar dəryalarda, dərində, dördüncü misrada bu dərində olan gövhərləri ancaq qəvvas, üzgüçü onları dəryadan bir-bir çəkər, dərindən bilər – söyləyərdi. Eyni zamanda məlumdur ki, mirvari dənizin dibində olar.

Aşıq Ələsgər cinaslardan istifadə edib təkcə təcnis yaratmır. O, bu təcnislər vasitəsi ilə həm də insanı yeni biliklərlə zənginləşdirir, dünyagörüşünü artırır. Onu da qeyd etmək lazımdır ki, onun təcnisləri bir-birindən gözəl və fərqlidir. Poetik cəhətdən mükəmməl biçimlənmişdir. Məsələn:

[1] Aşıq Ələsgər. Bakı, Azərnəşr, 1937, toplayan və tərtib edən: H.Əlizadə. səh 106.

İpək naz balışa Mina dayandı,
Həcər nalə çəkdi Minada yandı,
Həsrətindən dərdim Minə dayandı,
Sən gəlsən azalar de bir üz, bir üz.

Birinci misrada Mina adlı qadının ipək naz balınca söykəndiyi, ikinci misrada Mina dağına qurban aparılan İsmayılın anası Həcərin Mina dağında həsrətdən yandığı, üçüncü misrada həsrətdən sənətkarın dərdinin minə dayandığından söz açılır və aşıq bildirir ki, dərdi bir üz, yəni bir qat azalar. Hümmət Əlizadənin çap etdirdiyi təcnisin orta bəndi belədir:

Fərhad Şirin sevdi, Yetim Yaxşı yar,
Təbib sənsən gəl yaramı yaxşı yar,
Yaxşı yara qismət olsun yaxşı yar,
Həm sözdən mətləb qan, həm ayıl eylə.

“Aşıq Ələsgər” kitablarının son nəşrlərində yalnış olaraq Yetim adı Aşıq adı ilə əvəz olunmuşdur. Aşıq Ələsgər də, Aşıq Şəmşir də, Ələsgərdən yazan Əhliman Axundov da aşığın adını Yetim yazmışlar. Bunun mənası var. Sarı aşığın əsl adını Behçət Nəbi, Müntaz əvvəl Abdulla, sonra Qurbanəli, S.P.Pirsultanlı isə Lələnin “Yaxşı-Yaman” dastanına əsasən Aşiqin adının Budaq olduğunu yazır. Son ədəbiyyatların əksəriyyətində Sarının adı Aşiqdir. Nümunə gətirilən bu bəndin təhlilə ehtiyacı yoxdur. Təcnisin dili çox aydındır. Aşıq Ələsgər təkcə sələfləri olan Qurbanidən, Tufarqanlı Abbasdan, Xəstə Qasımdan, Abdalgülablı Valehdən öyrənmirdi, müasirlərindən kimdə yaxşı bir örnək varsa, ona diqqət

yetirirdi. Ona bənzər yaradıcılığında bir çeşni toxuyurdu. Aşıq Ələsgər aşıq Həmayıl yaradıcılığını izləmiş, aşıq-şair bu qənaətə gəlmişdir ki:

Əmim oğlu, heç məndən utanmadın,
Üç ay keçdi, bir yaylağa gəlmədin.

- kimi dillərdə əzbər olan qoşmanı yaradan sənətkarın bundan da gözəl şeirləri ola bilərdi. Belə anlaşılır ki, Ələsgər aşıq Həmayılın hekayətini və başqa şeirlərini də gözəl bilirmiş. Aşıq Ələsgər “Dağıdan məni” adlı təcnisində deyir:

Şux gözəldə bir sinə var, bir incə,
Gördüm dərdim oldu dağlar birincə.

Ələsgərdən misal gətirilmiş beyt Həmayılın “Birincə” rədifli təcnisinə istinadən yazılmışdır:

Gecə-gündüz həsrətini çəkməkdən,
Dərdim olub o dağları birincə.

Aşıq Həmayılın yaratdığı təcnisdə “Dərdim olub o dağların birincə” deyilirsə, Aşıq Ələsgərdə həmin misra “Gördüm, dərdim oldu dağlar birincə” şəklində işlədilir. Və yaxud: Aşıq Ələsgərin başqa bir təcnisində oxuyuruq:

Şahmar zülfün bədnəzərdən daldala,
Cinlə gərdənində Həmayıl eylə!
Aç niqab altında məhcəmalını!
Aləmi hüsnünə ha mayıl eylə!

Aşıq Ələsgər Həmayılın taleyinə acıyaraq sevgi hüquqsuzluğuna öz etirazını bildirir:

Yaxşı yara qismət olmur yaxşı yar,
Həm sözdən mətləb qan, həm ayıl eylə.

Aşıq yaradıcılığına dərindən nəzər saldıqda aydın olur ki, aşıq şeirinin şəkilləndirilməsində, bənzərsiz şeirlər yaradılmasında, təcnis binalarının kərpic-kərpic hörülməsində Tikmədaşlı Xəstə Qasımın və Aşıq Ələsgərin xidmətləri əvəzolunmazdır.

Mütəxəssislərimizin verdikləri məlumata görə müstəzad qəzəlin ilk nümunələrinə hələ böyük şairimiz Məhəmməd Füzulinin oğlu Fəzlinin yaradıcılığında rast gəlinir:

Ey sərvi-səhi, sən gələli seyr ilə bağə,
Sər çəkmədi ər-ər,
Çox alinəsəblər özünü saldı ayağə,
Qul oldu sənubər.
Sünbül özünü zülfünə bənzətdi nigarın,
Bildi ki, xətadır.
Dağlarda bitər üzü qara,
Qayğulu mükəddər başı aşağı,[1]

Bizcə Xəstə Qasım da belə qəzəl-müstəzadlarla tanış olandan sonra sazın tələblərinə uyğun olaraq on bir heca ölçüsündə yeni aşıq şeiri yaratmağa başlamış və qoşma müstəzad, yaxud ayaqlı qoşmanın binasını qoymuşdur:

[1] Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi, Bakı. 1943. I cild. səh 227.

İki dərya xoş görünmür gözünə,
İki qırx dörd gəlməz əlin dizinə,
Xəstə Qasımın bu şeirinə, sözünə,
Qazı, molla, müctəhidlər qaldı mat,
Tapmadı kəlmat.[1]

Şeirdən göründüyü kimi, bu formaca müstəzad qoşma, məzmununa görə isə qıfılbənddir ki, Xəstə Qasım onun ən kamil ustasıdır. Onun məharətlə qoşulmuş qıfılbəndləri özündən sonra sənət meydanına gəlmiş neçə-neçə ustad aşığı çətinlik qarşısında qoymuş, günlərlə, aylarla düşünməyə, baş sındırmağa vadar etmişdir. Onlardan bir neçəsini Aşıq Ələsgər və onun qardaşı oğlu Növrəs İman açmış, bir sıra qıfılbəndləri isə hələ də bağlı qalmaqdadır.

Ümumiyyətlə, Xəstə Qasım şeirləri zəngin həyat müşahidələrinin məntiqi nəticələri kimi səslənir, insanı düşündürür, bədii zövq verir, onun idrakına, şüuruna təsir edir, mənəvi aləmini saflaşdırır.

Aşıq Ələsgər bu şeir növü ilə tanış olduqdan sonra ona biganə qala bilməmişdir. Sələfindən daha da irəli gedərək aşıq poeziyasında möcüzə sayıla biləcək müstəzad təcnis yaratmışdır. Təcnisin və cığalı təcnisin memarı olan Aşıq Ələsgər müstəzad təcnisin də ilk nümunəsini yaratmışdır. Buna aşıqlar ayaqlı təcnis də deyirlər.

Bu təcnisi yaratmaq qədər onun ifası da çətindir. Bu təcnisi ifa etmək üçün sazın kök və pərdələrinə dərindən bələd olunmalı, "Təcnis və cığalı təcnis" saz havalarını elə dərindən bilmək lazımdır ki, hər iki havanın müəyyən

---

[1] A.Ələsgər. Bakı 1963. səh 471.

məqamlarını hərbə-zorba şəklində qeyzlə ifa etmək mümkün olsun.

Götürüb sazımı mərdü mərdana,
Girirəm meydana, gəl eyləyək bəhs.
Sən toxundun, mən də sənə toxunnam,
Şəriətdə halaldı qisasa-qisas,
Qoy ucalsın səs!

Aşıq gərək bu meydanda bir qala,
Eşq ocağın bir ətəklə, bir qala,
Ələsgərdi Xeybər kimi bir qala,
Bacara bilməzsən, danışma əbəs.
Dur yerində pəs!

Müstəzad şeir növünə Molla Cümə də böyük maraq göstərmiş, lakin sələfi Xəstə Qasımdan irəli gedə bilməmiş, o, da Xəstə Qasım kimi qoşma müstəzad yaratmışdır. Sənətdə öncülük edən Aşıq Ələsgəri heç kəs qabaqlaya bilməmişdir. Ələsgər yaratdığı dodaqdəyməzi, dodaqdəyməz cığalı təcnisi, müstəzad təcnisi, divani təcnisi heç kəs indiyə qədər yarada bilməmişdir. Ələsgər bu yaradıcılığı ilə sənətin fövqünə ucalaraq möcüzələr göstərmiş, kəşflər etmişdir. Bu mövqedən yanaşaraq Ələsgər novator, aşıq yaradıcılığına bir yenilik gətirən sənətkardır. Hətta, cəsarətlə demək olar ki, Ələsgər şeir yaradarkən omonim-cinaslar vasitəsilə təcnis binaları qurarkən onun deyim tərzində, söz kərpiclərinin üst-üstə, yan-yana düzülüşündə də o, bir novatordur. “Halala çıxar” təcnisinə diqqət yetirək:

Addadı zimistan, gəldi növbahar,
İnşallah, dağlarda ha lala çıxar.

Neçə şey halaldan dönər harama,
Neçə şey haramdan halala çıxar?

Birinci misrada zimistan gedib bahar gələndən sonra dağlarda lalanın çıxdığını bildirir. İkinci və üçüncü misrada isə neçə şeyin halaldan harama döndüyünü, son misrada isə neçə şeyin haramdan halala qayıtdığını soruşur. Heyvan otlayır, su içir, o təmiz, saf şeylər onun bədənində harama çevrilir. Onu heyvan ifraz etdikdən sonra yenidən mədə, bağırsaq, ciyər və başqa orqanlar haramdan halala çıxır. Bunu ancaq Ələsgər kimi dərin müşahidəsi olan bir sənətkar görə bilər, öz qabiliyyətinə görə ipə-sapa düzməyi bacarardı. Başqa bir aşığa görə isə halaldan harama çevrilən və halala qayıdan yeddi şey var. Qoyun kəsildikdə birinci onun boğazındakı yalağa düşəni kəsilib atılır, sonra qabaq qollarındakı baş ximirçəklər kəsilir, qabaq qollarının aşağı sümüyünün ucları kəsilib atılır, sonra dal qolların aşağı sümüyünün ucları, yəni çatmakeçənləri kəsilib atılır. Bunlar haram sayıldığı üçün yeyilmir, kəsilib atılır.

İkinci bəndin birinci misrasında “Yar xəttinən yazılıbdır a tarix”. Burada yar Allah mənası daşıyır. İnsan alnına xətti o yazır. İkinci misrada daha başqa bir mətləbdən söz açır. “Mehtər bivec, əstər kökdü, at arıx”, burada mehtər at otarandır. Bu bivec əstəri-qatırı kök saxlayıb, atı isə arıq. Bu mehtər üçün qınaqdır. Üçüncü misra belədir. “Gözəllər fövqünə qürə atarıq”, yəni gözəllərin dəstinə ağac atarıq, bəxtimizə biri çıxsın. Aşıq Ələsgər gileylənir ki, gözəllərin dəstinə ağac atsam bəxtimə kor, şil, ya da lal çıxar. Sonuncu bəndin ilk misrasında deyilir: “Deyər Ələsgər bağlayıbdır xala çal”, ikinci misra “Dər bağlıdır, indi gələr xala açar”, yəni dər

qapı bağlıdır, indi gələr xalam açar. Üçüncü misra “Əsil bədöy mənzil kəsər, hal açar” deməklə xal açar, yəni meydan açar, xal qazanar. Son misra “Beyqirin dümbülnündə hal ala çıxar”. Məlumdur ki, atın erkəyinə ayqır deyərlər, dişisinə isə beyqır. Beyqır madyan isə yük atıdır, onunla dəyirmana dən aparırlar. Meşədən odun daşıyırlar, onun palanı örkənlə çəkilir, arxadakı quşqunu örkən olur. At hərəkət etdikcə o örkən atın quşqunun altındakı tükləri tökür, onun yerindən ala-bula tük çıxır. Aşıq buna işarə edir:

Ələsgər cığalı təcnislərini də mənalı, məzmunlu yaratmışdır. “Ağaya məni” cığalı təcnisi belə tamamlanır:

Ələsgərəm, dada gəldi, budu yar,
Bayquşların məskənidir bu diyar.
Yox, aşıq, budu yar,
Gül bəsləyən bu diyar,
Canım sadağa verəm,
Qəbuldursa, budu yar!
Al xəncərin, bağrım başın buda, yar,
El içində salma ayağa məni.

Son beytdə deyilir: “Buda yar”, yəni bağrımın başını doğra yar. Amma məni ayağa salma, qoy doğranım, amma şah qalım, vüqarım pozulmasın. Azərbaycan aşıq poeziyasında, ümumilikdə, türk dünyasının ozan-aşıq poeziyasında Ələsgər kimi dodaqdəyməz təcnisləri Molla Pənah Vaqif, Qasım bəy Zakir, Nəbati kimi təcnis yazmağa girişən, neçə-neçə təcnisi ərsəyə gətirən olub. Yazılı və şifahi ədəbiyyatın sehrinə, sirrinə bələd olan bu sənətkarlar da dodaqdəyməz təcnis, dodaqdəyməz cığalı təcnis yaratmağa girişməmişlər. Hələlik Ələsgərin bu şeir

dənizinə qəvvas kimi girən, oradan üzüb çıxan, dodaqdəyməz təcnis binaları yaradan olmamışdır. Bu cəhətdən Ələsgər sənət meydanına tək gəlib, tək gedib. Onun yaradıclıq yolunu Seyfəli Pənah, Molla Cümə, Növrəs İman izləmişlər. Lakin Ələsgər zirvəzinə can atsalar da zirvə yenə də Ələsgərin olaraq qalmışdır. Əgər Azərbaycan aşıq şeirini gözümüz önündə sərgiləndirsək, yenə də orada Ələsgərin sənət inciləri könül oxşayar, göz qamaşdırar. Dodaqdəyməz təcnisləri, bünövrə daşlarını cinaslardan yonan, tağ daşlarını seçib cinas kərpiclərindən hörən Ələsgər möhtəşəm təcnis binaları qurmuşdur. Mən burada əsasən sənətkarın dodaqdəyməz təcnisləri üzərində dayanıram. Bu şeir şəklinin memarı da, bənnası da Aşıq Ələsgər özüdür. Sənətkarın yolunu davam etdirmək istəyən hər kəs dodaqlanan və dodaqlanmayan səsləri, orada işlənən hər kəlmənin mənasını dərindən bilərək şəkilləndirməlidir.

Aşıq Ələsgərin dodaqdəyməz təcnisinin bir bəndinə nəzər yetirək:

Deyər Ələsgər yaxşı deyil, ayə, nə?
Gizlin sirrin, nahaq saldın ayə nə,
Çırağın ki, İlahidən a yanə,
Ehtiyacı nədir, a yağa-yağa.

Aşıq-şair nəyin yaxşı olmadığını soruşur. İkinci misrada qarşıdakını məzəmmət edir ki, gizli sirrini nahaqdan əyan etdin, başqalarına bildirdin. Üçüncü misrada sənin ki çırağın ilahidən yanır, “Ehtiyacın nədir a yağa-yağa” – deyərək fikrini tamamlayır. Hətta, Aşıq Ələsgər təcnisin özü çətin olmasına baxmayaraq, o, sənətkarlığın elə zirvəsinə qalxır ki, dodaqdəyməz təcnis

vasitəsilə hərbə-zorba söyləyir. Ələsgər özünə çox güvənir, daha doğrusu, zəngin söz xəzinəsinə, saza dərindən bələdçiliyinə, fitri istedadına, bədahətən söz deməyinə güvənir:

Hər kəsin qəsdindən aşıqlıq keçir,
Qarşı gəlsin edək cəngi-qıjhaqıj,
Dəli könül dərya təki çalxalanır,
Qeyzə gəlir xoş ahəngi qıjhaqıj.

Hər kəs istər qana aşıq sirrini,
Axtarsın dayazı, gəzsin dərini,
Qeylü-qala salan olsa sərini,
Siyah çalar qızıl rəngi qıjhaqıj.

İkinci bəndin son misrasında aşıq bildirir ki, qeylü-qala başını salan adamın rəngi qızılı olsa, qıjhaqıj döyüşdə rəngi siyah – yəni qara çalar. Cığalı təcnislərdə müvəffəq olduğu kimi, sənətkar cığalı dodaqdəyməz təcnislər yaratmaqda da çox qabağa getmişdi:

Ələsgər, sən eşq atını yay indi,
Yazdan, qışdan ləzzətlidir yay indi.
Qarşıda yay indi,
Çək zədəngin yay indi!
Aşıq eşqin atını,
Yayacaqsan, yay indi!
Ah-zar eyləyər insan yay – indi:
Yağa ərşdən neysan nə yaxşı, yaxşı!...

Burada təkcə birinci misrada yay-indi dərhal başa düşülmür, "Atını yay indi" – yəni min çap söylənir.

Ələsgərin söz xəzinəsində nə gözəl incilər var. Bunlar nə qədər aydın, gözəl və anlaşıqlıdır.

Aşıq Ələsgərin çap olunmayan şeirlərinin bir hissəsi sinələrdə və arxivlərdədir. Folklorşünasların arxivində eldən toplanmış çox incilər var. Yəqin ki, bunlar haqqında söz açacağıq. Yeri düşdüyü üçün "Qabağında" qoşmasından bir bəndini nümunə veririk:

Aşıq deyin, sazı sizdə görsələr,
Ustad deyin məclisinə varsalar.
Dərin bilsələr, xəbər alsalar,
Diliniz olacaq lal qabağında.

Mən 40 ildən artıq bir zamanda türk, qazax və qırğız, uyğur və qaraqalpaq, türkmən və özbək, qaqauz və qaraçay, Dağıstanda qumuk və noqay türklərinin ozan-aşıq yaradıcılığını, poeziyasını incələyib öyrənmişəm. Qoşquları və yırları izləmişəm, lakin onların ədəbi irsləri içərisində Aşıq Ələsgərin dodaqdəyməz şeirlərinə bənzər bir nümunəyə rast gəlməmişəm. Aşıq Ələsgər xüsusi fitri istedada malik bir novator aşıqdır. Onun poeziyası daxilində kəşflər və möcüzələr çoxdur. Aşıq Ələsgər irsinin pəncərəsini açıb türk dünyasına, hətta bütün dünyaya göstərmək və tanıtmaq üçün onun sənətkarlığı haqqında cild-cild əsərlər yazıb ortaya qoymaq lazımdır. Aşıq Ələsgərin yaratdığı dodaqdəyməz təcnislər, cığalı təcnislər təkcə onun öz şeirlərinin və ya Azərbaycan aşıq şeirinin deyil, bütövlükdə türk dünyasının, aşıq poeziyasının tacıdır. Aşıq Ələsgər irsi çox zəngindir. Ona görə də Ələsgəri öyrənmək bir nəfərin, iki nəfərin işi deyil. Bunun üçün bir şöbə, bir institut lazımdır. Qazaxıstanda bir şöbə təkcə Canbulu öyrənir. Ələsgərin

sazı var, rəssam kimi fırçası yoxdur. Lakin Ələsgər təbiətdən rəng alıb, obraz seçib gör nə gözəl rəsm tablosu yaradır. “Əyri-tel, yaşılbaş sonamı bizim gözümüz önünə necə gətirir. Əvvəl gözəli göyərçinə bənzədir, öz eyvanına qonmasını istəyir, sonra onu yaşılbaş sona ilə müqayisə edir. Sonanı öz gölündə üzməyə çağırır. Aşıq Ələsgərin nəinki hər qoşması, hətta hər bəndi, hər misrası bitkin bir əsərdir.

Göyərçinsən eyvanıma qonasan,
Nə də bir mənim dərdim qanasan,
Teli əyri, yaşıl başlı sonasan,
Gəl bizim göllərdə üz, qadan alım.

Zaman-zaman Aşıq Ələsgərə müraciət etmişəm, onun haqqında çox məqalə yazmışam. Lakin Ələsgər haqqında fikrim tamamlanmayıb. Yəqin ki, bundan sonra Ələsgər irsinə dönə-dönə müraciət edəcəyəm “Arifə eyhamla yazıram ürfat” deyən sənatkar dil dönməzin də bir nümunəsini yaradır. Dildönməz texniki şeirdir, bu insanın ağız boşluğunu, tələffüzünü intizama salmaq üçündür. Şeir belədir:

Axı biya, biya bigu,
Bigu, biqof, dağa bax-bax!
Həyyü, həqqü hakim sənsən,
Həyyə bax, bu bağa bax-bax!

Gözüm sağı, səhər çağı,
Geyək ağı, gəzək bağı,
Hamı sevib bu sayağı,
Qaymağa, həm yağa bax-bax!

Əziz ayə, müəmmayə,
Salsan sayə, bu məvayə,
Səbəb sənsən bu sevdayə,
Böyük ağa, sağa bax-bax.

Əslən Göyçənin Ağzıbir kəndindən olan aşıq Məhəmməd Əsgər oğluna görə dildönməzin birinci bəndi yəhudi dilindədir. Aşıq Ələsgər bu dildönməzə həm də müəmma məzmunu vermişdir.

Aşıq Ələsgərin başqa şeirlərində də əcnəbi dillərə müraciət etdiyini bilirsiniz. "Malades" adlı müxəmməsində oxuyuruq:

Xudam səni xoş yaradıb,
Belə göyçəksən, malades!
Hurilər padşahı,
Nazlı mələksən, malades!

Aşıq Ələsgərin sələflərindən Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Abdalgülablı Valeh və Şəmkirli Aşıq Hüseyn iri həcmli dastanlar yaratmışlar. Bəs nə üçün aşıq sənətinin zirvəsində dayanan, aşıq şeirinin hər növünü yaradan yeni şeirləri şəkilləndirib meydana çıxaran, dodaqdəyməz təcnislərin ilk nümunələrini qoşan Aşıq Ələsgər iri həcmli dastan yaratmağa meyl göstərməyib? Burada xüsusi qeyd etmək lazımdır ki, Aşıq Ələsgər XIX əsrdə yetişmiş reailist bir sənətkardır. Ələsgərə məclislərdə dastan söyləməyə macal qalmamışdır. Toyu olan bəyə Ələsgər hər məclisdə tərif demişdir. Hamı arzu etmişdir ki, onun toyunu Ələsgər etsin. Ona da qiymətli şeirlər düzüb qoşsun. Ələsgərin bütün deyişmələri bir dastan qədər qiymətlidir. Həmin

deyişmələrlə tanış olan aşıqlar ona rəngarəng, bir-birindən gözəl yurdlar düzəltmişlər. Həcər xanım haqqında, Zöhrə xanım haqqında, Nəfslə Mərifət haqqında şeirləri və deyişmələri real tarixi dastanlardır. Dəli Alı haqqında, Səhnəbanu haqqında yazılan şeirlər hərəsi ayrı-ayrılıqda yaddaşlardan silinməyən bir dastandır. Göyçə aşıq mühitində realist dastanın ilkin nümunəsini Aşıq Ələsgər ustadı Aşıq Alı yaratmışdır. Aşıq Alının "Səfərnamə"sindən sonra Çoban Məhəmmədin "Qars səfəri" meydana çıxmışdır. Bunlar nə qədər ürək açan olsa da, Aşıq Ələsgərlə qarşılaşanda duruş gətirə bilmir, çünki Aşıq Ələsgər dastan yaradıcılığının poetik və melodik sistemini hamıdan gözəl bilmiş və özünün dastan yaradıcılığını bu real ənənə üzərində qurmuşdur.

Aşıq Ələsgər onun məclisinə gələn, aşıqlığını bildirməyən, onunla döyüşmək istəyən aşıqların əhval-ruhiyyəsini qabaqcadan hiss etmiş, bəzən eyhamla, bəzən də açıq-aşkar onunla qabaqlaşmış, deyişmiş, qoşma-qıfılbəndlər söyləmişdir:

Yazıq Ələsgərəm, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar:
Elmi hardan tapdı cümlə aşıqlar?
Şeiri-müəmması ay nədən oldu?

Ələsgərin kitabında onun qoşma qıfılbəndləri "Bağlamalar" başlığı altında verilir. Əslində qoşma-qıfılbəndlər bayatı-bağlamaların davamıdır və ondan seçilir. Aşıq Ələsgərin qıfılbəndlərinə bağlama deyilməsinin bir mənası da odur ki, ustad sənətkar bunları qarşısındakını bağlamaq üçün demişdir. Onun qoşmaları, gəraylıları, təcnisləri, divani və müxəmməsləri aydın,

rəvan, başa düşüləcək bir dildə düzülüb qoşulduğu kimi, onun qapısı-bacası bağlı qalaya bənzər qıfılbənd-bağlamaları da çox uyarlı, məntiqli yaradılmışdır.

Aşıq Ələsgərin qıfılbəndləri maraqlı məqamlar üzərində qurulmuşdur. Bir qıfılbəndində çəltiyin döyülüb düyüyə çevrilməsindən bəhs olunur. "Bu günləri bir hikmətə tuş oldum" misrası ilə başlanan hikmətdə qəribə ifadələr işlənir:

Bu günlərdə bir hikmətə tuş oldum,
Adı-sanı hər aləmdə deyilir.
Şəriət ətini haram buyurub,
Halal olan sümükləri yeyilir.

Müdam ayağından kəsilməz abı,
Abını kəsəndə heç olmaz tabı,
Çox əziz yaradıb kərəm sahabı;
Toxmağınan təpəsinə döyülür.

Ələsgər ərz eylər, ariflər qana,
Üç ayda, dörd ayda o gəlir cana,
Lətifdir xörəyi, qarışır qana,
Dərmanı var cəsədində yayılır.

Doğrudan da, çəltiyin üz qabığı atılır, içərisindən çıxan sümük kimi ağ düyüsü yeyilir. Məlumdur ki, çəltik suyun içərisində bitir, onun suyunu kəssən, məhv olar. Çox əziz olan bu kərəm sahibinin toxmaqla başına döyülür, çəltiyin qabığı atılır, düyüsü isə götürülür. Ondan gözəl, lətif, ləziz xörəklər hazırlanır.

Çəltiyin üç-dörd ayda yetişib hasilə gəldiyini də göz önünə gətirir.

Uzağa-yaxına səfərlər edən Aşıq Ələsgər neçə-neçə özünə güvənən aşığa rast gəlmiş, deyişmiş-döyüşmüş, heç biri onun meydanında duruş gətirə bilməmişdir. Təkcə Aşıq Ələsgərin təcnislərini və qıfılbəndlərini öyrənməyə bir ömür kifayət etməz. Mənə görə Aşıq Ələsgər hamıdan öndə dayanan əlçatmaz zirvədir.

Aşıq Ələsgərin yaradıcı ilhamı kükrəyib daşan dağ selini, rəngarəng şeir çiçəkləri, könül oxşayan çəmənzarı, qıfılbənd və hərbə-zorbaları gözünü qırpa-qırpa dağları qırmaclayan, ətrafa işıq saçan, göy gurulutusu ilə insanı vahimələndirən şimşəyi xatırladır. Bütövlükdə Aşıq Ələsgərin ecazkar yaradıcılığı əl ilə ucaldılmış möhtəşəm bir qalanı, müqəddəs bir məbədi göz önünə gətirir.

Aşıq Ələsgər yaradıcılığı ucu-bucağı görünməyən bir dənizə bənzəyir. Bu dəniz hər zaman öz dalğıcını və üzgüçüsünü axtarır ki, bu dənizə baş vurub onun dibindən mirvarilər tapıb üzə çıxartsın. Gəlin, Aşıq Ələsgər xəzinəsinin üstünü açıb onu gənclərə və gənc tədqiqatçılara göstərək, onlarda Ələsgər sevgisini coşduraq. Aşıq Ələsgər sevgisi vətən sevgisi qədər ucadır. Aşıq Ələsgər bu ucalığı bu sevgini, məhəbbəti vətəni sevə-sevə onun dağlarını, bulaqlarını, çaylarını, göllərini, insanlarını, tərənnüm edə-edə qazanmışdır.

Aşıq Ələsgərin şeir çeşməsi abi-həyat çeşməsidir. Yolunuzu o çeşmənin yanından salın, onun gözündən içib feyziyab olun. Aşıq Ələsgər ömrü yaşayın, düz 105 il.

## *BU SƏS AŞIQ ƏSƏDIN SAZININ BAĞRINDAN QOPUB*

Aşıq Əsədin səsi göy gurultusunu, şimşəyi, yalçın qayalardan tökülən, daşlara çırpıla-çırpıla dərələrə səs salan şəlalələri, dağ göllərinin ləpələrini böyük dənizdəki qeyzlə gələn, sahilləri döyəcləyən dalğaları andırır. Deyirlər ki, həzrəti Davud mübarək əllərini sazın sinəsinə çəkənə qədər sazın belə ecazkar ifası yox imiş. "Segah zabulu" ilk dəfə Davud peyğəmbər sazda yaratmışdır. Aşıq Əsədin səsi Davud peyğəmbərin əlini çəkdiyi sazın sinəsindən, daha doğrusu, bağrından qopmuşdur.

Aşıq Əsəd və onun ifaçılıq qüdrəti böyük bir elmi işin əsasını təşkil edə bilər. Aşıq Ələsgərin on iki yox, qırx şagirdi olmuşdur. Lakin, o, "on iki şagirdim işlər hər yana" demişdir. Aşıq Ələsgər o şagirdi şagird hesab etmişdir ki, onun məlahətli səsi, sazı danışdıra bilən əfsunlu barmaqları olsun. Aşıq meydanında gərdişi, ədəb-ərkanı olan məclis keçirmə qaydalarını mənimsəyən şagirdlər onun gözünün işığı idi. Aşıq Ələsgər on iki şagirdindən ikisini: Aşıq Əsədin və Daşkəndli Nəcəfin ifaçılıq məharətlərini olduqca yüksək qiymətləndirirdi. Aşıq Ələsgər sənətdə fərqləndirdiyi şagirdlərini özü ilə toylara aparırdı. Onların məclisdə aşıqlıq qabiliyyətini əyani görürdü. Müəyyən yanlışlıqları olsa irad tuturdu, məzəmmət edirdi. O, çalışırdı ki, onun şagirdləri çoxlu xalq dastanları, saz havaları bilsinlər. Onların sinəsi saz-söz xəzinəsi olsun, o xəzinədən kim nə istəsə götürə bilsin. Ancaq belə şagirdlər Aşıq Ələsgərin başını ucaldardı, şöhrətini ellərə yaya bilərdi. Aşıq Əsədə sazın – sözün sirrini, sehrini Aşıq Ələsgər öyrətmişdir, lakin aşıq

Əsədə heç kəsə və ya çoxlarına müyəssər olmayan məlahətli səsi ilahi bəxş etmişdir.

1950-ci illərdə Gəncə şəhərinin bazarında bir çayçı var idi. Bu çayçıda oturmağa yer tapılmazdı. Ona görə ki, çayxananı işlədən kişi aşıq sənətinin vurğunu idi. Hər gün bu çayxanada bir aşıq oxuyardı. Hüseyin kişi özü də ara-sıra gördüyü, bildiyi, tanıdığı aşıqlar haqqında xatirələr danışardı. O, bir gün Göyçənin Qızılvənk kəndindən olan aşıq Ələsgərin ustadı Aşıq Alıdan bir xatirə danışdı.

Mən atamla dan yeri ağaranda kotanla yer əkməyə gedirdik. Zod kəndinin yanından keçəndə aşığın qeyri-adi "Koroğlu cəngisi" üstündə oxuması eşidildi. Atam dedi:

-Bala, oxuyan Aşıq Alıdır!

Biz atamla Aşıq Alı oxuyan məclisə gəldik. Aşıq Alı tamam soyunmuşdu, xalının üstündə ağ tuman-köynəkdə oxuyurdu. Kürəyinin ortasından at nalına bənzər köpüklü tər çıxmışdır. Onun Koroğlu nərəsini andıranifası kənd evinin orta bacasından çıxıb, aləmə yayılırdı. Sonralar mən bu səsi Aşıq Əsəddə və Qaraca oğlu İbrahimdə görmüşəm. Öz səslərinin zərbindən beyinləri zədələnmiş və hər ikisi nəticədə kor olmuşdu. Qaraca oğlu İbrahim nəvəsinin qoluna girib, o zamanlar Hüseynin çayçısına tez-tez gəlirdi. O, kiçik boylu arıq cüssəli bir adam idi. Onun bədəni Koroğlu havalarının zərbinə tab gətirməmişdi. Aşıq Əsədin orta boyu, dolu tökmə bədəni var idi. Boyuna-buxununa görə əndazəli başı var idi. Həmişə papaqlı gəzərdi.

1960-cı ildə Aşıq Əkbər Cəfərov məni Bozalqanlı Aşıq Hüseynin evinə apardı. Ev köhnə, çox iri bir ev idi. Çarpayının üstündə nurani bir qadın oturmuşdu. Məlum oldu ki, o, Aşıq Hüseynin gəlinidir. Bu yaşlı qadın yadda qalan bir xatirə danışdı:

-Mən bu evə təzə gəlin gəlmişdim. Bizə biri şumal, ucaboy, o biri isə orta boylu, dolu bədənli iki gənc aşıq gəldi. Onlar Aşıq Hüseynlə səmimi görüşdülər. Aşıq Hüseynə bildirdilər ki, biz Aşıq Ələsgərin şagirdləriyik. Ustadımız Ələsgərdən aşıqlığa başlamağa icazə aldıq. O, bizi Tovuza sizin yanınıza göndərdi.

Aşıq Hüseyn dedi:

-Mənim Kürün o tayında Eldar kəndində dörd toyum var. Sizi həmin o toylara göndərəcəyəm. Hələ çörək yeyin, çay için, hərəniz bir ağız oxuyun, səsinizə qulaq asım.

Aşıq Nəcəflə Aşıq Əsəd qabaq-qabağa oxuyanda ustad sənətkar Bozalqanlı Hüseyn dönə-dönə əhsən dedi və bildirdi ki, o ustad xoşbəxtdir ki, onun belə şagirdləri var. Aşıq Əsədlə Aşıq Nəcəf bələdçinin köməyilə Eldarda birinci toya getdilər. Toy yiyəsi, yəni bəy öz narazılığını bildirdi və dedi:

- Mənim toyum uşaq-muşaq toyu deyil. Belə cavan aşıqlar bizim çayxanalarda da çoxdur. Adam göndərərdim ikisini tapıb gətirərdilər.

Bu deyilənləri Aşıq Əsəd və Aşıq Nəcəf eşitmədi və dedi:

- Qabaq-qabağa hərəniz bir söz oxuyun.

Hər iki gənc aşıq qabaq-qabağa oxuyanda elə bil bağda bülbüllər cəh-cəh vururdu. Adamları heyrət bürümüşdü, sazın –sözün səsi yoldan ötənləri yolundan saxlamışdı. Bulaqdan gələn qızlar səhəngi yerə qoyub, dərin xəyal içində aşıqların oxumasına, zəngulələrinə qulaq asırdılar. Xəbər bəydən başqa toy edəcək adamlara çatdı. Onlar da bəyin evinə gənc aşıqlara qulaq asmağa gəldilər. Sevincdən sinələri dolmuş, toy gözləyən insanlar səbirsizlik edib deyirdilər:

-Ey cavan aşıqlar, bizim toyları da siz edəcəksiz. Bizim toylar qurtarmamış sizi heç yana buraxan deyilik. Bir neçə müddət Eldarda söz-söhbət bu gənc aşıqlardan oldu. Aşıq Əsəd və Aşıq Nəcəf toyları tamamlayıb Bozalqanlı Hüseynin yanına gəldilər. Onlar bir balınc üzü dolu toylardan pul gətirib Aşıq Hüseyinin qabağına qoydular. Aşıq Hüseyn dedi:

-Pulu dörd yerə bölün. Bir payı ustadınız Aşıq Ələsgərin, bir payı mənim, iki payı da sizin.

Onlar Tovuzdan ayrılb Göyçəyə yola düşərkən Aşıq Hüseyn soruşdu:

- Nəcəf , oğlun varmı?

-Yox, Hüseyn əmi, təzə evlənmişəm. Üzr istəyirəm, arvadı yüklü qoyub gəlmişəm.

Aşıq Hüseyn bildirdi ki, əgər oğlun olsa, mənə xəbər ver, kirvəsi mənəm.

Aşıq Nəcəfin oğlu oldu, Aşıq Hüseynə şadlıq müjdəsi göndərdi. Lakin Aşıq Nəcəfin yad ünsürlər tərəfindən faciəli şəkildə öldürülməsi bu arzunu sənətkarın gözündə qoydu. Biz bu faciə haqqında təhsilata varmırıq. Çünki o başqa bir yazının mövzusudur.

Aşıq Əsəd çinar gövdəsində çox qala bilmədi. Aşıq Ələsgərdən tez ayrılıb, müstəqil, tək başına aşıqlığa başladı. Aşıq Əsəd özlüyündə yatağına sığmayan, məcrasından çıxan, sahillərini döyəcləyən coşğun bir çay idi.

Aşıq Əsəd Göyçədən köçür, saz-söz sənətinin paytaxtı olan Tovuza gəlir. O, sənət aləmində aşıqlıq etmək üçün Aşıq Mirzə Bayramovu özünə yoldaş seçir. Aşıq Mirzə Bayramov ana laylası ilə çalıb-oxuyan mahir bir sənətkar idi. Koroğlu havalarını, xüsusilə “Koroğlu cəngisi”ni, “Misri havası” üstə təkcə Mirzə Bayramov

deyil, başqa bir aşıq da Aşıq Əsədlə qabaq-qabağa oxuya bilməzdi. Odur ki, Aşıq Əsəd, Aşıq Mirzəyə və başqa aşıqlara xəbərdarlıq edirdi ki, hansı hava üstə çalıb-çağırsam, mənlə qabaq-qabağa gəlin. Elə ki gördünüz mənim sazım Koroğlu havaları üstə dillənir, yerində əyləşib dincəlin, çay için. Doğrudan da, Aşıq Əsədin səsi zor idi. Onun səsi neçə dəfə otuzluq lampanı keçirmişdi. Aşıq Əsədlə Mirzə Bayramovu Samux rayonuna bir şənlik məclisinə çağırırlar. Aşıq Mirzə öz sazını və Aşıq Əsədin sazını üst-üstə müəyyən səs ölçüsündə kökləyir. Aşıq Əsəd deyir:

- Aşıq Mirzə , Koroğlu havalarını zildə oxumaq üçün Koroğlu nərəsi üstündə köklənib. Vacib deyil ki, sən Koroğlu üstündə oxuyasan, “Qəhrəmanı”, “İrəvan çuxuru” kimi uca səslə oxunan havalar üstündə oxu. Siz oxuyanda elə bil süd yenicə qaymaq tutur. Bax, Koroğlu nərəmə qoşulma. Mən səni canım qədər istəyirəm. Lakin sənətdə mən heç şeyə güzəştə gedə bilmərəm. Aşıq Mirzə, məni daha dərindən başa düşməyin üçün sənə bir əhvalat danışım. Mahalda böyük ad-san qazanmış qılınc düzəldən bir usta varmış. Ustanın sorağı şaha da çatır. Şah ustanı yanına çağırıb deyir:

-Elə bir qılınc düzəldirsən ki, onun dünyada tayı-bərabəri olmasın. Ancaq bil ki, o qılıncla birinci sənin başını kəsəcəm. Usta şahın dediyindən də gözəl bir qılınc düzəldir. Şah qılınca baxıb heyrətə gəlir və deyir:

-Bildin ki, bu qılıncla sənin boynunu vuracağam, necə əlin gəldi, onu belə mükəmməl və yaraşıqlı düzəltdin? Qılınc ustası dilləndi:

-Şah sağ olsun, mən bir başımdan ötrü bu qədər şöhrət qazanmış sənətimi öldürə bilmərəm. İndi başa düşdünmü, əziz qardaşım Mirzə, mən də bir dostluqdan

ötrü sənətimin adını batıra bilmərəm. Bax yenə də deyirəm, zərər çəkərsən, xata görərsən, məni vay qanlı bilərsən, Koroğlu havaları üstündə mən oxuyanda sən ortaya çıxma.

Mirzə bir-birinin üstə sazları kökləyib, arabaya gətirdi. Onlar yola düşdülər. Aşıq Əsəd fürsətləyib çuvalın üstündən sazı zilə çəkdi. Onlar meydana girib, oxumağa başladılar. Mirzə gördü ki, Əsədin sazı yenə zildədir. Əsəd nə qədər qaş-göz elədisə, xeyri olmadı. Aşıq Mirzə oturub çayını içmədi. O da səsini zilə çəkib, meydana girdi. Hər iki sənətkar "Koroğlu cəngisi" üstə qabaq-qabağa oxumağa başladı. Otaq ağzınacan insanla dolmuşdu. Pəncərənin qabağına toplaşmış insan kölgəsindən içəriyə işıq düşmürdü. Onlar qabaq-qabağa elə maraqla, qeyzlə oxuyurdular ki, hamı heyrət içərisində onu dinləyirdi. Ququşunun son nəğməsi kimi Aşıq Mirzənin oxumağı bitdı. Ciyərlərinin qanı ağzından gəlirdi.Aşıq Mirzədə ürək çatışmamazlığı başlandı. Ömrünün sonuna qədər Aşıq Mirzə əzab çəkdi. Bu daxilən aşıq Əsədə də peşmançılıq gətirdi.

Aşıq Əsədlə Aşıq İslam Yusibov xalaoğlu idilər. Bir gün onlar birlikdə Şəmkir rayonunun Qaracaəmirli kəndinə toya gedirdilər. Əsəd yolda dedi:

- Xalaoğlu, sən də qardaşımız Aşıq Mirzə kimi tərslik etmə, toyda mən Koroğlu havaları üstə oxuyarkən ortaya çıxma, əyləş çay iç. Sən də aşıq Mirzə kimi zərər görərsən. Məni peşiman eləmə. Səsinin qədərincə oxu. Aşıq İslam təşəxxüslü və inadkar adam idi. Bütün Gəncəbasar aşıqları onu özlərinə ustad sayırdılar. O, hər şeydən əvvəl sazın bütün sehrini bilən incəsənət xadimi idi. Aşıq İslamın heç yerdə qabağı qayıtmamışdı. Azərbaycanda aşıq xorunun yaradıcısı idi. Aşıq Əsədin

Koroğlu havaları üstündə oxuyanda meydana çıxma deməsi ona çox ağır gəlirdi, daxilən əsəbilik keçirirdi. Aşıq Əsəd "Misri havası" üstdə oxuyanda Aşıq İslam şəstlə ayağa qalxıb, sazını zilə çəkib, Əsədlə bərabər oxumağa başladı. Aşıq İslam getdikcə coşur, daha zilə qalxırdı. Aşıq İslamın dediyi kimi olmadı. Qoşmanın möhürbəndinə çatmamış Aşıq İslamın ağzından qan açıldı. Aşıq İslamda da həmin gündən ürək çatışmazlığı baş verdi. Ömrünün sonuna qədər bu xəstəlik ona əzab verdi. Aşıq İslam xəstəlikdən əziyyət çəkdikcə , Aşıq Əsəd vicdan əzabı çəkirdi. Lakin neyləməli, o, öz sənətini hər kəsdən, hətta öz canından da çox istəyirdi.

Ağdamda Abbasqulu adlı bir ağsaqqal vardı. Onun hörmət- izzətini dilə gətirmək üçün bircə məsələni xatırlamaq kifayətdir. O, mənzil kommunal idarəsinin müdiri idi. M.C.Bağırov Qarabağa gələndə təkcə onun evində qonaq qalardı. Aşıq Əsədlə Abbasqulu möhkəm dost idi. Qarşıda Abbasqulunun oğlunun toyu var idi. O, aşağıdakı məzmunda Aşıq Əsədə məktub göndərdi: "Hörmətli qardaşım Əsəd, bu günlərdə oğlumun toyudur. Toyuma gəl, amma saz gətirmə. Mən səni qonaq kimi çağırıram. Çünki Qarabağda Xansız keçən toya toy demirlər. Toyu Xan Şuşinski aparmasa, adamlar da toya gəlməzlər. Xan isə aşıq gələn məclisi yarımçıq qoyub gedər. Əziz qonağım kimi sizi oğlumun toyuna dəvət edirəm". Aşıq Əsəd sazla gəldi, lakin sazı pünhanca qonşunun evinə qoydu. Xan erkən Abbasqulugilə gəldi, amma baxdı ki, həyətdə başı papaqlı bir adam var. Onu aşığa oxşatdı. Xan Şuşinski Abbasquluya bildirdi ki, sən toya aşıq çağırmısan, mən çıxıb gedirəm. Abbasqulu and-aman elədi ki, o Aşıq Əsəddir. O, toyda çalıb-oxumağa gəlməyib. Mənim köhnə dostum kimi toyumu

mübarəkləməyə gəlibdir. Xan Şuşinskinin beyninə nə düşdüsə dedi:

-Abbasqulu, hələlik el-oba toplaşmamış aşığın bir ağız oxusun.

Abbasqulu dedi:

- Qonşuları arayım görüm sazı olan varmı? Pünhanca Aşıq Əsədin sazını gətirdilər. Aşıq Əsəd sazı kökləyib "Məmmədhüseyni" havası üstündə oxumağa başladı, xan Şuşinski heyrətə gəldi və dedi:

- Aşıq, oxuma, dayan. Abbasqulu məni incitmək üçün meydanıma bir aşıq tapıb gətirib, aşıq da boğazına motor qoyub gəlib. Aşıqda belə səs olmaz. Aç ağzını, boğazından motoru çıxart, kənara qoy. Bir dəfəyə ağzından iki səs çıxarırsan.

Xan Şuşinski Abbasquluya deyir:

- Lampanı yandır, aşığın ağzına baxıb, mən o səs motorunu çıxaracağam.

Aşıq Əsədin ağzını açıb, lap dərinliklərə boğazının dibinə qədər baxdı, motor və ya başqa bir cihaz tapmadı. Xan Şuşinski Əsədi saxladı, arabir onun oxumasına razılıq verdi. Xan Şuşinski tez-tez deyirdi:

- Ömrümdə mən belə aşıq görməmişəm. Xan Aşıq Əsədlə dost oldu və dedi:

- Nə zaman sifariş versəm, Bakıya mənim yanıma gələrsən.

Xan Şuşinki böyük həyəcan və təlaş içərisində özünü Bakıya çatdırıb bu Aşıq Əsəd möcüzəsini böyük bəstəkarımız Üzeyir Hacıbəyova və Bülbülə çatdırmaq istəyirdi. Bakı filarmoniyasında Tovuz aşıqlarının konsertini təşkil etdilər. Aşıq Əsəd oxuyub qurtarandan sonra Bülbül səhnəyə çıxıb böyük heyrətlə, nümayişkaranə Aşıq Əsədin ağzını açıb boğazına baxdı.



Azərbaycan Moskvada keçiriləcək dekada günlərinə hazırlaşırdı. Üzeyir Hacıbəyovun, Bülbülün təkidi ilə Aşıq Əsədin adı birincilər sırasına yazıldı. Kremldə aşıqlar, xanəndələr öz məharətlərini göstərdilər. Stalin Üzeyir Hacıbəyovun Koroğlu operasındakı “Koroğlu cəngisi” zurnada çalınarkən ayağa qalxıb, əl çaldı. Stalın bir də Aşıq Əsəd Rzayev oxuyanda ayağa qalxdı. Aşıq Əsədi yanına çağırdı, əlini onun kürəyinə çəkdi və bir yerdə şəkil çəkdirdi. Aşıq Əsəd Moskvadan “şərəf ordeni” ilə qayıtdı. Həmin gündən Aşıq Əsədi ordenli aşıq deyə çağırdılar.

Tədqiqatçılar indiyə qədər yaradıcı aşıqların həyatını, ədəbi irsini öyrənməklə məşğul olmuşlar.

1)Yaradıcı ustad aşıqlar əsasən özlərinin şeirləri və həyat məcaraları əsasında ərsəyə gələn dastanlarını təbliğ etməklə məşğul olmuşlar.

2)Bəstəkar aşıqlar əvvəlcə saz havalarının şakəri kimi öz məharətlərini göstərmişlər. Nəticədə bir-iki saz havası bəstələyib meydana çıxarmışlar. “Sallı Cəlili” “Orta Cəlili” və “Ayaq Cəlili” saz havalarını buna misal göstərmək olar.

3)Aşıq Alı kimi Aşıq Ələsgər və Məmməd Hüseyn kimi yaradıcı aşıqlar gözəl şeirlərlə yanaşı, saz havaları da yaratmışlar. Şəmkirli Aşıq Hüseyn, Şəmkirsarayı, Aran gözəlləməsi, “Zeynalabdin” (ikinci adı Qazax dübeytisidir) saz havalarını yaratmışdır. Dilqəmi bu havaların şahıdır.

4) Məlikballı Qurban, Borsunlu şair Məzahir, Mültlü Həsən, Bisavad Teymur, Bəhmən Vətənoğlu, Sücayət və başqaları el şairi kimi öz şeirləri ilə aşıq poeziyasını zənginləşdirmişlər.

5)Peşakar ifaçı aşıqlar dastanları, saz havalarını, xədəngi sözləri aşıq sənətini yaşadan adət-ənənələri, məclis keçirmə qaydalarını sinədəftər edib, nəsildən-nəsilə, əsrdən-əsrə keçirə-keçirə gələcəyə ötürürlər. Peşəkar ifaçı aşıqlar bütövlükdə aşıq yaradıcılığının daşıyıcısı və yayıcısıdır. Onların tarixi xidmətləri ölçüyəgəlməz dərəcədə böyükdür. Heyif ki, tədqiqat-çılarımız indiyə qədər dastanları ayrıca, aşıqların həyat və yaradıcılığını fərdi şəkildə, aşıq musiqisini isə bunlardan kənarda xüsusi bir tərzdə tədqiq etmişlər. Halbuki bunlar bütövlükdə bir kompleks halında öyrənilməlidir.

Aşıq sənəti sinkretik bir sənət olduğu kimi, onun tədqiqatçısı da sinkretik biliyə malik olmalıdır. Onlar qəhrəmanlıq, məhəbbət və ailə məişət dastanlarını bir-birindən fərqləndirib, dürüst müəyyənləşdirməyi ba-cardıqları kimi, sazın yüz möcüzəsini, yəni saz havalarını dəqiqliyi ilə bilməli hansı havanın qəhrəmanlıqla, cəng ilə

bağlı olduğunu, hansı havaların qəmlə kədərlə bağlı olduğunu müəyyənləşdirməyi bacarmalıdırlar. Bunu o zaman bilmək olar ki, sazın kök və pərdələrini, səs katarlarını və məhsuldar pərdələrini qabaqcadan öyrənmiş olasan. Hər bir aşıq şeirinin aşıq melodiyasının insan tərcümeyi halı kimi, tərcümeyi-halı var. Saz havasına Güney Azərbaycanda ahəng, Borçalıda qayda, Qazaxıstanda və Orta Asiyada məqan deyirlər. Yuxarıda söylənilənləri bilmədən sazın sehrinə, hər havacatın incəliklərinə bələd olmaq olmaz. Aşıq məktəblərinin, aşıq ifaçılığı adı ilə səsləndirmək lazımdır. Aşığın qoşması, dastanı hər yerdə eyni adla çağırılır. Fərq aşıq ifaçılığındadır. Borçalıda,Gəncəbasarda, Şirvanda aşıq saz havaları necə çalınır, sözlə necə müşayiət olunur, bu ifalar bir-birindən necə fərqlənir? Hər bir aşıq imprivizatordur. Yəni hər bir saz çalanda özünəməxsus gəzişmələr aparır. Aşığı bu sənətə gətirən ilk növbədə onun səsidir. Müasir aşıqlarımız içərisində zil səsinə görə Aşıq Əsədi Şirvan aşığı Məmmədağa Babayevlə müqayisə etmək olar. O, “Bura Muğandı” mahnısını oxuyanda səsi buluda dəyirdi. Aşıq Əkbər Cəfərovun aşıqlıq məharətinə görə Şirvan aşığı Aşıq Şakir Hacıyevlə müqayisə etmək olar. Aşıq İmran Həsənovu Gəncədə Koroğlu aşığı Zeynalla bərabər tutmaq olar. Borçalılı Aşıq Kamandar Əfəndiyevi ancaq özüylə müqayisə etmək olar.

Aşıq Əsədi Koroğlu aşığı kimi bu gün əvəz edən sənətkar yoxdur. Aşıq Əsəd özlüyündə Koroğlu havalarının yeganə ifaçısı idi. Aşıq Əsədin yazılı mənbələrdə muğam sənətinə bələdçiliyi haqqında şəxsi fikir və mülahizələri yəqin ki, və onun ifaçılıq qüdrəti haqqında bütövlükdə elmi monoqrafiya yazılarkən dilə gətirəcəyik. O zaman Aşıq Əsədin böyüklüyü, aşıq ifaçılığı sahəsindəki xidməti hərtərəfli üzə çıxacaqdır.

## AŞIQ ŞƏMŞIR VƏ BƏHMƏN VƏTƏNOĞLU

Bəhmən Vətənoğlunun yolu üstündə bir cüt ulduz doğdu. Bu ulduzlar onun yaradıcılıq yolunu işıqlandırdı, könlünü rövşən eylədi. Bundan əvvəl Bəhmən yalnız Aşıq Şəmşiri, onun atası Ağdabanlı Qurbanı,aşıq Alını və Aşıq Ələsgəri özünə ustad hesab eyləyirdi. Bəhmən bundan sonra yazırdı:

Bəhmənəm, sakini cənnət məkanın,
Körpə balasıyam Azərbaycanın.
Şıx Alının, Ələsgərin, Qurbanın,
Şəmşirin o sönməz ocağındayam.

Bəhmən Səməd Vurğun və Aşıq Şəmşir yaradıcılığına əvvəlkindən daha dərindən yanaşmış, özü də bilmədən onların sənət cazibəsinə düşmüşdü. Son zamanlar Səməd Vurğun haqqında başqa cür fikirləşirdi. İndi yazılı poeziya ilə aşıq poeziyasının qovşağında, görüş yerində onlardan böyük heç kəsi görmürdü. Onların müasir dünyada, ədəbiyyatda mövqelərini çox aydın görürdü və bu münasibətlə yazırdı:

Hər aşıqdan Aşıq Şəmşir,
Hər şairdən Səməd olmaz.

Yazılı ədəbiyyatda və aşıq poeziyasında iki böyük istedadın mövqeyinə uyğun söz axtararkən Azərbaycan ədəbiyyatı tarixini başdan ayağa vərəqləmiş, belə bir tarixi kəlama rast gəlmişdir:

Hər oxuyan Molla Pənah,
Pirim kimi səyyad olmaz.

Səməd Vurğunla Aşıq Şəmşirin görüşündən sonra onları qoşa dağa bənzədirdi. Hətta, onların yaradıcılığına yeni nəzərlə yanaşırdı. Səməd Vurğun poeziyasından necə təsirləndiyini, duyğulandığını belə ifadə edirdi:

Axşam, səhər qəlb oxşayan,
nəğmələri dilimizdə,
Yurdumuzun söz mülkündə yapdı
necə saray Vurğun.

Bəhmən Aşıq Şəmşir poeziyasında yeni incilər axtarırdı. Gözü Kəlbəcər müxəmməsinə sataşdı. Burada bir bəndi qələmsiz, dəftərsiz sinəsinə yazdı:

Hərəsi bir Tərtər olur köksümdəki bulaqların,
Gül, çəmən nərgiz ilə al bəzənir ovlaqların,
Ruhuma ətir çiləyir bənövşəli yaylaqların,
Oxşarın Zöhrə ulduzu, Aydı,
Gündü dodaqların,
Günəşdən ziynət alıbdı, gülgəz
yanağın, Kəlbəcər.

Bəhmən şeir oxuyandan sonra xəyal etdi. Şeir məni qan kimi tutdu, görəsən mən də Dədə Şəmşir kimi Kəlbəcərin hüsnünə belə təsirli, təravətli bir şeir yazsam olar? O, altı bəndlik "Kəlbəcərin" rədifli şeirini yazdı. Şeirin bir bəndində deyilir:

Burda şeir yazanların az yazanı, durğunu mən,
Qoy dolanım ömrüm boyu, olum yollar yorğunu mən,
Ələ düşməz Dədə Şəmşir, ona verim sorğunu mən,
Hardan alım Ələsgəri, hardan alım Vurğunu mən,
Qoşma qoşa, dastan deyə cəlalına Kəlbəcərin.

Bütün bu axtarışlara, cəfakeşliklərə, düşüncə və duyğulara baxmayaraq, bunların heç biri Bəhmənin daxili, mənəvi ehtiyacını ödəmirdi. O, dönə-dönə Aşıq Şəmşirin Səməd Vurğunla qabaq-qabağa dedikləri şeirlərin üstünə qayıdırdı. Onu daha çox Aşıq Şəmşirin bir bəndlik şeiri möhkəm təsirləndirirdi. Aşıq Şəmşir yazırdı:

Günbəgün gül açır Vaqifin bağı,
Bir çox şairlərin ana torpağı,
Səmədin məskəni, şeirin ocağı,
Kamala yetirib o Qazax səni.

"Vaqifin bağı", "bir çox şairlərin ana torpağı", "şeir ocağı", "Kamala yetirib o Qazax səni" - bu sözlərin hər biri Bəhməni sual qarşısında qoyurdu. Öz-özünə deyirdin: "Aşıq Şəmşir nələr bilirmiş". Ona görə də Səməd Vurğun Aşıq Şəmşiri dərin, sənətə, elmə bələd, ədəbiyyata bələd bir sənətkar kimi yüksək qiymətləndirmişdi. Molla Pənah Vaqif Səməd Vurğunu məşğul etmişdir. Bir an belə o, Səməd Vurğunun diqqətindən yayınmamışdı. O, "Vaqif" pyesi kimi ölməz bir abidə yaratmışdır. Şair Vaqifin adını ömrü boyu ehtiramla yad edirdi. Səməd Vurğun bilirdi ki, Vaqif heca vəznli milli şeirimizin inkişafında misilsiz xidmətləri olan bir sənətkardır. Hər sənətkarın özünəməxsus məziyyətləri vardır.

Yazılı poeziya ilə aşıq poeziyasının üç dəfə tarixi görüşü olmuşdur. Bunlardan biri XVI əsrdə Ş.İ.Xətayi ilə Miskin Abdalın görüşüdür. Bu zaman Dirili Qurbani çox gənc idi. Miskin Abdal isə kamala çatmış yetkin sənətkar idi. Ona görə də bu görüşün dalğası Şah İsmayıl Xətayi və Miskin Abdalın adı ilə bağlıdır.

Yazılı ədəbiyyatın aşıq yaradıcılığı ilə ikinci görüşü M.P.Vaqiflə Tikmədaşlı Xəstə Qasımın timsalında XVIII əsrdə baş vermişdir. Vaqiflə Xəstə Qasımın yaradıcılıq tarixləri fərqli olmuşdur. Belə ki, Qazaxda saz götürüb aşıqlıq edən, "bizim evdə axta zoğal da yoxdur" deyən Vaqif Qarabağ mühitinə düşdükdən sonra qəzəlxan olmuş, birdəfəlik yazılı ədəbiyyata qovuşmuş, lakin kökündən də ayrılmamışdır. Yazılı ədəbiyyatda Vaqifin qoşması qoşma, gəraylısı gəraylı, təcnisi təcnis olmuşdur. Hələ üstəlik yazılı ədəbiyyata məxsus şeir formalarını aşıq şeiri tərzində düzüb-qoşub aşıq ədəbiyyatına gətirmişdir. Yazılı ədəbiyyatdan müxəmməs şeir formasını aşıq yaradıcılığına ilk dəfə Vaqif gətirmişdir. Xəstə Qasım isə əzəl Tikmədaşda qəzəlxan olmuş, "Dağıstan səfəri" ilə əlaqədar olaraq saz götürmüşdü. Xəstə Qasım bu xüsusda yazır:

Könül həris deyil dünya malına,
Yaşılına, tirməsinə, alına,
Qaraxan güvənsin öz mahalına,
Xəstə Qasım kimi qəzəlxanı var.

Deməli, hər iki sənətkar həm yazılı poeziya ilə, həm də aşıq poeziyası ilə dərindən tanış olmuşdur.

Prof. M.H.Təhmasib qeyd edir ki, XVIII əsrdə aşıq poeziyası yazılı ədəbiyyata öncülük edirdi. Ona istiqamət

verirdi. Bu, Xəstə Qasım yaradıcılığının aşıq poeziyası üzərində, xüsusən Vaqif yaradıcılığı üzərində təsiri kimi mənalandırılmalıdır. Akademik Həmid Araslı da eyni fikirdə idi.

Xəstə Qasımın özündən sonra gələn aşıqlara təsirindən danışarkən bir məsələni də unutmaq olmaz. Bu, aşığın Dağıstan xalq şairlərinə və aşıqlarına təsiri və poeziyamızın Dağıstan poeziyası ilə əlaqəsi məsələsidir. Bunun üçün əlimizdə yeni sənədlər vardır. Həmin ədəbi abidə və tədqiqlərə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, Dağıstan poeziyasının tədqiqatçıları M.P.Vaqifin "Bax" rədifli şerinin Dağıstan şairlərinə təsirindən danışır və ədəbi əlaqənin mənşəyini məhz bunda görürlər. Qeyd etmək lazımdır ki, XVIII əsrdə Vaqif yaradıcılığı, aşıq poeziyası ilə yazılı poeziyamızın - bu iki qaynağın axarını öz məcrasında birləşdirmişdir. Vaqif yaradıcılığı üzərində aşıq poeziyasının aydın təsiri olduğu kimi, onun da aşıq poeziyası üzərindəki təsiri göz önündədir.

Dağıstan folklor ədəbiyyatının ən görkəmli tədqiqatçılarından biri olan Uzdiat Dalqat "Folklor i literatura narodov Daqestana" (Dağıstan xalqlarının folkloru və ədəbiyyatı) adlı elmi əsərində Azərbaycan və Cənubi Dağıstan aşıq ədəbiyyatı əlaqələri haqqında dəyərli elmi fikirlər söyləmişdir. Alimə görə, Azərbaycan şifahi xalq poeziyasından qoşma formasını ləzgi folkloruna ilk dəfə M.P.Vaqifi özünə ustad hesab edən Səid Koçkursi gətirmişdir. Səid Koçkurski (1726-1812) ləzgilərin ilk məşhur şair-aşığıdır. Ləzgi aşıqlarından Səid Koçkurski kimi, Yetim Əmin, Mahmud, Süleyman Stalski və başqaları da ağır ehtiyac üzündən öz doğma aullarını tərk edərək Azərbaycan torpağını dolaşmış, burada tez-tez aşıqların necə oxumalarını diqqətlə izləmişlər.

Bütün bu deyilənlər bir həqiqət olsa da, Azərbaycan və Dağıstan aşıq ədəbi əlaqələri Vaqifdən əvvələ aid hadisədir. Daha doğrusu, bu ədəbi hadisə bizcə, Tikmədaşlı Xəstə Qasımın adı ilə bağlıdır. Ləzgi Əhmədin tarixi bir şəxsiyyət olub-olmadığı, onun həqiqətən Xəstə Qasımla deyişib-deyişmədiyi hələlik tarixi faktlarla müəyyənləşdirilməmişdir. Bəlkə də Ləzgi Əhməd, “Xəstə Qasım” dastanının əbədi qəhrəmanıdır. Bu belə olsa da, olmasa da, inkaredilməz bir həqiqətdir ki, Xəstə Qasım Dağıstanı gəzmiş və bu səfər ilə əlaqədar olaraq bir dastan yaranmışdır. Xəstə Qasımın Dağıstanda olmasını təsdiq edən bir ədəbi hadisə də vardır ki, indiyə qədər lazımınca qiymətləndirilməmişdir.

Dağıstanın Məhərrəm (kənd) rayonundakı Sovetski kənd sakini Əli Mücrim Tağızadə uzun illər həvəskar folklor toplayıcısı kimi fəaliyyət göstərmişdir. Onun qırx beş səhifəlik əlyazmasında xeyli şifahi ədəbiyyyatı nümunəsi cəmlənmişdir. Burada Dağıstanın Axtı, Rutul və Doqquzpara ləzgiləri arasında Azərbaycan folklorunun, xüsusilə aşıq yaradıcılığının geniş yayılmasına aid qiymətli nümunələr vardır. Əli Mücrim Tağızadə əlyazmasının xülasə hissəsində Azərbaycan aşıqlarının təsiri ilə yazıb-yaratmış Cənubi Dağıstan ləzgi aşıq-şairlərinin yaradıcılığından bəhs edərək deyir: “Həsən Əfəndi Əlqədarinin, Hacı Əbdürrəhman Əfəndinin, istərsə Nuru Əfəndinin yazdıqları “Bax” rədifli şeirləri M.P.Vaqif həbsə düşdükdə yazdığı “Bax” şeirinə nəzirə deyilmi?”.

Elə Dağıstan tədqiqatçılarını və folklorçularını çaşdıran da “Bax” rədifli şeirlərdir. Çünki onlar M.P.Vaqifin “Bax” rədifli qəzəli ilə tanış olduqları halda, Xəstə Qasımın ondan əvvəl yazılmış, bəlkə Dağıstanın

özündə yaranmış “Bax” rədifli divanisindən xəbərsizdilər. Ona görə ki, Vaqifin qəzəli nəşr edildiyi halda, Xəstə Qasımın “Bax” rədifli divanisi hələ çap olunmamışdır, elm aləminə məlum deyildir.

Qeyd etmək lazımdır ki, Tufarqanlı Abbasın da “Bax” rədifli divanisi vardır. Lakin bunun Dağıstanla heç bir əlaqəsi yoxdur. Çünki nə Tufarqanlı Abbas Dağıstanda olmuş, nə də Dağıstan mövzusunda şeirlər yazmışdır. Xəstə Qasım yaradıcılığının, demək olar ki, böyük bir hissəsi Dağıstan həyatı və adamları ilə bağlıdır. Onun dastanını hətta sadəcə “Xəstə Qasımın Dağıstan səfəri” adlandırmaq olar.

Xəstə Qasımın “Bax” rədifli şeiri divani şəklində qoşulduğu halda, Vaqifin əsəri qəzəl janrında yazılmışdır.

Beləliklə də aşıq poeziyamızın Dağıstan poeziyası ilə ədəbi əlaqələrindən bəhs edərkən bunu Vaqifdən əvvəl yazıb-yaradan Xəstə Qasımın adı ilə bağlamaq daha doğru və həqiqətə uyğun olar.

Deməli, yazılı poeziya ilə aşıq poeiziyasının ikinci görüşü Molla Pənah Vaqiflə Xəstə Qasım arasında XVIII əsrin ikinci yarısında baş vermişdir. Bu yazılı poeziya ilə aşıq poeziyasının ikinci görüşüdür və Azərbaycan ədəbiyyatında ən böyük dalğadır.

Yazılı poeziya ilə aşıq poeziyasının üçüncü görüşü Səməd Vurğunla Dədə Şəmşir arasında XX əsrdə baş vermişdir. Bu aşıqlara, xüsusən gənc aşıqlara güclü təsir göstərmişdir. Bundan daha möhkəm mütəəssir olanlardan biri də Bəhmən Vətənoğlu idi. Onu Səməd Vurğunla Dədə Şəmşirin deyişməsindəki bir bənd şeir daha da düşündürürdü:

- Görəsən, Səməd Vurğundan sonra Vaqifin bağında elə bir sənətkar yoxdur ki, Səməd Vurğun

Kəlbəcər dağlarına gəlib, Dədə Şəmşirlə görüşüb, qabaq-qabağa söz dediyi kimi, mən də Qazağa, şeir-sənət ocağına, Vaqifin bağına gedib onunla görüşəm.

Kəlbəcərlə Qazax arasında yeni əsk-səda doğuran bir səsləşmə yaradan, yaradıcılıq əlaqəsi quran bir yaradıcı insan tapmaram? Bəhmən Vətənoğlu xəyal dənizində üzərkən mavi ekranda saz səsi sükutu pozdu.

Tapdım, tapdım, xəyalımda düşündüklərimi diriltdim – deyə-deyə Bəhmən kimi ağır adam əməlli-başlı qolların qaldırıb rəqs edirdi. “Tapdım”, “Diriltdim” ifadələri yadıma maraqlı bir əhvalatı gətirdi.

Mənim gənclik illərimdə akademik Həmid Araslının evinə gediş-gəlişim çox olurdu. Alimin geniş iş otağı və zəngin kitabxanası var idi. Mən o kitabxanadan çox faydalanmışam. Bir gün qəribə bir əhvalat baş verir. Gecədən çox keçir, lakin Həmid müəllim işləyir yatmır. Təxminən gecə saat 3 radələrində Həmid müəllimin ucadan səsi gəlir: “Tapdım, tapdım, diriltdim, diriltdim”. Həmid müəllimin həyat yoldaşı o biri otaqdan səsə gəlir. Balacaxanım soruşur:

- Həmid nəyi tapdın, kimi diriltdin?

Həmid müəllim sevincək dillənir:

- Füzulini diriltdim, Füzulini!

- Həmid, Füzuli çoxdan ölüb, sən onu dirildə bilməzsən, amma belə getsə, Füzuli səni öldürəcək.

Həmid müəllim uzun müddət idi ki, nəyisə axtarırdı. Onu gecə tapdığı üçün sevinirdi”.

Bəhmənin sevincinə səbəb isə Ədalət Nəsibovun sazda “Yanıq Kərəm”i saz havasını çalması idi. Ədalət saz çaldıqca sanki qayalardan şəlalər tökülürdü. Şəlalənin sərin suyu elə bil, Bəhmən Vətənoğlunun təndir kimi içəridən sinəsinin üstündən keçib, bir sərinlik gətirdi.

Bəhmən qərara gəldi ki, böyük şairimiz Səməd Vurğun Dədə Şəmşirlə tarixi bir görüş, əlaqə yaratdığı kimi, mən də Aşıq Ədalətlə tarixi bir görüş keçirəcəm. Aşıq yaradıcılığında yeni bir yol açacam. Mənim açdığım bu yol Ədalətlə mənim üçün yeni bir yol olacaqdır. Onsuz da "Yanıq Kərəm"i saz havası Ədalətin ifasında Bəhmənin şair qəlbinə hakim kəsilmişdi.

Bəhmən əlinə qələm alıb "Ədalətin sazında" adlı səkkiz bəndlik qoşmasını yazıb, zərfin içərisinə qoydu. Məktubun birini poçtla, birini isə mötəbər bir adamla Aşıq Ədalətə göndərdi. Məktubu açıb oxuyanda Aşıq Ədalətin ürəyi köksünə sığmırdı. Şeiri bir neçə dəfə dönə-dönə oxudu. Onu sazın müşaiyətinə gətirdi. Bəhmən öz-özünə dedi:

- Bu hər kəs üçün, hər bir dinləyici üçün möcüzə olacaqdır.

Şeirdə gah Kərəm alovların içindən çıxır. Əsli ilə Kərəm, Gülgəz ilə Abbas, Zöhrə ilə Tahir, Dilqəm, Koroğlu şeirdə necə düzümlənirdi. Bəhmən qədərsiz dərəcədə Ədalətin sazının sehrinə düşmüşdü. Ədalət də Bəhmən şeirinin cazibəsindən çıxa bilmirdi. Ədalət romantik bir aləmdə idi. "Ədalətin sazında" şeiri doğrudan da Azərbaycan aşıq poeziyasında əvəzi olmayan nadir bir sənət incisidir. Onun hər bəndi bir dastan olub, keçmiş tarixi hadisələri yada salır. Elə bil bu adicə aşıq qoşması deyil, iri süjetli bir əsərdir:

Əsli nalə çəkər zülfü pərişan,
Fəqan eylər Ədalətin sazında.
Kərəm çıxır alovların içindən,
Üsyan eylər Ədalətin sazında.

Mahmud itgin, yazıq ana bir də ağlar,
Sinəsində çarpaz qaldı bir dağlar.
Bir Lələdir, bir Kərəmdir, bir dağlar,
Boran eylər Ədalətin sazında.

Bu an Abbasla Gülgəzin sevgi məcaraları Bəhmənin yadına düşür:

Haray çəkər dünya mənə dar deyin,
Xan evində Gülgəz yarım var deyin,
Tufarqanlı aşıq Abbas – yar deyin,
Tüğyan eylər Ədalətin sazında.

"Tahir və Zöhrə" dastanı türkdilli xalqlar arasında yayılmış bir dastandır, Azərbaycan aşıq yaradıcılığında hər birinin öz yeri, öz dəyəri vardır:

Dağ çəkilər neçə dərdə, məlala,
Cilvələnər hər bənövşə, hər lala,
Zöhrə deyin Tahir yetər vüsala,
Dövran eylər Ədalətin sazında.

Sazda Dilqəmin kədəri Kərəminkindən də dərindir. Bununla əlaqədar onu deyə bilərik ki, sazda Kərəm kökünü Dilqəm kökü əvəz etmişdir:

Gələr qızıl gülü dərməyə Dilqəm,
Dərib pünhanları sərməyə Dilqəm,
O dünyada yarı görməyə Dilqəm,
Güman eylər Ədalətin sazında.

Dilqəm kədərindən sonra abu-havanı dəyişmək üçün “Koroğlu cəngisini” meydana gətirir:

Libası poladdan deyən Koroğlu,
Ulu şahlar boynun əyən Koroğlu,
Nərəsindən yer titrəyən Koroğlu,
Cövlan eylər Ədalətin sazında.

Qərq eyləyər xəyallara qanında,
Bircə anda dolandırır cahanı,
Zərif tellər hər duyğusuz nadanı,
İnsan eylər Ədalətin sazında.

Nadan ahlar anlamaram dərdi nə...
Bağban bağdan dərmədi nə, dərdi nə,
O barmaqlar çox Bəhmənin dərdinə,
Dərman eylər Ədalətin sazında[1].

Bəhmən belə fikirləşdi ki, bəlkə də Ədalət şeirim ona həsr olunduğu üçün onu birdən-birə dinləyiciyə çatdırmaqda çətinlik çəkir. Mən Kərəm haqqında, onun “Kərəmi” saz havası haqqında elə bir karvana, köçə, Ziyadxan oğlunun nakam eşqinə bağlı bir qoşma yazıb, Ədalətə göndərim ki, ürəklə ekrana çıxıb sazın müşayiəti ilə “Kərəmi”ni çalıb dalğa-dalğa səsini-sədasını ellərə yaysın. Bu zaman aşıq yaradıcılığında, aşıq ifaçılığında bənzərsiz bir yol açılacaq. El şairlərindən tovuzlu Mülklü Həsənin, Sevdalı Həsənin, Bisavad Teymurun, Kəmsavad Məmmədin və digər el şairlərinin yaratdıqları şeirlər aşıq poeziyasını zənginləşdirir. Lakin onlar saza qovuşub,

[1] Bəhmən Vətənoğlu, “Allahsız dünya”, Bakı, Gənclik, 1992, səh 129

aşıqların repertuarına daxil ola bilmirlər. Ədalət sazda çalır, oxuyur. Mən isə şeir yazıram, oxumuram. Hərəmizin bir qartal qanadı var. Mənim şeirim Ədalət Nəsibovun sazına qovuşandan, onun sazı mənim şeirimlə qucaqlaşandan sonra bir aləm yaranacaq. Ədalətlə mənim iki qanadımız olacaq, yeni nəğmələrlə, sazla, sözlə, qoşa qanadlı qartal kimi dağdan-dağa, Qafdan-qafa uçacağıq, öz sazımızın, sözümüzün sədası bütün ellərə yayılacaq.

Bəhmən bu həvəslə, bu niyyətlə, bu arzu ilə beş bəndlik "Kərəmi" qoşmasını yazıb Ədalətə göndərdi. Özü də Qazax səfərinə, Ədalətlə görüşə hazırlaşdı.

Sənin ahında xoş, amanın da xoş,
Dağla sinəmizi, dağla Kərəmi.
Ziyadxan oğlunun nakam eşqinə,
Yaman ağlayırsan, ağla Kərəmi,
Dağla sinəmizi, dağla Kərəmi.

Bu dağlarda gurla belə, çax belə,
Qəlbimizdə süzül belə, ax belə,
Fəryadınla yandır belə, yax belə.
O gedən karvanı saxla Kərəmi!
Dağla sinəmizi, dağla Kərəmi.

Qaytar bir anlığa keçən zamana,
Apar fikrimizi dağa, arana,
Ləlli, Kərəmli düşək borana,
Bağla gədikləri, bağla Kərəmi,
Dağla sinəmizi, dağla Kərəmi.

Canandan ayrılıb, can Əsli getdi,
Yan ay yazıq Kərəm, yan Əsli getdi,

Köçdü Qara Məlik, xan Əsli getdi,
Bağla yaramızı, bağla Kərəmi,
Dağla sinəmizi, dağla Kərəmi.

Şeir də səndədi, qələm də səndə,
Nəşə də səndədi, ələm də səndə,
Əsli də səndədi, Kərəm də səndə,
Çağla, çağla, çağla, çağla kərəmi,
Dağla sinəmizi, dağla kərəmi.[1]

Şeir musiqiyə yeni tərzdə qovuşdu. Bəhmənin söz qoşan dili, Ədalətin sazı tüğyana gətirən əli ürəklərə od saldı. Kərəmin, Dilqəmin neçə-neçə dastan qəhrəmanının eşqini, sevgi macərasını təzələdi.

[1] Bəhmən Vətənoğlu, "Allahsız dünya", Bakı Gənclik 1992, səh 129

# HƏMID ARASLI VƏ FOLKLOR

Akademik Həmid Araslı ömrünü Azərbaycan klassikləri, eləcə də Azərbaycan folklorunun qədim abidələrinin tədqiqinə həsr etmişdir. Yazılı və şifahi ədəbiyyatımızın ölməz abidəsi olan "Kitabi-Dədə Qorqud"un Azərbaycanda bir küll halında öyrənilməsi, nəşri onun adı ilə bağlıdır. H. Araslı 1938-ci ildə "Kitabi Dədə Qorqud"u çapa hazırlamışdır. Eyni vaxtda Türkiyədə Orxan Şaiq Gökyay onu çapa hazırlamışdır. Lakin Azərbaycanda bu abidənin nəşri bir il ləngidilmişdir. Ona görə də nəşr tarixində Orxan Şaiq qabağa keçmişdir. Lakin H.Araslının nəşri bu əsərin Azərbaycan xalqına, Azərbaycan dilinə daha doğma və yaxın olduğunu təsdiq etmişdir. H.Araslı Orxan Şaiqə elmi dəlilllərlə bildirmişdir ki, siz əsəri çapa hazırlayarkən sözlərin lüğəvi izahına daha geniş yer vermisiniz, lakin bizdə buna ehtiyac olmamışdır. Çünki "Kitabi-Dədə Qorqud"un özü azəri ləhcəsinə uyğun bir şəkildə yaradılmışdır. H.Araslı "Kitabi-Dədə Qorqud"la ardıcıl məşğul olmuş Almaniyanın Drezden nüsxəsindən sonra son illər İtaliyanın Vatikan kitabxanasından italyan alimi prof. Ettori Rossinin 1952-ci ildə tapılmış natamam nüsxəsi nəşr olunduqdan sonra akademik "Kitabi-Dədə Qorqud"un akademik nəşri onun tərəfindən hazırlanmışdır. Bu ölməz abidənin elmi nəşrini hazırlayarkən Aybək Əd-Qəvadarinin "Dürərüt-tican" əsərindən də istifadə etmişdir. Qəvadəri əsasən Təpəgözün Basat tərəfindən öldürüldüyünü qeyd edir. Qəvadarinin Təpəgöz haqqında verdiyi məlumat daha zəngindir. Bir sözlə, "Kitabi-Dədə Qorqud"a aid əldə olan örnəklər nəzərə alınaraq elmi nəşri mükəmməlləşdirmək uğrunda səy

göstərməyə başlamışdır. “Kitabi-Dədə Qorqud” a yazdığı müqəddimədə M.F.Axundov əlifba hazırlayarkən onun istifadə etdiyi aşağıdakı misralarla tamamlanan şeirini nümunə gətirmişdir:

Gəlinə ayıran demə
dim mən Dədə Qorqud.
Ayrana doyuran demədim mən Dədə Qorqud.
İynəyə tikən demədim mən Dədə Qorqud.
Tikənə sökən demədim mən Dədə Qorqud.

Fridrix Fon Ditsin 1815-ci ildə “Təpəgöz” boyunu alman dilinə tərcümə edib, tədqiqata cəlb etməsini, italyan alimi prof. Ettori Rossinin Vatikan kitabxanasından tapılmış 1 müqədimədən, 6 boydan ibarət olan “Kitabi Dədə Qorqud”u 1952-ci ildə nəşr etdirməsini H. Araslı yüksək dəyərləndirmişdir. Bütün bunları böyük axtarışlar nəticəsində əldə edən alim 1962-ci ildə “Kitabi Dədə Qorqud”un elmi nəşrini tamamlayıb meydana gətirə bilmişdir.

Akademik H. Araslı 1956-cı ildə “XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi” adlı əsəri yazmışdır. Bu əsər ali məktəblərə dərslik kimi tədqim olunmuşdur. Burada klassiklərdən Fədai, Məhəmməd Əmani, Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi, Ağa Məsih Şirvani, Nişat Şirvani, Şakir Şirvani, Məchur Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqiflə yanaşı, Tufarqanlı Abbas, Sarı Aşıq kimi sənətkarlardan, habelə “Koroğlu”, “Şah İsmayıl”, “Aşıq Qərib”, “Əsli və Kərəm” və “Şəhriyar” dastanlarından da geniş söz açılır və hər bir sənətkara düzgün mövqedən qiymət verilirdi.

Həmid müəllim uzun illər Azərbaycan Dövlət Universitetində dərs demiş, çox sayda alimlər yetişdirmiş,

Nizami adına Dövlət Muzeyinə rəhbərlik etmiş, Azərbaycanın elmi-ictimai həyatında böyük xidmətlər göstərmişdir.

"Azərbaycan Aşıqlarının III qurultayı"na məruzəçi təsdiq olunan H. Araslı qurultayqabağı "Aşıq yaradıcılığı" adlı böyük elmi dəyərə malik olan əsərini (1960) nəşr etdirmişdir. Bu əsər bir daha göstərdi ki, H.Araslı Azərbaycan folkloruna, ozan-aşıq yaradıcılığına nə qədər dərindən bələddir. O, burada "Qədim aşıq yaradıcılığı"ndan bəhs edərkən ilkin qaynaqlara toxunur, 1077-ci ildə Qaşqarlı Mahmudun Bağdadda tamamlanmış "Divani lüğət it türk" adlı əsərindən bəhs edir və oradan ozan yaradıcılığına dair örnəklər verir. Eyni zamanda o bu əsərində "Dədə Qorqud" dastanlarından bəhs edir. Alimə görə Azərbaycan aşıq yaradıcılığının inkişaf dövrü XVI əsrdən başlanır. Bu fikri H. Araslı aşağıdakı sətirlərdə belə dilə gətirir:

" Aşıq şeirinin qüvvətli inkişafına biz XVI əsrdən başlayaraq təsadüf edirik. Səfəvilər dövlətinin banisi, Azərbaycanı birləşdirib, qüdrətli bir dövlət quran Şah İsmayıl Xətayi (1500-1524) və onun sələfləri dövründə aşıq şeiri qüvvətli şəkildə özünü göstərməyə imkan tapmışdır."*

O, burada Qurbani yaradıcılığından geniş söz açmışdır. Bunun davamı olaraq XVII əsrdə aşıq yaradıcılığının inkişafından bəhs edir. "Əcəm elinə" adlı qoşma böyük bir tarixi dövr haqqında məlumat verir. Mən burada həmin qoşmanı bütövlükdə verməyi məsləhət bilirəm.

---

* H. Araslı. "Aşıq Yaradıcılığı". Bakı, 1960, səh. 33

Göydən ötən bölük-bölük durnalar,
Bizdən salam olsun Əcəm elinə!
Yaşıl geymiş, sarı telli durnalar,
Bizdən salam olsun Əcəm elinə!

Bizi ayırdılar ata-anadan,
Yarəbbim, sən qurtar bu qəmxanədən!
İstanbul şəhrindən –Qəstəntinadan,
Bizdən salam olsun Əcəm elinə!

Budur gəldi əsirlərin karvanı,
Çağıraram ya mövlana, ya ğəni!
Qara geydi Əcəm pirü-cavanı,
Bizdən salam olsun Əcəm elinə!

Beş qız idik bir arada, bir yerdə ;
Ya ilahi, dərman eylə bu dərdə!
Canım durna, hər vətəndən ötəndə,
Bizdən salam olsun Əcəm elinə!

Bizi keçirdilər şahi-cisirdən,
Rum ölkəsi varı dolu yesirdən,
Ol Şamu –Hələbdən, şəhri –Misirdən
Bizdən salam olsun Əcəm elinə!

H.Araslı həmin bölmədə geniş şəkildə Koroğlu dastanından söz açır. Həmçinin, Sarı aşığın bayatılarını təhlilə cəlb edir və onun bayatılarının bədii surətindən danışır, nümunələr verir.

Mən aşiqəm qanlı gül!
Qanlı seviş, qanlı gül!

Yemiş bülbül bağrını,
Çıxmış ağzı qanlı gül.[1]

Tufarqanlı Abbasın həyat və yaradıcılığı da burada geniş yer alır. "Aşıq Qərib" dastanı haqqında müfəssəl məlumat verilir. Müəllif Xəstə Qasım yaradıcılığını XVIII əsrə aid edir. "Əsli Kərəm" dastanından "Virana Gəncənin yiyəsiyəm mən" şeirini nümunə verir. XIX əsr aşıq yaradıcılığı hissəsində Yəhya bəy Dilqəm, Şəmkirli Aşıq Hüseyin, Aşıq Ələsgər yaradıcılıqlarına yer ayırır. Burada "Qaçaq Nəbi" dastanını da dilə gətirir. XIX əsr aşıq yaradıcılığından söz açarkən Bozalqanlı Aşıq Hüseyn yaradıcılığına geniş yer verir. Aşıq Əsəd sənətkarlığından bəhs edir. Sonda Vətən müharibəsi dövründə yaranan şeirlərdən, o cümlədən müharibədən sonrakı dövrlərdə Aşıq Hüseyn Cavan, Aşıq Şakir, Aşıq Pənah, Aşıq Bəylər kimi sənətkarların müasir dövrdə aşıq yaradıcılığını, aşıq ifaçılığını necə davam etdirdiklərini göz önünə gətirir.

Bütün bunlarla yanaşı, Azərbaycan xalq dastanları aşıq şeiri və aşıq sənəti haqqında yazdığı məqalələrdə nəzəri fikirlər söyləyir.

Ümumiyyətlə, "H. Araslı və folklor" mövzusu Azərbaycan folklor yaradıcılığında öz elmi dəyərini və gücünü bu gün də saxlayır və gənc tədqiqatçılar ondan əzəmi dərəcədə bəhrələnirlər.

---

[1] H. Araslı. "Aşıq yaradıcılığı" Bakı 1960. səh. 58

Akademik H.Araslıyla mənim çox gözəl münasibətimiz var idi. O, mənim bacarığıma bələd olduğu üçün öz zəmanəti ilə M.H.Təhmasibi mənə elmi rəhbər olmağa razı saldı və namizədlik dissertasiyam tamamlananda akademik H. Araslı mənim I opponentim oldu. "Elm və sənət adamlarının S.P.Pirsultanlı haqqında düşüncələri" kitabında hər iki alimin mənim haqqımda fikirləri öz əksini tapıb. Allah onların hər ikisinə rəhmət eləsin!

# AĞBABALI AŞIQ İSGƏNDƏR

Bu görüşün 30 ilədək tarixi vardır. Yetmişinci illər idi. Folklor toplamaq üçün, Ağababa mahalına getmişdim. İrəvanın qədim Oğuz yurdu olan Ağbabanı, Oxçu oğlu Güllübulaq, Təpəkənd, Elkənd və başqa oymaqlarından bir-birindən qiymətli qədim mahnılar və bayatılar, əfsanə və rəvayətlər topladım. «Oxçu oğlu» əfsanəsi 1985-ci ildə nəşr etdirdiyim «Azərbaycan xalq əfsanələri» kitabına daxil edilmişdir. Bənzəri olmayan Ağbaba mahnı və bayatılarını ayrı-ayrı vaxtlarda jurnal və qəzetlərimizdə çap etdirmişəm. Ağbaba səfərimdə o yerin ustad sənətkarı olan Aşıq İsgəndərlə tanış oldum. Sənətkarı formalaşdıran doğulduğu mühit, o yerin adət-ənənləri və məclis keçirmə qaydalarıdır. Aşıq İsgəndərlə ilk dəfə görüşərkən o, demək olar ki, orta yaşlarında idi. Çox qıvraq, sadə geyimi və başında papağı vardı. Çox da uzun olmayan, qalın olmayan parçadan tikilmiş əbası vardı. Onun yanında neyçisi və nağaraçası yox idi. Tək çalıb, tək oxuyurdu. Aşıq İsgəndər dastançı aşıq idi. O deyirdi: «Ustaddan dərs almayan, ustad sənətkar ola bilməz. Nağaraynan, neynən boşluğu dolduran o aşıqlardır ki, onlar bir neçə qatar söz və bir neçə saz havası bilirlər. Dastan bilməyən aşıq şagird yetişdirə bilməz. Hər bir ustad adını daşıyan aşıq, 15-20 dastanı mükəmməl bilməlidir. Dastan aşığın ən böyük dərsliyidir. Dastan əsasən vücudnamə ilə, əzbərində vücudnamə olmayan aşıq üç ustadnamə ilə dastana başlayır. Axırda dastan şadlıqla bitirsə, müxəmməslə, faciə ilə bitdikdə isə cahannamə ilə tamamlanır. Aşıq dastan söyləyərkən azman sənətkaları yada salmaq

üçün meyracnamələr, zəncirləmələr deməlidir. Bunları eşitməyəndə ömrünü sazla, sözlə, ona qulaq asmaqla keçirən ağsaqqallarımız üzə vurmasa da, ürəyində deyir ki, bu aşığın yükündə bir şey yoxdur. Əgər dolu aşıq olsaydı, yəqin ki, vücudnamələri, meyracnamələri, zəncirləmələri, cahannamələri dilindən yerə qoymazdı. Ağbabalı Aşıq İsgəndər sözün əsl mənasında məclis aşığıydı. O, Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Abdal-Gülaflı Valeh, Şəm-kirli Aşıq Hüseyn və Aşıq Şenliyi, Sümmanini, xüsusilə Qaracaoğlanı dərindən bilirdi. O, mənə türk dastanlarından «Mahmud və Nigar», Aşıq Şenliyin yaratdığı «Lətif Sal», «Yaralı Mahmud», Qaracaoğlanın yaratdığı «Qaracaoğlan və Yaxşı» dastanlarını söylədi. Aşıq İsgəndər Qaraca-oğlanın vurğunu idi. O, sözünü söhbətini Qaraca-oğlanala başlayıb, onunla qurtarardı. Qaçqınlıq, köçkünlük dövründə o, Şəmkir şəhərində məskun-laşmışdı. Tez-tez Gəncəyə, mənim rəhbərlik etdiyim Aşıqlar birliyinə gələrdi. Onu radiostudiyaya aparıb geniş verlişini təşkil etdim. O, Qaracaoğlanın Yaxşı adlı sevgilisinə həsr etdiyi şeirini və onun əsasında yaratdığı «Xoşqılıq» saz havasını, eyni zamanda Yaxşıya həsr etdiyi «Uca dağlar başında» mahnısı ilə əkiz doğulmuş saz havasını çaldı. «Uca dağlar başında» saz havası zurnaya keçmiş, daha çox zurnada çalınır. Zurnada çalınan havaya qulaq asdıqda görürsən ki, zurna rəqs havası çalmır, həzin və yanıqlı mahnı oxuyur. Heyif ki, Gəncə radioverilişləri idarəsi münasib olmayan bir yerə köçürülmüş, onun qarmaqarışıq arxivindən belə nadir inciləri tapmaq müşküldür. «Uca dağlar başında» mahnısı ayrı-ayrı kitablara daxil edilsə də, amma təhrif olunmuş şəkildə

nəşr edilmişdir. Rəvayətə görə, dağ başında əlləri xınalı quzu otaran gənc bir türk qızı Qaracaoğlanı özünə heyran edir. O, qızla söhbət edir, qız çox gənc olduğu üçün Qaracaoğlana məhəl qoymur. Dağın başında, quzuların arasında rəqs etməyə başlayır. Qaracaoğlan bu qeyri- adi mənzərəyə baxıb «Uca dağlar başında» şerini yazır və sazında bəstələyir.

Uca dağlar başında səslərəm səni,
Sinəmin üstündə bəslərəm səni,
Xanım naz eylə, ərkinaz eylə,
Dur gəl yanıma, halımı saz eylə.

Uca dağlar başında bir sürü qoyun,
Xınalı əllərini qoynuma qoyum.
Xanım naz eylə, ərkinaz eylə,
Dur gəl yanıma, halımı saz eylə.

Aşıq İsgəndərin bizə təqdim etdiyi «Yaralı Mahmud» dastanı, Azərbaycanın ayrı-ayrı bölgələrində, bəlkə də Anadoluda «Qul Mahmud» yaxud «Nigar və Mahmud» adları ilə söylənən bütün variantlardan fərqlidir. Həmin variantlarda dastan yerindən, yurdundan çıxır, Misirə və başqa ölkələrə gedir. Ancaq Aşıq İsgəndərin danışdığı variantda İstanbul və Gəncə şəhərləri arasında cərəyan edir. Dastanın qısa məzmunu belədir.

«Yaralı Mahmud»dakı hadisələr İstambulla Gəncə arasında cərəyan edir. Mahmud istanbullu, Məhbub xanım isə gəncəlidir.Bu dastanın çox maraqlı süjet xətti vardır. Dastanda deyilir ki, Gəncə xanının xəzinəsində iki göy çıraq var imiş. İstambul hökmdarı

heç olmazsa onun birinə sahib olmaq istəyirmiş. Lakin Gəncə xanının pəhləvan qızı Məhbub xanımın meydanında duruş gətirəcək bir igid yox idi. Bir çayçının məsləhəti ilə bu meydana gənc Mahmud göndərilir. Mahmud Məhbub xanıma qalib gəlir və onu şöy çıraqla bərabər türk torpağına aparır. Doğrudur, dastanın macəra hissəsində Məhbub xanım Mahmudu türk torpağında qılıncla yaralayır. Bütün müsibətlərə baxmayaraq dastanın sonu nikbin ovqatla bitir. Burada maraqlı cəhət Məhbub xanımın vətən həsrətidir. Qürbət eldə Qərib Təbrizi, Tufarqanlı Abbas Dərbəndi, Xəstə Qasım Şamaxını ürək yanğısıilə tərənnüm etdiyi kimi, Məhbub xanım da doğma Gəncəni kövrək bir hisslə xatırlayır:

Əylən Mahmud, əylən, iltimasım var,
Açılıb nərgizi, gülü Gəncənin.
Yar gəzən torpaqlar cənnətə dönsə,
Heç çıxmaz yadımdan eli, Gəncənin.

Qızıl gülləri var, bağları bəzər,
Ayrılıq əlindən eylərəm həzər,
Dillərdə söylənər, dillərdə gəzər,
Uzanır Təbrizə yolu Gəncənin.

Gəncəni görənin gəlir həvəsi,
Bu yerdə çox olub igidlər bəhsi,
Atamın var idi ağır xəznəsi,
Yaqutu, yaməni, ləli Gəncənin.

Kövrək hisslər aşılayan bu qoşmada Məhbub xanım «Açılıb nərgizi, gülü Gəncənin» deyə, doğma

torpağını tərənnüm edir. Eləcə də Gəncədə olarkən Mahmud doğma İstanbulun həsrətini çəkir:

Mahmud ölsə, dəfn etməyin Gəncədə,
Onun İstanbulda vilayəti var.

Qars bölgəsində yayılmış «Mahmud və Nigar» dastanında Mahmud Nigarın ağası tərəfindən dəryaya atdırılır. Onun ardınca Nigar da, Mahmudun dostu Abid Qənbər də özlərini dəryaya atırlar. Yeganə qızı üçün peşiman olan hökmdar onu yenidən həyata qaytarmaq arzusuna düşür. Bu süjet xətti eyniylə «Azərbaycan məhəbbət dastanları» kitabında (1979) oxuculara çatdırılmış, «Qul Mahmud» dastanında olduğu kimi davam etdirilir.

Qaracaoğlanın həyatı ilə bağlı dastandan əlavə, xalq arasında kiçik epizodlar da dolaşmaqdadır. Bu nümunələrdə Qaracaoğlan bir övliya, sazın-sözün qüdrəti ilə hər şeyi mümkün edən bir şəxs kimi verilir. Məsələn; üç qız yol ilə gəlir. Onlar çinarı yarpaqsız görüb qəmlənirlər. Deyirlər, bu çinarın yarpağı olsa, nə yaxşı olardı. Bu Qaracaoğlana əyan olur. Sazını çıxarıb deyir:

Qoşa çinar, qoşa çinar,
Veribsiz baş-başa çinar.
Aç yarpağı, döşə çinar,
Görüşünə qızlar gələcək.

Qızlar görürlər ki, o dəqiqə çinarlar yaşıl yarpaqlar açdılar. Bir qədər gedib yorulurlar. Qızlar

deyirlər ki, nə yaxşı olardı , hərəmizə bir at olaydı, minəydik. Qaracaoğlan sazını götürüb oxuyur:

Yollar boyu yaşıl otlar,
Ceyran, cüyür sizi otlar,
Yəhərlənin bədöv atlar,
Minməyə qızlar gələcək.

Elə bu vaxt üç at hazır olur. Onlar atı minib yola davam edirlər. Bir qədər sonra qızlar susayırlar. Baxırlar ki, budur çeşmə qabaqda, amma suyu bulanıqdır. Qızlar deyirlər ki, nə olaydı, Qaracaoğlan bir şey oxuyaydı. Çeşmə durulaydı, biz də onun suyundan içəydik. Qaracaoğlan bunu eşidib sazı götürüb görək nə deyir:

Qaracaoğlan, əsib coşma,
Bulanlıq sel təki daşma.
Durul, boz bulanıq çeşmə,
İçməyə qızlar gələcək.

Qaracaoğlanın sazının hər teli, sözünün hər bəndi bir adama həyat verir. Qaracaoğlan bu məqamlarda Dədə Qorqudla yanaşı dayanır. O da «müşkülləri həll edir», onun sazı da qopuz kimi ecazkardır.

Biz bundan əlavə Aşıq İsgəndərin Ağbabada çoxsayda gəraylı və qoşma, xüsusilə çox nadir divanilərini yazıya almışıq.

Aşıq İsgəndər ney-nağarasız tək sazıyla elə şux, elə şən havaya uyğun hərəkətlər edirdi ki, onun ifa tərzi sazını, sözünü tənzimləyirdi. O, bir şeiri oxumazdan

əvvəl sözün yurdunu danışardı. Saz havasını kimin yaratdığı haqqında məlumat verirdi. O mənə hədiyyə olaraq Aşıq Şenliyin və onun həyat yoldaşının naməlum rəssam tərəfindən çəkilmiş portretini hədiyyə vermişdir. Həmin hədiyyəni Aşıq İsgəndər şəxsiyyətinə və yaradıcılığına xüsusi məhəbbəti olan jurnalist Əhməd Oğuza ərməğan edirəm. Bundan sonra Ağbabalı Aşıq İsgəndərə həsr olunmuş iki məqalə yazmağı qət etmişəm. 1. Aşıq İsgəndər və Qaracaoğlan 2. Aşıq İsgəndər və Aşıq Şenlik. «Ağbaba mahnıları və bayatıları» adlı bir məqalə də yazmaq həvəsindəyəm.

## *"ŞƏMŞİRİ YARADAN BİR YOL YARATDI..."*

Aşıq Şəmşirin adını dilimizə gətirdikdə, ilk növbədə xəyalımızda onun ulu babası Miskin Abdal, Şah İsmayıl Xətayi, Aşıq Ələsgər və atası Aşıq Qurban canlanır. Qarşımızda isə ucadan-uca, əlçatmaz, başı qarlı nəhəng bir dağ dayanır. Bu əzəmətli dağ qürurumuz və iftixarımız olan, XX əsr Azərbaycan poeziyasının hökmdarı[1] Səməd Vurğundur. XVI əsrdə Şah İsmayıl Xətayi və Miskin Abdal yazılı və şifahi poeziyamızı bir məcrada birləşdirib qovuşdurdular. Bu missiyanı XX əsrdə böyük şairimiz Səməd Vurğun və istedadlı şair-aşığımız Aşıq Şəmşir birlikdə yerinə yetirdilər.

Səməd Vurğunun tarixi xidmətlərindən biri Ağdabanlı Qurbanın Xalq Akademiyasının qapılarını taybatay bizlərin üzünə açması oldu. Böyük şairimiz Aşıq Şəmşiri yenidən kəşf etdi. Aşıq Şəmşirin nurlu zəkası, şair istedadı genişliyi ilə üzə çıxdı. "Qurban bulağı"[2] yenidən çağladı. Qurban ocağının külaltı közü Vurğun nəfəsindən alışdı[3], alovlandı. Şəmşirin sənət ocağı yenidən şölələndi, hər yana işıq saçdı. Bu işığa dəstə-dəstə pərvanələr gəldi, o pərvanələrdən biri də mən.

"Yeni Daşkəsən" rayon qəzetinin redaktoru idim. 1961-ci ilin sentyabır ayının əvvəlində bir aylıq məzuniyyət götürüb Kəlbəcərə Aşıq Şəmşirin görüşünə

---

[1] Sədnik Paşa Pirsultanlı. "Aşıq Şəmşirin poetik aləminə səyahət", Bakı,"Təknur" – 2008, səh 269-270

[2] "Qurban bulağı" aşıq məclisi xatırlanır. Bax: "Azərbaycan gəncləri" qəzeti, 31 iyul 1966-cı il

[3] Sədnik Paşayev. Qurban ocağının külaltı közü, Vurğun nəfəsindən alışan Şəmşir, "Tərəqqi" qəzeti, 22 oktyabr 1966-cı il

yollandım. Çatanda sinəmə bir qatar söz gəldi. O günün səhərisi redaksiyaya gəldim. Ona qədər də qəzetin redaktoru və əməkdaşları məni yazılarımdan yaxşı tanıyırdılar. Kəlbəcərə çatanda yazdığım şeiri və "Dağ çiçəkləri"[1] adlı məqaləmi rayon qəzetində dərc etdirdim. Həmin şeirin bir bəndini burada nümunə veririk.

Gəlib çatdım gül çağına,
Girdim Şəmşirin bağına,
Sinəm döndü söz dağına,
O içən çeşmədən içdim.

Həmin qəzetdən bir neçəsini götürüb Çələkdar kəndinə gəldim ki, oradan Ağdabana getmək asan olsun. Çələnkdar yolunda iki oğlan məndən soruşdu:

- Hara gedirsən?

Mən cavab verdim:

- Ağdabana, Aşıq Şəmşirin görüşünə gedirəm.

Onlardan biri mənə bildirdi ki, mənim yanımdakı Aşıq Şəmşirin oğlu Qəmbər müəllimdir.[2] Biz biri-birimizlə görüşüb, tanış olduq və birlikdə Ağdabana yola düşdük.

Aşıq Şəmşirlə ata-bala kimi səmimi görüşdük. Elə bil biz əzəldən tanış idik. Sonradan ayrılıb, təzədən bir-birinə həsrət adamlar kimi qucaqlaşdıq. O romantik səhnəni, görüşü olduğu kimi xatırlamaq çox çətin olar. Aşığın üzündən peyğəmbər nuru yağırdı.

---

[1] Sədnik Paşayev. "Düşdü" şeiri və "Dağ çiçəkləri", "Yeni həyat uğrunda" qəzeti, 7 sentyabr, 1961-ci il

[2] Bax: Sədnik Paşa Pirsultanlı. "Aşıq Şəmşirin poetik aləminə səyahət", Bakı -"Təknur" – 2008, "Gözəl xatirələr, gözəl sözlər". Qəmbər Şəmşir oğlu, Qurban-Şəmşir ocağı və Sədnik Paşa. səh 275

Səhər çay içib, çörək yeyəndən sonra, daha doğrusu, bir süfrə arxasında çörək kəsdikdən sonra Təkarmud ağacının yanına gəldik. Xalça-xalı salıb üstündə oturduq. Bir yanımızda çay samovarı, bir tərəfdə də Aşıq Şəmşirin atası Aşıq Qurbandan bizə miras qalmış iki dəftər. Aşıq Şəmşir dəftərlərdəki şeirləri oxuyur, mən isə yazıya alırdım. Hər hansı misra, şeir bəndi müəyyən bir tarixi hadisəyə işarə verirdisə, mən onun yurdunu Aşıq Şəmşirdən soruşurdum. Ağdabanlı Qurban "Mənəm mən" qoşmasının bir beytində deyirdi:

Qəm-vərəmdən bağrı şan-şan dəlinən,
Bala Dağıstanlı Qurban mənəm mən. [1]

Mən "Bala Dağıstanlı" ifadəsi ilə əlaqədar olaraq Aşıq Şəmşirlə söhbət etdim. Aşıq Şəmşir bildirdi ki, XVI əsrin böyük sənətkarı Şah İsmayıl Xətayinin dostu Miskin Abdal bizim ulu babamızdır. Mən bildirdim ki, Miskin Abdalın şeirlərinin bir hissəsini Arazın o tayından gəlmiş qoca bir aşıqdan yazıya almışam. Onun "Dağlar" şeiri Azərbaycan aşıq poeziyasında yaranmış bütün "Dağlar" şeirlərinin anasıdır. Aşıq Şəmşir bildirdi ki, Miskin Abdal bir müddət Dağıstanda bir xanın vəziri olub. Bir gün Dağıstan dağlarını gəzərkən at ötüşməsində Abdalın atı xanın atını keçir. Xan axşam adam göndərir ki, Abdala deyin o atı mənə versin. Miskin Abdal bu gün atı istəyən, sabah da arvadımı istəyər deyib, bərbərxanasını yığıb Azərbaycana köç eləyir. Yayın ortasında Miskin Abdal yağışa, borana düşür. İki oğlu burada həlak olur. Deyir: -

[1] Sədnik Paşayev. "XIX əsr Azərbaycan aşıq yaradıcılığı" (dərs vəsaiti), Bakı, 1959, səh 73

“Arvad mənə heç nə qismət olmadı, geri qayıdaq. İki kisə qızıl verib arvadına deyir: “Bunları saxla, əgər oğlumuz olsa, mənim arxamca göndər. Yox, qızım olsa, cehiz alıb köçürərsən”.

Mən on gündən artıq Aşıq Şəmşirlə bir yerdə qaldım. Sonra Aşıq Şəmşirə bildirdim ki, nəsil səcərənizin XVI əsrdə Miskin Abdalla başlaması mənə tədqiqatın açarını verdi. Atalar düz deyib ki, “Sən mənə bulağın gözünü göstər, onun axarını mən özüm müəyyənləşdirərəm”. Miskin Abdalla əlaqədar İrəvan mahalının Hallavar-Pəmbək bölgəsinə gəldim. Miskin Abdalla bağlı iki ziyarətgahı axtarıb tapdım. Miskin Abdal o qədər müqəddəs bir insan imiş ki, çölün maralları onun qapısına sağına gəlirmiş. Bir gün ocaqda maral südü bişirmiş. Qəflətən südü qan kəsir. Abdal deyir:

- Arvad, oğlun Şadman ölsün. Çöldə maralların yanında adam öldürdü, ocağıma qan düşdü. Marallar perikdi. Bir də bu qapıya gəlməz. Bu zaman at çapa-çapa Şadman gəlir və bildirir ki, iki nəfər maral sürüsünü aparırdı. Onun birini öldürdüm. Miskin Abdal deyir:

- Mən o maralları pulla almamışdım ki? Ocağımızın müqəddəsliyinə görə özləri gəlmişdi. O, ocağın altından odlu bir kösəv çəkib Şadmana atır. Ağac yerə sancılır. Qollu-budaqlı bir ağac olur. Həmin ağacı 1961-ci ildə mən də gördüm. Ağacın gövdəsi qapqara yanmış kösöv, başı isə yamyaşıl idi. Maymaq dağının başında Abdalın Ocaq-göl ziyarətgahı da vardır. Buraya gələn hər kəs gölə bir ovuc rəngarəng muncuq tullamalıdır. Beş yüz ilə yaxındır ki, bu gölə muncuq tullanır. Gün çıxanda, yaxud yağış yağanda gölün ətrafına qövsi-quzeh, göy qurşağı və Fatma nənənin hanasının ilmələri kimi ətrafa rəngarəng zolaqlar və dairələr düşür.

Mən Hollavardan qayıdandan sonra Dağıstana getdim və orada Abdalın adını daşıyan Miskincə dağlarını seyr etdim və Miskincə kəndinə gəldim. Miskincə qəbiristanlığında Abdalın oğlunun başdaşından hündür daş yox idi. Daş öz qibləsindən çıxaraq yönünü Azərbaycana sarı çevirmişdi. Mən o qəbrin yanında oturub göz yaşları içində üç bəndlik qoşmamı yazdım. Qoşmanın iki bəndini burada verməyi məqsədəuyğun bildik:

Gəzə-gəzə, ay Miskincə dağları,
Elə bilmə, gül dərməyə gəlmişəm.
Şair Miskin saldı bir vaxt yurd burda,
Həmin yurdu mən görməyə gəlmişəm.

Bu dağlarda itkin düşüb qardaşı,
Abdaloğlu az tökməyib göz yaşı…
Vətən sarı əyilib o başdaşı, -
Qibləsinə döndərməyə gəlmişəm.[1]

Nəsil-səcərəsini öyrəndikdən sonra Ağdabanlı Qurban və Aşıq Şəmşir yaradıcılığını araşdırmaq üçün sirli-sehrli sənət məbədinin qapısını aça bildim. Ağdabanlı Qurban haqqında, Aşıq Şəmşir haqqında çox sayda məqalələr yazdım. Ağdabanlı Qurbanın[2] şeir toplusunu çap etdirdim. Nəhayət, Aşıq Şəmşir haqqında elmi monoqrafiya[3] yazdım.

---

[1] Sədnik Paşa Pirsultanlı “Saz nəfəsli şeirlərim” Gəncə - 2008, səh 51
[2] Ağdabanlı şair Qurban, “Getmə” (şeir toplusu), Gənclik, Bakı, 2000
[3] Sədnik Paşa Pirsultanlı. “Aşıq Şəmşirin poetik aləminə səyahət”, Bakı - “Təknur” – 2008

48 ildir ki, davamlı olaraq Miskin Abdal, Ağdabanlı Qurban və Aşıq Şəmşir irsinin tədqiqi ilə məşğulam.

Aşıq Şəmşiri hərtərəfli öyrənmək çətindir. Aşıq Şəmşir yaradıcılığı dərya-dənizdir. Bu dənizdə nə qədər üzürəmsə, sahilə çata bilmirəm. Atalar yaxşı deyib: "Nə dərin dəryaya gir, nə də Xızır İlyası çağır". Mən dərin dəryaya bilərəkdən girmişəm. Hər dəfə Xızır İlyası çağıraraq Şəmşir dəryasına baş vururam. Hər dəfə də ləl-cəvahir sandığından bir inci seçib götürürəm. Bu dəfə dərin dəryaya girib bir qızıl bazubənd tapıb üzə çıxardım. Heç kəsə vermədim, öz qoluma bağladım. Bu mənim 48 illik zəhmətimin mükafatıdır. Qızıl bilərziyin üzərinə qızıl hərflərlə bu sözlər yazılmışdır: "Şəmşiri yaradan bir yol yaratdı, birdəmi təzədən yaradar indi?..".

Aşıq Şəmşir də tarixdə təkrar olunmaz bir sənətkar olduğunu duyurdu və özü-özünü qiymətləndirirdi.

# BƏHMƏN, - RUHUN MUROVUN BAŞINDAKI AĞ BULUDLARDAN YUXARIDADIR

Mən artıq Murovdağının vadisinə çatmışam. Yaz fəslinin ən gözəl çağları idi. Murovun sinəsindəki qar tamam ərimiş, yerini yaz çiçəkləri almışdır. Yamaclar bənövşəydi, nərgizdi. Külək güllərin rahiyəsini ətrafa yayırdı. Murovun zirvəsində qar zolaqları görünürdü. Dağın döşündə quzuçu bir oğlan oxuyurdu:

Əridi köksündən Murovun qarı,
Ağ kəlağay kimi başında qaldı.

Mən öz xəyalımla danışırdım. Bu şair kimdir? Bəlkə də şair deyil, rəssamdır. Lakin o, çiçəklərdən rəng alıb, otlardan boy alıb, sözün qüdrəti ilə belə ecazkardır. Daxilən təəssüf hissi keçirirdim ki, bu cür istedadlı bir gənci nə üçün indiyə qədər mən tanımamışam. Nurani qoca işarə edib bildirdi. Bax, Bəhmən Murovdağına bitişik olan bir təpənin üstündədir. Doyunca baxdım. Sən ona ömür boyu qibtə etmə. İlahi Bəhmənə qüdrətli bədii təfəkkür, idraki, bədii kəşflər bəxş edib. Sənə isə ilahi elmi təfəkkür verib. İdrakının qüdrəti ilə hər şeyi təhlilə gətirə bilirsən. Bəhmən bu gün gözünə kiçik bir təpə kimi görünür. Lakin gələcəkdə poeziyası onu Murov dağının bərabərinə qaldıracaqdır. Elə bu anda bulud yarıldı. Atların arasına bir lələk düşdü. Bu quş lələyinin, durnanın, qızıl qazın olduğunu seçə bilmədim. Mən cəld qalxıb lələyi əlimə götürüb baxmaq istədim.

Nurani qoca qeyri ixtiyari dilləndi:

- Siz əlinizi o lələyə vurmayın. O, Bəhmən Vətənoğluna məxsusdur. Əslində o, lələk deyil. İlahi qüdrət qələmidir.

Bəhmənin bədahətən söylədiyi şeirləri həmin bu qüdrət qələmi tarixin yaddaşında qalsın deyə çiçəklərin yarpağına, qayalara, daşlara yazır. Hətta, insanların zehninə, hafizəsinə həkk edir ki, bu nadir incilər itib batmasın, yaddaşlarda qalsın. Aralıda ağ-boz at otlayırdı. Bu at mənim gördüyüm başqa atlara, bu nurani qoca mənim gördüyüm başqa qocalara bənzəmirdi.

Qoca dilləndi:

- Oğul, Tərtəri keçərkən heç nə hiss etmədin? Tərtər çayının üzərinə güclü yağışdan sonra qövsi-qüzey, Fatma nənənin qurşağı düşmüşdü. Qurşağın altından ağ-boz atlı bir adam keçdi onda sən varlığında hiss etmədin. Murovdağının ətəyinə elə bil, quşun qanadında gəldin. Mindiyin atı yancinar edib buraxdın. Oğlum yaddaşını təzələ, çözələ, olub keçənləri yadına sal. Bir gün sən Dərbənddən Rukal kəndinə gəldin. Aşıq Əstandan "Yetim Aydın" dastanını yazdın. Dastanda səni heyrətləndirən bir yer vardı? Türkmənistandan Urşan və Qurşan iki aşıq gəlirmiş ki, Dərbənddə dədələrin son nümayəndəsi olan Dədə Heykəlini, Dədə Qürbəti, Dədə Gügünü deyişib bağlasınlar. Belə olmadı. Dədələr Urşan və Qurşanı bağlayıb sazlarını əllərindən aldı. Bu zaman Yetim Aydın meydana girib dədələri məğlub edib, qonaqların sazını alıb özlərinə qaytardı. Lakin Yetib Aydın Urşan və Qurşandan əl çəkmədi ki, mən də sizinlə Türkmənistana gedəcəyəm. Urşan və Qurşan Yetim Aydını aldadıb Misgincə dağlarından onlara qar gətirməyə göndərdilər. Yetim Aydın Misgincə dağlarında yorulduğundan başını qar zolağının üstünə qoyub yatdı. Ayılıb üzünü, başını

qarla yudu. Onun başına tük gəldi. O qədər gözəlləşdi ki, onu görən Yetim Aydın olduğuna inanmazdı. Bulud yarıldı. Göydən yerə güllü bir yaylıq düşdü. Yaylığın arasını qarla doldurub bağladı. Elə bu an ağ-boz atlı bir adam onu atının tərkinə alıb Urşanla Qurşana çatdrdı. Urşanla Qurşan gözlərinə inanmadı. Aydın gözəl bir oğlana çevrilmişdi. Onun üzündə nur var idi.

- İndi siz bilirsinizmi mən kiməm?

Qeyri-ixtiyarı dilləndim:

- Xeyr.

- Xızır İlyas.

Mən gözlərimi dolandırdım. Nə çəməndə boz atı gördüm, nə də nurani qocanı.

Özüm-özümlə xəyalımda danışmağa başladım. Mən Xızırın İlyasın aşiq və məşuqlara buta verdiyini, aşiqlərin, hamisi olduğunu, dalda qalanlara kömək etdiyini bilirdim. O, mənə tapşırdı ki, Bəhmən yaradıcılığını ömür boyu izlə. Onun ədəbi irsi sənin elmi təfəkkürününköməyi ilə araşdırılıb, tədqiq olunub tamamlanacaqdır. Sizin adınız ölməz bir kitabda – abidə də qoşa yaşayacaqdır.

Elə bil, mən quşdan qanad almışdım. Seyidlər kəndinə tərəf can atırdım, təbiəti seyr edirdim. Bir tərəfdə Murovdağı, bir tərəfdə Levin qalası, ortadan gəlib keçən Lev çayı, bir-birini əvəz edən təbiət mənzərələri məni heyrətə gətirmişdir. Öz-özümə deyirdim ki, burada şair olmayan da şeir yazar. Seyidlər kəndinə gəldim. Bəhmənin atası ovçu Kalışla görüşüb tanış oldum. Meşədən gəlirəm dedi. O, söhbətin şirin yerində balaca Bəhməndən bir söhbət etdi. Bəhmən hər şey haqqında özü qərar çıxarır. Ara-sıra mənimlə meşəyə gedir, mən ov etdikcə, o, həmin mənzərələri böyük duyğu ilə seyr edirdi.

Gah zinzə bulaqlarda əl-üzünü yuyurdu, gah yerə tökülmüş yarpaqları oynadır, gah da dinməz - söyləməz quşların nəğməsinə qulaq asır. Həmişə Bəhmən öz aləmində olur. Mən bir dəfə xınalı kəkliyə güllə atdım. Güllə quşa dəymədi. Bəhmən əlini-əlinə vurub ucadan güldü. “Onu vura bilməzsən” dedi.

Mənim məhəbbətim kəkliklə sənin güllənin arasındadır. Mənim məhəbbətimin zirehi gülləni geri qaytarır, kəkliyi qoruyur. Məhəbbət həyatdır. Məhəbbət olan yerdə ölüm də ola bilməz.

Kalış kişi bu söhbəti etdikcə mənim xəyalım nəyi isə arayırdı. Nizaminin “Sirlər xəzinəsi”ndə “Firidun şahla maralın hekayəti” var. Firidun maralı ata ayaqlatmaq istəyir. At ona çatmır. Atdığı ox yan keçir, marala dəymir. Firidun şah vəzirindən soruşur:

- Bu nə işdir. Hələ heç bir maral (keyik) mənim atımın qabağından qaça bilməyib. Hələ bir ov mənim oxumdan yayına bilməyib.

Vəzir soruşur:

- Sən o maralı sevirsənmi?

- Bəli, sevirəm, özü də çox sevirəm.

- İnsan sevdiyi, məhəbbət bəslədiyi bir canlını öldürə bilməz. Sən o maralı məhv etmək istəyirsənsə, özündə ona qarşı nifrət oyatmalısan.

Mən yatağa uzanarkən belə qənaətə gəldim ki, öz başları ilə müşahidələr qazanan, idrak düşüncəsi ilə təbiəti dərindən anlayan, onun sevgisini, məhəbbətini ürəyində yaşadan şair olmasa da şair olar. Bütün bu zənginliklər və gözəlliklər füsünkar təbiətin Bəhmənə hədiyyəsidir. Bəhmənin başqa şairlərdən fərqi ondadır ki, o, obrazlı təfəkkürə malikdir. Murovun başındakı qar zolağını ağ kəlağayıya bənzədən şair yaddaqalan bir lövhə yaradır.

Atası ilə ova çıxan Bəhmən daşlarda səyriyən kəklik obrazını yaradır. Mən axşam çarpayıya uzanıb pəncərədən bayıra baxırdım. Ay təkcə kəndə yox, qonağın yatdığı otağa da gəlmişdi. Kəndin gecələrini ay romantik bir aləmə qarışdırırdı. Dağları, dərələri elə işıqlandırırdı ki, insan istər-istəməz bu aylı gecəyə məftun idi. Bax, bir obrazlı fikri də Bəhmənə o aylı gecə bəxş etmişdir.

Gecələr qoymuş ay qonaq gələn,
Kəndimiz yadıma düşdü, nə düşdü.

Bu misraların müəllifi harada olur-olsun bu torpağı, bu kəndi yadından çıxara bilməz. Həmin misralar onu çağırıb bu torpağa, bu kəndə qaytaracaqdır.

Bəhmən üçün Kəlbəcər bölgəsi, Seyidlər kəndi ayrıca bir planetdir, bəlkə də kainatdır. Qədim bir türk ata sözü vardır. Orada deyilir: - "Əsl türk əcdadı doğulan yeri vətən bilər. Törəmə türk qarnı doyan yeri". Bəhmənin atası Kalış kişi və özü dağlar qoynunda, Seyidlər kəndində dünyaya gəlmişlər. Əcdadlar da bu torpaqda yaşayıb dünyadan köçmüşlər. Dünyanı heç bir neməti Bəhmənin bu torpağa olan məhəbbətini dəyişə bilməz. Onun nəfəsi də, iliyi də, qanı da, şeirlərinin misraları da bu torpağa bağlıdır. Bax, o gördüyünüz dağ döşündəki cığırlar Bəhmən şeirlərinin misralarıdır. O, misraları ip kimi qolunuza dolaya-dolaya getsəniz, Murova, Ağçınqıla, Levin qalasına gedib çıxa bilərsiniz.

Klassik ədəbiyyatda fələyə, Allaha iki cəhətdən müraciət olunur. Allah qarşısında giley-güzar meydana çıxır ki, nə üçün insanın birini əzilən, digərini isə əzən yaratmısan. Birini başa çəkirsən, birini ayağa salırsan.

Bu sonuncu yaradıcılıq üslubuna görə Bəhməni klassik aşıq yaradıcılığında kim ilə müqayisə etmək olar. Əlbəttə, Bəhməni, Dirili Qurbani ilə Xəstə Qasımla müqayisə etmək olmaz. Bəhməni XVII əsrin azman sənətkarı Tufarqanlı Abbasla müqayisə etmək olar. Tufarqanlı Abbas Şah Abbasa qarşı çıxırdı, çəkinmədən onun üzünə deyirdi:

Qoymusan küfrünən tac adam oğlu.

"Adamoğlu" ifadəsinin yozumu adam oğlu olmamaq deməkdir. Tufarqanlı Abbas öz zəmanəsinin eyiblərini onun iqtisadi bərabərsizlik üzərində qurulduğunu, ölkədə rüşvətxorluğun ayaq tutub yeridiyini, bədii dillə elə güclü, qüvvətli deyirdi ki, şeirin hər misrası Şah Abbasın bu üzündən dəyib o biri üzündən çıxırdı. Tufarqanlı Abbas deyirdi:

Ay ağalar bir zəmanə gəlibdir,
Yoxsul üzün sürtür var ayağına.
Varlı varın verib, canın qurtarır,
Yoxsulu çəkirlər dar ayağına.

Gənc Bəhmən ustadının yolu ilə gedərək zəmanəsini elə dəhşətli qırmaclayırdı ki, insan qulaqlarına inanmır. İnanmır ki, Bəhmən hakim qüvvədən qorxmadan bu ifadələri işlədir:

Varsız kim yetibdir bir həqiqətə?
Tanrı da baş əyir altun-sərvətə,
A Bəhmən, haqq gəzib düşmə zəhmətə,
Ədalət cibində qul olandadır.

Bəhmənin hər misrası hakim dairə nümayəndələrinin üzünə şillə kimi dəyirdi. Onlar bu ağrıları canlarında hiss edirdilər. Ayrı-ayrı bölgələrdən, kəndlərdən adamlar, xüsusən kənd adamları Kəlbəcərə Seyidlər kəndinə gəlirdilər. Bəhmənin yeni-yeni şeirlərini aparmaq üçün. Hər toyda, mağarda geniş xalq kütləsi aşıqdan yaralara məlhəm olan Bəhmən şeirlərini istəyirdilər. Lakin dövlət adamları müxtəlif yollarla Bəhməni incitsələr də, birbaşa ona qarşı çıxa bilmirdilər. Xalq Bəhməni sevirdi. Onun şeirlərini bağırlarının başında saxlayırdılar. Şeirlərini zehinlərdə, şüurlarda, hafizələrdə yaşadırdılar. Xalq onun ətrafına çəpər çəkmişdi. İnsanlar Bəhməni kirpik gözü qoruyan kimi qoruyurdular. Bəhmən bunu duyurdu, sevinirdi, qədirbilən xalqı ilə öyünürdü. Ona görə də o, Vətən övladlarını təsvir və tərənnüm etməkdən doymurdu. Gündə yazıb-yaradırdı, aşıq poeziyasını onun şeir xəzinəsini yeni incilərlə zənginləşdirirdi. Bəhmən yaradıcılığı, onun ədəbi irsini dərindən öyrənmək üçün onu bir neçə bölümə ayırmaq və öyrənmək olar.

Bəhmən Vətənoğlu getdikcə hadisələrə dərindən müdaxilə edirdi. Məntiqli nəticələr çıxarırdı. Getdikcə məhəlli xarakterli mövzulardan uzaqlaşır, bəşəri möv-zulara qovuşmağa çalışırdı.

Bəhmən təsəllini Azərbaycan deyilən bir vətəndən alırdı. O yazırdı:

Hərdən gözüm dolar mənim,
Gün bənizim solar mənim,
Haqsız cəzam olar mənim,
Fəqət günahkar olmaram.

Bəhmən ardıcıl, sistemli bir yaradıcılıq yolu arayırdı. Yaradıcılığına bəşəri mövzular gətirmək istəyirdi.

# BOZALQANLI AŞIQ ƏLƏSGƏR

Aşıq Ələsgər təkcə Tovuzda deyil, yurdumuzun hər guşəsində məşhur idi. Bu mahir və ustad sənətkara el arasında Tağıyev Ələsgər əvəzinə Çopur Ələsgər deyirdilər.

Mənim 1955-ci ilin avqust, sentyabr aylarından etibarən respublikanın mərkəzi qəzetlərində aşıq yaradıcılığı haqqında, xüsusilə saz havalarının diqqətlə toplanması barədə silsilə yazılarım dərc olunurdu. Bundan əlavə, mənim aşıqlar diyarı olan Tovuza, eləcə də Şəmkirə və Gədəbəyə səfərlərim olurdu. Gəncə aşıqlar üçün çayqovuşandır. Gəncə bazarında Göyçəli Aşıq Hüseynin çayçısı aşıqların görüş yeri idi. Hər istirahət günü mən həmin görüş yerinə gəlib sənətkarlarla söhbət edir, sənətin sirrinə bələd olurdum.

1958-ci ildə «Yeni Daşkəsən» qəzetində redaktor vəzifəsində çalışırdım. Rayon partiya komitəsinin birinci katibi Qəhrəman Dünyamalıyev redaksiyaya zəng çaldı:

- Ayə, Sədnik, gözlərin aydın, Tovuzun məşhur aşıqları Daşkəsən mədənçilərinə konsert verməyə gəliblər. Get, onları qarşıla və qonaq evinə apar. Mən xəbər verəndə onları mədənçilər klubuna gətir.

Onu da qeyd etməliyəm ki, Qəhrəman Dünyamalıyev Ağstafanın Tatlı kəndindən idi. O, aşığı, aşıq musiqisini ürəkdən sevirdi. Onu hava, su kimi qəbul edirdi.

Biz kluba gəldik. 400 yaxın adam tutan klub ağzınacan dolu idi. Gənc oğlanlardan çoxu ayaq üstə dayanmışdı. Qabaq cərgədə Qəhrəman Dünyamalıyev öz ailəsi ilə, üçüncü katib Heydər Məmmədov, rayon

sovetinin sədri Salman Uğurluyev, xalq hakimi Mahmud Əliyev (onlar da ailələri ilə yanaşı oturmuşdular). Həmin cərgədə mənə də yer saxlamışdılar. Mən səhnəyə ilk çıxaraq bildirdim ki, Tovuz aşıqlardan Aşıq Əkbər Cəfərov, İmran Həsənov, Ələsgər Tağıyev, qadın aşığı – Səyyad və balabançı İbrahim sizin görüşünüzə gəlmişdir. Salman Uğurluyev yerindən söz atıb dedi:

- Məclis İmranla Əkəbərin «Koroğlu» deyişməsi ilə başlasın.

Aşıq Ələsgər bir də gördüm yanımdadır. Əllərini sinəsinə qoyub məclis əhlinə baş endirib dedi:

- Salman qağa, siz ki, aşıq sənətinə bələdsiniz. İstər toyda, istər mağarda, istərsə də şənliklərdə olsun Qurbanidən, Abbasdan, Dədə Ələsgərdən, tovuzluların sənətinə baş əydikləri Bozalqanlı Hüseyndən ustadnamə deməmiş məclis başlana bilməz. Aşıq Ələsgər (Çopur Ələsgər) adını çəkdiyim sənətkarların hər birindən bir ustadnamə söylədi və bundan sonra salona müraciətlə dedi:

- Dəstəmizdə səsi hamının səsindən zil və məlahətli qız aşığımız olan Səyyad iştirak edir. Konsert onunla başlanacaq. «Qız səsi ola, saz səsi ola, onda gör nə olar».

Doğrudan da Səyyadın şux gözəlliyi, incə səs, saz çalması, onun məharətlə oxuması, hələ bir yandan da balabançı İbrəhimin onu ürəklə müşayət etməsi, salondakıları məst etmişdi. Alqışlardan mədənçilər klubunun divarları da titrəyirdi.

Ələsgər səhnəyə çıxıb: - Qardaşlar, bacılar xoşunuza gəldi? İndi səhnəyə Aşıq Ələkbər gələcək. O da, mən də Dəmirçi Hüseynə şəyirdlik etmişik. Mən özümdən 3 yaş kiçik olsa da, Aşıq Əkbərə şagird

olmuşam. Aşıq Əkbər əvvəl ustad aşıqlar yanında balabançı, gözəl səsi olduğu üçün sonra aşıqlığa başlamışdı. Mən istəyirəm ki, indi səhnəyə Aşıq Əkbər gəlsin. Bozalqanlı Hüseyni «Süzmüş oylağıma dəydi qayıtdı» misrası ilə başlayan Qoşmasını «Orta Cəlil»li saz havası üstündə oxusun. Siz onda bilərsiniz ki, Aşıq Əkbərin «Orta Cəlil»i üstündə laylası ana laylası qədər sizə xoş təsir bağışlayacaqdır.

Əkbər oxuyub qurtarandan sonra Ələsgər səhnəyə gəlib dedi:

- Camaat icazə versəniz, ustadım Əkbərin əvəzinə İmranı meydana mən çıxarım. «Dəli Koroğlu» havası üstündə ikimiz qabaq-qabağa deyişərik.

İmran səhnəyə çıxıb salamlaşdı. Toqqasını düzəltdi, əlini bığına çəkib gülümsəyərək dedi:

- Ələsgər, bu meydan, bu da şeytan. Ələsgər gülə-gülə dedi:

- Meydanı çoxdan tanıyıram, şeytanı siz deyirsiniz, amma qabağındakı nərdir.

İmran nə qədər sazı zilə çəkdisə, Çopur Ələsgər o qədər sazı zilə çəkdi. İmran ayağını bir yerə vuranda Ələsgər iki yerə vurdu. İmran səsini qaldıranda, o da səsini var gücü ilə qaldırdı, daha əzəmətli görkəm alırdı. Oxuyub səhnədən qayıdarkən şair Salman Uğurluyev yerindən dilləndi:

- İkiniz də dostumsuz, Aşıq İmran bilməlisən ki, İmran İmrandırsa, Ələsgər də Ələsgərdir.

O günün konserti çox xoş keçdi. Axşam rayonun rəhbər işçiləri xüsusi məclis gecəsi təşkil etdi. Hərə bir tərəfdən hansı nağılın danışılması ətrafında söz dedi. Çopur Ələsgər yenə də öz zarafatlarından qalmadı. O zarafat ki, onun içərisində həqiqət var idi. Ələsgər dedi:

-Qəhrəman müəllim, xədəngi söz oxumaq, meydanda gərdiş etmək Əkbərlə İmranın işidir. Səyyad da ki, bir dağ çeşməsidir. Ürəyin yananda bir ovuc su iç, feyziyab ol. O ki qaldı dastan söyləməyə, söz yurduna yaraşıq verməyə Çopur Ələsgərin işidir. Çopur Ələsgər «Aşıq Alının Türkiyə səfərini» danışdı. Deyişmələrdə qız aşığı Səyyad - Sərvi Xuramanı əvəz edirdi. Çopur Ələsgər Sərvi Xuramanı elə tərif etmişdir ki, onun elə canı obrazını yaratmışdır ki, Aşıq Səyyada baxanda elə bil Sərvi Xuramanı görürdün. Bozalqanlı Aşıq Ələsgər «Aşıq Alının Türkiyə səfərini» elə geniş şəkildə, elə yerli-yataqlı danışdı ki, bundan sonra həmin dastanı heç bir aşığın dilindən, hətta Göyçə aşığının dilindən elə gözəl quruluşda eşitməmişəm. Aşıq Ələsgər zəngin bilikli, ciddi, ustad bir aşıq olduğu halda, məclisin elə yerində, elə bir ifadə işlədirdi ki, hamını güldürürdü. Onun şuxluğu da, ciddiliyi də, səhnədəki, məclisindəki bütün tərzi hərəkətləri hər kəsə xoş gəlirdi. 1958-ci ilin oktya-brından bəri keçən vaxt ərzində Ələsgərlə əlaqə saxlamışam. Hər Tovuza gedəndə sazına, sözünə qulaq asmışam. Bozalqanlı Hüseynlə Daşkəndli Aşıq Nəcəf haqqında ondan gözəl xatirələr toplamışam. Bu xatirələrin bir qismi haqqında danışmışam. Böyük bir qismi özümdə qalıb. Hətta, 60-cı illərdə Ələsgər məni Bozalqanlı Hüseynin köhnə evinə aparmışdı. Hüseynin gəlini Aşıq Hüseyni, Nəcəf və Əsədi bir məclisdə görmüşdü. Onların bir yerdə söhbətlərinin şahidi olmuşdur. Yəqin ki, gələcəkdə həmin təəssüratları da çap etdirəcəyəm. Burada Ələsgərin də sənətkar payı vardır. Çopur Ələsgərin aşıq ifaçılığı, məcliskeçirmə qaydalarının formalaşmasında, gənclərin saza, sözə düzgün yiyələnməsində xidmətləri çox böyükdür. Aşıq Çopur Ələsgər zaman-zaman yadda qalacaq ünlü sənətkardır.

# AŞIQ BİLAL HAQQINDA BİLDİKLƏRİM

Aşıq Pənah Pənahov mənimlə üç günlük söhbətində qeyd edirdi ki, Şirvanda və Muğanda aşıqlıq məktəbinin bünövrəsini Şirvanda Aşıq İbrahim, Muğanda isə Kürüstü Kərəm olmuşdur. Bunların sənətini bir məcrada birləşdirən Şirvanda, Muğanda yayan, kamilləşdirən Aşıq Bilal olmuşdur. Aşıq Bilal bir tərəfdən Aşıq İbrahimdən dərs alır, o biri tərəfdən Şirvanın məşhur ziyalıları ilə, Seyid Əzim Şirvani ilə, Mirzə Ələkbər Sabir ilə, Qənizadə ilə əlaqə saxlayırdı. Mahmudağa məclisində muğam sənətini dərindən mənimsəyirdi. "Kitabi-Dədə Qorqud"da olduğu kimi, Aşıq Bilal camaatdan məclis keçirərkən dövran pulu yığmamışdır. Onun aşıqlıq etdiyi coğrafi məkanlarda ona taxıl zəmiləri əkmişlər, qoyun-quzu saxlamışlar, "Bamsı Beyrək" boyunda Banuçiçək deyir:

- Sən gedəli ozana qaftan verdiyimiz yox, buynuzu burma qoç verdiyimiz yox.

Pənah əli ilə Salyan şəhərinin yuxarı hissəsini göstərib dedi:

- Bax o bir neçə hektar yer Bilalın zəmi yeri adlanır.

Aşıq həvəskarları zəmiləri, bostanları becərib, Aşıq Bilala hər fəsildə pay göndərərdilər.

Şirvanda Aşıq ifaçılığı nə üçün bu şəkil almışdır. Maarif naziri tar ərəbin, farsındır deyərək, Şirvanda Mahmudağa məclisinə məxsus və digər sədəfli tarları baş-başa yığıb od-vurub yandırtmışdır. Yüksək dini təhsil görmüş, Aşıq Bilal İslam mədəniyyətini yüksək qiymətləndirirdi. Məlumdur ki, Şirvanşahlar sarayında xanəndələr, özünə geniş yer almışdır. Aşıq isə bədəvi (qeyri-

mədəni) sənət sahibi olaraq mərkəzdən uzaq ucqar kəndlərdə çalıb-oxuyurdular. Tara bağlı xanəndə sənəti gözdən salındıqdan sonra meydan aşıqlara verildi. Udulu kəndində məclis keçirərkən Aşıq Bilal bir ağız muğam oxuyurdu. Aşıq Bilal oxudu və dedi: "Neysiz, nağarasız muğam oxunmaz". Beləliklə, Aşıq Bilal öz yanında məclislərə muğam oxuyan neyçi və nağaraçı apardı. Aşıq ifaçılığı ansambla çevrildi. Dövlət 1933-cü ildə Aşıq Bilalı ehtiyatlandırdı. Onu istintaqa çəkdi. Lakin nə olsun, xalq Bilalın ifaçılıq sənətindən doymurdu. Hətta, Bilalın oxumağından çox fasilə zamanı söylədikləri dini ayətlər və rəvayətlər camaatı daha çox maraqlandırırdı. Buna görə də 1937-ci ildə Aşıq Bilalı dustaq edib, Sibirə göndərdilər. Lakin Aşıq Bilalın başqa adla söylədiyi çox bəndli sürgün həyatını təsvir edən qoşması bütün yaradıcılığına bərabərdir. Biz Bilalın həmin şeirinin yurdunu dəqiq öyrəndikdən sonra şirvanlılara ərməğan edəcəyik. Allah Aşıq Bilala rəhmət eləsin! Bu gün onun özü olmasa da, bizə sürgün yollarında deyilən sözləri bir abidə kimi qalmaqdadır. Həmin qoşmanı onunla sürgünə birlikdə getmiş şair-aşıq Alışan Sibirdən gətirmişdir.

# AŞIQ TAĞLABİYANLI ŞAMİL HAQQINDA XATİRƏLƏRİM

10 gün İsmayıllı rayonunda qonaq qaldım. İsmayıllının birinci katibi Qəşəm Aslanov, rayon qəzetinin redaktoru, şair Musa Yaqub idi. Bunlar hər gün mənə ya bir yerdə, ya da tək-tək qonaqlıq verirdilər. Axşamlar isə Talıstan mehmanxanasında qalırdım. Gecələr pəncərəmi çöl ayıları döyürdü. Mehmanxananın qaravolçusu çox zaman axşamlar çıxıb gedirdi. Mən bir gün Qəşəm Aslanovun yanına gəlib Tağlabiyanlı Aşıq Şamillə görüşmək arzusunda olduğumu bildirdim. Aslanov maşın göndərib Aşıq Şamili Tağlabiyandan gətiRTdirdi. Biz onunla 3 saatdan artıq redaksiyada söhbət etdik və sonra bayıra çıxıb bir ağacın altında şəkil çəkdirdik. O, əvvəl Şirvanda aşıq sənətinin başlanmasından və yayılmasından söhbət etdi. Göyçədə və Gəncəbasarda dastana keçməzdən əvvəl aşıqlar üç ustadnamə söyləyirlər. Bizdə isə bircə üç bəndlik gəraylı və qoşmanın hər bəndi o yerlərin bir ustadnaməsini əvəz edir. Gəncəbasarda adətən ustadnamələr divani üstündə, divani şeiri ilə və ya qoşma havaları üstündə deyilir. Bizim ustadnaməni əvəz edən pişrovlardır. Pişrov fars sözü olub başlanğıc – giriş deməkdir. Siz tez-tez "İbrahim pişrovuna", "Daşdəmir pişrovuna", "Koroğlu pişrovuna" və digər pişrovlara rast gəlirsiniz. Yəni Aşıq İbrahim dastana başlayarkən və yaxud məclisə daxil olarkən özünün xobbisi, sevdiyi saz havası ilə, yəni öz pişrovu ilə, girişi ilə məclisə başlayır. Ona görə də "İbrahim pişrovu" ilə "Daşdəmir pişrovu" bir-birindən seçilir. Hərə özünə məxsus bir tərzdə saz havasına zinət verir. İfanın tərzi-hərəkəti dəyişir. "Əsli-Kərəm" dastanına başlayarkən hadisələr kədərli olduğundan bu yerdə

“Şirvan şikəstəsi” və ya ona uyğun olan şikəstələr daha çox ifa edilir. Adətən bizdə “şeşəngilər” şən mahnılarla ifa olunur. Şeşəngilərin çoxu “Şur” üstündə oxunur. “Koroğlu havaları” adətən “Mahur” üstündə oxunur. Məhəbbət şeirləri isə “Segah”a bağlı “Şirvan havaları” üstündə oxunur. Bizdə Şirvan aşıq havalarını, dastanlarını dərindən bilən, bəlkə də çoxunu özü yaradan Əngəxaranlı Aşıq İbrahimin yaradıcılığı ədəbi irsi, ifaçılıq yolları lazımınca öyrənilməyib. Şirvanda el misalıdır: “Aşıq Əngəxarandan çıxar”. Adətən Şirvanda məclislərin çoxu “İbrahim pişrovu” ilə başlanmışdır. Əski “Pişrov havası”ndan başqa yerdə qalan pişrovlar “İbrahim pişrovu”ndan sonra yaranmışdır. Əngəxaran Şirvan aşıq məktəbinə İbrahimlə yanaşı, onun şagirdi Daşdəmiri də bəxş etmişdir. Aşıq Bilal Aşıq İbrahimin şagirdidir. Aşıq Daşdəmir İbrahimin az qala özü səviyyədə aşıq olmuşdur. Deyərlər ki, Əngəxarandan başlayan aşığın yaradıcılıq yolu Cəyirlidə bitər. Aşıq Abbas, Barat və Məmmədağa bu kənddə yetişmişdir. Həmişə Aşıq Abbas deyərmiş: “Əngəxaran aşıqları bizim Turunc bulaqdan su içəndən sonra coşa gəlmişlər”. Tağlabiyanlı Şamil mənə bir neçə şeir nümunəsi yazdırdı. Onlardan bir neçəsini burada vermək istəyirəm. O mənə Qaltantağının 7 bəndlik “Arasında” qoşmasını yazdırdı. Mən o qoşmanı Ağalar Mirzə namizədlik dissertasiyası yazanda Tağlabiyanlı Şamilin adından ona hədiyyə verdim. Nadir bir inci olduğu üçün Şamilin dilindən çıxdığı şəkildə bu yazıda təqdim edirəm:

Bir huri-mələksən xilqətin insan,
Yoxdur bərabərin söz arasında.

Misal var,  bir ovçu ahusun görsə,
Var qıya baxışın göz arasında.

Var qıya baxışın canlar dərdinə,
Canımı qoymuşam can qədərinə,
Düşməmisən tülək tərlan əlinə,
Dağıda tükünü toz arasında.

Dağıda tükünü tökə çöllərə,
Dübarə deyirlər hər məsəllərə,
Laçın kimi çırpınırsan göllərə,
Sən də bir sonasan qaz arasında.

Səndə bir sonasan,  göldə üzərsən,
Yana çıxıb qollarını süzərsən,
Tovuz  kimi iki yanlı gəzərsən,
Öldürdün sən məni  naz arasında.

Öldürdün sən məni xalları fil-fil,
Zülfləri yasəmən, saçları sünbül,
Sənin tək bir gül, mənim tək bülbül,
Yoxdur gülüstanda yaz arasında.

Yoxdur gülüstanda tayın-yoldaşın,
Xuraman yerişin, qəh-qəh gülüşün,
Tanıram yerişin, ceyran baxışın,
Əgər olsan yüz min qız arasında.

Əgər olsa yüz min gözəl dilbərin,
Danışa bilməsə aç düymələrin,
Xaltanlı Tağıyam, al məmələrin,
Öləndə qəbrimi qaz, arasında.

Mənə üç dastan arzulaması yazdırdı. Onun birincisi "Səyyad və Sədət" dastanında Səyyadın arzulaması, ikincisi Vaqifin "Qız vücudnaməsi" şeiri, "Koroğlu" dastanında olan arzulama.

**"Səyyad və Sədət" dastanından bir parça:**

Səyyadın atası qol bəzməndi düzəltdirib evdə qoydu. Özü tacir idi. Qardaşı ilə getdilər. Dedi:

- Arvad, Səyyad hələ uşaqdır. Əgər böyüyərsə, bu qol bəzməndini qoluna bağla, əgər olmazsa, mən gələnə qədər satıb yeyərsən.

Bu minvalnan Səyyad böyüdü, bir yaxşı oğlan oldu. Atası 18 il idi ki, getmişdi. Səyyad yatanda Fərrux Mirzənin qızı Sədətə vergi verildi. Dedi:

- Ana, mən gedirəm sevgilimin dalınca.

Gəlib Fərrux Mirzənin evinə çatdı. Atası və əmisi burada ticarət edirdilər. Səyyad bilmirdi ki, Fərrux Mirzənin qızını Arazqıraxlı Mahmud xanın oğluna veriblər. Gəlin gedən vaxt qan yağdı oğlan öldü. Sədət geri qayıtdı. Hidayət dedi:

- Gəl gedək, onun yasını götürək.

Bu zaman Fərrux Mirzə Səyyadı Dağıstana qardaşının yanına göndərdi. Kağız yazmışdı ki, bu oğlanı öldür, qanlı köynəyini mənə göndər. Nə isə, Səyyad Fərrux Mirzənin qardaşının xoşuna gəldi. Öz-özünə dedi:

- Adam belə oğlanı öldürərmi?

Kağızın dalına yazdı ki, qardaş, mən ölüm Sədəti bu oğlana verib, məni də toya çağırarsan.

Kkağızı Səyyada verdi.

Səyyad kağızı gətirib Fərrux Mirzənin yanına gəldi. Bu zaman atası və əmisi Fərrux Mirzənin evində

oturmuşdular. Bir də gördülər ki, bir cavan aşıq gəldi. Səyyad qapıdan keçəndə atası Hidayət gördü.

Atası dedi:

- Fərrux Mirzə, gəl o cavan aşığı oxudaq, qulaq asaq. Dünyanın bir yanı toy, bi yanı vaydı.

Fərrux Mirzə icazə verdi. Səyyad içəri gəldi. Atası dedi:

- Oğul, oxu, nə lazımsa, verəcəm.

**OLA**

Qadir Allah, budur səndən diləyim,
Əzəlkindən artıq bir günüm ola.
Babamın dövləti gələ başıma,
İncidən düzülmüş bir donum ola.

İsfahandan gələr qızıl almalar,
Yaxşı olar dosta gedib gəlmələr,
İpək dəsdərxanlar, qızıl bölmələr,
Ortadan qalxmaz bir xonum ola.

Fərrux Mirzə dedi:

- Hidayət, gör nə yalanlar danışır.

Amma bu hədiyyələri atası Səyyadın toy tədarükünə düzəltmişdi. Atası dedi:

- Oğul, daha nəyin var?

Yüz birim atlana, yüz birim düşə,
Altmış, əlli öyəcim çəkilə şişə,
Ağrı dağı kimi şülənim bişə,
Axan Araz kimi sel yağım ola.

Fərrux Mirzə dedi:

- Hidayət, mən Araz çayı kimi yağı haradan alım?

Səyyadın atası dedi:

- Plovu yeyəndə gərək barmağının arasından yağ tökülsün. Oğul, ayrı nəyiniz var?

Yüklənə bərxanam, yeriyə şatır,
Qabaqda yeriyə qəfliynən qatır,
İpəkdən alaçıq, yana-yana çadır,
Bu yurddan o yurda köç-qonum ola.

Atası dedi:

- Oğul başqa nəyin var?

Qadir Allah, budur səndən diləyim,
Sağına gələr üç yüz inəyim,
Mərmərdən otağım, qızıl dirəyim,
Onların içində bir xanım ola.

Atası dedi:

- Elə bil bu aşıq mənim evimin şəklini çəkib gətirib. Oğul, başqa nəyiniz var?

Üç yüz öküzümüz var, hamısı pələ,
Üç yüz cöngəmiz, hamısı kələ,
Üç yüz camışımız sağına gələ,
Evimizin dalı sal qamış ola.

Üç yüz mayamız var, sarğıdan yağlı,
Üç yüz daylağı var, budundan dağlı,
Üç yüz köhlənimiz var, tövlədə bağlı,
Onları görməyə bir gözüm ola.

Atası dedi:
- Oğul, hardansan?

Yerim xəbər alsan, Heratdır, Herat,
Atam Nidayətdir, əmim Hidayət,
Anam Nərgizbani, öz adım Səyyad,
Sədətə yetişən bir günüm ola.

Atası qolunu açdırıb baxanda gördü ki, qol bəzməndi qolundadır. O, oğlunu tanıdı. Allah hamını öz məqsədinə çatdırsın. Təzədən atası oğlunu və Sədəti götürüb gəldilər, qırx gün, qırx gecə toy elədilər.

Koroğlu dastanından:

Mən tanrıdan nə istərəm,
Kaxetdə bir bağım ola.
İçində mərmər hovuzu,
Üç güşə otağım ola.

Çıxam eyvanda oturam,
Mətləblər yerinə yetirəm,
Bir gürcü qızı gətirəm,
Hər gecə yığnağım ola.

Tərəkəmə dəmdən dəmə,
Ağlı, huşu gəlir cəmə,
Misri qılınc, ləzgi qəmə,
Belimdə yarağım ola.

Tərəkəmə Çandaqda boğa,
Sinəm dözüb düyün, dağa,

Arandan çıxaq yaylağa,
Həmişə yaylağım ola.

Bu işləri tez istərəm,
Sinəm üstən söz istərəm,
Başı açıqdan qız istərəm,
Gələ cavan çağım ola.

Koroğluyam özüm billəm,
Ötkün ola, sözüm billəm,
Nə eyləsən, özüm billəm,
Cənnətdə məkanım ola.

Mən tanrıdan nə istərəm,
Poladdan qolçaq qoluma,
Dəlilər sağı, soluma,
At minə, çıxa yoluma,
Xan eyvaz dayağım ola.

Namərdlərdən duram iraq,
Mərdlərin belinə yaraq,
Büllur şişə, eyvan otaq,
Döşəməyə xalım ola.

Hökmüm iştəyə daşa,
Qabağımdan qaça paşa,
Əmliklər çəkdirəm şişə,
Hər gecə qonağım ola.

Koroğluyam hər yaşımda,
Qılınc yarası başımda,
Yar əyləşə qarşımda,
Sönməyən çırağım ola.

Vaqifin “Ola” arzulaması kitabda olduğu üçün burada verməyi lazım bilmirik. Ancaq Allah açmayan bir sirri mən burada açacağam. Aşıq Şamil Əngəxaranlı Aşıq İbrahimdən çoxbəndli “Yurdum” rədifli qoşma yazdırmışdır ki, o, böyük bir abidədir. Qoşma Şah İsmayıl Xətayinin “Bahariyyə”si ilə yanaşı duran bir sənət incisidir. “Yurdum” qoşmasını oxuyanda kənd lövhələrini, qoyun-mal binələrini, yurdun laləzarlıqlarını, at kişnərtisini, çoxsaylı bulaqları görürsən, eşidirsən. O zaman belə qənaətə gəlirsən ki, Şirvan aşıq məktəbi nə böyük məktəbi məktəbdir. Onun Aşıq İbrahim kimi yaradıcısı vardır. Aşıq İbrahim muğamı aşıq sənəti qədər, aşıq sənətini də muğam qədər dərindən bilmişdir. Mən “Şirvandan gələn səslər” adlı Şirvan aşıq məktəbindən danışarkən bundan geniş bəhs edəcəyəm. “Aşıq Əngəxarandan çıxar” adlı kitabın ilk fəsli Şirvan aşıq məktəbinin ürəyi olacaqdır.

## MEYDAN SƏNİNDİR




Aşıq Haşım Qubalının kitablarından birinin adı belədir: "Mənə meydan verin". 53 ildir ki, Azərbaycan folklorunun, türk dünyası folklorunun eləcə də aşıq yaradıcılığını, aşıq sənətini tədqiq edirəm. Bu sa-hədə yüzlərlə məqaləm Qazax, akın jıranlarına, türkmən, qara-qalpaq, uyğur və Dağıstan qopuzçularına türk ozan və aşıqlarına həsr olunmuş məqalələrim adını çəkdiyim məkanlarda çap olunmuşdur.

"Ozan aşıq yaradıcılığına dair araşdırmalar", "Azərbaycan aşıq sənətinin nəzəri məsələləri", Azərbaycan folklorunun tədqiqinə dair elmi əsərlərim yazı masamın üstündədir. Burada çox sayda aşığın yaradıcılığından bəhs olunur. Mən sizin 3 şeir kitabınızla tanış olduqdan sonra təəssüf hissi keçirdim. Nə üçün indiyə qədər mənim kitablarımda yer almamısınız.

Əsl aşıq odur ki, saz çalmaqla, məclis keçirməklə bərabər eli, obanı dolaşarkən gördüklərini, eşitdik-lərini şeirə gətirsin, duyğularını dilləndirsin. Onu sözlə ifadə etməyi bacarsın. Dinləyicilərini və oxucularını heyrətləndirə bilsin. Gələcək nəsillərə dəyərli, mənəvi irs qoyub getsin.

Siz yuxarıda qeyd etdiyim kimi, kitabınıza "Mənə meydan verin" adını vermisiniz. Əzizim, Sizə meydan verən mən və ya başqa tədqiqatçılar deyil, Sizə meydan verən öz istedadınızdır. Sizə meydan verən sizin

sazınızdır, avazınızdır. Sinənizdən qopan şeirinizdir, sözünüzdür. Adını çəkdiyim həmin kitabın ilk şeiri belə başlayır. Onun çoxsaylı bəndləri içərisində bir bəndi sizin amalınızı, sənət yolunuzu gün kimi aydınlaşdırır:

Mənə meydan verin, ürək sözümü,
Ali məclislərdə söyləsin dostlar.
Ömrümü, günümü, xoşbəxtliyimi,
Vətənin ömrünə calayım, dostlar.




Aşıq Haşımın əlimdə olan ikinci kitabı "Qonaqkəndə gəl" adlanır. Kitabın annotasiya hissəsində deyilir:

"Qonaqkəndə gəl" məşhur el sənətkarı Aşıq Haşım Qubalının oxucularla ikinci görüşüdür. Saz-söz məclislərini xoş əhval-ruhiyyə ilə yola verən Aşıq Haşım, həm də istedadlı şairdir". Doğrudan da Aşıq Haşım mahir saz-söz ustası, məclislər keçirən azman sənətkar olmaqla yanaşı, həm də öz coğrafi mühitini təsvir və tərənnüm edən bir şairdir. Hətta, öz torpağına vurğun olan sənətkar dağları, şəlaləri ilə o yerlərin turacını, elə təsvir və tərənnüm edir ki, elə bil, rəssam kimi boyalı, naxışlı, yadda qalan təbii lövhələr yaradır. Hiss edirsən ki, qarşındakı bir aşıq şairin kitabı deyil. Ecazkar lövhələr yaradan, bizi heyrətdə buraxan kamil bir rəssamın əsəridir. O, bu tablonun ərişini göy otlardan, ilməsini rəngarəng güllərdən, çiçəklərdən almışdır. Bu təbii boyalar heç zaman onun şeirlərini naxışlarını silinməyə qoymayacaq. Zaman-zaman böyük

dəyərə malik, bədii cəhətdən mükəmməl olan bu şeirlər ürəklərdə yurd-yuva bağlayacaqdır. Bu vətənpərvər aşıq, şair, ürəkdən bağlı olduğu, sevdiyi Qonaqkənd torpağını nə qədər heyranlıqla təsvir və tərənnüm etdiyinin şahidi olursan:

Şəlalər durub qoşa, üz-üzə,
Turaclar nazlanıb çıxarlar düzə,
Təbiət səninlə başlayır sözə,
Könlün istəyəndə təzə söz, qəzəl,
Əziz qonağım ol Qonaqkəndə gəl.

"Qurban olum o torpağa" adlı gəraylısını oxuyanda bərli-bəzəkli, körpələrin təbiətinə uyğun layla misraları sədalanır-səslənir.

Yamacları bənövşəli,
Üst tərəfi göy meşəli,
Orda arzumun məsəli,
Qurban olum o torpağa.

Aşıq Haşım dostpərəst, dostunu unutmayan adını şeirlərində həkk edən, yaşadan bir sənətkardır. Onun şeirlərində dostu Gülməmmədin adını tez-tez eşidirik. Məsələn:

Gözəldir bu yerlər, gəl yaz olanda,
Məclisdə balaban, dəf, saz olanda,
Gülməmməd gələcək hər yaz olanda,
Dostun sorağı da Qonaqkənddədir.

Haşım ilhamını al bu diyardan,
Ayrıla bilmədim əziz dostlardan,
Gülü zəhmətiylə suyu bal dadan,
"Şirin bulağı"da Qonaqkənddədi.

Dostu Zavərlə əlaqədar yazdığı qoşmasında orijinal, təbii bənzətmələrdən, təşbehlərdən yerli-yerində, sənətkarlıqla istifadə edir. "Kimi" adlı qoşmasının ikinci bəndi bu dediklərimizin həqiqətə nə qədər yaxın olduğunu əyani şəkildə sübut edir. Haşım deyir:

Dedim Babadağdan qardır hədiyyə,
Quba bağlarından bardır hədiyyə,
Çatdan, Nənəvaydan vardır hədiyyə,
Babadağ dumanla görüşən kimi.

Qubalı Haşımam şəkərdir sözüm,
Arasan şəkərdən şirinəm özüm,
Buduqlu Zavərlə öpüşdü gözüm,
Xəstələr loğmanla görüşən kimi.

"Allaha yaxın ellərdə" adlı çoxbəndli gəraylısını oxuyanda N.Gəncəvinin "İskəndərnamə"də təsvir etdiyi "xoşbəxtlik diyarı" gözündə canlanır. Belə qənaətə gəlirsən ki, xoşbəxtlik diyarı elə Qubadır, Qonaqkənddir. Dediklərimizi aşağıdakı bəndlər, misralar da təsdiq etməkdədir:

Ata-anaya hörmət var,
Doğruluq var, şəriət var,
Yaradana məhəbbət var,
Allaha yaxın ellərdə.

Burada kimsə etməz qeybət,
Yaxşılıqdır  dövlət, sərvət.
Bulaqlar da dadar şərbət,
Allaha yaxındır ellərdə.

Pirəkəkil daha verər,
“İsti suyu” şəfa verər,
Təbiət də səfa verər,
Allaha yaxın ellərdə.

Rəngidar sazlı-sözlüdür,
Süfrəsi halal duzludur,
Gözəllər mələk üzlüdür,
Allaha yaxın ellərdə.

Söhbətə şərbət qatarlar,
Yolun üstə su atarlar,
Kimsəsiz əldən tutarlar,
Allaha yaxın ellərdə.

Aşıq, şair Haşım söz ustadır, rəssamdır, hər şeydən əvvəl torpaqdan onu əhatə edən coğrafi məkandan onun gözəlliklərindən doymayan bir sənətkardır:

Qıy çəkəndə qartalların səsindən,
Kəkliklərin bir-biriylə bəhsindən,
Gölə düşən  sonaların əksindən,
Mən doya bilmədim, doya bilmədim.

Dağ çayının haraylı axışından,
Yaşıl yamacların gül naxışından,

Ayın, Günün üfüqündən doğşundan,
Mən doya bilmədim, doya bilmədim.

Narlara söykənən sədəfli sazdan,
Telaltı baxışdan, işvədən, nazdan.
Hünərli oğuldan, ismətli qızdan,
Mən doya bilmədim, doya bilmədim.

Aşıq Haşım dostu Maisə çoxsayda şeir həsr etmişdir. Bunların içərisində onun qızı Günelə yazdığı şeir digərlərindən fərqlənir. Aşıq Güneli qönçədən çıxmış gül kimi təqdim edir:

Ətirli bir gülsən ata bağında,
Laləsən, nərgizsən gözəl çağında,
Nübar bir çiçəksən hələ tağında,
Nurlu bir səhərdir amalın Günel.

Yaxşı günlər hamımızı gözləyir,
İşıqlı səhərlər bizi səsləyir,
Atan tək laləzər görmək istəyir,
Azəri yurdunu xəyalın, Günel.

"Şirvan üstədi" qoşmasını oxuyanda Aşığın bu torpağa nə qədər məhəbbəti olduğunu duyursan. Aşıq Şirvana aşıq sənətindən əvvəl muğam sənətinin beşiyi kimi baxır. Həm də bənddən-bəndə keçdikcə onun Şirvanın saz havalarına, muğam havalarına nə qədər dərindən bələd olduğunu öyrənirsən. Həm də bilirsən ki, aşığın hansı Şirvan sənətkarlarına böyük məhəbbəti var. O, bu münasibətlə yazır:

Ağakərim, Alim, Zabit oxuya,
Mələkxanım səsi muğam toxuya,
Gələn segah üstə gedər yuxuya,
Ləhcəsi bal dadan dili Şirvanın.

Və yaxud başqa bir şeirində deyir:

Muğamat başlansa, təsnif oxunsa,
Dəramədi rəngi Şirvan üstədi,
Hansı dildə olsa ruhu oxşayan,
Nəğmənin ahəngi Şirvan üstədi.

Mizrab şah pərdədə telə gələndə,
Bülbül bahar fəsli gülü gələndə.
Telli saz, balaban dilə gələndə,
Kərəmi, Şəşəngi, Şirvan üstədi.

Əlbəttə, aşıq Haşımın 3 şeir kitabındakı məziyyəti, gözəllikləri bir yazıda əhatə etmək olmaz, onun yazılarını dönə-dönə incələmək, tədqiq etmək, araşdırmaq lazımdır.

# «ƏSLİ - KƏRƏM» DASTANI HAQQINDA

«Əsli Kərəm» dastanının süjet xəttini qədim «Ay və Gün» əfsanəsi təşkil edir. Eyni zamanda «Şah İsmayıl» və «Əsli Kərəm» dastanlarının yaradıcıları «Oğuz xan» əfsanəsindən də xeyli faydalanmışlar.

Əfsanəyə görə, Oğuz xanın iki arvaddan altı oğlu olmuşdur. Günəş qızından, yəni od qızından Ayxan, Günxan, Ulduzxan; dəniz qızından, yəni su qızından Dağxan, Dənizxan, Göyxan doğulmuşlar.

Zənnimcə, bu adlardakı «xan» komponenti əslində elə bu adların əsatiri əlamətlərini, həm də Oğuz xana bağlılığını bildirir. "Əsli Kərəm" dastanında Ziyadxan Oğuz xanı, Məlik keşiş – Qara keşiş şəklində Qaraxanı təmsil edir və bununla da birincisi, işığın, gündüzün; ikincisi, zülmətin, qaranlıq gecənin rəmzi kimi verilir. Kərəm xan və Əsli xan da, öz növbəsində, Ay və Günü təmsil edirlər.

Xalq arasında belə bir əfsanə mövcuddur: "Deyirlər, Ayla Gün bir-birini sevən iki aşiq-məşuqdur. Gecə də Günəşi sevir, amma Günəş ona məhəl qoymur. Odur ki, Günəş qaçır, Ay qovur, elə çatha-çatda Gecə yenə girir araya. Haçan onlar bir-birinə yetişsə, ondan sonra gecə olmayacaq, Ayla Gün də bir-birinə qovuşacaqlar. Dünya-aləm həmişə işıq olacaq".

Məhz "Ay və Gün" əfsanəsində olduğu kimi, "Əsli Kərəm" dastanında da Kərəm xanla Əsli xanı bir-birinə qovuşmağa qoymayan, araya girən qaranlıq gecəni təmsil edən Qara keşişdir – Qaraxandır.

Əfsanədə Gecə sevən bir aşiq olduğu üçün ayla Günün qovuşmasına mane olur. Dastanda isə Gecəni

təmsil edən Qarakeşiş dini təəssüb çəkən mürtəcə bir din nümayəndəsidir. Dastan yaradıcısı bununla onu demək istəmişdir ki, dini təəssüb zülmət gecədən də dəhşətlidir, azad sevgi üçün bir əngəldir.

Əsli ilə Kərəm isə, dini təəssübün nə olduğunu bilmir və bir-birlərini ülvi məhəbbətlə sevirlər. Xalq da bu sevgini yüksək qiymətləndirir, müqəddəs sayır. Yurdumuzda “Kərəm bulağı” (Laçın rayonu), “Əsli Kərəm bağı”, “Əsli Kərəm bulağı” (Xanlar rayonu), “Əsli daşı” (Quba rayonu), “Kərəm köçdü dağı” (Masallı rayonu), “Kərəm mürşüd bulağı” (Şamaxı), “Kərəm körpüsü” (Şəmşəddin rayonu) adlı əfsanəli yerlərin mövcudluğu da bu sevgiyə el məhəbbətinin ifadəsidir.

Laçın rayonundakı “Kərəm bulağı” ilə bağlı əfsanədə deyilir: “Kərəmi bulağın başında yuxu tutur. O, yuxuda Əslini görür. Yuxuda ona deyilir:

- Kərəm, bu bulaq sənin bulağındır. Yuxuda gördüyün Əsli qız bu bulağa gələcək. O, bu sudan içən kimi sənin eşqinə düşəcək. O zaman sudan sən də iç. Qız yandım, yandım deyəcək, əllərinlə onun üzünə su səp.

Kərəm yuxudan ayılır. Yuxuda gördüyü qız bulağa gəlir, sudan içir. Kərəm də sudan içir. O, əlləri ilə qızın üzünə su səpir.

Bulaq Əsli ilə Kərəmin eşqinə sanki nəğmələr qoşur, qaynayıb daşır. Bulağın suyu qat-qat artır.

Deyirlər ki, Əsli ilə Kərəm bu bulağın başında bir-birlərinə könül veriblər. O vaxtdan bu bulağın adı “Kərəm bulağı” qalıb.

Deyilənə görə bulağın üstünə qəlbi pak olmayan aşiqlər gələndə suyu azalır, bulaq oxumur. Elə ki, saf

məhəbbətli aşiqlər gəlir, bulaq yenidən çağlayır. Əsli ilə Kərəmin məhəbbət nəğmələrini oxuyur. Xalq bununla onu demək istəyir ki, Əsli ilə Kərəmin eşqi saf bulağın gözündən götürülübdür.

Buradan həm də aydın olur ki, "Əsli Kərəm" dastanında təkcə "Ay və Gün" əfsanəsindən deyil, eyni zamanda başqa əfsanə, dastan süjet və motiv-lərindən də yaradıcı şəkildə istifadə olunmuşdur.

Əsli Kərəmlə əhd-peyman bağladığı ilk gündən ömrünün sonuna qədər öz eşqinə sadiq qalır.

"Qız daşı" əfsanəsində sevgilisindən ayrılıb qürbətə aparılan qız, hörüklərinə daş bağlayıb yal-yamaca iz salır, getdiyi istiqaməti sevgilisinə bildirmək istəyir. "Qız daşı" əfsanəsi, "Arzu Qəmbər" və "Əsli Kərəm" dastanlarını da məhz bu məqamda bir nöqtədə birləşdirir. Əfsanədə verilmiş qarğış dolu bayatı da maraqlıdır:

Mən aşiqəm, halala,
Haram qatma, halala.
Qarğaram, dağlar, sizdə,
Nə gül bitər, nə lala.

Bu bayatı, hər şeydən əvvəl, Kərəmin Ərzurum dağlarına qarğışını xatırladır:

Duman, çiskin heç başından getməsin,
Ağır ellər ətəyini tutmasın.
Yaz olanda gül-çiçəyin bitməsin,
Heç gözəllər iyləməsin gülündən.

Kərəm də bir eşq fədaisidir. O da Əslinin eşqi yolunda bütün əzab-əziyyətlərə dözür. Bu əfsanələr, hər şeydən əvvəl, dastanda Əsliyə və Kərəmə xas keyfiyyətlərin hansı qaynaqlardan gəldiyini müəyyənləşdirməyə kömək edir.

"Kərəm körpüsü" əfsanəsi isə, Kərəmin daxili aləminin bədii ifadəsi kimi səslənir. "Əsli ilə Kərəmin məhəbbəti dilləri gəzir, eşidib bilənin ürəyini parçalayırdı. Nainsaf Qara məlik bir yerdə durub, dincəlmir, çalışır ki, Kərəm Əslini görməsin. Bu niyyətlə də Qara Məlik gah arana, gah da uzaq dağlara köç eləyirdi. O, həm də kimliyini, nəsil-nəcabətini hamıdan gizlədir. Elə edir ki, Kərəm onun haraya getdiyindən xəbər tuta bilməsin.

Qara Məlik bu dəfə də qorxunc, təhlükəli keçidlərlə dolu olan uzaq dağ kəndlərinin birinə köç eləyirdi. Onun bu səfərindən Kərəm haradansa xəbər tutmuşdu. Lələsinə xəbər verməyən Kərəm tək-tənha Qara Məliyin köçü gəlib keçəcək bir dərin dərənin qırağında dayanır. Dərənin dibinə baxanda qorxudan adamın tükü ürpəşirdi. Kərəm bu qərara gəlir ki, dərənin dar keçidində bir körpü düzəltsin. Bu məqsədlə o gedib iki uzun tir tapıb gətirir. Tirləri dərənin bu tərəfindən o biri tərəfinə uzadır. Lakin tirin biri keçidin o biri tərəfinə gödək gəlir. Kərəm istəyir ki, gedib başqa bir tir gətirsin. Elə bu zaman görür ki, Qara Məliyin köçü gəlib çatdı. Kərəm tez tirin çatmayan yerində özü dayanır. Köç arabaları gəlib Kərəmin çiyninin üstündə dayanan körpüdən keçəndə, Kərəm fikirləşir ki, bəs necə edim ki, Əsli mənim burada olduğumu bilsin. Bu fikirlə də o, çiynindəki tiri bir azca silkələyir. Doğrudan da Əsli, Kərəmin burada

olduğunu və bu körpünü silkələyənin Kərəm olduğunu duyur. Köç arabaları körpüdən keçib gedir. O zamandan bu körpünün adı "Kərəm körpüsü" qalır. Elə buradaca Kərəmin Məcnunla eyni xasiyyətli olduğu da aydınlaşır.

Ümumiyyətlə, Məcnunla Kərəm arasında bənzəyişlər çoxdur. Məcnun öz silahını, sazını verib ceyranı ovçunun əlindən alır, onun yaralarını bağlayır və azadlığa buraxır. Elə "Əsli Kərəm" dastanında da Kərəm yanı balalı yaralı ceyranı ovçudan alıb azad edir.

Kərəm də Məcnun kimi doğma evlərindən didərgin düşür. Məcnun daha çox çölə, vəhşi heyvanlar arasına getməyə, onlarla ünsiyyətdə olmağa çalışır. Kərəm də yurdundan uzaqlaşır, diyarbadiyar gəzir. O da vəhşi heyvanlara meyillidir. Çölün maralı, ceyranı, cüyürü Məcnunun başına toplaşdığı kimi, bu heyvanlar Kərəmdən də qaçmırlar. Hətta, Kərəmin oxuması ilə durnalar göydən yerə lələk salır, bağa qonurlar. Onun sözünə, sazına vurulurlar. Kərəm bədahətən qoşmalar söyləyir, Məcnun də qəzəllər deyir. Kərəmin Sofu lələsi, Məcnunun Zeyd kimi dostu var. Qeys eşqə düşdüyü ilk andan «Məcnun», «Dəli» olacağını söyləyir. Kərəm də yanacağını bildirir. «Alış Kərəm, tutuş Kərəm, yan Kərəm» deyir. Hər iki aşiq öz məşuqəsinə sadiq qalır, birinin torpağı torpağına, o birinin də külü külünə qarışır. Hər iki əsər arasında inkarolunmaz dərəcədə doğmalıq və yaxınlıq vardır.

«Əsli Kərəm»lə «Leyli və Məcnun» arasında bənzər cəhətlər deyilənlərlə məhdudlaşmır. Məhəbbət dastanlarımız toy-düyünlə, duvaqqapma ilə bitdiyi

halda, «Əsli Kərəm»də, «Leyli və Məcnun»da əhvalat faciə ilə qurtarır.

Əgər «Leyli və Məcnun»un əfsanə, rəvayət, dastan variantı Nizamidə yeni məzmun, forma qazanmışsa, Azərbaycan ərazisində, Azərbaycan xalqı arasında yaranmış, formalaşmış, milli kaloriti ilə seçilən «Əsli Kərəm» xalqın bədii təfəkkürünün məhsulu kimi elə şifahi şəkildə yaşamışdır. Amma bu da həqiqətdir ki, «Leyli və Məcnun» Nizami, Nəvai, Füzuli kimi ölməz sənət korifeylərinin və onlardan başqa Şərqdə qırxdan çox şairin yaratdığı yazılı poeziya səhifələrində yetkinləşdiyi kimi, «Əsli Kərəm»də toylarda, mağarlarda, dədə, ustad el ozan və aşıqların cilalarında ədəbi-bədii sənət nümunəsi kimi əbədiləşmişdir.

«Leyli və Məcnun» bütün Yaxın Şərqdə nə qədər geniş yayılmışsa, «Əsli Kərəm» də türkdilli xalqlar arasında bir o qədər şöhrət qazanmış və həmin xalqların şifahi ədəbiyyatına, dastan yaradıcılığına səmərəli təsir göstərmişdir.

Dastanda «Kitabi-Dədə Qorqud» eposuna bağlılıq da aydın görünür. «Salur Qazanın evinin yağmalandığı boy»da anasının arxasınca gedən Qazan xan yolda körpüdən, dağdan, meşədən, sudan, üzü mübarək qurddan öz anasını, elini, ulusunu soruşur. Kərəm də Əslinin arxasınca gedərkən yolda qarşısına çıxan az qala hər şeydən – meşədən, körpüdən, qurddan Əslini soruşur.

Mövcud folklor əsərlərində Kərəmlə Əslinin ölüm səhnəsinin təsviri bir-birinə oxşamır. Birində alov Kərəmin ağzından çıxıb Əslini də yandırır. Başqa birində od Kərəmin sazının tellərindən qopur.

Dastanda isə Əsli Kərəmin külünü saçı ilə bir yerə yığdıqda od tutur. Əfsanələrdə isə, bu daha mənalı, daha obrazlı verilmişdir. Toplanılan əfsanələrin birində isə bütün bunlardan fərqli olaraq söylənilir ki, «Əsli yuxuda görür ki, Kərəm ilk dəfə görüşüb tanış olduğu bulağın başındadır. Əsli sevincək ayılıb çölə qaçır. Kərəmi çox axtarır, axırda gəlib bulağın başına çatır. O, Kərəmi bulaqdan, yoldan, meşədən, qəbirdən xəbər alır. Bu zaman yer aralanır, Əsli Kərəmi orada görür. Qəbirdən alov qalxır. Alov Əslini özünə çəkir. Sevgililər iki dilim alov olur. Yavaş-yavaş soluxan alovun əvəzinə bir cüt qızılgül kolu peyda olur». Bu əfsanə, eyni zamanda orijinallığı və bədii sənət nümunəsi olmaq baxımından diqqəti nə qədər cəlb etsə də, vəhdəti-vücudla bağlıdır.

«Başdaşından qopan od» adlı əfsanədə isə bu məsələ bir qədər başqa şəkildə qoyulmuşdur. Qara keşiş başa düşür ki, qızının da aqibəti Kərəmin aqibəti kimi olacaq. Odur ki, onu qoruyur. Kənizlərə tapşırır ki, Əslini Kərəmin qəbri tərəfə buraxmasınlar. Əsli kənizlərlə gəzməyə çıxır və Kərəmin qəbrini görür. Əsli baxır ki, Kərəmin qəbrindən alov qalxır, bu alovu kənizlər görə bilmir. Bunu ancaq Kərəmlə bərabər saf bulağın gözündən su içib, eşqə düşən, buta verib, buta alan, düz əhdi-peyman bağlayan Əsli görə bilir.

Kənizlərin təkidinə baxmayaraq, Əsli qəbirə tərəf gedir, yerdən balaca daş götürüb sınaq üçün qəbrə atır, daş başdaşına dəyən kimi qəbirdən çınqı qopur. Əsli od alır.

Səməndər quşu öz səadətini odda yanmaqda tapdığı kimi, Əsli də Kərəmin oduna alışmaqla öz arzusuna çatır, mənən o sevgisinə qovuşur.

Əfsanələr müxtəlif olsa da, nəticə birdir, hər yerdə Əsli yalnız Kərəmin oduna, daha doğrusu, Kərəmin eşq oduna yanır.

Başqa bir əfsanədə deyilir ki, Kərəmin anası oğlunun ölüm xəbərini eşidib qəbirstanlığa gəlir, hər iki qəbrin torpağını öpür, gözünə sürtür, öz əlləri ilə qəbirlərin hərəsinin üstünə bir gül kolu əkir.

Hər bahar gələndə qızılgül kolları qönçələnir, bir-birinə can atır. Bunu belə görən Qara keşiş qəbirlərin tən ortasında bir qaratikən kolu əkir ki, güllər bir-birinə qovuşmasın. Güllər bir-birinə nə qədər can atsalar da, qara tikan kolu onların birləşməsinə mane olur.

Əfsanələrdə və dastanda Ayla Günün arasına girən Gecə də, bir-birinə can atan qızılgülün kollarını qovuşmağa qoymayan da, nəhayət, qızı Əsliyə tilsimli düymələri olan xalatı-köynəyi geydirən də Qara keşişdir.

Bir əfsanəyə görə, Həzrət Əli bütpərəst Salsal pəhləvanla döyüşə girir, ona gücü çatmır. Yalnız Salsalın əynindəki köynəyi cırdıqdan sonra ona qalib gəlir. Kərəm isə, Əslinin əynindəki tilsimli xalatı-köynəyi cıra bilmir. Çünki Əli ilə Salsalın döyüşündə dinin biri aradan qalxır, daha doğrusu, bütpərəstliyin köynəyi cırılır, əvəzində Salsal islam dininin köynəyini geyməkdən imtina edir. Burada isə, Əslinin mənsub olduğu din ayrılığı aradan qalxmır, ona görə də Əslinin tilsimli köynəyi Kərəmi yandırır.

Qara keşişin tikdirib qızına geydirdiyi donun və onun düymələrinin astral cəhətləri ilə yanaşı, yaxasının açılmasına mane olan, şübhəsiz, dini görüşlərlə bağlı cəhətlər də mövcuddur. Doğrudur, din və dini

təəssübkeşlik, əsasən, xalq dastanlarının xəlqi ruhuna yaddır. Lakin «Əsli Kərəm»də bu cəhət əsas ictimai səbəb və maneə kimi meydana çıxır.

Vaxtilə Nəriman Nərimanov «Mehri-Mah», yaxud «Əsli Kərəm»in astarı», Xəlil Yusifov «Əsli Kərəm» Ay və Günəş əfsanəsidir» adlı məqalələrində «Əsli Kərəm» dastanının astral xüsusiyyətlərinə toxunmuşlar. Lakin «Əsli Kərəm» dastanının yerli əfsanələrimizlə, habelə oğuz eposu və «Leyli və Məcnun» əsəri ilə əlaqəli və müqayisəli şəkildə araşdırılması son axtarışların nəticəsidir.

Bu yazıda istifadə olunmuş adı çəkilən əfsanələri müəllif 1985-ci ildə Bakıda nəşr etdirdiyi «Azərbaycan xalq əfsanələri» kitabına daxil etmişdir.

Bir neçə il bundan əvvəl Təbriz aşıqlarından «Əsli Kərəm»in daha bir yeni variantını topladım. Oxucular üçün maraqlı ola biləcəyini nəzərə alıb, dastanın Təbriz variantından kəskin şəkildə fərqlənən hissələri olduğu kimi burada verirəm.

Təbriz aşıqlarından Əziz Şahnazinin, Həsən Qafarinin, Hacı İbadiyanın və Fətulla (Məşi belə çağırırlar) Paşayinin söylədikləri «Əsli Kərəm» dastanı nə gözəl sonluqla tamamlanır.

Keşiş görür ki, Kərəmdən qurtara bilməyəcək. Qeysərə Süleyman paşanın yanına gedir və bildirir ki, bir düzdən tutmanın biri onun qızından əl çəkmir. Süleyman paşaya deyir ki, Əsli ələ düşməz incidir, onu öz oğluna al. Süleyman paşa razı olur və keşişin arzusu ilə təcili toya başlayır. Kərəm aşıq kimi toy məclisinə gəlir. Oxuduğu sözlərdə Əslinin onun nişanlısı, eyni zamanda özünün də gəncəli Ziyadxanın oğlu olduğunu bildirir.

Süleyman paşa deyir:

- Mən həyatım boyu Ziyadxana borcluyam. Gənclikdə məni zindandan azad edib. Amma onun bircə oğlu vardı, adı da Mahmud Kərəm olmuş, Mahmud olub keçənləri, keşişin onun başına gətirdiyi müsibətləri Süleyman paşaya söyləyir.

Hər şeyi yerli-yataqlı öyrənən Süleyman paşa qardaşı oğlu kimi toy edib Əslini Kərəmə alır. İşi belə görən keşiş qızı Əsliyə tilsimli don geydirir. Sazla, sözlə tilsimin sındığını görməyən Kərəm fikirli-fikirli ayaq üstə yuxuya gedir. Ona yuxuda deyirlər ki, üç kəlmeyi-şəhadət tilsimi düymələri açar. Kərəm durub yuxusunu Əsliyə, Əslinin anası Məryəmə danışır. Əsliylə Məryəm müsəlmançılığı qəbul edirlər. İlk kəlmeyi-şəhadəti Əsli, ikincini Məryəm, üçüncünü Kərəm oxuyur, tilsim sınır, donun yaxası açılır. Səhər keşiş adam göndərir ki, gedib yoxlasınlar Kərəm yanıb kül olubmu? Xəbər gəlir ki, üç kəlmeyi-şəhadət sənin qurduğun tilsimi sındırıb, Əsli ilə Məryəmin də müsəlmançılığını eşidən, meydanda tək qaldığını görən Qara keşiş eşşəyə minib meşəyə qaçır.

Əsli ilə Kərəm evlənir, əkiz oğulları olur. Uşaqlar xeyli böyüyür. Onlar çölə oynamağa gedirlər. Kərəm uşaqlardan ötrü təlaş keçirir.

Əsli deyir:

- Kərəm, bəs sənin atan-anan daşdan yaranıb, sən balaca oğlanların üçün darıxırsan, onlar sənin üçün darıxmır? Söz Kərəmi tutur. Vətənə yola düşürlər. Gəncə yaxınlığında görürlər ki, çadırlar qurulub. Kərəm oğlanlarını burada bir qarının yanında qoyub, Əsliylə şəhərə gəlir. Kərəmə deyirlər ki, Ziyadxan öldü, arvadı Qəmbərbanu isə oğlu Mahmuddan bir xəbər

çıxmadığı üçün Gəncədəki mülklərini satıb, yaxın adamları ilə Kərbəlaya köç elədi. Kərəm başa düşür ki, yoldakı çadırlar anasının köçüdür.

Kərəm geri dönəndə arvad şikayət eyləyir, deyir ki, bala, bu uşaqları tərlana öyrətmə, onlar bayaqdan Tərlan quşu ilə oynayırlar. Axı mənim Mahmudumu Kərəm eyləyən, onu yurdundan didərgin salan da belə bir tərlan olub. Kərəm anasını tanıdı, boynuna sarıldı, ağladı. Kərəmlə Əsli deyirlər qayıdaq Gəncəyə. Qəmərbanu dedi ki, oğul, mən Kərbəla səfərindən geri dönmərəm, bəlkə, elə səni mənə yetirən Kərbəladır. Onlar gəlib Kərbəlanı ziyarət etdilər. Sonra da Bağdad yaxınlığında Kərkükdə bir Gəncə kəndi saldılar. Dastana görə, Kərkükdəki Gəncə kəndi Ziyadxan nəslinə mənsubdur. Kərkük türkləri arasında iki dastan geniş yayılmışdır. «Arzu Qəmbər» adlı bayatı dastanı, bir də «Kərəm Əsli» dastanı, o isə Gəncə ilə bağlıdır.

Biz Təbriz variantlarını topladıqdan sonra dastanlarımızın elmi nəşrini hazırlaya biləcəyik. Dastanların müqayisəli tədqiqi Azərbaycan folklorşünaslığına çox şey verəcəkdir.

«Əsli Kərəm» dastanının variant fərqləri isə Gəncə və Təbriz aşıq mühiti ilə bağlı bir məsələdir. O başqa bir yazının mövzusudur. Həmin variantlarda bənzərsiz epizodlarla yanaşı, dəyərli qoşmalar və saz havaları – məqamları və ahəngləri də mövcuddur.

## "ŞƏHRİYAR" DASTANININ ŞİFAHİ VƏ YAZILI VARİANTLARI

Yazılı və şifahi ədəbiyyatın ölməz abidələrindən olan "Şəhriyar" - mürəkkəb, poetik sistemə malik bir dastandır. Dastanı qələmə alan şəxs dastan yaradıcılığına tam bələd imiş. Ona görə də yazılı və şifahi poeziyanın sintezi olaraq ölməz bir abidə yarada bilmişdir.

«Şəhriyar» dastanının əlyazması 1956-cı ildə H.Araslı tərəfindən üzə çıxarılmış, XVII-XVIII əsr «Azərbaycan ədəbiyyatı tarixi»[1] adlı əsərində «Şəhriyar» dastanı haqqında müxtəsər məlumat vermişdir. Bundan sonra araşdırıcı alim Ə.Səfərli XVII-XVIII əsrlər «Azərbaycan epik şeiri» mövzusunda tədqiqat əsəri yazmışdır. O, bu elmi monoqrafiyanı 1982-ci ildə «Yazıçı» nəşriyyatında çap etdirmişdir. 1982-ci ilədə Ə.Səfərli «Şəhriyar» dastanının əlyazmasının üzünü köçürmüş, «Məhəmməd Şəhriyar» adı ilə dastanı ayrıca kitab şəklində nəşr etdirə bilmişdir. Bundan əvvəl ali məktəbdə tədris olunan XVII-XVIII əsrlər ədəbiyyatında onsuz da ali məktəb tələbələrinə dastan haqqında az-çox məlumat verilirdi. 1982-ci ildə Ə.Səfərli, X.Yusifov «Şəhriyar» dastanını ali məktəb dərsliyinə daxil etdilər və bu abidənin geniş şərhini verdilər.[2]

Biz dastanın əlyazması nəşrinə diqqət etdikdən sonra belə qərara gəldik ki, dastanda hadisələrin cərəyan etdiyi arealda əgər dastanın xalq arasında

---

[1] H.Araslı. XVII-XVIII əsr "Azərbaycan ədəbiyyatı tarixi" Bakı, 1956. səh 301

[2] Ə.Səfərli, X.Yusifov «Qədim və orta əsrlər Azərbayjan ədəbiyyatı», Bakı, Maarif, 1982

nümunəsi mövcud olmasaydı, Məhəmməd adlı şəxs "Şəhriyar" adlı belə bir dastanın süjetini tapıb qələmə ala bilməzdi. Bu məqsədlə Gürcüstanın Soğanlıq hissəsində, Şəmkirdə, Gəncədə «Şəhriyar» dastanının axtarışına başladıq.

XVI əsrdə Dədələrin son nümayəndəsi Dədə Yediyar Gəncədə böyük şöhrət qazandığı kimi, XVIII əsrdə Şamamabəyim kimi incə qəlbli, istedadlı, şair-aşıq yetişmişdir. Şamamabəyim haqqında ən mötəbər mənbə, tanınmış alim Əlyar Səfərlinin 1987-ci ildə nəşr etdirdiyi «Şəhriyar» dastanıdır. XVII əsrdə formalaşıb XVIII əsrdə yazıya alınan dastanda Şah Abbasın da adı çəkilir. Bu dastan tarixin möhürüdür. Dastan ölməz bir abidədir. «Şəhriyar» dastanı bir çox cəhətdən tədqiq olunmağa layiqdir. Lakin bu yazıda dastanın bir məqamı bizimköməyimizə çatır. O da Xan qızı Şamamabəyim haqqında olan məlumatlardır. Şəhriyar öz butası Sənubərin arxasınca Gürcüstanın Soğanlığından Kirmana yola düşür. Şəmkirdə bulaq başında Pərzada rast gəlir. Ondan su istəyir. Pərzad dastanda xüsusi obrazdır. Adət-ənənəmizə bağlı əsl azərbaycanlı qızıdır. Biz onun haqqında dastanda geniş şəkildə danışılan məqamdan bəhs edəcəyik. Şəhriyara bulaq başında tapşırırlar ki, nəbadə-nəbadə Gəncə şəhərinə daxil olduqda sazı köynəyindən çıxarasan. Gəncədə Şahqulu xanın qızı Şamamabəyim neçə-neçə aşığı sazla, sözlə bağlayıb, zindana salıb. Şəhriyar da dediyindən dönməyən, saz-söz meydanına qamaşmadan gedən bir gənc idi. Həkim Sadıq Şəhriyara məsləhət görür ki, sazı qaburundan çıxartma, xata törədərsən. Şəhriyar deyir:

- Biz indi onun gözündən yayınsaq da, geri qayıdanda yolumuzu kəsdirəcək. O, məni Sənubərin yanında sındıra bilər, onunla bəri başdan qarşılaşmaq lap yaxşıdır. "Şəhriyar" dastanı kitabında deyilir: «Bağban küçələrinə daxil olanda sazı qoburundan çıxarıb və kök edib, sinəsinə basıb, gah "Şahnaz" və gah "Rast" və gah "Novruzu-ərəbi" və s. nəğmələrdən oxuya-oxuya gəlib, Ozan küçələrindən şəhərə girib».

Burada bizi maraqlandıran məqamlardan biri də saz havalarının ayrı-ayrı muğamlarla bağlılığı, onların adının çəkilməsi məsələsidir. Muğamlarla əlaqə görünür ki, XVII-XVIII əsrlərdə daha aşkar şəkildə görünürmüş. Şamamabəyim Şəhriyarı görüb ürəyində dedi: «Belə insan olmaz. Əgər bunun kamalına görə olsa, mən bundan əl götürməm».

Şamamabəyim cəsarətlə meydana girib Şəhriyarla deyişir. Saz çalmaqda, söz deməkdə heç də Şəhriyardan geri qalmır. Hətta, bir-birlərinə qıfılbəndlər deyirlər. Hər dəfə də Şamamabəyim qabağa düşür. Zəmanəsinin elmi biliklərini qıfılbəndlərdə ifadə edir. Şamamabəyimin qıfılbənddəki sualı da maraqlıdır. O deyir:

Ustad görüb, gər tərbiyyət alubsan,
Gəl meydana bir sınaşaq yeri hey,
Yerinən göy neçə gündə düzüldü,
Nə üstündə qərar verdi yeri hey.

Aldı Şəhriyar:

Mənə ustad şahlar şahı olubdur,
Nə xovfum var sınaşmaqdan barı hey,
Yerinən göy altı gündə düzüldü,
Su üstündə qərar verdi barı, hey.[1]

---

[1] "Şəhriyar", Bakı, Yazıçı, 1987, səh 95

Şamamabəyimin «Şəhriyar» dastanı kitabında bir neçə deyişməsi verilmişdir. Onun dili, ilhamı, dünyagörüşü çox şey deyir:

Doymamışam şirin-şirin dilindən.
Bilürsən ki, çox cəfam var yolunda,
İndi ixtiyar var sənin əlində,
Barı bir yol məhəbbəti tut, yeri.[1]

Başqa şerlərindən də onun kamil bir sənətkar olduğu diqqət cəlb edir.

Şamamabəyim təkcə aşıq yaradıcılığına deyil, yazılı poeziya ilə şifahi poeziya arasında körpü olan müxəmməslərə də bələddir. Gəncədən Gürcüstana ərə gedən Şamamabəyim toyun yekununda bir müəxxəməs söyləyir. «Bu gün» adlı müxəmməsin ilk beyti də bizə çox şey deyir:

Bir qulaq as, məhliqayi-külli Gürcüstan, bu gün,
Bir əcaib sərgüzəşt eylərəm, dastan, bu gün.

Şəmkirli Aşıq Hümbət çox ixtiyar çağlarında dünyasını dəyişdi. O, Gəncədə və Gəncəbasarda neçə-neçə aşığın ustadı olmuşdur. Onun ixtiyar çağlarında yaddaşında «Şəhriyar» dastanından iki məqam qalmışdır. Birincisi, Şəhriyarın Pərzadla Şəmkirdə bulaq başındakı görüşü idi. Şəhriyar deyəndə ki, Kirmana sevgilimin dalınca gedirəm, onda Pərzad yaxasını çəkib deyir: «Uzaş oğlan, uzaş. İki göz iki gözə baxar. Zəhləm gedir çox arvadlı kişilərdən». İlk anda Şəhriyar yaxasını açır, pörtmüş halda ondan su istəyəndə deyir:

[1] "Şəhriyar", Bakı, Yazıçı, 1987, səh 115

«Şəhriyar» dastanı kitab şəklində çıxandan sonra bütövlükdə oxudum və belə qərara gəldim ki, dastan C.Məmmədquluzadənin «Anamın kitabı» əsəri ilə tam səsləşir. C.Məmmədquluzadə bu dastanın yazılı nümunəsindən istifadə etsəydi, sözsüz ki, bir yerdə qeyd edərdi. Şübhəsiz ki, o dastanı şifahi şəkildə xalq ozanlarından eşitmiş və ondan təsirlənmişdir. Gürcüstan mühitində təşəkkül tapan bu dastanın Tbilisidə «Şərqi Rus» qəzetində çalışan Cəlil yaradıcılığına təsiri təbiidir. Bir foloklorşünas kimi bizi daha çox düşündürən «Şəhriyar» dastanının şifahi şəkildə yayılmış variantını arayıb-axtarmaq olmuşdur. Dastanın şifahi variantını Şəmkir rayonunun Zəyəm-Cırdaxan kəndində yaşayan, vaxtilə Borçalı mahalında aşıqlıq etmiş Aşıq Cəbrayılın arxivindən tapmışıq. Tələbə Cəbrayılov Fariz babası Aşıq Cəbrayılın arxivində aşıq sənətinə dair çoxlu örnəklər olduğunu söyləmişdi. Fariz babasının arxivindən Xəstə Qasımın həyat və yaradıcılığı haqqında məlumatlarla yanaşı, dildə, ağızda söylənən "Şəhriyar" dastanının kiçik variantını da müəlliminə təqdim edir.[1] Aşıq Cəbrayılın söylədiyi «Şəhriyar» dastanının məzmunu belədir:

[1] Aşıq sənətinə dair 1960-cı ildə nəşr olunmuş bukletlər arasında Aşıq Cəbrayılın da ayrıca tərcümeyi-halı verilmişdir. Aşıq Cəbrayıl Cəbrayıl oğlu Əmiraslanov 1909-cu ildə Şəmkir rayonunun Zəyəm-Cırdaxan kəndində yoxsul ailədə anadan olmuşdur. Hələ gənc yaşlarından Aşıq Cəbrayılda oxumağa, xüsusilə saz çalmağa böyük maraq oyanmışdır. Məşhur zəyəmli aşıq Qəmbər Həsən oğlu Cəbrayılı öz yanına şagird götürmüş, bir neçə il onunla məşğul olub saz sənətinin bütün incəliklərini ona öyrətmişdi. 1936-cı ildən peşəkar aşıqlıq sənətinə başlayan Cəbrayıl melodik səsi və gözəl ifası ilə xalqın rəğbətini qazana bilmişdir. Cəbrayıl klassik aşıq musiqisinin gözəl incilərindən 65 musiqi havasını çox məharətlə ifa edən ustad aşıqlardandır. O, Qurbaninin, Tufarqanlının, Aşıq Ələsgərin və xalq şairi S.Vurğunun qoşmalarını ifa edir, xalq dastanlarının «Valeh», «Tahir və Zöhrə», «Əmrah», «Xəstə Qasım», «Əsli və Kərəm» və «Koroğlu» dastanlarını çox ustalıqla söyləyir.

“Gürcüstanın Soğanlıq yörəsində məşhur bir tacir Saleh sövdəgər yaşayırdı. Bu tacir Soğanlıq, Şəmkir, Kirman və Təbriz şəhərləri arasında karvan bağlayıb alış-veriş edərmiş. Bu tacirin başqa tacirlərdən fərqi o imiş ki, o, ozan sənətini, aşıq sənətini çox sevirmiş. Demək olar ki, Saleh hər səfərə çıxanda, hər səfərdən qayıdanda aşıqlar onun evində çalıb-çağırar, böyük dövranlar qurarlarmış. Sövdəgərin yeganə oğlu Şəhriyar, anası Zöhrəbəyimin laylası ilə yanaşı, sazın-sözün laylası ilə yatıb oyanarmış. Xoşbəxtlikdən ailədə sövdəgər Saleh də, Zöhrəbəyim də, Şəhriyar da sazsız-sözsüz yaşaya bilmirlərmiş. Saleh sövdəgər hər səfərdən qayıdanda başına gələn macəraları, gördüyü, eşitdiyi bəy, xan övladlarının oğulları və qızları haqqında danışmaqdan yorulmazmış. Ələlxsus, Kirman xanını qızı Sənubərin gözəlliyindən, ağlından, kamalından ağız dolusu danışarmış. Həddi-buluğa çatmış Şəhriyar atasına bir söz deməsə də, həmişə onun xan qızı Sənubərdən danışmasını istəyirdi. Atası Sənubərin bir çiçək kimi açıb, dağlara gözəllik gətirdiyini söyləyir. Şəhriyar gecə yatır, yuxuda Sənubəri görür. Bir nurani kişi ona badə içirir və kirmanlı Sənubər xanımı sənə buta verdim deyir. Şəhriyar yuxudan pəjmürdə ayılır, pərişan-pərişan saz istəyir və anası Zöhrə xanıma Kirman şəhərinə gedəcəyini bildirir. Anasına müraciətlə deyir:

Yalvarıram Zöhrə ana,
Halal eylə, hümbət eylə.
Səfərdən salamat gəlləm,
Tək Allahdan minnət eylə.

Hər gün çıx yollar üstə,
Oğluna nicat istə,
Burdan karvan gəlib getsə,
Yedir, içir hörmət eylə.

Oğul deyib, yollara bax,
Qəlbim yaxın, yolum uzax,
Qarşıma Kirman çıxacax,
Yoldaşam məhəbbət ilə

Bu xəbər atası Salehə çatdı. Arvadına dedi:

- Arvad, Allah yazmayıbsa, yazsın. Sənubər dünyanın bir incisidir. Lakin mən əvvəlcə yola çıxıb Kirman şahının ağzını aramalıyam. O elə sərt insandır ki, övladımıza xəta gətirər. Qoca vaxtımızda övladsız qalarıq. Şəhriyarın atası Saleh sövdəgər yola düşərkən deyir:

Gözlə yolumu, əziz oğul,
Mən gedirəm Kirdimana,
Yayın orta ayında,
Ucadağ bürnər dumana.

Sənubər dağlar balası,
Yanaqları dağ lalası,
Gözəldi zalım balası,
Baxan qalır yana-yana.

Aman-aman Cahangir xan,
İnsanı eylər şan-şan,
Əlimə düşsə bir imkan,
Dərdimi deyərəm ona.

Sövdəgər Saleh Kirmana çatır. Həmişə görüşünə birinci getdiyi Cahangir xanın görüşünə getməkdən çəkinir. Nəhayət, onun gəlişinin məramı xana çatır. O da, Salehi zindana saldırır. Sadıq adlı həkim xeyirxah bir adam idi. O, Cahangir xanın yanına gedir və deyir:

- Cahangir xan, elçiyə zaval yoxdur, bir də mən eşitdiyimə görə Şəhriyar qiyamət bir oğlandır. Qızın Sənubərə də buta verilib, yorğan-döşəyə düşüb. O, yeganə oğlunu, sən də yeganə qızını itirərsən. İcazə ver qoy mən sövdəgərlə söhbət edim. Oğlunu mənim yanıma göndərsin. Mən də səninlə tanış edim. Nahaq yerdən qan tökmə, bir qız bir oğlanındır. Cahangir xan razılaşır. Salehi hüzuruna çağırtdırır və deyir

- Oğlunu Kirmana çağır, özü də tək gəlsin.

Yol, iz bilməyən Şəhriyar tək başına Kirmana yola düşür. Şəhriyar yayın istisindən boğulur, susuzluq onu əldən salır. Bir kəhrizin başına gəlir. Bu zaman Pərizad kəhrizdən səhəng ilə su götürürdü. O Pərizaddan su istəyir. Pərizad ona su verir və öz-özünə deyir ki, yazıq oğlan, dağ adamıdır. Yayın istisinə düşüb. Görəsən ata-anası bu tifili niyə tək yola buraxıb.

Özündən asılı olmayaraq Pərizad birdən oğlana deyir:

- Oğlan, gəlsənə məni alasan.

Şəhriyar bildirir ki, mən Kirmana Sənubər adlı bir qızın dalınca gedirəm. Onu götürüb gələrkən səni də alaram. Pərzad yaxasını yırta-yırta deyir:

- Rədd ol, rədd ol. Atam çobandır, bir arvadı var, bizdə iki arvadlılıq olmaz. Gərək bir kişinin bir arvadı olsun. İki göz iki gözə baxsın.

Gəncəyə çatarkən Şəhriyara xəbər verirlər ki, Gəncə xanını Şamamabəyim adlı bir pəhləvan şair qızı var. Sazlı adam görən kimi deyişir, sazını alır, özünü də dama qoyur.

Şəhriyar Şamamabəyimə rast gəlməmək üçün istəyir, şəhərin mərkəz küçələrindən kənar olan Bağbanlar hissəsindən keçib getsin. Lakin Şamamabəyim onun sorağını eşidib şəhərin hər tərəfinə gözətçi qoymuşdu. Şəhriyarı tutub onun hüzuruna gətirirlər. Onun hazırcavablığı Şamamabəyimi məftun edir. Şəhriyar xahiş edir ki, məni burax, Kirmanda Sənubər adlı butam var. Şamamabəyim deyir ki, istəsən, sənə qoşun da verərəm. Get butanı al gətir. Bununla belə, gələndə məni də aparmalısan. İstəyirsən, bir nəfər yox, bir neçə nəfər arvadın olsun mənə qəbuldur. Atamın hərəmxanasında qırx arvadı var. Şəhriyar Kirmana gedir, Söhbətin köməyi ilə butasını alır. Sonra Gəncədən Şamamabəyimi də götürüb Şəmkirə yola düşürlər. Buradan da Pərzadı götürüb evlərinə gedirlər. Onların gəlişinə hamıdan çox anası sevinir. Şəhriyar xan qızlarını özü götürmək istəyir, çoban qızı Pərizadı isə həkim Sadığa vermək istəyir. Lakin buna Zöhrə xanım razı olmur. Xan qızlarının geyimi, hərəkətləri, ləhcələri ona yad görünür və deyir ki, oğlum qoy xan qızları sənin olsun, mənim gəlinim Pərizaddır. Bacım qızı Bənövşəni isə bu yolda böyük əziyyət çəkmiş həkim Sadığa verirəm.

Pərizad Kövsər bulağından su gətirir və birinci olaraq Şəhriyara su verir və deyir:

- Sən xan qızlarından əvvəl məni görmüsən, gözünü aç mənə yaxşı-yaxşı bax. Əgər baxa bilmirsənsə, onda ananın gözləri ilə mənə bax.

Zöhrə ana C.Məmmədquluzadənin «Anamın kitabı» əsərindəki ana obrazı ilə səsləşir. Əsəri yenidən təhlil etdikcə onun bir çox məziyyətləri üzə çıxır. Xarakterlərin təhlili əsərin nə qədər böyük məzmuna malik olduğunu üzə çıxarır

«Şəhriyar» dastanının şifahi şəkildə xalq arasında yayılmış «Aşıq Cəbrayıl variantı» yazılı və şifahi "Şəhriyar" variantlarını müqayisə etməyə, fərqləndirməyə, ayrı-ayrı obrazların xarakterinin açılmasına imkan yaratmışdır. İndiyə qədər biz belə bir mülahizə irəli sürürdük ki, mütləq bu dastanın el arasında şifahi variantı var və Məhəmməd adlı bir yazar ondan istifadə edərək «Şəhriyar» dastanını qələmə almışdır. Biz bunu ona əsasən deyirdik ki, qələmə alınmış «Şəhriyar» dastanı tam şifahi yolla yaranmış dastanlarımızın bütün ənənələri və quruluşu burada nəzərə çarpır. Belə ki, ənənəvi dastanlarımız kimi «Şəhriyar» dastanının yazılı variantı da ustadnamələrlə başlayır, qəhrəman öz butasının arxasınca gedərkən anasından icazə alır. Atası sağdırsa, o da bu söhbətə qoşulur. Ənənəvi dastanlarda olduğu kimi, burada da söz yurdları söylənilir və qəhrəmanlar öz hiss və həyəcanlarını lirik şeir parçaları ilə ifadə edirlər. Klassik dastanlarımızda olduğu kimi, burada da gəraylılardan, qoşmalardan və dastanın sonunda duvaqqapma yerində müxəmməsdən istifadə olunur. «Şəhriyar» dastanının yazılı mətninin ümumi mənzərəsi bir daha təsdiqləyir ki, dastanı qələmə alan və onun yazılı mətnini yaradan Məhəmməd şifahi və yazılı ədəbiyyatımıza dərindən bələd olmuşdur. Lakin yüksək mədrəsə təhsili görmüş bu şəxsin dili ağır və qəlizdir. Bəlkə də bu XVII əsrin yazı normalarına tam

uyğundur. Məhəmmədin qələmə aldığı bu dastan təkcə filoloji baxımdan deyil, dilçilik elmi üçün də çox faydalıdır. Xüsusilə dil tarixini öyrənməkdə etibarlı mənbələrdən biridir. «Aşıq Cəbrayılın Şəhriyar variantı» canlı danışıq dilindədir. Pərzadı Şəhriyarın anası Zöhrə gəlinlərin şahı elan edir.

Hər iki variantda ana dili məsələsi ön plana çəkilir. Ədəbiyyatşünas F.Köçərli rus pedaqoqu Uşiniskiyə istinad edərək qeyd edir ki, vətənini, var dövlətini itirməklə millətə heç nə olmaz. Lakin, dilini itirən xalq öz milli varlığını yox edər.

Salman Mümtaz "El şairləri" kitabında Şəhriyarın iki şeirini çap etdirmişdir. [1] Biri beş bəndlik qoşma, o biri isə beşbəndlik gəraylıdır.

Salman Mümtazın yazıya aldığı bu iki şeir bir daha sübut edir ki, 1935-ci ilə qədər Şəhriyarın şeirləri aşıqların repertuarında yaşayırmış. Bizcə, Şəhriyar da Abbas Tufarqanlı və Əmrah kimi yaradıcı aşıq olmuş, onlar kimi dastanını da öz şeirləri və həyat macəraları əsasında yaratmışdır. Onun dastanı "Şəhriyar" və ya "Şəhriyar və Sənubər" adlanırmış. Yurdu dolaşan, ağızda, dildə gəzən həmin dastan Məmməd adlı yüksək mədrəsə təhsili görmüş bir şəxs tərəfindən "Şəhriyar" dastan adı ilə qələmə alınmışdır. Yazılı ədəbiyyat nümayəndələrinin aşıq şeirinə oxşadılaraq yaratdıqları qoşmalar, gəraylılar, təcnislər aşıq şeiri tərzində şeir olduğu kimi, Məhəmmədin qələmə aldığı "Şəhriyar" da aşıq şeiri tərzində dastandır. Məmmədin qələmə aldığı "Şəhriyar" dastanında Şəhriyar Tiflisin Soğanlığından çıxıb Şəmsəddinə gəlir. Şəmkirdə Pərzad xanıma rast gəlir. Sonra Gəncənin

[1] Salman Mümtaz. El şairləri. Bakı, 1935. səh 535

Bağbanlarından Ozanlar məhəlləsinə gəlir. Şamamabəyimlə görüşür, deyişir, İranın Girman vilayətinə yola düşür. Goranboy yaxınlığındakı Kürək çayında ləzgilər Şəhriyarın əl-qolunu bağlayıb Dağıstana aparırlar. Nəticədə gəncəli Şamamabəyim xanımın atası Şahqulu xan qoşununun gücü ilə və cibinin pulu ilə Şəhriyarı ləzgilərin əlindən alır. Şəhriyar Sənubərin arxasınca Kirmana yola düşür. Salman Mümtazın yazıya aldığı beş bəndlik "Durnalar" şeiri Dağıstanda yaranmışdır. Qoşmanın hər bəndində bir mətləb izah olunur. Birinci bənddə Şəhriyar vətənin ona haram olduğunu deyir:

Qalxıbsız havaya, havanız bülənd,
Səs-səsə veribən ötən durnalar.
Gəl aşığa dərdi-dilim söyləyim,
Bizə haram oldu vətən, durnalar.

İkinci bənddə isə özünün yarından xəbərsiz dustaq yatdığını dilə gətirir:

Nə müddətdir xəbərim yox yarımdan,
Aləm yatmaz mənim ahu-zarımdan.
Əl götürdüm dövlətimdən varımdan,
İndi oldum dustaq yatan durnalar.

Beş bəndlik qoşmanın son möhür bəndi belə tamamlanır:

Qatar-qatar düzəlibsiz hər yana,
Bişibdir ciyərim dönüb büryana,
Şəhriyar xəbərin apar Kirmana,

Bilsin Sənubərin butam durnalar.

Məhəmməd dastan tərzində “Şəhriyar” dastanını yaradarkən Mümtazın yazıya aldığı “Durnalar” qoşmasının dörd bəndini çıxarmış, əsərində təkcə möhür bəndini saxlamışdır. Həmin bəndini olduğu kimi veririk:

Qatar-qatar düzülübsüz hər yanə,
Bişibdür cügərim dönüb büryanə,
Şəhriyar xəbərin apar Kirmanə,
Bilsin Sənubərim butam durnalar.[1]

Buradan tam aydın olur ki, Məhəmməd “Şəhriyar” dastanını şifahi şəkildə yaymış, “Şəhriyar” və ya “Şəhriyar və Sənubər” dastanından istifadə yolu ilə yaratmışdır. Akademik Həmid Araslı bu xüsusda yazır: “XVIII əsrdə Azərbaycan nəsrinin ən yaxşı nümunəsi “Şəhriyar” dastanı adlandırdığımız əsərdir. Bu əsər məşhur “Şəhriyar və Sənubər” adlı xalq dastanından istifadə edilərək yenidən işlənmişdir”.[2]

İndi qarşıda duran vəzifə dastanın şifahi şəkildə yayılmış variantını toplamaqdan və dastanı yazıya almış Məhəmmədin şəxsiyyətini öyrənməkdən ibarətdir. Bizə görə Məhəmməd Gəncə mühitində yetişmiş bir ziyalıdır. Əsərdə Gəncənin Bağbanlar qəsəbəsinin, Ozan küçəsinin, şəhərin adət-ənənələrini, aşıq sınaşmalarını çox gözəl bilir. Saz havalarını incəliyinə qədər təsvir edir. Məlumdur ki, ta qədimdən aşıqların toplaşdığı yer Gəncədir. Gəncə,

---

[1] Məhəmməd Şəhriyar, Yazıçı, 1987. səh 105

[2] H.Araslı. XVII-XVIII əsr “Azərbaycan ədəbiyyatı tarixi” Bakı, 1956. səh 301

Borçalı, Qazax, Tovuz, Şəmkir hətta Göyçə həmişə aşıqların görüş yeri olmuşdur.

"Şəhriyar" dastanını təkcə bu tərəflərdə deyil, Dağıstanda axtarmaq lazımdır. Vaxtilə ləzgi aşıqlarından Səyid Köçquriski, Batıray, Yetim Əmin, Süleyman Staliski Azərbaycanda işləmişlər və burada aşıq sənətini öyrənib Cənubi Dağıstana, Yedipara Dağıstana, Axtıya, Məhərrəmkəndə aşıq sənətini aparmışlar.

Mən təxminən 20 il bundan əvvəl vaxtilə çox məşhur olan "Yetim Aydın" dastanını Dağıstanın Tabasaran bölgəsində aşıq Əflandan toplamışam. Atalar yaxşı deyib: "Axtaran tapar".

# *ZODLU ABDULLA VƏ NÖVRƏS İMANIN YARADICILIĞINA BİR BAXIŞ*

## GÖYÇƏLİ ZODLU ABDULLA



Zodlu Abdulla bir neçə adla şeirlərini düzüb qoşmuşdur. Zodlu Abdula, Usta Abdulla, Sənətkar Abdulla, Qul Abdulla təxəllüsləri ilə şeirlərinin möhür bəndini tamamlamışdır.

Doğrudan da hər kəs öz mühitinin oğludur. Doğulduğu coğrafi məkan, mühit, uşaqlıqdan onun şüurunun formalaşmasında böyük rol oynayır. Abdullanın yaşadığı XIX əsrin ikinci yarısında Göyçədə ictimai mühit tamamilə başqa idi. Burada gənclik iki yol ayrıcında qalmışdır. Bunların bir hissəsi Göyçənin Sarıyaqub kəndində açılmış Miskin Abdal məktəbində təhsil alır, bir qismi isə başqa sənətləri öyrənirdi. Əkinçiliklə, xarratlıqla (dülgərliklə), dəmirçiliklə və s. peşələrin arxasınca gedirdilər. Miskin Abdal məktəbinə gələn gənclər ərəb əlifbası ilə yazmağı-oxumağı öyrənməyə çalışırdılar.

Lakin bu məktəb başqa dini məktəblərdən fərqlənirdi. Ona görə ki, bu məktəbin adını daşıyan Miskin Abdal özü azman el şairi idi. Miskin Abdalın adını daşıyan məktəbdə kəlbəcərli Ağdabanlı Qurban, Aşıq Ələsgərin qardaşı oğlu Növrəs İman, Zodlu Abdulla və başqaları birlikdə bu məktəbdə təhsil almışlar. Növrəs İman Miskin Abdalın bütövlükdə şeir yaradıcılığına bələd idi. Hətta, Növrəs İman yazdığı şeirlərdə Miskin Abdal yaradıclığını yüksək qiymətləndirirdi.

Aşıq Musanın "Nə günahı telli sazın", Daşkəndli Məmmədhüseynin "Yatıb, oyanmaz, oyanmaz" gəraylısı dillər əzbəri idi. Aşıq Ələsgər örnək ola biləcək gəraylı, qoşma, təcnis və müxəmməslər yaradırdı. Demək olar ki, gənclik gündüzlər Miskin Abdal məktəbində "Quran" oxumaqla, ərəb əlifbası ilə yazmağı, oxumağı öyrənməklə məşğul olur, axşamlar isə Aşıq Ələsgərin başına toplaşırdılar. Aşıq Ələsgərdə bir növ gənclərə həm saz çalıb onlarda maraq yaradır, digər tərəfdən də "Beş diliynən var savadı bəylərin" şeirini oxuyur, eyni zamanda Zodlu Molla Məhəmmədlə dini hadisələrlə bağlı deyişmə və sual-cavab şəklində qoşmalar düzüb qoşurdular. Onların bu qabaq-qabağa deyilən şeirləri vasitəsilə gəncliyə dini məsaillər, eyni zamanda vücudnamələr, meracnamələr, cahan-namələr haqqında bilik verirdilər. Zodlu Abdullanın atası dülgərlik edirdi, eyni zamanda saz bağlayırdı. Buna görə də Göyçənin bütün aşıqları saz bağlatmaq üçün dülgər Rəhimin yanına gəlirdi. Balaca Abdulla da Miskin Abdal məktəbində oxuyur və boş qalan vaxtlarında atası Rəhimin yanında dülgərlik sənətini öyrənirdi. Aşıq Ələsgər, Ağdabanlı Qurban, Növrəs İman, Şişqayalı Aydın və başqaları Abdullanın gözü qabağında saz bağlamış, sazlarına sədəf düzmüş, mükəmməl bir hava

çaldıqdan sonra onlara təqdim edərək xeyir-dua vermişdir. Abdulla o zamankı Göyçə mühitində demək olar ki, hələ uşaq yaşlarından aşıq yaradıcılığının bütün sirlərinə bələd olmuşdur. Ona görə də Abdulla qəlbində oyanan duyğuları əvəz etmək üçün şeir yazmağa erkən başlamışdır. Bir qədər sonra Aşıq Ələsgərin təkidi ilə Kəlbəcərdə Ağdabanlı Qurbanın adını daşıyan "Qurban bulağı" məclisi yaranmışdır. Bu məclisin üzvü olan Aşıq Ələsgər, Ağdabanlı Qurban, Aşıq Bəsti, Növrəs İmanla eyni vaxtda Zodlu Abdulla da bu məclisdə iştirak etmişdir. Məclis demək olar ki, mükəmməl bir məktəb idi. Belə ki, bu məclisin üzvləri Şəmkirli Aşıq Hüseynin təkidi ilə yaradılmış "Dilqəm bulağı" məclisi ilə ilk gündən ardıcıl olaraq əlaqə saxlayırdı. Əgər Ağdabanlı Qurban poetik biçimli gözəl qoşmalar yaradırdısa, Şəmkirli Aşıq Hüseyn və Yəhya bəy Dilqəm də gözəl saz havaları yaradan bəstəkar aşıqları idi. Aşıq sənətinin səyyarlığına böyük əhəmiyyət verən Aşıq Bəsti bu əlaqənin yaradılmasında böyük rol oynayırdı. Bu dövrdə Zodlu Abdulla da yaradıcılıq yoluna çıxmış, bir tərəfdən kəndbəkənd gəzib dülgərlik edir, o biri tərəfdən də el gözəllərinə könülləri oxşayan şeirlər yazıb-yaradırdı.

Zodlu Abdulla doğrudan da öz sözü, öz fikri olan, dərin poetik yaradıcılığa malik bir sənətkardır. Abdullanın bir sıra qoşma və gəraylılarının yaddaqalan yurdları vardır. Məlumdur ki, ayrı-ayrı hekayətlərin və dastanların təşəkkül tapmasında bir hadisə, epizod, maraqlı bir süjet rol oynayır, onun yayılmasına və formalaşmasına rəvac verir.

Zodlu Abdulanın çox maraqlı və insanı düşündürən yaradıcılıq yolu vardır. Bu dediklərimiz qeyri-adi əsərin ayrı-ayrı fəsillərində özünün tam ifadəsini tapmışdır.

## I) Zodlu Abdullanın mühiti, həyat və yaradıcılığı

Abdulla Rəhim oğlu Namazov 1858-ci ildə Göyçə mahalının Zod kəndində dülgər ailəsində anadan olmuş, 1943-cü ildə Gəncədə vəfat etmişdir. Qəbri Gəncənin Göy İmamzadə qəbristanlığındadır.

Onun atası Göyçə mahalında adlı-sanlı dülgər olub, xüsusən saz bağlamağı ilə başqa sənətkarlardan fərqlənirdi. Bu sənət (saz qayırmaq) sazbənd Rəhimin ailəsi ilə dövrün məşhur aşıqları arasında qırılmaz əlaqə yaradırdı. Onların evində həmişə Aşıq Ələsgəri, Ağdabanlı Qurbanı, Növrəs İmanı və başqalarını görmək mümkün idi. Bütün bunlar Abdullanın gələcək inkişafına kömək etməyə bilməzdi. Lakin Abdulla onların aşıqlıq yolunu deyil, atasının dülgərlik sənətini özünə peşə seçdi. Ancaq bu onun şairliyinə mane olmadı.

Zodlu Abdulla dörd böyük sənətkarın: Aşıq Ələsgərin, Ağdabanlı Qurbanın, Aşıq Bəstinin və Növrəs İmanın yaradıcılığını yüksək qiymətləndirmişdir.

Aşıq Ələsgərin ölümü Zodlu Abdullanın varlığını sarsıtmışdı. O, «Varmı» rədifli qoşmasını bu münasibətlə yazmışdı:

Minək qəm atını, çıxaq cahana,

Görək bu dünyada şad olan varmı?![1]

Abdulla qeyd etdik ki, sənət aləmində Zodlu Abdulla, Sənətkar Abdulla və Usta Abdulla adları ilə tanınır. O, özü də qoşmalarında bu barədə tez-tez söz açıb deyir:

Mahalım Göyçədi, sakinim Zoddu,
Sənətkar Abdulla deyilən mənəm.[1]

Zodlu Abdulla kəndinin adına, Usta Abdulla dülgərliyinə, SənətkarAbdulla isə aşıq-şairliyinə, bitkin təcnislər yaradan sənətkar olduğuna görə deyilmişdir.

Abdulla Kəlbəcərin kəndlərində dülgərlik edirdi. O, öz zəhməti ilə yaşayır, heç kəsin minnətini götürmürdü. Hər kəsin eybini çəkinmədən üzünə deyən sənətkara «Dəli Abdulla» deyən bədxahlar da var idi.

Deyilənlər gerçəkdimi?
Doğurdanmı dəliyəm mən?
Ağıllının iç üzünü,
İstəyirəm əliyəm mən.

Zodlu Abdullanın şeirlərini toplayıb nəşr etdirmək təşəbbüsünü ilk dəfə onun həmyerlisi, qohumu Nağı Əbdüləzimov ortaya atmış və şairin xeyli şeirini toplamışdır. O, topladığı qoşmaların bir neçəsini «Ədəbi Ermənistan» məcmuəsinin səhifələrində çap etdirmiş və yerdə qalanlarını respubli-

---

[1] Aşıq Ələsgər, Bakı, 1963, səh. 307.
[1] Basarkeçər rayonu, «Bolluq uğrunda» qəzeti, 20 yanvar 1965-ci il

kamızın xalq yaradıcılığı evinə təqdim etmişdir. Folklorşünas Əhliman Axundov «Telli saz ustadları» kitabında[1] el şairinin qısa tərcümeyi-halını və beş qoşmasını vermişdir.

Zodlu Abdulla haqqında Basarkeçər rayonunda çıxan «Bolluq uğrunda» qəzetində N.Əbdüləzimovun «İstedadlı şair, gözəl xarrat» adlı məqaləsi dərc edilmişdir.

Müəllif Abdullanın gənclik illəri haqqında yazır: «Ata körpənin adını Abdulla qoydu. Bu ad Rəhimin ən çox sevdiyi adlardan idi. O, istəyirdi ki, onun da oğlu, Ərəş mahalından olan, "Abdullah və Cahan" dastanının yaradıcısı, məşhur Aşıq Abdullaya oxşasın, hazırladığı sazlardan birini də onun oğlu çalsın. Körpə gözlərini açıb evdə böyük sənət adamlarını gördü. O, gah Qurbanın gəraylısına, gah Alının qoşmalarına, gah da Ələsgərin gözəlləmələrinə qulaq asır, öz kəndliləri Molla Tağı oğlu Məhəmmədin söylədiyi şirin rəvayətlərdən həzz alırdı».[2] Abdullanın atası təkcə Göyçə aşıqlarına deyil, Dərəçiçəkli Alının, "Orta Cəlili" və "Ayaq Cəlili" saz havalarının yaradıcısı Sallı Cəlilin də sazlarını Usta Rəhim düzəltmişdi. Onların çaldığı saz havaları körpə Abdullanın qəlbində dərin izlər buraxmışdı. Sonralar Göyçənin Sarıyaqub kəndində Miskin Abdal məktəbinin yaradılması Göyçədə aşıq sənətinin inkişafına təkan verir. Bu məktəbdə oxuyan Ağdabanlı Qurban, Növrəst İman, Zodlu Abdulla, Şişqayalı Aydın yaxından dostluq edirlər. Onlar yazmağı, oxumağı, öyrənməklə yanaşı,

---

[1] «Telli saz ustadları», Bakı, 1964

[2] Basarkeçər rayonu «Bolluq uğrunda» qəzeti, 20 yanvar 1965-ci il

“Quranı-Kərimi”, Sədinin “Gülüstan”ını, “Büstan”ını dərindən mənimsəyirlər. İrandan gəlmiş Molla Hüseyn bu məktəbdə dərs deməyə başlayır və Aşıq Ələsgərin qızı Bəsti ilə evlənir. Gənclər gündüzlər məktəbdə dərs keçirlər, gecələr isə Aşıq Ələsgərin tez-tez qonaq gəldiyi Bəstinin evinə toplaşırlar. Onlar “Aşıq Alının Türkiyə səfəri”ni, Daşkəndli Məmmədhüseynin şeirlərini, xüsusilə «Yatıb oyanmaz-oyanmaz» gəraylısını əzbərləyirdilər:

Yönü bəri baxan dağlar,
Yatıb oyanmaz-oyanmaz.
Üstündəki ağır ellər,
Yatıb oyanmaz-oyanmaz.

Aşıq Musanın «Nə günahı telli sazın» gəraylısı uşaqları molla olmaqdan uzaqlaşdırırdı. Günü-gündən onları saz-söz sənətinə bağlayırdı.

Yeki şəcər, yeki dəmir,
Ara vurmur, yalan demir,
Molla kimi rüşvət yemir,
Nə günahı telli sazın?!

Növrəs İman Miskin Abdal şeirlərinin vurğunu idi. Miskin Abdalın “Dağlar” şeirini hamıya əzbərlətmişdi. Növrəst İman demək olar ki, aşıq sənətinin nəzəriyyəçisi kimi çıxış edirdi. O, Miskin Abdal haqqında aşağıdakı yaddançıxmaz şeirini yazıb bizlərə miras qoymuşdur:

Yaxşı bəyənmişəm Miskin Abdalı,

Cəm imiş başında huşu, kamalı,

Vaqif qarışdırıb çox qeylü-qalı,
Sözlərində gəlin-qız gəlib gedib.

Oyur ciyərimi möhnət alması,
Viranə könlümün açılmaz pası,
Ələsgərlə, Qasım, Şikəstə Abbası,
Qalan şair hamı üz gəlib gedib.[1]

Bu şeirdə "Yaxşı bəyənmişəm Miskin Abdalı" deyən sənətkar bu qoşmada həm də aşıq poeziyasının nəzəriyyəçisi kimi çıxış edir.

Ağdabanlı Qurbanla dostluğu Abdullanı Kəlbəcərə gətirib çıxarır. Erməni-müsəlman davasında Aşıq Ələsgər Kəlbəcərin Qalaboynuna köçüb gəlir. Burada dəyirman tikib, dəyirmançılıq edir. Onsuz da Ələsgər Kəlbəcərin Yanşaq kəndindən evlənmişdi. Abdulla da Göyçədən köçüb, Kəlbəcərin Bağırsaq kəndindən bir qız alır. Aşıq Ələsgər dəyirmançılıq elədiyi kimi, Abdulla da Kəlbəcərin kəndlərində dülgərlik edirdi. Bu gəzmək, görmək, Aşıq Ələsgərlə, Ağdabanlı Qurbanla, Aşıq Bəsti ilə, Növrəst İmanla, Qamışlı Rüstəmlə, Əli Bimarla görüşləri ona saysız-hesabsız mövzular verir, rəngarəng şeirlər yazmasına səbəb olur. Elə bil ki, XIX əsrin əvvəllərindən etibarən Göyçə aşıq mühiti Kəlbəcərə köçür. Heç təsadüfi deyildir ki, Zodlu Abdullanın da şeirlərinin əksəriyyəti Kəlbəcərdə ipə-sapa düzülmüşdür.

---

[1] "Aşıqlar" (toplayanı Hümbət Əlizadə), Bakı, 1938, səh 222.

«Qurban bulağı» məclisində keçirilən yığıncaqlarda şeirlər, dastanlar, saz havaları təhlil edilirdi. Eyni zamanda «Dilqəm bulağı» məclisi ilə əlaqələri sənətkarların inkişafına böyük təsir göstərir, əvəzsiz fayda verirdi. Aşıq Hüseyn təkcə söz, dastan bilicisi deyildi, o həm də bəstəkar aşıq idi. Onun yaratdığı «Aşıq Hüseyn» havası nəinki Şəmkirdə, Göyçədə bütün Qafqazda məşhur idi. Demək olar ki, Borçalı aşıqları məclisi "Dastan"adlandırdıqları bu hava ilə açıb bağlayırdılar. Bütün bunlar Usta Abdulla yaradıcılığına qol-qanad verirdi. Əlbəttə, quyuya su tökməklə nəhr yaranmaz. Hər bir çeşmənin özünün qaynağı, təbii olmalıdır. Məhz Abdulla da bu cəhətdən dolu, təbli sənətkar idi.

Zodlu Abdulla fitri istedad sahibi olmuşdur. O, Azərbaycan xalqının əsrlər boyunca yaratdığı, qoruyub saxladığı xalq incilərini öyrənirdi. Şairin əsərlərinin dərin ictimai mənası vardı. O, ara-sıra gördüyü ədalətsizlikləri satirik bir üslubda deməkdən, tənqiddən, həcvdən də çəkinməmişdir:

Abdullayam dostlar, ara dəyibdir,
Çünki olub bəxti qara dəyibdir,
Sinəmə hesabsız yara dəyibdir,
Qərar tutsan bir zənburun şanıcan.

Burada bir növ, Qasım bəy Zakirin zəmanəyə tənqidi ruhu hiss edilməkdədir.

Abdulla gözəl bir dilə malik, xalq ifadə formalarını mükəmməl mənimsəmiş sənətkar idi. Məhz bu səbəbdəndir ki, onun yaratdığı təcnislər sənətkarlıqla yaradılmasına görə görkəmli aşıq-şairlərin təcnisləri ilə müqayisə edilə bilər:

Ovçusan gəzirsən dağ damanında,
Sən Allah, öldürmə sayadam məni,
Mən qalmışam Leyli-Məcnun ünündə,
Salma nəzərindən, say adam məni.

Sayadam-ovçuyam öldürmə məni, Leyli-Məcnun ünündə bu günə düşmüşəm, salma nəzərindən məni adam say.

Gəzdim seyr eylədim adam içində,
Dəryayi-mühitəm adam içində,
Sayıl olub gəzsəm adam içində,
Seçər el içində, say adam məni.

Əgər sayıl kimi adamlar içində gəzsəm, say Adam məni, arif adam seçər, bilər mən kiməm.

Abdulla aşıq şeirinin belə çətin növünü böyük ustalıqla işləmiş, şeirin məna və forma gözəlliyini qoruyaraq aydın cinaslar yaratmışdır. Onun təcnislərini oxuyanda «təcnisdə məzmun formaya qurban verilir» deyən tədqiqatçılarla razılaşmaq olmur.

O, aşıq şeirinin bu çətin formasında yazıb yaradarkən məzmun gözəlliyinə, fikir yeniliyinə xüsusi diqqət yetirir. Təcnislərində ona qədər işlənməmiş, orijinal cinaslar işlədir:

Həqiqi dost yandan beləmi keçər?
Kəmərin toqqası beləmi keçər?
Abdullanın ömrü beləmi keçər?
Qışı dərdi-möhnət, a yazı belə?!

Abdulla şeirlərində zəhmətin, insanın, təbiətin, gözəlliyini tərənnüm etmişdir. Onu daha çox təcnis yaradıcılığı maraqlandırmışdır:

Abdullaya göstərginən bağı sən,
Tax boynuma gülabatın bağı sən.
Naz ilə gir, seyr elə, gəl, bağı sən,
Süsən-sünbül, qönçə gülü yüz dərdə.

«Dərdə», «Ağını sən» təcnislərindən Tufarqanlı Abbasın məşhur qoşma və təcnislərinin ətri gəlir.

Hətta, Abdullanın «Kənarında» rədifli qoşması tamamilə Aşıq Abbasın şeirinin təsiri ilə yaranmışdır

Abdulla:

Məhbus edir göydə gəzən quşları,
Dağıdır xəyalı, alır huşları.
Ucu əbrəşimli siyah saçları,
Cığa pərvazlanır tel kənarında.

Bağban olan gül becərər bağlarda,
Xəstə olan gözü qalar sağlarda,
Ovçu olan gedər gəzər dağlarda,
Abdulla dolanır el kənarında.

Bəs bu şeir-qoşma Aşıq Abbasda necədir?

Bu gün bir Pərinin sehrinə daldım,
Əlində şanası tel kənarında.
Dəstə-dəstə, həlqə-həlqə, çinbəçin,
Qoşa bazubəndlər qol kənarında.

Pərinin boynunda qızıl ənbərcə,
Sağında, solunda pulları necə,

Gözlədim Pərinin karvanı keçə,
Onunçun durmuşdum yol kənarında.

Abbas deyər: müsəllaya varmadım,
Əl uzadıb yarın zülfün hörmədim,
İran gəzdim, Turan gəzdim görmədim,
Pərim kimi gözəl el kənarında.

Şeirlər arasında yaxınlıq göz önündədir. Aşıq Abbas təkcə Abdullanın deyil, onlarla sənətkarın ustadı olmuş, onun ədəbi irsi onlar üçün bir örnək, yaradıcılıq çeşməsi rolu oynamışdır.

Abdulla yaradıcılığının əsasını, özəyini qoşmalar və təcnislər təşkil edir. Abdullanın təcnisləri dilinin sadə və rəvanlığına görə özündən əvvəl yazılmış təcnislərdən fərqlənir:

Ovçusan, durubsan ov bərəsində,
Qur xədəngin, maral keçdi, yayındı.
Əlif qəddin, ay qabağın, gül üzün,
Cəllad qaşın çəkilibdi yay indi.

Maralı keçməyə, yayınmağa qoyma, xədəngi, yayı qur. Əlif qəddin, ay qabağın, gül üzün gözəldir, cəllad qaşların yay kimi çəkilib indii:

Ərş üzündə gün, ay daim üzərmiş,

Müxənnətin dolandığı üzərmiş,
Dərdin məni incəldərmiş, üzərmiş,
Ya bu gündü, ya sabahdı, ya indi.

Ay, gün ərş üzündə üzərmiş, görünərmiş. Müxənnətin də yalanmağı yalandan aşkar görünürmüş. Sənin dərdin məni elə incəldib, elə üzüb ki, ölməyim «Ya bu gündü, ya sabahdı, ya indi».

Abdulla düşübdü qara, ayaza,
Katib gərək mənim dərdim a yaza
Zimistanda ilqar verdin a yaza
A bimürvət, gözləyirəm yay indi.

Abdulla qara, ayaza düşüb, katib gərəkdir ki, onun dərdini yaza. Ona görə ki, qışda yaza ilqar verən gözəl yay gəlib çatıb əhdinə düz çıxmır.

Zodlu Abdulla təcnis yaradıcılığında müasirlərindən çox irəli getmiş, kamil sənət əsərləri yaratmış və ustad sənətkarlarla bir sırada dayanmaq hüququ qazanmışdır.

İstedadlı el şairi Zodlu Abdulla aşıq poeziyasının gəraylı, qoşma, təcnis, cığalı təcnis, müxəmməs və başqa şəkillərində çoxlu şeirlər yazıb yaratmışdır.

Aşıqlar arasında «Leyli niyə azdı» təcnisi Zodlu Abdullaya mahir təcnis ustası kimi əbədi şöhrət qazandırmışdır.

Bihudə dolandım, əfsanə gəzdim,
Canım dost yolunda Leyli niyazdı.
Etibar kəsilib, ilqar pozulub,
Əvvəlki məhəbbət Leyli, niyə azdı?

Qəmər qan ağladı, neştər yeridi,
Yaram sızıldayır neştər yeridi,
Leylinin qoluna neştər yeridi,
Məcnun qanı çöldə Leylini yazdı.

İkinci banddə Zodlu Abdulla yadda qalan bir lövhə yaratmaqla bərabər, «Leyli və Məcnun» əfsanələrində özünə köklü yer salmış böyük bir möcüzəni yada salır. Leylinin qoluna neştər vururlar. Çöldə Məcnunun damarlarından qan axır və torpaq üzərində Leylinin adını yazır. Zodlu Abdulla böyük ustalıqla həmin əfsanəni təcnisə gətirir. Zodlu Abdulla fikrini davam etdirir, təcnis binasını yeni cinaslarla qurmağa çalışır.

Zodlu Abdullanın gəraylıları öz ifadə səlistliyi ilə seçilir. «Gəlirsənmi» gəraylısı güllü qafiyə ilə başlayır. Sonra isə gəraylının axarı dəyişir:

Ala gözlü, nazlı dilbər,
Dedi: dur gəlirəm mən.
Dedim: ay qız, dərdim çoxdur,
Dedi: dərman bilirəm mən.

Sonra həmin dilbərə bildirir ki, vəfalı bir yar, dost tapsam, yüz il onun qulu olmağa razıyam.

Vəfası olmaz yalanın,
Ağlı olmaz çox gülənin,
Abdullayam dərd bilənin,
Yüz il keçsə, quluyam mən.

Abdullanın amalı, poetik qənaəti «Var deməkdi» gəraylısında belə məntiqi nəticə ilə yekunlaşdırılır:

Fikir vermə hədyan sözə,
Şəfa verər elm gözə,

Babalardan qalan bizə,
Namus, qeyrət, ar deməkdi.

Bu gəraylısı ilə Zodlu Abdulla bizi babaların qoyub getdiyi adət-ənənləri göz bəbəyi kimi qorumağa çağırır. O deyir ki, belə insanlara mövlam da köməkçi olar həmişə.

Şər işlərdən olaq qıraq,
Həqiqət axtaran qoçaq.
Qulağınla eşit ancaq,
Gözünlə gör deməkdi.

Burada Ələsgərin nəsihətamiz, ustadnamə yerində işlədilən qoşmasından bir beyt yada düşür:

Dünyada ədalət axtaran hakim,
Tapar qulaqnan göz arasında.

Sənətkarların şeirinin fərqi birinin şeirinin gəraylı, digərinin isə qoşma ilə deyilməsidir. Zodlu Abdulla öz gəraylısını belə tamamlayır:

Sənətkarın var hörməti,
Çəkməz kimsədən minnəti,
Kimin olsa səxavəti,
Mövlam ona yar deməkdi.

Aşıq Ələsgər və Zodlu Abdulla eyni coğrafi məkanın, Göyçə aşıq mühitinin yetirmələridir. Zodlu Abdulla nə qədər nikbin olsa da, onun da zəmanədən, dövrdən öz şikayəti var idi. O da yeri düşdükcə öz şeirlərində sızıltılar verir, eyhamlar vurur:

Dərdim olubdu ziyadə,
Bir yetən yoxdu fəryada,
Arsız, qəmli bu dünyada,
Bilmirəm gəzim, neynim.

Abdulla düşüb azara,
Dərdim yetib səd hazara,
Qoyan yoxdu bir məzara,
Öz əlimlə qazım, neynim.

Zodlu Abdulla öz Göyçəsindən sürgün edilmiş, kənar ellərdə, oymaqlarda yaşamalı olmuş, xarratlıqla, dülgərliklə günlərini keçirmişdir:

Mənim kimi bülbül olmaq,
Güllərinə layiqdimi?
Aşığı sürgün eyləmək,
Ellərinə layiqdimi?

«Arasında» gəraylısında qəribə bir arxaik ifadə işlədir:

Səhərdən sərvi boylunu,
Gördüm bağlar arasında.
Tütünüm ərşə dayandı,
Yandım yağlar arasında.

Bundan əvvəl qocalar tənbəki əkərdi, tütün əkərdi, yarpağını qurudub, ondan bir parça kağıza eşib papiros bükərdi. Papirosu çəkdikcə tütünün tüstüsü burula-burula göyə qalxardı. «Tütün» ifadəsini Abdulla neoligizm şəklində işlədir. «Tütünüm ərşə dayandı» deməklə, o, papiros tüstüsünü nəzərdə tutmur, özünün başından çıxan tütünü, tüstünü diqqətə çatdırır. Son bənddə demək olar ki, el şairi fikrini bir qədər də açıqlayır:

Yandım, yetirən olmadı,
Mətləb bitirən olmadı,
Öldüm, götürən olmadı,
Qaldım ağlar arasında.

Onun deyim tərzi, şeiri düzümləndirməsi, şeir daxilində öz mətləbini ifadə etməsi təzə tərdi, Abdullanın özünəməxsusdur. «Dilbər» rədifli Dirili Qurbani də, Tufarqanlı Abbas da və bir çox başqa şairlər də şeir yazmışdır. Abdullanın «Dilbər»i də özünəməxsusdur:

Bir ərzim var qulluğuna,
Ay xalları qoşa dilbər.
Xəstə canım qurban olsun,
Həm gözə, qaşa dilbər.

Abdullayam, çox ağladım,
Sinəm başını dağladım,
İsminə dastan bağladım,
Görün, gəlib, xoşa, dilbər.

Zodlu Abdulla burada yenə də adına dastan bağladığı Minayəni xatırlayır. Abdulla bəzən elə bil sözlə şeir yaratmır, bir rəsam kimi əlinə fırça alıb, çiçəklərdən, lalələrdən rəng alıb əlvan lövhələr yaradır. Bu daha çox onun qoşmalarına xas keyfiyyətdir:

Ay beymürvət, cavan qəddim əyibsən,
Alıbsan canımı alası təki.
Qələm qaşın, ay qabağın, gül üzün,
Açılıb dağların lalası təki.

Və yaxud:

Dal gərdənə həmayillər taxıbsan,
Qaşa vəsmə, gözə sürmə yaxıbsan,
Müjgan oxun sinəm üstə çaxıbsan,
Alıbsan Xeybərin qalası təki.

Həzrət Əli alınmaz qala olan, Ağ divi özündə yaşadan Xeybər qalasını dağıtmış, Ağ divin əllərini bir-birinə çatıb məhv etmişdi. Abdullanın gördüyü gözəl bir baxışla onu bu qala təki məhv etmişdi. Gözəlin qarşısında dayanan Abdulla özünü Xeybərin qalasına bənzədir. «Qayıtdı» qoşmasında da bu cür bədii təsvirlərə, lövhələrə rast gəlirik:

Bir maral balası, tərlan cilvəli,
Gəldi məni gördü baxdı, qayıtdı.
Pünhan göstərdi gül camalını,
Tər üzünə şəbnəm yaxdı,qayıtdı.

Abdullanın bu qoşması tovuzlu Bozalqanlı Hüseynin «Süzmüş oylağına dəydi qayıtdı» qoşmasını yada salır. Mətləb birdir, deyim tərzi başqadır. Lakin biz bilmirik ki, hansı şeir daha əvvəl yazılmışdır. «Eyləsin» rədifli qoşmasında yenə də «şeyda bülbül kimi» fəğan eyləyən sənətkar deyir:

Mən fəqirə çox eylədin sitəmi,
Günbəgün artırdın möhnəti, qəmi,
Xar olubdu qızıl gülün həmdəmi,
Şeyda bülbül ahı-fəğan eyləsin.

Sənə qurban olub gözəllər xubu,
Mina gərdən, mərmər sinə qədd tubu,
Bir aşiqin ayrı düşsə məktubu,
Yaxa yırtsın, dildə giryan eyləsin.

«Yaxa yırtsın» ifadəsi Dirili Qurbaninin məşhur təcnisini xatırladır. Deməli, Zodlu Abdulla klassiklərin yaradıcılığına biganə qalmamış, tükənməz qaynaq kimi onlardan faydalanmışdır. «Gülə-gülə» adlı şeirlər yazılı və şifahi ədəbiyyatda çoxdur. Abdulla burada da öz arzularını ifadə etmək üçün özünə-məxsus deyim tərzi seçmişdir:

Əyləşəydim, yar yolunda qalaydım,
Yalvaraydım bir könlünü alaydım,
Abdullayam, bir az cavan olaydım,
Salaydım boynuna qol gülə-gülə.

Şeirdən belə anlaşılır ki, Abdulla bu şeiri yaşlı çağında yazmışdır. Məlumdur ki, insan qocalsa da, onun məhəbbəti qocalmır. Abdulla gözəllik aşiqidir. Onu yaşadan sevmək, sevilmək eşqidir. Onun gözləri gözəlliyi axtarır. Onları vəsf etməkdən, tərənnüm etməkdən doymur:

Bəxtəvər xəlq edib səni yaradan,
Bəzəyin, düzəyin şaldan, karadan,
Silkinib sona tək çıxsan aradan,
Elə bil gələrəm imana xanım.

Abdulla gözəllərin geyiminə xüsusi diqqət edir. Onun təsvirində «şaldan, karadan» deməklə dövrünün geyimlərinə, etnoqrafik cizgilərinə, çalarlarına da xüsusi əhəmiyyət verilir.

Abdulla xoş günləri ilə yanaşı, son günlərini də tez-tez xatırlayır. «Ağlama» qoşmasının möhür-bəndində deyir:

Bu gen dünya Abdullaya dar olsa,
Zərrəcən nəzəri xirdigar olsa,
Eyni yaşı çeşmələrdən car olsa,
Bir gün göz yaşımı, silər ağlama.

«Bilə» qoşmasında deyir:

Hər yetən gözələ gözəl demərəm,
Gözəl odur, yar qədrini yar bilə.
Bülbül güldən ötrü bağı dolanır,
İnsaf deyil, ləzzətini xar bilə.

«Hər yetən gözələ gözəl demərəm” misrası M.P.Vaqifin məlum qoşmasının ilk misrasından olduğu kimi götürülmüş və həmin axarda şeir davam etmişdir. Bu onu sübut edir ki, Zodlu Abdulla təkcə şifahi poeziyamıza deyil, klassik poeziyamıza da dərindən bələd olmuş və ondan faydalanmışdır.

Zodlu Abdullanın şeirdə müvəffəqiyyət qazanmasının əsas səbəblərindən biri odur ki, çox görmüş, çox gəzmiş, məişətimizə dərindən bələd olmuş və gördüklərini şeirə, sənətə məzmunlu şəkildə gətirmişdir:

Ağac bəlli olar yaxşılarından,
İgidlər seçilər düz ilqarından,
Abdulla, qalı qurma dağlar qarından,
Yazda gün əridər selə qarışıar.

«Qall qurma» bu iki söz qala qurma mənasındadır. Qardan qala qurmaq olmaz, çünki yazın günü onu əridər, aparıb selə-suya qarışdırar.

Zodlu Abdullaya doğma Göyçəsindən ayrılmaq, ona qəm, kədər gətirmişdi. Nə qədər xoşməramlı qoşmalar, gəraylılar yazır-yazsın, sonu gəlib kədərə çıxır. Təkcə Aşıq Ələsgərin ölümünə həsr etdiyi altı bəndlik qoşması ömrünün sonuna qədər onun varlığına güclü təsir etmişdi. Doğrudan da bu ölüm Göyçəni qoruyan, Aşəq Ələsgər kimi, Zodlu Abdulla kimi sənətkarlara həm madii, həm mənəvi dəstək olan Hacı Əliş ağa, Səməd bəy kimi varlı ağsaqqalların ölümünü belə unutdurmuşdur:

Hacı Əliş ağanı talan elədin,
Səməd bəyi gördün yalan elədin,
Bizi viran bağa bağban elədin,

Sən ağla, sızılda, ha dolan varmı?

Abdulla bu kədərdən ayrıla bilmir. Əksinə, gündən-günə onun kədəri, qəmi artır.

«Mənəm» rədifli qoşması bundan da kədərlidir. Qəm yükünün altından çıxa bilməyən Abdulla deyir:

Arif məclisində, qanan yanında,
Hər sözü dillərdə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda,
Qəza qamçısı ilə döyülən mənəm.

«Qəza qamçısı ilə döyülmək» bir yana, bir yandan da qəriblik Abdullanı sıxır:

Taqət olmaz qəriblərin dizində,
Mürvət olar mərd igidin özündə,
Səksənində, doxsanında, yüzündə,
Qəflət yuxusundan ayılan mənəm.

Bəxti qəflətən onu oyadan sənətkar özünün mənliyini, haralı olduğunu yanıqlı bir dil ilə ifadə edir:

Yatmış idim bəxtim məni oyatdı,
Qəzanın qədəri kəməndin atdı,
Mahalım Göyçədi, sakinim Zoddu,
Zodlu Abdulla deyilən mənəm.

Mərhum R.Mehdiyev Zodlu Abdullanın şeirlərini bir toplu[1] halında nəşr etdirmişdi. O kitabdan sonra onun bir neçə şeirlərinin tapılması, «Minayə» rədifli silsilə şeirlərinin yurdu ilə birlikdə tapılması sübut edir ki, Zodlu Abdullanın çox zəngin olan ədəbi irsi tam toplanılmamışdır. Onun gəncliyi Göyçədən əlavə,

[1] Usta Abdulla. (toplayanı və tərtib edəni Rəsul Mehdiyev), Bakı, 19

Kəlbəcərdə, Gəncəbasarda, Daşkəsən bölgəsində keçmişdir. Onun üçün də şairin şeirləri tam şəkildə öz elində, obasında, qohumlarında yoxdur. Ona görə də Abdullanın gəzdiyi obaları gəzmək, dülgərlik etdiyi kəndlri soraqlaşa-soraqlaşa onun bizə məlum olmayan sənət incilərini əldə etməliyik. Bu daha çox gənc tədqiqatçıların işidir.

## *II) Zodlu Abdullanın təcnis zirvəsi*

Zodlu Abdulla aşıq yaradıcılığında hər şeydən əvvəl təcnis ustası kimi tanınır. Onun hər bir təcnisi memar əlindən çıxmış bir abidəni xatırladır. «Yad qız ağı gəzər» təcnisində deyilir:

İldə zikr eyləyən sinaya gələr,
Ayaqdan can çıxar, sinaya gələr.
Əzrayıl qeyznən sinaya gələr,
Yığılar qəssallar, yad ağı gəzər.

«Ayaqdan can çıxar, sinaya gələr» misrasının mənası belədir ki, insanın ölümü ayaqdan başlayır. Ayaq soyuyur, bədən yavaş-yavaş yuxarıya doğru soyumağa başlayır. Ona görə də adamlar deyir ki, filankəs can verir. Əzrayıl sinaya çatanda həyat tamamlanır. Son misra belədir. «Yığılar qəssallar, yad ağı gəzər». Qəssal yuyucudur, ona görə qəssallar deyilir ki, bir nəfər su tökür, bir nəfər isə yuyur:

Dağda seyr eləyən şir indi hanı?
Dahanda ləzzəti şirindi hanı?

Sənətkar axtarar: Şirindi hanı?
Qatar ləzzətinə yad ağı gəzər.

Əsl mətləb son misrada verilmişdir ki, həyatın şirinliyinə, Şirinin şirinliyinə «yad ağı gəzər». İkinci bir təcnisində oxuyuruq:

Fərhad cəfa çəkdi, Şirn yerində,
Ürbah dura bilməz şirin yerində,
Şirin ixtilatın şirin yerində,
Qatdı şərbətinə ay ağı zülfün.

Burada bir misra atalar sözü yerində verilmişdir ki, «Ürbah» (çaqqal) doğrudan da şiri əvəz edə bilməz, şirin yerində otura bilməz. Zodlu Abdulla təcnis yaradarkən bəzən bəndi mürəkkəbləşdirir, bəzən az işlənən, mənası çətin başa düşülən omonimlərdən elə bacarıqla istifadə edir ki, bu tipli təcnislər də çox zaman qarşısındakını çaşdırmaq, bağlamaq üçün qıfılbənd yerində işlədilir. «Sin əsər» təcnisində deyilir:

Oya isən çək xədəngin ayağa,
Əlikdisə gəldi, keçdi sinəsər.
Eynim yaşı leysan təki ayağa,
Can ayrılar, cəsəd gedər sinəsər.

Burada işlədilən əlik, dağın meşə talalarında yaşayan cüyür balasıdır. Sinəsər burada əyil, görünmə mənasındadır. «Can ayrılar, cəsəd gedər sinəsər» misrasında «sinəsər», yəni qəbrin bir nişanə kimi qalar deməkdir. «Yarağını sən» adlı təcnisin son bəndinə diqqət yetirək:

Həqiqi dostunu sina gedəndə,
Seyrağıb gərdənin sina gedəndə,
Zodlu Abdulla sina gedəndə,
Ümid var verəsən yar ağını sən.

Birinci misrada dostun sınanmasından, ikinci misrada seyrağıbın gərdəninin sınmasından, üçüncüdə «sina gedəndə» Turi sinaya Abdulla gedəndə ümid var ki, yar ona ağı verəsən söyləyir. Bu təcnisdə Zodlu Abdulla Tufarqanlı Abbasın «Öp qoşmasının bir misrasından dəymşmədən faydalanmışdır. Tufarqanlı Abbas dörd bəndlik şeirinin bir bəndində deyir:

Kitabda oxunan sina yaxşıdı,
Seyrağıb gərdəni sına yaxşıdı,
Mən dedim, öpməyə sinə yaxşıdı,
Könül ha yalvarır buxağından öp.

Göründüyü kimi, bu bəndin ikinci misrasını Zodlu Abdulla olduğu kimi şeirinə gətirmişdir. Bu aşıq yaradıcılığında o qədər də böyük qəbahət deyildir. Sənətkarlar ustadların yazdıqları şeirləri əzbərlərkən onu elə həvəslə öyrənirlər ki, yaradıcılıq məhsulu kimi yaddaşına hopur. Yoxsa, Zodlu Abdulla kimi böyük söz ehtiyatı olan sənətkar bir misraya möhtac qalmazdı. «Dəydi» təcnisində deyir:

Qafil bir ox atdın dəydi sinəmdən,
Dərindən cismimə o yara dəydi.
Pəhləvan gəzərdi meydan içində,
Keçdi pəhləvandan əyyara dəydi.

Məlumdur ki, pəhləvan meydan sulayanda onun yanında əyyar hərlənir, camaatın başını qatır. Meydanda pəhləvanı yamsılayır, gah daş qaldırır, gah adamlara yetirir güləşmək üçün. Ox pəhləvana yox, əyyara dəymişdi. Zodlu Abdulla ikinci bənddə daha nazik mətləblərə toxunur:

Gecə uzun, təbi nazik yaralı,
İnsaf deyil, qurma mənə yar, alı.
Yar incisə, yar könlünün yar alı,
Bilmirəm nə dedim a yara dəydi.

«Qurma mənə yar, alı» söyləməklə yara eyhamla çatdırır ki, yar incisə, yar yarın könlünü alar. Lakin ona al-hiylə qurmaz. «Yüz dərə də» təcnisində deyilir:

Aman gözəl, əlac eylə dərdimə,
Səndən ötrü mən düşmüşəm yüz dərdə.
Ləblərindən özgə şəfa bilmərəm,
Əgər gəlsə, mən xəstəyə yüz dərdə.

Yenə «yüz dərdə» yüz qapıdan dərman gəlsə də, əlacı sənin ləblərindi-dodaqlarındı. O, fikrini davam etdirərək təcnisini belə tamamlayır:

Abdullaya göstərginən bağı sən,
Tax boynuma güləbətin bağı sən,
Naz ilə gir, seyr elə bağı sən,
Süsən sünbül, qönçə gülü yüz dərdə.

Burada son misradakı «Süsən sünbül, qönçə gülü yüz dərdə» deyilsə də üz, dər də deməkdir. Əvvəlki bəndlərdə yüz ifadəsi işləndiyi üçün, ümumi qaydanı pozmaq istəmir. «Hasını» təcnisində cinaslarla yanaşı, məntiqə söykənərək atalar sözü səviyyəsində nəsihə-tamiz misralar, bəndlər yaradır:

Mərd igidlər el içində qaladı,
Eşq atəşi səngimişdi, qaladı,
İgid ölsə bu dünyada qaladı,
Müxənnətlər gözləyəcək ha sini.

Birinci misrada igidlərin el içində qala olmasından, ikinci misrada səngimiş ocağın yenidən qalanmasından danışılır, üçüncü misrada sözlə söz arasında cinas yaradılır. «İgid ölsə, bu dünyada qaladı» misrasının son ifadəsi parçalanıb belə oxunmalıdır: Qala adı. Abdulla təcnisin son möhürbəndində müəyyən mətləbdən danışsa da, kimliyinə, kişi adamın necə olmasına da işarə edir:

Abdullayam, el içində azadam,
Bax nə qulam, nə nökərəm, azadam,
El içində kişi çıxar az adam,
Namərd olan ha incəli, ha sini.

Yəni namərddən incəlmək, sınmaq gözləmə. O, bacardığı qədər öz kobudluğunda qalacaqdır. «Oyanan indi» təcnisində deyilir:

Könül quşu pərvaz etdi qəfəsdən,
Çəkdi səməndini oyanam indi.

Müntəzirəm, gizli yolda qalmışam,
Bağlasın gözlərimi, oy anam indi.

Mətləb son misrada gizlənmişdir. İnsan can verərkən, ölərkən onun gözlərini yaxınlarından biri bağlamalıdır. Gözü yolda qalan insanın arzusu odur ki, onun gözlərini anası bağlasın. Burada sözlə söz arasında, cinasda mətləbi gizlətmək üçün «oy anam» ifadəsi bitişik yazılmışdır. Həm də məqsəd qarşıdakını çaşdırmaqdır. Biz yuxarıda qeyd etdik ki, cinas yaradıcıları, təcnis binaları quranlar çox zaman təcnisin qayda-qanunlarına uyğun olaraq onları mürəkkəbləşdirməyə, qarşıdakını çətin vəziyyətdə qoymağa çalışırlar. Təcnisi yaratmaq nə qədər çətindirsə, onu təhlil etməyin özü də bir o qədər zəhmət tələb edir. «Ayazı belə» təcnisində yuxarıda dediklərimizə daha çox əməl olunmuşdur. Zodlu Abdulla sadə sözlərdən, cinaslardan təkcə təcnis binaları qurmur, eyni zamanda arabir elə canlı lövhələr yaradır ki, insanın zehnində, varlığında unudulmaz iz buraxır. Uzun müddət insan bu cinasların, təcnislərin təsiri altında qalır.

Nəzər əyiləndə, iqbal yatanda,
Qananı, qanmaza a yazı belə.
Kimin zimistanı novbahar keçir,
Məni də yandırıb ayazı belə.

Təkcə bu bənd əsasında, onun təsiri ilə Pərvanə Həsən dillər əzbəri olan bir qoşma, «Yaxşılar, yaxşıya yazılmır nəysə» qoşmasını yazmışdır.

Zodlu Abdulla həyat hadisələrini çox zaman təbiətlə vəhdətdə verir. Bu, onun yaradıcılığına canlılıq gətirir, fikirlərini obrazlaşdırır, şeirlərini ölməz sənət əsərinə çevirir:

Öz əlinlə qoysan məni qara sən,
Al üstündən bağlayarsan qara sən,
Sənsən salan zülmətə qara sən,
Dağıt duman, çiskin, ayazı belə.

Yəni göydəki çiskini, dumanı ayazı, şaxtanı dağıt deyir şair. Zodlu Abdulla bu cür qoşma və təcnislərində sezilməz şəkildə bəzən öz həyatına, güzəranının yaxşı keçməməsinə də işarə vurur.

Həqiqi dost yandan beləmi keçər,
Kəmərin toqqası beləmi keçər,
Abdullanın ömrü beləmi keçər,
Qışı dərdi möhnəti, a yazı belə.

Ümumiyyətlə, "Zodlu Abdulla təcnislərdə ona qədər işlənməmiş orjinal cinaslar işlədir»[1]

Aşıq Ələsgər vaxtilə Zodlu Abdullanı istedadını yüksək qiymətləndirərək demişdir:

Ustadlardan mən də gördüm bir dənə,
Zodlu Abdullanın kamalına bax.[2]

---

[1] «Ozan Aşıq yaradıcılığına dair araşdırmalar», II hissə, «Pirsultan», səh 88

[2] Qara Namazov Aşıqlar I kitab, Bakı 2004, səh 402

Prof. Qara Namazov həmin beytə istinad edərək yazır: "Aşıq Ələsgərin qiymətləndirdiyi kimi, Usta Abdulla sənət dostları arasında daha çox təcnis ustası kimi tanınmışdır. Adətən təcnis yazan sənətkarlar sənətsevərlər arasında daha mötəbər sayılır. Çünki aşıq şeirinin ən mürəkkəb şəkli təcnisdir və sənətkar burada həm xüsusi istedada malik olmalı, həm də xalq dilinin incəliklərinə bələd olmalıdır. Bu baxımdan Ustad Abdullanın təcnisləri uğurludur. Şair xalq dilinin bilicisidir.[1] Zodlu Abdulla kənd toylarında, aşıq məclislərində mütamadi iştirak edirdi. O görürdü ki, aşıq, məclisi «Şər Xətayi», yəni «Şah Xətayi» havası ilə açır sonra, "El havası" çalaraq məclisdə şənlik yaradır, xəyalən insanları köç yolları ilə yaylaqlara aparır. Sonra təcnis havaları çalınır. Ümumiyyətlə, təcnis aşıqların, el şairlərinin nəyə qadir olduqlarını üzə çıxarır. Heç təsadüfi deyildir ki, aşıqlar bəzən qıfılbənd əvəzinə təcnislə bir-birlərini imtahana çəkirlər. Təcnis omonimlərdən, cinas sözlərdən düzəldilir. Təcnis yaradıcısı gərək dilimizin incəliklərini, çoxmənalı, çoxhecalı olduğunu anlasın, dərk etsin, duysun və ona dərindən bələd olsun. Bunun üçün sənətkarın fitri istedadı azdır. O, gərək dərin mütaliəyə və dərin biliyə malik olsun. Abdulla aşıq şeirinin belə çətin növünü böyük ustalıqla işləmiş, şerin məna və forma gözəlliyini qoruyaraq aydın cinaslar yaratmışdır. Onun təcnislərini oxuyanda «təcnisdə məzmun formaya qurban verilir» deyən tədqiqatçılarla razılaşmaq olmur. O, aşıq şeirinin bu çətin formasında yazıb-yaradarkən məzmun gözəlliyinə, fikir yeniliyinə xüsusi diqqət yetirir. Təcnislərində ona qədər işlənməmiş, orijinal cinaslar işlədir.

[1] Qara Namazov Aşıqlar I kitab, Bakı 2004, səh 403

# III) Hekayətlərdən dastana doğru

Zodlu Abdulla Kəlbəcərdə dostlarının birinin evində işləyirmiş. Bir neçə gündən sonra yorğunluğunu almaq üçün küçəyə çıxır. Baxıb görür ki, cavanlar yığılıb söhbət edir. Abdulla yaxınlaşanda görür ki, bu cavanlar gözəllərdən söhbət edir. Cavanlardan biri deyir:

- Ayrımlar binəsində Meşəvəlinin qızı Minayədən gözəli yoxdur.

Abdulla belə bir qərara gəlir ki, gedib o gözəli görsün. Kəndə gələrək Meşəvəlinin evini soraqlaşmaq üçün bir adam axtarır. Heç kimi tapmır. Baxır ki, kəndin ortasında bulağın başına qızlar yığışıb. Məcbur olub qızlardan soruşur:

- Ay qızlar, Meşəvəlinin evi haradadır?

Qızın biri cavab verir:

- Qardaş, burda Meşəvəli ikidir, hansını deyirsən?

Abdulla çaşır, bilmir ki hansını desin. Məcbur olub deyir:

- Minayənin atasını.

Qızlar Minayəni Abdullaya göstərirlər. Abdulla Minayənin gözəlliyini görüb özünü itirir. Soruşurlar:

- Qardaş, niyə dillənmirsən? Adın nədir?

Abdulla karıxıb adını səhvən Minayə deyir, qızlar gülüşür.

Naqafil ölkənə düşdü güzarım,
Ləhcədə oxunan min ayə mənəm.
Günü gündən artır dərdim, azarım,
Bir dəqiqəsi dönən min ayə mənəm.
Musa Behtullada Min ayə vardı,
Quranda oxunan min ayə vardı,
Həcər nalə çəkdi, Minayə vardı,
İsmayıl tək gələn Minayə, mənəm.

Abdulla çəkməz dostdan ayağı,
Piltə yanar, şölə verər, a yağı,
Ay bimürvət, ay nainsaf, a yağı,
Bəs niyə demirsən, Minayə mənəm.[1]
(Qəmbər variantı)

«Minayə mənəm» adlı hekayəti Aşıq Qənbər danışmışdı. Bu hekayətə ya Aşıq Qəmbər özü, ya da başqa aşıq yurd yeri düzəltmişdi. Bu söz yurdu yaddaqalandır, inandırıcıdır. Bu hekayət dildə-ağızda, məclislərdə söylənə-söylənə öz pərəstişkarlarını qazanmış, geniş auditoriyaya sahib olmuşdur. Sonra da dar ölçüdən çıxaraq epikləşmiş, hekayə arealından çıxıb dastan məcrasına qoşulmuşdur. Fikrimizi əyanilaşdirmək üçün «Zodlu Abdulla, Aşıq Əsəd və Minayə» adlı hekayəti nəzərdən keçirək:

"Bir gün Aşıq Əsəd dostu dülgər Abdullagilə qonaq gəlir. Aşıq görür ki, Abdulla qolunun birini boynundan asıb, əli də sarıqlıdı. Əsəd xəbər alır ki, Abdulla əlini niyə sarıyıbsan. Deyir əlimi kəsmişəm.

[1] S.P.Pirsultanlı, Eldən-obadan eşitdiklərim, Gəncə, «Agah» 2006. səh 59

Abdulla deyir, sən əlini kəsən, usta deyilsən, düzünü de əlinə nə olub?

Abdulla başlayır, başına gələn əhvalatı danışmağa. Əsəd, Kəlbəcər rayonunun Ayrım binəsində bir kişiyə on beş gün idi ki, taxta anbar düzəldirdim. Axırıncı işləri görüb qurtarmaq istəyirdim ki, bir qadın gəlib mənə dedi, usta, işin avand olsun. Geri döndüm ki, ona baxam deyəm, sağ ol. Üzünə baxanda dilim tutuldu, buna heç bir söz deyə bilmədim. Dedim qoy bu əlimdəki mismarı vurum qurtarım görüm bu nədir, nəçidir? Bu vaxt yenə həmin qadın dedi, usta bir anbarlıq taxta da mənim var, gəl onu da düzəlt. İstədim yenə də mismarı vuram, sən demə, xəbərim yox, əlimdə kərki çevrilibmiş. Mismara çalmaq istəyəndə kərkinin ağzı sol əlimin baş barmağını tutdu. Dilim təzədən açıldı və dedim, ay sənin uğurun daşa dönsün, niyə məni bu azara saldın. Axşamı evə gəldim.

Abdulla bunu Əsədə belə nağıl etdi. Əsəd dedi, gərək gedəm onu tapam. Səhər tezdən oturub ata minib yola düşür. Qardaşı Məhəmməd də Əsədin dalınca gedir.

Kəndə yaxınlaşanda Əsəd kəndin qırağında bir ev görür, deyir ki, üşümüşəm, qoy gedim burada bir az isinim, sonra o adamı taparam. Əsəd atını çöldə bir yerə bağlayıb, içəri girmək istəyəndə bir uşaq çıxıb deyir:

- Əmi xoş gəlibsən keç içəri.

Əsəd sazı çiynində içəri keçir, görür ki, bir qadın xurcun toxuyur. Əsəd ayağı palçıqlı, əlini peçin üstünə tutur. Qadın deyir, aşıq, otur əməlli-başlı isin, görürəm çox üşüyübsən. Əsəd deyir, mən isinəcəyəm, sən narahat olma, əlində xurcununu toxu.

Əsəd oturan kimi görür ki, Abdulla deyən nişanələr bundadır. Əsəd isə cürət edib xəbər ala bilmir ki, Minayə budumu? Əsəd bir az isinəndən sonra sazını çıxarır.

Qadın deyir:

- Sən neyləyirsən, saz çalıb, sənə saz çaldıran ha yoxdu.

Əsəd deyir:

- Saz çalmıram, bu döşdən atımı yedəkləyəndə ayağım sürüşdü, yıxıldım. İndi deyirəm, bəlkə, sazım qırılıb, ona görə yoxlayıram. Əsəd sazını yavaş-yavaş çaldı və dedi ki, qoy Minayə adına bir söz deyim görüm Minayə budurmu? Aldı Əsəd görək nə deyir:

Müddətdi düşmüşəm mən intizara,
Bircə söylə görüm Minayəsənmi?
Zodlu Abdullanı salan azara,
Bircə söylə görüm Minayəsənmi?

Əsəd sözünü qurtaran kimi qadın şahmar kimi geri çevrilib dedi:

- Aşıq, sən Abdullanın davasına gəlibsənmi? Abdulla əlini yox, gərək burnunu çapardı. Bayaqkı uşağı Minayə yanına çağırıb deyir ki, götür kağız qələmi mən deyim indi gör Minayə mənəm, yoxsa yox.

Aşıq xoş gəlibsən bizim diyara,
Dillərdə söylənən Minayə mənəm.
Nə üçün düşübsən sən intizara,
Yaxşıca tapıbsan Minayə mənəm.

Bu söhbətin əsasında Məhəmməd də bu qapıya çatır, görür ki, Əsəd buraya düşür. Məhəmməd oturan kimi Minayə bir stəkan çay süzüb onun qabağına qoyur. Əsəd fikir etdi ki, bəs bu çaydan mənə niyə vermədi. Götürdü görək nə dedi:

Əsəd:

Doldurub gətirsin mey piyaləsi,
Canım alır ala gözün şöləsi,
Ay bimürvət, beinsafın balası,
Doğru söylə görüm Minayəsənmi?

Minayə:

Neçə canlar alar süzgün baxışı,
Od tutuban atəşlərə yaxışı,
Yeddi rənglə vurar əlvan naxışı,
Barmaqda oxuyan Minayə mənəm.

Əsəd:

Əsəd kəşt eylədi Bakı - Səlyanda,
Vəsfin söylənirdi ol Dağıstanda,
Heç kim olmaz bu şövkətdə, bu şanda,
Doğru söylə görüm Minayəsənmi?

Minayə:

Kəndim Kəlbəcərdi, elim Cavanşir,
Hər kim məni görsə xəyalı çaşır,
Aşıqlıq dünyada sizə yaraşır,
Aşıq Əsəd, ismi Minayə mənəm.

Söz tamama yetir. Aşıq Əsəd deyir, oğlum dur mənim atımı çək, mən gedim. Minayə deyir, haraya

gedirsən? Kim bildi ki, sən bura niyə gəlibsən, sən mənə, nə dedin, mən sənə nə söylədim. Qoy adamlar gəlsin bir az da onlar üçün çal oxu. Sən demə kənd camaatı da Əsədin gəlməyindən xəbər tutubmuş. Hamı yığışıb gəldi bura. Minayə dedi ki, aşıq Əsəd, indi mən sənə sual verəcəyəm, sən də mənə cavab ver:

Minayə:

Əcəli bərgəşdi, misali Sənan,
Dağda çəkib boran, qar nə gəzirsən?
Davasız dərdinə dərman bulunmaz,
Yox burada xeyir kar nə gəzirsən?

Əsəd:

Gözəl, bu dünyanı qərq eyləmisən,
Üz veribdi namus, arı gəzirəm.
Sandım ki, dünyanı yıxdın başıma,
Tərk eyləyib külli varı gəzirəm.

Minayə:

Bilmirəm könlünün təmənnasını,
Yoxsa axtarırsan gözəl xasını,
Nahaqdan tutubsan el davasını,
Götürübsən ahu-zar nə gəzirsən?

Əsəd:

Sən bir zənanəsən yerində dursan,
Özün düşəcəksən yüz tələ qursan,
Gedənə, gələnə az yara vursan,
Xəstə üçün bir cüt narı gəzirəm.

Minayə:

Bizə eyləməynən ərki-nazını,

Zimistana döndərərəm yazını,
Elə söhbətini, götür sazını,
Sən deyilsən sənətkar nə gəzirsən?

Əsəd:

Aşıq, dülgər birdi sinif sayılır,
Sədan çıxıb hər mahala yayılır,
Səni görən qəflətən ayılır,
Mən bülbüləm xoş baharı gəzirəm.

Minayə:

Qadağa ver, saxlaginən dilini,
Sən bülbülsən axtar, ara gülünü,
Biz demədik doğraginən əlini,
Bizdən olmaz ona yar nə gəzirsən?

Əsəd:

Axtarıram sənin kimi gəlini,
Görən bəyənibdi Göyçə elini,
Sən gəlməsən, doğramazdı əlini,
Çəkdirirsən ahu*zarı gəzirəm.

Minayə:

İsmim Minayədi tanı sən məni,
Danışdığım sözdən olmursan qəni,
Eşqin atəşinə yandırram səni,
Pərvanə deyilsən, nar nə gəzirsən?

Əsəd

Məcnun Leyli deyə etdi sorağı,
Çəkə bilməm bu düyünü, fərağı,
Abdulla Əsədin çeşmi-çirağı,
Sənin kimi gözəl yarı gəzirəm.

Söz tamama yetir. Minayə gedir oturur yerində. Əsəd o saat Minayənin bir qədər incik olduğunu görüb bilək nə deyir:

Ala gözlüm, sən Allahı sevirsən,
Burub zülfün kimi say ilan məni.
Mərizü xəstəyəm sənin eşqindən,
Qoymur ki, aynıyam, ayılam məni.

Eşitdim adını Minayə gəldim,
Oxudum hüsnündə min ayə gəldim,
Dolanıb kuyini min ayə gəldim,
Qurban kəs qapında qayiləm məni.

Çalıbdı Əsədi zülfü şahmarın,
Gözümə göründü güllü rüxsarın,
Sən sənin insafın, yaradan tanrın,
Qaytarma qapında sayılam məni.

Söz tamama yetəndə Minayə bir gözaltı Əsədə baxıb dedi:

- Ay aşıq Əsəd, mənim nə gözəlliyim var ki, belə tərifləyirsən. Bu sözün qarşısında aldı Əsəd:

Təbiətdən budur mənim diləyim,
Səni gözəllikdə yaşa, Minayə.
Ləblərin şirindi kövsər suyundan,

Bal ələnib dilə-dişə, Minayə.

İsmin Minayədir çıxmaz huşumdan,
Eşq aparır ağlım gedir başımdan,

Pişvazına gəldim öz qardaşımnan,
Salma məni dağa-daşa, Minayə.

Min naz ilə məclisimə gələndə,
İlhamnan dərdi dilim biləndə,
Bikef olub gül yanağın solanda,
Az qalır xəyalım çaşa, Minayə.

Əlli beş yaşında qoca deyiləm,
Yatmış olsam bu qəflətdən ayılam,
Bilirsən ki, gözlərinə mayılam,
Döndərmə bağrımı daşa, Minayə.

Sən mənim istəkli iki gözümsən,
Bir şahı-şahbazım, xoş avazımsan,
Gecə-gündüz söhbətimsən, sazımsan,
Eşq atəşin vurub başa, Minayə.

Əsəd deyir, budur müxtəsər sözüm,
Bahadurnan Sabir mənim sağ gözüm,
Altı qızım, iki arvadım, bir özüm,
Sən də mənnən belə yaşa Minayə.

Söz tamam oldu. Əsəd hazırlaşır ki, çıxıb getsin. Bu vaxt Minayə Əsəddən xahiş edir ki, getməyib onlarda qonaq qalsın. Bu yerdə Əsəd yenə də sazı sinəsinə basıb görək nə deyir:

Naqafildən bir ox dəydi sinəmə,
Görənlər dedi ki, Minayədəndir.
Gözəllər gəlirdi dəstəbədəstə,
Bildim ki, bu dəstə Minayədəndir.

Nainsafın qaşı kimi tağ olmaz,
Qoynun kimi irizvanda bağ olmaz,
Naşı təbib deyir yaran sağalmaz,
Dedim dərdə dərman Minayədəndir.

Qurban olum gözlərinin məstinə,
Cəllad qaşın girib canım qəsdinə,
Dedim gələn həkim kimdir üstümə,
Dedilər bu loğman Minayədəndir.
Min bir şivəynən durdu qabaqda,
Gözüm qaldı ağbuxaqda, dodaqda,
Xəbər gəldi Əsəd qalsın sabah da,
Bildim bu sifariş Minayədəndir.

Minayə öz evində bir yaxşı qonaqlıq düzəldib ağsaqqalları da çağırır. Axşam yemək-içmək başlananda Əsəd sazını çıxarıb Minayəyə görək nə tərif deyir:

Gəzib mən ki görməmişəm,
Sən kimi insan Minayə.
Bir yanı Qafqaz, Savalan,
Bir yanı İran, Minayə.
Yazacağam bu vəsfini,
Bilsin Al Osman Minayə.
Aşkara canım alansan,

Deyil ki, pünhan Minayə.
Səd hazar yara vuransan
Ləbində loğman Minayə.

Kərəminki belə oldu
Yandı Əsli atəşinə,
Gecə gündüz qan ağladı,
Qəni oldu göz yaşına,
Qüdrətdən o məleykələr,
Qələm çəkibdi qaşına,
Səni görən belə qalmaz,
Tez hava gələr başına,
Ya Leyliyə Məcnun olar,
Ya Şeyxi Sənan Minayə.

Bilirsənmi şeyx Sənan da,
Sevmişdi tərsa qızını,
Quranı o atdı oda,
Demədi sözün düzünü,
Qaldı Məkkə səfərindən,
Görəndə onun üzünü,
Girdi cunun sifətinə
Həlak eylədi özünü,
Yeddi il xınzır otardı,
Oldu bir çoban, Minayə.

Sən məni Məcnun elədin
Canımı saldın azara,
Yekudu dərdimi mənim
Yetiribsən səd hazara,
Gəlməyəsən sevgilim sən,

Görünməyən bədnəzəra,
Elə bildim  Yusif gəldi,
Misirdə çıxdı bazara,
Qul oldu o Züleyxa,
Yusifi Kənan Minayə.

Mahalı yey Cavanşirdi,
Kəlbəcərin elindəndi.
Ətəkli gümüş kəmər,
Xub yaraşır belindəndi,
Asılıbdı murği-ruhum,
Sənin siyah telindəndi,
Bu ömrümün bir bağı var
Gözəllərin əlindədi,
Bar verər, çiçək də açar,
Olar bir cahan, Minayə.
Könlüm qalıb, gözüm düşüb,
Tellərinin sorağına,
Nə layiqdi xar yapışa,
Qızılgülün yarpağına,
Ləblərinin şəhdi bənzər,
Abu kövsər bulağına,
Abdulla tək sənətkar da
Düşdü ayaq torpağına,
Əsəd deyib gözlərinə
Kürdüstan qurban, Minayə.

Həmin axşam Əsəd orada olan camaata saz çalıb oxudu. Səhəri gün hər kəslə görüşüb Məhəmmədlə kəndə qayıtdılar. Aradan bir neçə gün keçdi, Minayədən belə bir məktub gəldi:

Naməm gəlib Əsəd sənə yetişdi,
Məni saldın ahu-zara gələsən.
Dilavərsən, süxənbərsən, bülbülsən
Mənim kimi gülüzarə gələsən.

Yoxsa qəlbin özgə yanə dönübdü,
Yanıb cismim, can büryanə dönübdü,
Gecə-gündüz bağrım qanə dönübdü,
Doğru sözə, düz ilqara gələsən.

Sənsən o mahalın gülü, bülbülü,
Mən də kürdüstanın süsən sünbülü,
Saatına əvəz billəm min ili,
Minayə tək gözəl yarə gələsən.

Göründüyü kimi, Abdullanın yazdığı «Minayə» qoşmasına neçə qoşmalar calanmış, neçə yurdlar düzəlmiş, təzə bir dastan yurdu, dastan naxışları meydana gəlmişdir və bu da gələcəkdə illərin süzgəsindən keçə-keçə tamamlanmış bir dastanın yaranacağına inam yaradır. Aşıq Əsəd üzünü Minayəyə tutub deyir:

Müddətdi düşmüşəm mən intizara,
Bircə söylə görüm Minaysənmi?
Zodlu Abdullanı salan azara,
Bircə söylə görüm Minaysənmi?

Minayə də başqa dastanlarımızda olduğu kimi cavabını hiss-həyəcanla, şeirlə deyir:

Aşıq xoş gəlibsən bizim diyara,

Dillərdə söylənən Minayə mənəm.
Nə üçün düşübsən sən intizara,
Yaxşıca tapıbsan Minayə mənəm.

Məlumdur ki, Aşıq Əsəd peşəkar ifaçı aşıqdır. Zodlu Abdulla isə yaradıcı el şairidir. Göründüyü kimi, burada istifadə olunan doqquz qoşma, iki müxəmməs yeni yaranmaqda olan dastanda yer almışdır. Aşıq Əsəd bütün məclislərdə Zodlu Abdullanın təcnislərini, gəraylı və qoşmalarını həvəslə, sevə-sevə oxuyurdu. Abdullanın Minayəni görüb, özünü itirib əlini kəsdiyini eşidən Əsəd Minayə ilə maraqlanır. O da Minayəyə bir qoşma yazır. Lakin Əsəd və Minayə Abdulla üçün dastan obrazlarıdır. Ömrü aşıqlarla keçən, dastan gecələrində aşıqların dilindən öz şeirlərini eşidən sənətkar gözəl bir dastan yaratmaq həvəsinə düşür. Əsəd və Minayənin adına bağlanan bu dastan Zodlu Abdullanın yaradıcılığının məhsuludur. Buradakı şeirlərin hər misrasında, bəndində onun nəfəsi duyulur, ləhcəsi görünür, deyim tərzi ondan xəbər verir. Məsələn, Əsəd tez-tez Abdullanı xatırlayır və deyir:

Məcnun Leyli deyə etdi sorağı,
Çəkə bilməm bu düyünü, fərağı,
Abdulla Əsədin çeşmi-çirağı,
Sənin kimi gözəl yarı gəzirəm.

Abdulla öz dastanı üçün həmyerlisi Əsədi və Kəlbəcərin Aşağı Ayrım kəndindən olan Minayəni obraz seçir. Məlumdur ki, Zodlu Abdulla köçüb Kəlbəcərə gəlmiş, uzun illər Kəlbəcərin kəndlərində

dülgərlik etmiş, ayrı-ayrı kəndlərdə anbarlar, çarpayılar, sandıqlar düzəltmişdi. Kəndbəkənd gəzər-kən Minayə kimi gözəli sevib-seçmiş və öz dastanına qəhrəman etmişdir. Abdulla da Minayə də, Əsəd də bu dünyadan köçmüşlər, lakin onların Adı «Minayə» dastanında yaşayır. Dastanın püxtələşməsi, cilalanması üçün uzun zaman lazımdır. Dastanın yaranmasından cəmi yetmiş il keçmişdir. Bu zaman daxilində dastanın əsl yurdu yaranmış, şeirlər bu yurda bağlanmış və xeyli cilalanmışdır. Dastan indi təkamül dövrünü yaşamaqdadır.

Abdullanın hekayətlərindən biri olan «Əvəzində» adlı hekayət iki böyük sənətkarın ömrünü özündə yaşadır. Biz də bu hekayəti Abdulla irsindən bir miras olaraq bütünlüklə aşağıda veririk:

**Zodlu Abdulla ilə Növrəs İmanın** ***əhvalatı***

Göyçədə Zodlu Abdulla ilə Növrəs İmanın dostluğu dillərdə söylənilirdi. Hətta, çox adam onların siğə qardaş olduğunu da deyirdi. Bu dostluq iki şair arasında əziz və hörmətli bir məqama gəlmişdi. Bir gün Növrəs İman evi tikdirib qurtarandan sonra evin döşəməsini vurmaq və içinə yığılmaq istəyir. Bir neçə gündən sonra usta Abdullaya xəbər göndərir ki, gəlsin evin döşəməsini vursun. Usta Abdulla bu xəbəri eşidəndən sonra bir qədər gecikir. Dostları, tanışları İmana deyirlər ki, Usta Abdulla səninlə qardaş kimidir. Burada işləməyi ona görə gecikdirir ki, o, səndən əl muzdu götürməyəcək. Ona görə də bəlkə, gəlmədi. Növrəs İman bu xəbərdən sarsılır və deyir ki, biz qardaşıq. Mənim evimin döşəməsini necə olursa-olsun bu yaxında gəlib vuracaq. Bu işdən bir az da keçir.

İman görür ki, Abdulla gəlmədi. Abdullanın isə əlində başqa işi var idi. O da dostu olduğu üçün yarımçıq qoymaq olmazdı. Növrəs İman da bir şeirlə Abdullanı məzəmmət eləyir:

Ya mənim adıma, ya öz adına,
Tut böyük qardaşım ol əvəzində.
Ayırma adını kənara məndən,
Gəzərəm dəryanı çöl əvəzində.

Abdulla:

Əziz möhtərəm, ey nuri-didə,
Durmuşam əmrində qul əvəzində.
Vücudu-beybala, lütfi-möhtərəm,
Geyərəm kərpasın şal əvəzində.

İman:

Əzəl iltimasım bil səndən budu,
Açginən mətləbin mən bilim nədi,
Əgər ki, verməyə olmasa nəğdi,
Kəs götür başımı  pul əvəzində.

Abdulla:

Nanə yaşdım məni saldın dərinə,
Canım qurban olsun dostun sərinə,
And olsun müsəffa şərbət yerinə,
İçərəm zəhrini bal əvəzində.

İman:

Elə bil yatıbdı mənim iqbalım,
Qar alır qapını, qarışır halım,
Qabağına qatmağa olmasa malım,
Apar sat   İmanı qul əvəzində.

Abdulla:

Abdulla da düşüb haqqın sayına,
Qadir mövlam bəla versin xainə,
Döşərəm üzümü xaki-payina,
Gəzərsən xanəndə pol əvəzinə.

Abdulla bu deyişmədən sonra gəlir İmanın evinin döşəməsini vurur, dostluqları, qardaşlıqları daha da mehribanlıqla yenə davam edir. (Bu söhbət Aşıq Səlimdən götürülüb).

Zodlu Abdulla ilə Növrəs İman deyişmir, onlar bir-birinə ərk edir, bir-birini nə qədər çox istədiyini bildirir. İman deyir:

Ya mənim adım, ya öz adın,
Tut böyük qardaşım ol əvəzində.
Ayırma adını kənara məndən,
Gəzərəm dəryanı çöl əvəzində.

Abdulla ona nə qədər səmimi cavab verir:

Əziz möhtərəm, ey nuri-didə,
Durmuşam əmrində qul əvəzində.
Vücudu-beybala, lütfi-möhtərəm,
Geyərəm kərpasın şal əvəzində.

Bu hekayət çevrəsindən çıxaraq başqa dostları da özünə cəlb edə bilmişdir. Növrəs İman Seyidlər kəndində Şura Sovetinin sədri idi. El şairi Qamışlı Rüstəm isə həm Şura Sovetinin sədri, həm də meşəbəyi idi. Bunlar hər ikisi eyni yerdə işləyirdi. Eyni zamanda

Qamışlı Rüstəm dülgərlik edən usta Abdullaya lazım olan ağacları verirdi. Bu üç dostu, üç şeir yaradıcısını həmişə eyni yerdə, eyni məclisdə görmək olardı. Həmin günlərdə el şairi Rüstəm də bunlara həmdəm olmuş, birlikdə "Əvəzində" rədifli qoşma yazmışdı. Qoşmanı burada verməklə, oradakı bədii ifadələri diqqətə yetirmək istəyirəm. Rüstəm deyir:

Həqiqi dostların hər zəhmətini,
Çəkərəm cahanda el əvəzində.
Desələr tikan var dostun yolunda,
Tutaram dəstimdə gül əvəzində.

Dost zəhməti dosta, gül gərək olsun,
Dəqiqə ayrısı, il gərək olsun,
Arada bir şirin dil gərək olsun,
Yamanı yaxşılıq bil əvəzində.

Şikəstə Rüstəməm, şikəstə halım,
Sədaqət yolunda qoyaram canım,
Leyli-nahar gəşt eyləyər xəyalım,
Dastanın söylənsin, dil əvəzində.

Rüstəm mətləbin nazikliyinə böyük əhəmiyyət verərək nə qədər xoşagələn ifadələr işlədir.

Desələr tikan var dostun yolunda,
Tutaram dəstimdə gül əvəzində.

Hələ İmanla Abdullanın deyişməsi geniş yayılmamış, onun bir dastan olacağını Qamışlı Rüstəm qabaqcadan görür. «Dastanın söylənsin dil əvəzində»

görürsüzmü eyni mətləb üstündə köklənmiş şeirlər bir yerə yığılır, onlara yurd yeri düzəldilir, hekayətə, dastana çevrilir. Aşıqlar Zodlu Abdullanın bu hekayətini dastan kimi söyləyirlər. Nizami Gəncəvi qeyd edir ki, bu gün sızqa görünən bir çay, sabah dərya olsa, sən ona dünənki gözlə baxma. Biz də dastana çevrilməkdə olan hekayətlərə təkamül ömrünü yaşayan bir sənət əsəri kimi baxırıq.

## *IV) Zodlu Abdullanın sənətkar taleyi*

Zodlu Abdulla Göyçədə sazbənd ailəsində doğulmuş, çox erkən atasının yanına saz bağlatmağa gələn Dərəçiçəkli Alının, Sallı Cəlilin ecazkar sazlarının səsinə qulaq asmış, onların çaldıqları saz havaları onun qəlbində dərin iz buraxmışdı. Zodlu Mirzə Bəyləri, Molla Məhəmmədi həmişə öz evlərində görmüş, onların savadına, şeir demək qabiliyyətlərinə heyran qalmışdır. Lap erkən yaşlarından atasından dülgərlik, saz bağlamaq peşələrini mənimsəmişdir. Onun gözünün qabağında atası Aşıq Ələsgər kimi böyük ustada, Şişqayalı Aydına, Alıncalı Məhərrəmə, Aşıq Nəcəfə, Aşıq Əsədə saz bağlamış və onların sazına sədəflər düzmüş, naxışlar vurmuşdur. Göyçənin Sarıyaqub kəndində Miskin Abdal məktəbinin açılması, burada Ağdabanlı Qurbanla, Növrəs İmanla bir yerdə təhsil alması onu bir şair kimi yetişdirmişdir. Onlar gündüzlər molla məktbində əski əlifbanı öyrənir, Şərq ədəbiyyatı ilə, xüsusən də Sədinin “Gülüstan” və “Büstan”, Əbdürrəhman Caminin «Yusif və Züleyxa»

əsərlərini, Nizaminin «Xəmsə»sini, «Leyli və Məcnun» əsərlərini dərindən öyrənirdilər. «Leyli və Məcnun» poemasının sətirləri Zodlu Abdullanın yaradıcılığına, şeirlərinə hopmuşdur. Zodlu Abdullanın təcnislərinin zər-zibası Leylidir, Məcnundur, onların başına gələn eşq macəralarıdır.

Zodlu Abdulla Miskin Abdal məktəbində təhsil aldığı illərdə şifahi xalq yaradıcılığının güclü və canlı qolu olan aşıq yaradıcılığının sirlərinə də bələd olur. Daşkəndli Məmmədhüseynin, Aşıq Musanın, Aşıq Ələsgərin, xüsusilə Miskin Abdalın yaradıcılığı onun üçün şeir və musiqi akademiyası olur. Göyçə mühiti onun yaradıcılığının birinci mərhələsini təşkil edir. O, Göyçədən ayrılmaq istəmir. Bir tərəfdən Göyçədə təqiblərə məruz qalır, o biri tərəfdən də Göyçə qədər də Kəlbəcərə bağlıdır. Aşıq Ələsgər, onun nəsil nəcabəti Kəlbəcərə köçəndən sonra Zodlu Abdulla Göyçə mühitində tək qalmışdır. Zodlu Abdulla özü bu xüsusda deyirdi:

İstəyirəm gedəm diyarbədiyar,
Könül vətənindən əl çəkə bilməz.
Bülbül çəkər qızılgülün qədrini,
Bülbülün qəhrini gül çəkə bilməz.

Yağı oldu qohum, qardaş, el mənə,
Yaxın ikən uzaq düşdü yol mənə,
Çərxi fələk dərdi verdi bol mənə,
Yükləsəm bir qatar fil çəkə bilməz.

Aşıq Ələsgər Kəlbəcərin Yanşaq kəndindən evləndiyi kimi, Zodlu Abdulla da Bağırsaq kəndindən

evlənmişdi. Ümumiyyətlə, aşıq yaradıcılığından danışarkən Göyçə və Kəlbəcər aşıqlarının yaradıcılığını, sənətkarlıq üslubunu bir-birindən ayırmaq çox çətindir. Ağdabanlı Qurbanı Göyçə mühiti, Miskin Abdal məktəbi, Göyçənin azman sənətkarları yetişdirmiş, onu püxtələşmiş bir sənətkar kimi Kəlbəcərə qaytarmışdır. Əgər Göyçədə sənətkarlar, el şairləri Miskin Abdalın, Aşıq Ələsgərin işığına toplaşırdılarsa, Kəlbəcərdə Ağdabanlı Qurban bu missiyanı yerinə yetirirdi. Əgər Göyçədə Aşıq Ələsgərin, Növrəs İmanın, Şişqayalı Aydının, Alıncalı Məhərrəmin adları tez-tez yad olunurdusa, Kəlbəcərdə də Ağdabanlı Qurbanın, Aşıq Bəstinin, Qamışlı Rüstəmin, Əli Bimarın, Növrəs Firidunun adları dillər əzbəri idi. Qadın olmasına baxmayaraq Aşıq Bəsti sənətdə öncüllük edir, heç də kişi sənətkarlardan geri qalmırdı. Aşıq Ələsgər kimi Aşıq Bəsti də aşıq sənətinin səyyarlığına üstünlük verirdi. Aşıq Bəsti Göyçədə, Hallavar Pəmbəkdə, Gədəbəydə, Bərdədə, Daşkəsəndə, Samuxda, Tərtərdə, Goranboyda və başqa yerlərdə ağır yığnaqlar, toy məclisləri keçirirdi. O dövrdə təkcə Göycədə və Kəlbəcərdə deyil, bütün Azərbaycanda Aşıq Bəstinin «Dünya» şeirini əzbər bilirdilər:

Məleykə boyludur, şirin ləhcəli,
Əzəldən tamaşa olan bu dünya.
Qoca cadugərdi aldadar səni,
Cavanlıq donunda qalan bu dünya.

Qananı eyləyib talesiz, bəxtsiz,
Əyibdi qəddini, qocaldıb vaxtsız,
Çoxlarını qoyub eyvan-otaqsız,

Varlının dərdinə qalan bu dünya.

Qəmdən pay götürdüm, nalədən qismət,
Görmədim bir ləzzət, çəkdim əziyyət,
Canda eşq atəşi, dildə məhəbbət,
Bəstini odlara salan bu dünya.

"Dünya" şeirini şair Nigar Rəfibəyli Azərbaycan poeziyasının nadir incisi kimi qiymətləndirmişdi. Aşıq Ələsgərin təkidi ilə yaradılan «Qurban bulağı» məclisi Bəstinin "Dünya" şeiri kimi nadir inciləri yüksək qiymətləndirirdi. Aşıq Bəstinin vasitəsilə «Qurban bulağı» məclisinin üzvləri Aran ellərindən xəbər tuturdu. Cəsarətlə demək olar ki «Qurban bulağı» məclisi aşıqların həyatında Miskin Abdal məktəbi qədər əhəmiyyətli rol oynamışdır. Demək olar ki, Zodlu Abdulla aşıqların və el sənətkarlarının, «Qurban bulağı» məclisinin qaynar vaxtında yaradıcılığa başlamışdır. O, şeirlərini əsasən Kəlbəcərdə yazmışdır. Onun şeirlərinin müzakirəsi Kəlbəcər aşıqları üçün bir örnək olmuşdur. Eyni zamanda bu məclisin Şəmkirdə yaranmış «Dilqəm bulağı» məclisi ilə daimi təmasda olması Zodlu Abdullanın sənət arealını, sənət coğrafiyasını daha da genişləndirmişdi.

Zodlu Abdulla doğma Göyçəsindən Kəlbəcərə gəlir. Bir müddət Kəlbəcərdə qalır, özünün şairliyini və dülgərliyini davam etdirir. Kəlbəcərin bütün kəndlərində onun sənətkarlıq nümunələrinə, əl işlərinə rast gəlmək olar. O, taxta ilə, ağac ilə işləməyi şeir qədər sevir və əl işlərindən xüsusi zövq alırdı. Zodlu Abdulla Kəlbəcərdə olduğu müddətdə heç bir toydan, nişandan qalmamış, ellə bir gülmüş, ellə bir ağlamışdır.

Göyçə qədər sevdiyi, doğma yurdu hesab etdiyi Kələbəcərdən də ayrılmalı olmuşdur sənətkar. Bir müddət Şəmkirdə yaşamış, Yəhya bəy Dilqəmin, Şəmkirli Hüseynin yaradıcılıqları ilə tanış olmuş, özü üçün çox şey əxz etmişdir. Sonra Tovuza getmiş, Xəyyat Mirzənin, Bozalqanlı Hüseynin yaradıcılıqları ilə dərindən məşğul olmuşdur. Onun Daşkəsən bölgəsinin Əmirvar və Qabaqtəpə kəndlərində yaşadığı illər diqqəti cəlb edir. Maraqlıdır ki, həmin illərdə Aşıq Bəsti də köçüb Qabaqtəpəyə gəlmişdi. Qabaqtəpənin el şairi Şair Cavadla aşıq Bəsti birlikdə məclislər keçirirdi. Zodlu Abdulla məclilərin heç birindən qalmırdı. Ona görə ki, həmin məclislərdə Abdullanın təcnisləri oxunurdu. Qabaqtəpə elatının ayrı-ayrı nəsillərinə söz qoşan Aşıq Bəsti Zodlu Abdullanın iştirak etdiyi bir məclisdə baməzə sözlər söyləyir, qoşqular qoşur:

Yaylaq yolları yoxuşlu,
Əlləri dərmə naxışlı,
Hamısı maral baxışlı,
Rəsullunun gözəlləri.
Ay ayrımın gözəlləri.

Dəvrallıya getdin qonaq,
Süfrəyə gəldi bal, qaymaq,
Qızlar ürkək, ceyransayaq,
Dəvrallını ngözəlləri.
Ay ayrımın gözəlləri.

Şərbət sularından içək,
Qızların göyçəyin seçək,
Biri gül, biri çiçək,

Bağırlının gözəlləri,
Ay ayrımın gözəlləri.

Demək olar ki, ömrünün sonuna qədər Zodlu Abdulla Aşıq Bəsti ilə yaradıcılıq əlaqələrini kəsməmişdir. Daima Aşıq Bəsti, Aşıq Əsəd, Aşıq Şəmşir, Şair Cavad Zodlu Abdullanın şeirlərini, təcnislərini toylarda, mağarlarda oxumuş, onun təcnislərinin dərin mündəricəyə malik olduğundan söz açmışlar. Göyçədə, Kəlbəcərdə olduğu kimi, Gəncəbasarda da Zodlu Abdullanın adı geniş yayılmış, məşhurlaşmış, onun əl işləri evlərdə, sözləri sinələrdə yaşamışdır.

Aşıq Ələsgərin ölümü münasibəti ilə çox sənətkarlar şeir yazmışlar. Lakin bunların içində Zodlu Abdullanın yazdığı beş bəndlik şeir dərin məzmununa görə seçilir. Abdullanın əhvalı elə qarışır ki, Ələsgərdən sonra «mənim üçün nə ata var, nə ana» deyir. Abdullaya görə Ələsgərin ölməyinə yer, göy bütün təbiət yas tutur. Onun fikrincə dağların ağlaması, borana düşməsi Ələsgərin ölümü ilə bağlıdır:

Dağlar qan ağlayır, düşüb borana,
Daha bundan sonra çətin yarana,
Göyçə qana batsın, qaldı virana,
Daha Ələsgər tək adı olan varmı?

Göyçədə saysız-hesabsız aşıq yetişmişdi. Abdulla hesab edirdi ki, Ələsgərin ölümünə görə bütün cahanda hər kəs qəmlənir. Çünki Aşıq Ələsgər kimi böyük sənətkar dünyadan köçmüşdü:

Mənim üçün nə ata var, nə ana,

Arif gərək bu mətləbi tez qana,
Minək qəm atına, çıxaq cahana,
Görək bu dünyada şad olan varmı?

Könlü sakitlik tapmayan, qəmdən, kədərdən şələ bağlayan, cismi od alıb yanan Abdulla deyir:

Günbəgün bağlayıram qəm, vərəm,
Könül sakit olub, heç tapmır aram,
Nə Şirin, nə Fərhad, nə yazıq Kərəm,
Abdulla tək cismi od alan varmı?

Zodlu Abdullanı bu şeiri cahannamədir. Usta Abdulla öz müasiri Ələsgərin ölümünə təəssüfləndiyi kimi, Abdalgülaflı Valeh də öz müasiri M.P.Vaqifin ölümünə heyfislənir, onun Azərbaycan ədəbiyyatı tarixində mühüm mövqeyi olduğunu, dünyadan köçəndən sonra yerinin açıq-aşkar göründüyünü bədii dillə təsvir və tərənnüm edir:

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dürr-əfşan,
İndi eyləmisən xak ilə yeksan,
Tapmaq olmaz o kamalda can hanı?

Mən deyərdim ki, aşıq poeziyasında yaranmış cahannamələr içərisində Növrəs İmanın cahannaməsi öz məzmununa və bədii tutumuna görə seçilir. Növrəs İmanın üstün cəhəti odur ki, o yaradıcı sənətkarların şeiriyyətini, onların aşıq poeziyasındakı mövqeyini düzgün müəyyənləşdirə bilir.

Oyar ciyərimi möhnət alması,
Viranə könlümün açılmaz pası,
Ələsgərlə Qasım, Şikəstə Abbası,
Qalan şair hamı üz gəlib gedib.

Zodlu Abdulla Növrəs İmanla Ələsgəri bir-birindən seçmirdi. Onların birini sağ gözü, birini də sol gözü hesab edirdi. Ələsgərin dərdi, qəmi azalmamış İmanın itgin düşməsi Abdullaya yeni kədər gətirdi. 1932-ci ildə Kəlbəcərin Seyidlər sovetliyində Şura katibi işləyən Növrəs İman Goranboy bölgəsinin Səfikürd kəndinə bir aylıq seminara gəlir. Seminar müddətində Təzəkənddə (Daşkəsəndə) Şura katibi işləyən şair Cavadın qonağı olur. Onların qarşı-qarşıya deyişməsi olub. Heyif ki, bu deyişmə hələlik əldə yoxdur. İman sonra Gəncəbasara gəlir, Qazaxda, Tovuzda olur. Lakin 1932-1933-cü illərdə Tovuzla Tbilisi şəhərləri arasında itgin düşür. Onun həmin vaxtlarda Borçalıda Aşıq Sadıqla deyişməsi mübahisə və şübhələrə səbəb olur. Aşıq İmanla Aşıq Sadığın deyişməsi mükəmməl bir dastana çevrilmişdir. Buradan aydınca görünür ki, heç bir sənətkarın həyat və yaradıcılığını ayrıca tədqiq etmək olmaz. Onlar həmişə təmasda olmuş, birinin yaradıcılığı digərinə təsir etmiş, biri digərini tamamlamışdır. Məhz deyişmələr, hekayətlər və dastanlar bu yol ilə yaranmışdır. Zodlu Abdulla XIX-XX əsrlərdə yaşayıb, yaratmış sənətkarlar ilə fəal şəkildə təmasda olmuşdur və bu yol ilə öz şeirlərini geniş şəkildə yaya bilmişdir. Zodlu Abdullanın öz dövründə də yazdığı şeirlər dillər əzbəri idi. El arasında bu gün də «yenə qurumsaqdan dəli yaxşıdır» misrası bir aforizm kimi işlədilir. Zodlu

Abdulla xalqın psixologiyasına, məişətinə, xarakterinə bələd sənətkar idi. Ona görə də onun şeirlərini hamı dinləmək istəyirdi. Aşıqlar da məşhurlaşmaq üçün onun qoşma və gəraylılarını əzbərləyir, toylarda danışardılar. Abdulla Tovuzu, Qazağı, Tbilisini, Gəncəbasarı dolana-dolana böyük təlaş içində Növrəs İmanı axtarmış, tapa bilməmişdir. Daşkəsən bölgəsində xəstələnən sənətkarı Gəncəyə gətirmişlər və 1943-cü ildə burada da vəfat etmiş, Göy İmamzadədə dəfn edilmişdir. Təcnis ustası kimi Zodlu Abdulla bu gün də yad edilir və ona şeirlər həsr olunur. Bu günlərdə şair-aşıq Kəlbəcərli Nəcəf Nəcəfov da onun haqqında dərin məzmunlu bir qoşma yazmışdır. Bir sənət incisi olaraq qiymətləndirdiyimiz üçün şeiri burada bütöv şəkildə veririk:

Məclislər yaradıb, qoşmalar deyib,
Sənətində bir günəşdi Abdulla.
Ələsgər torpağı yetirib onu,
Heç sönmyən nur atəşdi Abdulla.

Qılınc olub sözlərinin kəsəri,
Cümləsində heyran qoyub bəşəri,
Kim unudar dürr-incini, gövhəri,
Qiymətində bütün beşdi Abdulla.

Yol gözlədi Minayənin dilindən,
Süsənindən, sünbülündən, gülündən,
Mən Nəcəfəm həmən Ayrım elindən,
Soraqlama o da köçdü, Abdulla.

Hələ bundan sonra «Axdı qanı, çöldə Leylini yazdı» təcnisi gələn nəsilləri heyrətdə qoyacaq. Abdulla yaradıcılığına dönə-dönə müraciət edəcəklər. Ona qiymətli şeirlər ithaf edəcəklər.

## *NÖVRƏS İMAN*



Göyçə Azərbaycan aşıq yaradıcılığının böyük və güclü qollarından biridir. Göyçə, aşıq poeziyasına Miskin Abdal, daşkəndli Məmmədhüseyn, göyçəli Musa və Aşıq Ələsgər kimi azman sənətkarlar bəxş etmişdir. Göyçədə Ələsgər ocağı neçə-neçə tanınmış şair-aşıqlar yetirmişdir. Aşıq Ələsgərin atası Alməmməd, Ələsgər özü, Aşıq Ələsgərin qardaşı Çoban Məmməd, oğlu Bəşir, qardaşı oğlu və kürəkəni Qurban, əmisi oğlu Aşıq Nəcəf, qardaşı oğlu Əbdüləzim, Növrəs İman, Aşıq Musa, Aşıq Əli, İsmixan və başqaları bu siyahıya daxildir. Cəsarətlə demək olar ki, Aşıq Ələsgərdən sonra bu sənətkarlar içrisində ən böyük şair aşıq Növrəs İmandır. O, yüksək dini təhsil almışdır, ana dilini, ərəb-fars dillərini mükəmməl bilmişdir. İman hələ çox erkən xəstələnir, şairlikdən

başına əsər gəlir. Aşıq Ələsgər deyir ki, ondan soruşun, bu gün haralarda olub. Xəbər gəlir ki, İman bu gün Alagöllərin ətəyində, Maralbulağının ətrafında quzu otarıb və Maralbulağın suyundan içib. Ələsgər deyir ki, İmanın işi fənadır. Mən o bulağın suyunu içəndən sonra eşqin dəryasına dalmışam. O söz bulağından içəndən bəri qanım coşmasın deyə ildə iki dəfə başımdan qan aldırıram.

İman üçün çətin olan bir də o idi ki, o, Xəstə Qasım yaradıcılığına dərindən bələd idi. Təcnisin və cığalı təcnisin, müstəzad qoşmanın, çətin qıfılbəndlərin müəllifi olan Xəstə Qasım deyirdi:

Xəstə Qasım, sözün yetir tamama,
Gün doğan, gün batan gələr salama,
Nə alim işidi, nə də üləma,
Təcnis mənasının böyük hünəri var.

Cəsarətlə demək olar ki, Xəstə Qasımın öz zamanında və ondan sonrakı vaxtlarda onun qıfılbəndlərini açmağa çox adam çalışmış, lakin bir şey edə bilməmişdir. Ancaq Növrəs İman ilk dəfə olaraq Xəstə Qasımın ən çətin qıfılbəndlərinə açar salmış və bu işin öhdəsindən məharətlə gəlmişdir. Ümumiyyətlə, İman əlinə qələm alandan sonra təkcə Göyçə aşıqlarını deyil, bütün Azərbaycan aşıqlarını heyrətdə qoymuşdur. Bütün deyişmə meydanlarında səhnəyə birinci çıxan Növrəs İmanın meydanından qaçan olub, lakin o özü heç kəsin meydanından qaçmamışdır. Ona görə ki, o, klassik aşıqlarımızı, Dirili Qurbanini, Tufarqanlı Ab-bası, Xəstə Qasımı və Aşıq Ələsgəri dərindən bilmişdir. Növrəs İman öz müasirlərinə öncüllük

edirdi. O, folklor nəzəriyyəçisi kimi şeirlərində cəsarətlə fikrini söyləyirdi. Klassiklərin mövqeyini müəyyənləşdirirdi. Bu baxımdan Növrəs İmanın beş bəndlik «Gəlib-gedib» qoşması çox böyük elmi dəyərə malikdir.

Oyur ciyərimi möhnət alması,
Viranə könlümün açılmaz pası,
Ələsgər, Qasım, Şikəstə Abbası,
Qalan şair hamı üz gəlib gedib.

Qoşmanın bu bəndindən aydın olur ki, bir Ələsgər, Qasım, Şikəstə Abbas qalan şairlər hamısı üz gəlib gedib. Bu bütövlükdə aşıq poeziyasına verilən qiymətdir. Növrəs İman qoşmalarında da, təcnislərində də tamamilə fərqlənir. Ələsgərin «Dağlar»ı ilə İmanın «Dağlar»ı arasındakı orijinal fərqlər buna sübutdur:

Zimistan dolanıb, bahar çatanda,
Al-yaşıl geyinib bir olan dağlar.
Şaqayıt-nərgizli, gül-bənövşəli,
Süsəni, sünbülü var olan dağlar.

Nə həyatda, nə də sevgidə İmanın üzü gülməmişdir:

Növrəs İman soraqlayır gələndən,
Ağlayanda göz yaşını siləndən,
İstəkli dostlardan, qədirbiləndən,
Bircə məni yada salan varmola?

Növrəs İman qəbrə qədər ilk sevgisi olan Şəkəri (Naba xanımı) unutmamışdır:

Leyli, Məcnun, Şirin, Fərhad necoldu?
Kərəm yandı, Əsli dərdi ucaldı.
Növrəs İman belə vaxtsız qocaldı,
Şəkər kimi biilqarım var mənim.

Növrəs İman aşıqların yaradıcılığında, ifaçılığında, Tbilisi şəhərindən olan Aşıq Sadıqla deyişməsində yaşayır. Burada Aşıq Sadığın Xəstə Qasımın qıfılbəndlərindən istifadə etməsi, İmanın o qıfılbəndləri zərgər dəqiqliyi ilə ağlabatan şəkildə açması, təhlil etməsi, onu dinləyənləri inandırması, heyrətdə buraxması onun şöhrətini daha da artırmışdır. Onların deyişməsi az bir vaxtda artıq dastanlaşaraq təkmilləşir, get-gedə geniş şəkil alır. Ən əsası budur ki, «İmanla Sadığın deyişməsi» bütün bölgələrdə aşıqların repertuarına düşmüşdür. Aşıqlar bu dastanı oxuya-oxuya onu gündən-günə daha da zənginləşdirirlər. Növrəs İmanın həmyerlisi sənətkar Abdulla ilə deyişməsi də hər məclisdə söylənən şirin və səmimi bir hekayətdir. «İmanla Abdullanın deyişməsi» də gələcəkdə danışılacaq bir dastan kimi təkamül dövrünü keçməkdədir. Üçüncü obraz kimi Qamışlı Rüstəmin də o hadisəyə qoşulması, eyni rədifli gözəl qoşmalar yazması hekayəti bir az da zənginləşdirir. Belə bir kiçik hekayət də İmanla Şəkərin deyişməsidir. Lakin bu deyişmə hələlik aşıqların repertuarına düşməmişdir. Buradan bir mətləb də hasil olur ki, Şəkər də başqa şairə qadınlar kimi sinədən söz demək

bacarığına malik olmuşdur. Görünür, İmanın Şəkərə vurğunluğunun bir səbəbi də onun söz əhli olması imiş. Birinci deyişmədə Şəkər xanım meydana girir və yazır:

Xoş gəldin bu bağa Növrəs İmanım,
Səndən ötrü intizarı çəkmişəm.
Sən yada düşəndə üzülüb canım,
Mansır tək Hələbdə darı çəkmişəm

İmanın cavabı:

Ağlama, ağlama, ay Şəkər xanım,
Şama pərvanəyəm, narı çəkmişəm.
Ağlayırsan, qalmır dinim, imanım,
Dağlarda çox boran, qarı çəkmişəm.

Növrəs İman, ümumiyyətlə, Şəkər xanıma yazdığı bütün şeirlərdə özünün dərin hiss həyəcanını ifadə edir. O, bu məhəbbətdən ona görə əl çəkə bilmir ki, Şəkər xanım da onu sevir.



## *I) Növrəs İmanın həyat və yaradıcılığı*

İman Məşədi oğlu 1903-cü ildə Göyçə mahalının Ağkilsə kəndində dünyaya gəlmişdir. O, 1918-ci ildə əmisi Aşıq Ələsgərlə birlikdə Kəlbəcərin Qalaboynu kəndinə köçür.

Düşdüyü ədəbi mühit İmanın çox erkən elmə, savada meyl göstərməsinə və fitri istedadının qanadlanmasına güclü təsir göstərir. Lakin Növrəs təxəllüsü ilə şeir yazmağa başlayan şairə böyük kədər üz verir. "Qumru ləhcəli" qardaşı Aşıq Qurban vaxtsız vəfat edir. Necə deyərlər, bu zaman elə İmanın toyu əldə idi. Şəkər xanıma nişanlanmışdı.

Qurbanın ölümü bir-birinə can atan, toya hazırlaşan hər iki gəncin kədərinə səbəb olur. Kənd mollasının işlətdiyi əməl isə gəncləri nakam qoyur. İmanın nişanlısını gözüyaşlı qoyub, qardaşı arvadını zorla ona kəbin edirlər. İlk gecə qardaşı onun yuxusuna girir, məzəmmət edir. Köhnə dünyanın mənfi adət və ənənələrindən, mollaların murdar hərəkətlərindən dəhşətə gələn İman baş götürüb doğma kəndindən qaçır. Kəlbəcərin Seyidlər kəndində yaşadığı günlərin birində ona xəbər gəlir ki, sabah Naba xanımın toyudur. İman qızın atası evinə gəlir, məclis iştirakçılarını təəccüb götürür. Aradan bir az keçmiş

bir qadın İmana xəbər gətirir ki, Naba ağlayır. İman aşığın əlindən sazı alıb «Ağlama» rədifli şeirini elə buradaca qoşur:

Zəlili-natəvan, əlacsız yazıq,
Sən olasan mənim canım, ağlama!
Artırma dərdimi həddən ziyada,
Söylə mətləbini qanım, ağlama!

Ağlayan gözlərə mənəm sadağa,
Ahu ol, səyyadam, gəl çıxaq dağa,
Leylisən, Məcnunam, gedək bulağa,
Sərraf mənəm gövhər-kanım, ağlama!

Bağbansız bağçada nar ələ gəlməz,
Pozulub bostanım bar ələ gəlməz,
Qurulub cəlladım dar ələ gəlməz,
Bülbül olub, Naba xanım, ağlama!

İlahi dərdimi azaltmır barı,
Yağır baharımın boranı, qarı,
Səməndər qəlbimdə qalatma narı,
Qoy mən eşq oduna yanım, ağlama!

Dünyadan əl çəkdi İman aşkara,
Nə çarə eyləyim mən baxtı qara?
Səni ağladan düşsün azara,
Ömürdən beş qaldı sanım, ağlama!

İmana deyirlər: sənə belə oxumaq yaraşmaz, çünki sənin arvadın var. İman «Əvəzində» rədifli qoşmasını söyləyir:

Ovsunçuyam bir şahmarın yanında,
Yatıram onunla yar əvəzində.
Xəstəyəm ürəyim yaman istəyir,
Yeyirəm bibarı nar əvəzində.

İstərəm ki, uçam şahpərim sınar,
Bülbüləm olmuşam gülşəndən kənar,
Alışar, tutuşar, ciyərim yanar,
Od allam ağzıma, qar əvəzinə.

İman dərdin ürəyimdə pünhandı,
Ariflər eşitcək dərdini qandı,
Ala qarğa yuvasında tərlandı,
Tərlan qürbət eldə sar əvəzində.

Gəlini oğlan evinə yola salanda İman Naba xanımın hıçqıra-hıçqıra ağladığını aydın eşidir və sazı sinəsinə basıb yana-yana «Ay maral» rədifli qoşmasını oxuyur:

Aman fələk məni yaman oxladı,
Axır yaralardan qanım ay maral.
Sən də mənim kimi yaman dərdlisən,
İnildəmə çıxdı canım, ay maral.

Sakinim Göyçədi, adımdır İman,
Qəlbim çox incikdir, halımdır yaman,
Hər nə sirrim varsa, eylədim bəyan,
Sənə dedim, hər nişanım, ay maral.

İman öz sənət dili ilə insan qəlbinə yol tapan, özünə məhəbbət qazandıran sənətkardır.

«İman baxtı Leyli, Məcnun baxtında» deyən şair öz taleyi ilə Məcnunun, Naba xanımın taleyi ilə Leylinin taleyi arasında eyniyyət gördüyündən çox zaman ona Leyli adı ilə müraciət edir:

Cismimi yandırdın eşq ataşına,
Baxmadın gözümün axan yaşına,
Məcnun tək çıxartdın dağlar başına,
Saldın zimistana, borana Leyli!

Qardaşı Qurbanın, əmisi Aşıq Ələsgərin ölümündən sonra Növrəs İman təsəllini yalnız əmisinin dostu Ağdabanlı Qurbandan almışdır. Qarşı-qarşıya söylədikləri «Tapılmaz» rədifli qoşma-deyişmədə Qurbanın bir ağsaqqal kimi, bir ustad kimi İmana təskinlik verdiyi hiss olunmaqdadır:

İman çəkə bilmir belə qəmləri,
Çıxmır xəyalımdan dilim əzbəri.
Bu qəm dəryasına düşəndən bəri
Çəkən məni bir kənara tapılmaz.

İmana təskinlik vermək arzusunda olsa da, Aşıq Ələsgərin ölümü Qurban üçün də böyük itki idi. Elə o günlər Qurban özü də kədərli idi.

Bu vaxt İman Kəlbəcərin Seyidlər kəndində, Ağdabanlı Qurban isə Qamışlı kəndində Şura katibi idi. 1925-1930-cu illərdə oxşar işdə çalışmaları bu iki istedadı tez-tez görüşdürür, onların yaradıcılıq

mübadiləsinə birlikdə çalıb oxumalarına imkan yaradırdı.

Qurban yaradıcılığının Növrəs İman üçün bir örnək, bir məktəb olduğunun qeyd etsək yanılmarıq. Qurban «Sən-sən» təcnisində deyirdi:

Qurban, de taleyin qaralar indi,
Gədikləri kəsər qar alar indi.
Can yanar eşqindən, qaralar indi.
Nə sal ataşlərə, nə qala sən-sən.

Bu bəndlə qurtaran təcnisin təsiri altında yaratdığı təcnisini Növrəs İman belə tamamlayır:

İman səni kəndi çəkər ay ala,
Alar canın həsrət qoyar ay ala,
Nə səngsən, nə səngərsən ay ala,
Nə hasar deyilsən, nə qala sən-sən.

İman təcnis ustasıdır. Onun təcnisləri zərif, incə mətləbləri ilə, gözəl lövhələri ilə fərqlənir:

Kəmənd əldə, səyyad ov bərəsində,
Ovçusu da ağlar, maral da ağlar,
Oxun sədasından, güllə səsindən,
Ürküşüb əylənməz maral dağılar.

Mənim dərdim budur öz bəlasına,
Gözəl saldı məni öz bəlasına,
Yaradan qıyarmı öz balasına,
Ox dəysə tiflinə maralı dağılar.

İman, nə dərdin var, yarə məndədi,
Ləzzəti gözəlin yar əməndədi,
Təzə, köhnə nə var yara məndədi,
Zənbur tək sinəmdə maralı dağlar.

Burada cinaslar birinci dəfə ağlamaq, ikinci dəfə dağılmaq, üçüncüdə dağlamaq, dördüncüdə isə arı iynəsi ilə sancılmaq mənasındadır.

İmanın dodaqdəyməz təcnisləri də vardır:

Nə keçdi cəsədin çətin çəngələ,
Gəl canı atəşə qala, yar qala!
Həsrətindən dərdin yazan dal-dala,
Çəkər sənin təki, qala, yar qala.

İyid girsə cəng içində at alar,
Xədəngini cəng içində atalar,
Çəkər dərd əhlinin dərdin atalar,
Çətindir, zindanda qala, yar qala.

Çarx hərləndi yaxşı gəldi sənə yaz,
Xətalı gərdişdən axtar sən ay az,
Növrəs de dərdini desin sən a yaz,
Həsrəti sinəndə, qala, yar qala.

Özünə qədər aşıq poeziyası yaradıcılarının irsinə dərindən bələd olan Növrəs İman hətta təcnisin qıfılbənd kimi çətin növünü də yarada bilmişdir. Onun «İndi» rədifli təcnis-qıfılbəndi əvəzsiz sənət incisidir.

İki şeş fəslində tifli büstanam,
Altıda yox atam, nə anam indi.

On ikidə yetişmiş bağ-bostanam,
On üçdə yox barım, nə danam indi.

Demək olar ki, Növrəs İmanla Sənətkar Abdullanın bütün yaradıcılıqları Kəlbəcərdədir. İman 15 yaşından Kəlbəcərə gəlmişdir. Sənətkar Abdulla Kəlbəcərin kəndlərində dülgərlik etmişdir. O, burada evlənərək ömrünün son günlərinə qədər Kəlbəcərdə qalmışdır. Sənətkar Abdulla Növrəs İmanla Ələsgəri bir-birindən seçmirdi. Onların birini sağ gözü, birini də sol gözü hesab edirdi. Ələsgərin dərdi, qəmi, İmanın itgin düşməsi Abdullaya yeni kədər gətirdi. 1932-ci ildə Kəlbəcərin Seyidlər sovetliyində Şura katibi işləyən Növrəst İman Goranboy bölgəsinin Səfikürd kəndinə bir aylıq seminara gəlir. Seminar müddətində Təzəkənddə (Daşkəsəndə) Şura katibi işləyən şair Cavadın qonağı olur. Onların qarşı-qarşıya deyişməsi olub. Heyif ki, bu deyişmə hələlik əldə yoxdur. İman sonra Gəncəbasara gəlir, Qazaxda, Tovuzda olur. Lakin 1932-1933-cü illərdə Tovuzla Tbilisi şəhərləri arasında itgin düşür. Onun həmin vaxtlarda Borçalıda Aşıq Sadıqla deyişməsi mübahisə və şübhələrə səbəb olur. Aşıq İmanla Aşıq Sadığın deyişməsi mükəmməl bir dastana çevrilmişdir. Buradan aydınca görünür ki, heç bir sənətkarın həyat və yaradıcılığını ayrıca tədqiq etmək olmaz. Onlar həmişə təmasda olmuş, birinin yaradıcılığı digərinə təsir etmiş, biri digərini tamamlamışdır. Məhz deyişmələr, hekayətlər və dastanlar bu yol ilə yaranmışdır. Sənətkar Abdulla XIX-XX əsrlərdə yaşayıb, yaratmış sənətkarlar ilə fəal şəkildə təmasda olmuşdur və bu yol ilə öz şeirlərini geniş şəkildə yaya bilmişdir. Sənətkar Abdullanın öz

dövründə də yazdığı şeirlər dillər əzbəri idi. El arasında bu gün də «yenə qurumsaqdan dəli yaxşıdır» misrası bir aforizm kimi işlədilir. Aşıq Abdulla xalqın psixologiyasına, məişətinə, xarakterinə bələd sənətkar idi. Ona görə də onun şeirlərini hamı eşitmək istəyirdi. Aşıqlar da məşhurlaşmaq üçün onun qoşma və gəraylılarını əzbərləyir, toylarda danışardılar. Abdulla Tovuzu, Qazağı, Tbilisini, Gəncəbasarı dolana-dolana böyük təlaş içində Növrəst İmanı axtarmış, tapa bilməmişdir.

Kəlbəcər Aşıq Ələsgər yaradıcılığının da Göyçədən sonra ikinci beşiyidir. Bu böyük ədəbi əlaqənin əsas səbəbkarı isə dövrünün görkəmli el şairi Ağdabanlı Qurban olmuşdur.

Zəngin biliyə, kəskin təbə malik olan Növrəs İman 12-13 illik yaradıcılığı dövründə xalq şeirinin bütün şəkillərində əsərlər yaratmışdır. Ancaq onun yaradıcılığı üzərində dini təsir çox güclüdür. Xüsusilə, İmanın müxəmməs və divanilərinin dili çox qəlizdir. Demək olar ki, onun bu janrlarda yaradılmış əsərləri dini hadisələrlə, ərəb-fars tərkibli sözlərlə doludur. Bu tipli şeirlər oxucuya mücərrəd və anlaşılmaz görünür. Lakin İmanı aşıqlara sevdirən, el arasında yaşadan əsl xalq poeziyası ruhunda yazdığı qoşmalarıdır. Aşıqlar, İmanı zəngin təcnis yaradıcılığına görə ustad sənətkar sayırlar.

İman «Gəlib gedib» rədifli qoşması ilə xalq şeirimizin Ən görkəmli nümayəndələrini nə dərəcədə düzgün qiymətləndirə bildiyini nümayiş etdirmişdir:

Oyur ciyərimi möhnət alması,
Viranə könlümün açılmaz pası,

Ələsgər, Qasım, Şikəstə Abbası,
Qalan şair hamı üz gəlib gedib.

Yaxşı bəyənmişəm Miskin Abdalı,
Cəm imiş başında huşu, kamalı,
Vaqif qarışdırıb çox qeyli-qalı,
Sözlərində gəlin, qız gəlib gedib.

İman, öz dərin biliyinə, təbinə və istedadına arxalanaraq Xəstə Qasımın əsrlərdən bəri bağlı qalan, ustad aşıqların aça bilmədiyi bir sıra çətin qıfılbəndlərini açmağa çalışmış və bu çətin işin öhdəsindən məharətlə gəlmişdir.

Xəstə Qasım:

Yeddi eyvan, səkkiz seyvan, qırx sütunun ləngəri,
Yeddi ulduz, yeddi tuppuz, yeddi dərya rəhbəri,
Yeddi molla, yeddi dərviş, yeddi pust, yeddi dəri,
Yeddi min qırxdan irəli, səkkiz yüzdən bəri,
Pir mənim, ustad mənim, yol mənim, ərkan mənim.

Növrəs İman:

Yeddi seyvan cəhənnəmdi, səkkiz rizvan səda,
Övliyyələr, ənbiyələr, qırx sütun ləngər xuda,
Yeddi rizdi, yeddi şəkki, yeddi səbil, yeddi nida,
Yeddi min qırx keçən tarix, səkkiz yüzdü cida,
Həm vəfasız, həm mənasız, nə olsa viran mənim.

Xəstə Qasım:

Abı-ataş, xaki-baddan yaratdı sübhan bizi,
Altmış altının yanında isbat qıldı üç yüzü,
Dörd mini arxa bağladı, dəryada qırx dörd dənizi,
Altmış üçün mən biriyəm, yetmişin qırx səkkizi,
Beş içində altı Məkkə, səkkiz yüz fərman mənim.

Növrəs İman:

Abı-atəş oddu-sudu, xaki-torpaq, badi yel,
Altı mindən altı yüzdü həmdi nizamı bir il,
Sünnət əmri, nəhi-məkru dörd yüz qırx dörd onu bil,
Sam içində müqəddimmat, Məkkə səkkiz yüz səbil,
Bu elimdə xaliq verib dərsimi pünhan mənim.

Növrəs İman təkcə Xəstə Qasımın qıfılbəndlərini açmağa meyl göstərməmiş, o, həm də istedadlı sənətkarın «qıfılına açar salınmamış» sənət bağını gəzərkən «arif sözlərinə guş vermiş», hər yana göz gəzdirib məna axtarmışdır:

Arif sözlərinə guş verir sərim,
Hər yana yetirir məna gözlərim.

Xəstə Qasım, Şəmkirli Aşıq Hüseyn və Aşıq Ələsgərdən sonra demək olar ki, Növrəs İman dərin məzmunlu qıfılbəndləri ilə azəri aşıq ədəbiyyatını zənginləşdirmişdir.

İman öz dövrünün görkəmli el sənətkarı olan Aşıq Sadıqla Tiflisdə deyişmiş və sazının, sözünün gücü ilə

qalib gəlmişdir. Biz bu deyişməni və dastanı ıkınci fəsildə ayrılıqda verəcəyik.

Növrəs İmanın ədəbi irsi vaxtında toplanmadığı üçün çox şeiri itib-batmışdır. Onun bir divanisi və dörd müxəmməsi əldə qalmışdır. O, bir müxəmməsində Fərhadın, Şirinin, Leyli-Məcnunun, Şeyx Sənanın, Əsli-Kərəmin adları ilə yanaşı, Molla Cümənin və onun İsmipünhanının adını çəkir. İman çoxlarına şeir həsr etdiyi kimi, özündən sonra gələn sənətkarlar da ona şeirlər ithaf etmişdlər. Bunların sırasında Aşıq Mahir, şair Məsim və başqaları da vardır. İman axtarılmağa, öyrənilməyə layiq bir sənətkardır. «Mənim» adlı divanisinin möhürbəndində deyilir:

Növrəs İman, ox dəyibdi, sinəm olubdu yaralı,
Səməndərlər, Pərvanələr gəlsə məndən nar alı,
Çərxi-fələk qəhr elədi, düşdüm yardan aralı,
Görünmür ki, haqq yanında çoxdu üsyanım mənim.

İman şux bir gözələ rast gəlir və ona «Kimidir» rədifli oynaq bir müxəmməs yazır:

Təzə bir cavan görmüşəm,
Hüsnüdə insan kimidi.
Bu gözəllik oxşarında,
Huri-qılman kimidi.
Ləyaqəti, səbahəti,
Mehri-dürəxşan kimidi.
Xoş ləhcəsi, şirin sözü,
Ləli bədəxşan kimidi.
Dillərdə vəsfi söylənən,
Yusifi-kənan kimidi.

Hətta, bütün Qafqazı gəzən İman bu Qarabağ gözəli kimi bir gözəl görməmişdi:

Mən gəzmişəm Qafqaz yanı,
Onun kimi gözəl hanı.
Doğruluqda yoxdu tayı
Tək yaradıb Kərəm kanı,
Göylərin məlaikəsi,
Yer üzünün Süleymanı,
Nədən dolanıb naz ilə
Gələndə nazənin canı,
On dörd gecəlik nur verən,
Ol mahi-təban kimidi.

Lakin şeirin möhürbəndindən aydın olur ki, onun da taleyi, məhəbbəti İmanın taleyi, bəxtiqara məhəbbəti kimidir:

İsmindən həya qılıram,
Aşkar demədim nəbadə,
Bu Qarabağ mahalında
Özüdür bir mələkzadə,
Görəndə günəş camalın,
Dərd olur həddən ziyada,
Mən ki pərişanhal olub
Qəmli dolannam dünyada,
Onun da bir məhəbbəti
Bu Növrəs İman kimidi.

Sanki sənətkar mərmər daş karxanasındadır. Mərməri elə doğrayır, elə kəsir, elə cilalayır ki, onlar

daş divara elə yaraşır ki, onun müxəmməsi daş sarayı xatırladır. İman cığalı müxəmməsdə də qələmini sınamışdı. Azərbaycan aşıq poeziyasında cığalı müxəmməsin məşhur sənətkarı Şəmkirli Aşıq Hüseyndir. Lakin İmanın əldə olan yeganə cığalı təcnisi də sənətkarlıq baxımından ölməz bir sənət abidəsidir. Biz təcnisi aşağıda bütövlükdə veririk:

Bu duran şux gözəlin,
Ol mahi-ruxsarına bax.
Boy çəkir yüz nazınan,
Hüsnünə, didarına bax.
Gözləri aldı canım,
Dilbəri-dildarına bax.

Aşiqəm camalına,
Müştaqam xətti-xalına,
Çəkir xəyalım arzusu,
Yetəm onun vüsalına
Özün bir alma tağı,
Qoynunda cənnət bağı.
Öpüm o gül yanağı,
Qoysan, bimürvət yağı!

Qaşları afat,
Ləbləri xəyyat,
Al məni bircə,
Qoynuna, sən yat.
Dil deyir, qolboyun ol
Əm dodağın, ləzzət elə.
Aç yaxa düyməsini,

Sədri üstə narına bax.

Qəsdinə nəqş olunub,
Sərvi-sənubər kimidi.
Gərdəni tovuz təki,
Sinəsi mərmər kimidi.
Danışa, kəlmə verə,
Ləzzəti şəkər kimidi.

Qurbanam o canana mən,
Olmuşam bir divana mən,
Görüb onun nəzakətin,
Qalmışam yana-yana mən.
Qədəm qoyanda hərdən,
Qıya baxanda birdən,
Könül deyir ilahi,
Ola mən ilə həmdəm.
Siz görün, ay camaat,
Varmı yeri sözlərimin,
Bigünah can alanın,
Bircə o gülüzarına bax.

Əyləşib naz ilə bu,
Qumru tək avaz eləyir.
Gah bizə baxır, gülür,
Gah da qışı yaz eləyir.
Gah mənə qəmzə satır,
Ağlımı az eləyir.
Bunun kimi gözəl hanı,
Gəzmişəm xeyli dünyanı,

Görün necə bu intizar

Qoyubdu Növrəs İmanı.
Ay qız gəl insaf elə,
Doğru dil ilə söylə.
Al məni bir qucağa,
İstəklicə qul eylə.
Canım canından,
Getməm yanından,
Əmim şərabı,
Ver pistanından.
Qolunu boynuma sal,
Qat canımı sən canına.
Gör şəfa, eylə vəfa,
İşrətü rüzgarına bax.

Əgər arxivləri axtarsaq, qocaman aşıqların sinlərini yoxlasaq, İmanın belə incilərini tapa bilərik.

# II) Növrəs İmanın hekayətləri

## Sənətkar Abdulla ilə Növrəs İmanın deyişməsi

Göyçədə Usta Abdulla ilə Növrəs İmanın dostluğu dillərdə ən əziz dostluq kimi söylənilir. Hətta, çox adam onların siğə qardaş olduğunu da deyirdi. Bu dostluq iki şair arasında əziz və hörmətli bir məqama gəlmişdi. Bir gün Növrəs İman evi tikdirib qurtarandan sonra evin döşəməsini vurmaq və içinə yığılmaq istəyir. Bir neçə gündən sonra usta Abdullaya xəbər göndərir ki, gəlsin evin döşəməsini vursun. Usta Abdulla bu xəbəri eşidəndən sonra bir neçə həftə

gecikir. Dostları, tanışları İmana deyirlər ki, Usta Abdulla sənlə qardaş kimidir. Burda işləməyi ona görə gecikdirir ki, o, səndən əl muzdu götürməyəcək. Ona görə də bəlkə də gəlmədi. Növrəs İman bu xəbərdən sarsılır və deyir ki, biz qardaşıq. Mənim evimin döşəməsini necə olur olsun bu yaxında gəlib vuracaq. Bu işdən bir az da keçir. İman görür ki, Abdulla gəlmədi. Abdullanın isə əlində başqa iş var idi. O da dost olduğu üçün yarımçıq qoymaq olmazdı. Növrəs İman da bir şeir ilə Abdullanı məzəmmət eləyir:

Ya mənim adım, ya öz adın,
Tut böyük qardaşım ol əvəzində.
Ayırma adını kənara məndən,
Gəzərəm dəryanı çöl əvəzində.

Abdulla:

Əziz möhtərəm, ey nuri didə,
Durmuşam əmrində qul əvəzində.
Vücudu-beybala, lütfi möhtərəm,
Geyərəm kərpasın şal əvəzində.

İman:

Əzəl iltimasım bil səndən budu,
Açginən mətləbin mən bilim nədi,
Əgər ki, verməyə olmasa nəğdi,
Kəs götür başımı pul əvəzində.

Abdulla:

Nanə yaşdım məni saldın dərinə,
Canım qurban olsun dostun sərinə,
And olsun, Musaffa şərbət yerinə,

İçərəm zəhrini bal əvəzində.

İman:

Elə bil, yatıbdı mənim iqbalım,
Qar alır qapını, qarışır halım,
Qabağına qatmağa olmasa malım,
Apar sat İmanı qul əvəzində.

Abdulla:

Abdulla da düşüb haqqın sayına,
Qadir mövlam bəla versin xainə,
Döşərəm üzümü xaki-payına,
Gəzərsən xanəndə pol əvəzinə.

Abdulla bu deyişmədən sonra gəlir İmanın evinin döşəməsini vurur, dostluqları, qardaşlıqları yenə də davam edir.[1]

Sənətkar Abdulla ilə Növrəs İman deyişmir, onlar bir-birinə ərk edir, bir-birini nə qədər çox istədiyini bildirir. İman deyir:

Ya mənim adım, ya öz adın,
Tut böyük qardaşım ol əvəzində.
Ayırma adını kənara məndən,
Gəzərəm dəryanı çöl əvəzində.

Abdulla ona səmimi cavab verir:

Əziz möhtərəm, ey nuri didə,
Durmuşam əmrində qul əvəzində.

---

[1] Bu söhbət Aşıq Səlimdən götürülüb.

Vücudu-beybala, lütfi möhtərəm,
Geyərəm kərpasın şal əvəzində.

Bu hekayət çevrəsindən çıxaraq başqa dostları da özünə cəlb edə bilmişdir. Növrəs İman Seyidlər kəndində Şura Sovetinin sədri idi. El şairi Qamışlı Rüstəm isə həm Şura Sovetinin sədri, həm də meşəbəyi idi. Bunlar hər ikisi eyni yerdə işləyirdi. Eyni zamanda Qamışlı Rüstəm dülgərlik edən Usta Abdullaya lazım olan ağacları verirdi. Bu üç dostu, üç şeir yaradıcısını həmişə eyni yerdə, eyni məclisdə görmək olardı. Həmin günlərdə el şairi Rüstəm də bunlara həmdəm olmuş, birlikdə "Əvəzində" rədifli qoşma yazılmışdır. Qoşmanı burada verməklə, oradakı bədii ifadələri diqqətə yetirmək istəyirəm. Rüstəm deyir:

Həqiqi dostların hər zəhmətini,
Çəkərəm cahanda el əvəzində.
Desələr tikan var dostun yolunda,
Tutaram dəstimdə gül əvəzində.

Dost zəhməti dosta, gül gərək olsun,
Dəqiqə ayrısı, il gərək olsun,
Arada bir şirin dil gərək olsun,
Yamanı yaxşılıq bil əvəzində.

Şikəstə Rüstəməm, şikəstə halım,
Sədaqət yolunda qoyaram canım,
Leyli-nahar gəşt eyləyər xəyalım,
Dastanın söylənsin, dil əvəzində.

Rüstəm mətləbin nazikliyinə böyük əhəmiyyət verərək nə qədər xoşagələn ifadələr işlədir:

Desələr tikan var dostun yolunda,
Tutaram dəstimdə gül əvəzində.

Hələ İmanla Abdullanın deyişməsi geniş yayılmamış onun bir dastan olacağını Qamışlı Rüstəm qabaqcadan görür: «Dastanın söylənsin dil əvəzində». Bir mətləb üstündə köklənmiş şeirlər eyni yerə yığılır, onlara yurd yeri düzəldilir, hekayətə, dastana çevrilir. Aşıqlar İmanın bu hekayətini dastan kimi söyləyirlər. Nizami Gəncəvi qeyd edir ki, bu gün sızqa görünən bir çay sabah dərya olsa, sən ona dünənki gözlə baxma. Biz də dastana çevrilməkdə olan hekayətlərə təkamül ömrünü yaşayan bir sənət əsəri kimi baxırıq.

## İmanla Aşıq Sadığın deyişməsi və ya dastanı

Növrəs İman 1932-ci ildən sonra Göyçəni və Kəlbəcəri tərk edərək ömürlük Gəncəbasara gəlir. Əvvəl o, Goranboy bölgəsinin Səfikürd kəndinə yol alır. Buradan Daşkəsənə gedir. Günü Gəncədə Aşıq İslamın evində, Qazaxda və Tovuzda keçir. Bir gün necə olursa gənc İmanı kimsə yoldan çıxarıb, o dövrdə çox məşhur olan Aşıq Sadığın meydanına aparır. Növrəs İman Şeytanbazarda Fərruxun mehmanxanasına girir. O görür ki, divardan böyük bir saz asılıb. Özünə güvəndiyi üçün sazı çıxarıb heç kəsə məhəl qoymadan çalıb-oxumağa başlayır. Bir qədər sonra Aşıq Sadıq gəlir və İmanın bu hərəkəti onun

qəlbinə dəyir. O təklif edir ki, cavan aşıq, sazları üst-üstə kökləyək, çünki səninlə deyişəcəyəm. İman deyir:

- Ustad, mən mehmanam, gəl xoş sözlər oxuyaq, insanlar qulaq asıb zövq alsınlar. Sən ustad, mən şagird, deyişmək nədir.

Aşıq Sadıq deyir:

- Gənc olanda nə olar, gəl deyişək, mən sənə öz yerini göstərim.

İman cəsarətlə cavab verir:

- İndi ki, deyişmək qərarına gəlmisən, ustadsan de, cavab verim.

Aşıq Sadıq Xəstə Qasımın «Xəbər ver» rədifli açılmamış qıfılbəndini deyir:

Hikmət məclisində əyləşən alim,
Əvvəl mənə yamən hudan xəbər ver.
Ərşin sütununda, mehrac evində,
Sözün getdi kofdu kudan xəbər ver.

İman cavab verir:

Bar ilahim Cəbrayıla buyurdu,
Yamənhu mən kiməm tanı deməkdi,
Üç min kəlmə peyğəmbərlə danışdı,
Gizli aşikar o sübhanı deməkdi.

Bundan sonra üç bənd Sadıq Xəstə Qasımdan qıfılbənd deyir, gənc aşıq Növrəs İman isə sərrast cavabları ilə məclis iştirakçılarının heyrət və həyəcanına səbəb olur.

Sadıx:

O kim idi yerə çaldı mayanı,
Su ikən bərkitdi səngi qayanı,
Bey altından bu nöqtəni, bəyanı,
Bərri-bəhri, səngi-zudan xəbər ver.

İman:

Qüdrəti xudadan maya vuruldu,
Gün buyurdu xaki-sudan duruldu,
Bel bərkitdi haqq nizamı quruldu,
Dağı, daşı, cismi, canı deməkdi.

Sadıq:

O kim idi Zərnişanı oxudu,
O kim idi kimə kəfən toxudu,
Adəmdən irəli siğə yox idi,
Nədən oldu ənkə hudan xəbər ver.

İman:

Azrayıl oxudu löhü-məhbusu,
Peyğəmbərə kəfən verdi haqq özü,
Dedi Cəbrayıla siğə qıl bizi,
Adəm ata ol Həvvanı deməkdi.

Sadıq:

O kim idi yetişmədi hesaba,
O kim idi peyğəmbərə əsabə,

Xəstə Qasım özü yetər hesaba,
Həpdi, həşti, sibi, zudan xəbər ver.

İman:

Musa haqqın hesabına yetmədi,
Salman idi əyri yolu tutmadı,
Cənnət cəhənnəmdi həddə çatmadı,
Aydı, gündü, otuz sanı deməkdi.

Arif sözlərinə guş verir sənin,
Hər yana yetirir məna gözlərin,
Coşanda sinəmdə qəmli dəftərim,
Çox incidir bu imanı deməkdir.

Bundan sonra məclisə toplananların sayı artır. Sadıqdan güclü aşıq tanımayan adamlar onlara daha diqqətlə qulaq asır. Aşıq Sadıq nə olur-olsun gənc aşığın dizini yerə gətirməyi qərarlaşdırır və yenə də Xəstə Qasımın divani-qıfılbənd olan bir şeirini dilə gətirir

Aşıq Sadıq:

Adəmnən ol xatəmə natiqi Quran mənim,
Din mənim məssəb mənim, yol mənim ərkan mənim,
Gül mənim bülbül mənim, sünbülü reyhan mənim,
Yerdə insan, göydə qılman, ərşdəki asiman mənim.

Aşıq Sadıq belə düşünür ki, bu qıfılbənd-divaniyə girmək İman üçün çox çətin olacaqdır lakin belə olmur. İman divaniyə divani ilə cavab verir. Elə qiymətli bir divani yaradır ki, elə bil mərmərdən bir bina tikir, insanların gözünü qamaşdırır. İman deyir:

İbtidadan intəhaya gərdişi-dövran mənim,
Nuri-rəhmət xəlq olandan axirəzaman mənim,
Dil mənim zəbil mənim, qabili-tuban mənim
Heydər mənim, Səftər mənim, ol şahi-mərdan mənim,
Nuri Ənvər, Şəmsi qəmər, rakini-iman mənim

Bundan sonra deyilən qıfılbəndin arxasını da məharətlə açan Növrəs İman insanların alqışını, hörmətini qazanır.

Sadıq:
Abi ataş, xaki badda yaratdı sübhan bizi,
Altı mindən altı yüz, isbat qıldı üç yüzü
Dörd yüz arxa bağladı, dəryada qırx dörd dənizi,
Yetmiş üçün mən biriyəm, altmışın qırx səkkizi,
Beş içində altı məkkə, səkkiz yüz fərman mənim.

İman:
Abi ataş oddu, sudu, xaki-torpaq, badi yel,
Altı mindən altı yüzdü həmidi nizamı bir il,
Sünnət əmri nəhyi məkrul dörd yüz qırx dörd onu bil,
Sam içində müqəddimat, məkkə səkkiz yüz səbil,
Bu elmi də xaliq verib dərsimi pünhan mənim.

Sadıq:
Yeddi eyvan səkkiz seyvan qırx sütunun bir ləngəri,
Yeddi mola, yeddi dərviş, yeddi pust, yeddi dəri,
Bu işləri cəm eyləyənin başına əsər gəli,
Yeddi min qırxdan irəli səkkiz yüz dörddən bəri,
Pir mənim, ustad mənim, yol mənim, ərkan mənim.

İman:

Yeddi eyvan cəhənnəmdi səkkiz rizvan səda,
Ənbiyələr övliyalar qırx sütun ləngər xuda,
Yeddi səthi, yeddi şəkki yeddi ruz yeddi nida,
Yeddi min keçən tarix, səkkiz yüz dörddü cida,
Həm binasız, həm vəfasız, nə olsa viran mənim.

Sadıq:

Beşdi nisbi həşt içində yar bizə isbat edər,
Altı mindən altı yüzdə otuz dördü izah edər,
Bir mürəkkəbdə oxunan surəni əyyat edər,
İncil, Tövrat, Zənbur, natiqi-Quran mənim.

İman:

İslamiyyətlik aləmində, iyirmi səkkiz hərf var,
Xaçpərəstdə altı artıq, otuzdörddü aşikar,
Bir türfədə nəzər qılsa heydəri-düldül suvar,
Bu eynidə nitqə gəlsə, əhv olunan can mənim.

Sadıq:

Xəstə Qasım Tikmədaşlı sahibi-cümlə xəta
Var ümidim taci mehrac billəm eylər əta,
Olsa dəftər, gəlsə rəhbər, bir şahsüvar innafata
Rəzmi-qaf günahım olsa, əhv eylər rəhman mənim.

İman:

Növrəst iman Göyçə elli sidqi şahi-Heydərə,
Ərş əladan vəhi gəldi biz yazdıq dəftərə,
Xaliq özü şəfayətcil yazdı ruzi-mənşərə,

Tifil ikən mədh içində hökm qıldı Əjdərə,
Yoxdu qorxum qurulanda ədalət divan mənim.

Bundan sonra İman deyir ki, indiyə qədər dediyimiz qıfılbəndlər Tikmədaşlı Xəstə Qasımın açılmamış qıfılbındləri idi. Xəstə Qasımın ruhu məni bağışlasın. Mən çarəsiz qalıb onun qıfılbəndlərini açdım. İndi sizə sinəmdən bir qıfılbənd deyəcəyəm, onu açsan, qalibsən. Növrəs İman deyir:

Bir səhrada altı dərviş,
Onların pak əsası var.
Daş gətirib kərpic hörən,
On nəfər bənnası var.

Bir şəhərdə qırx səkkiz min
Səkkiz yüz səksən səkkiz sərvər,
Altı min iki yüz quldu,
Haqda nişanəsi var.
O qullarda altı dəstə,
Var qabaqda leşkəri.
Hər biri yeddi min iki yüzdən səfləri,
Altı min səkkiz yüz pəhləvandı,
Əvvəl bağlar səngəri,
Altı min cəm, yeddi yüz aynası var.

Yüz iyirmi dörd min sami-siraq,
Hökm edə min səksənə,
İki nəfər vərm işində,
Ona baxar, gah sanar.

Bir hakimi-müqərrərdir,

Dilin açar əhsənə.
Beş-beşə yetər iyirmi beşə,
Onun çox mənası var.

İstəyirəm burda açam meydanı
Pirim mənə rüsxət versə,
Tək alaram dünyanı.
Toxunmayın, incitməyin,
Siz bu Növrəs İmanı.
Tifil ikən dərd əhlidir,
Canda qəm dəryası var.

Bundan başqa İmanın həmin əhvalatlarla əlaqədar bir qıfılbəndi də söylənilib:

Bu gün səfər etdim bir xanə gördüm,
Beş qapısı bağlı bu dərindi bu.
Beş qapısı bağlı beşi açıqdır,
Beşi cavab verdi bu dərindi bu.

Beş alim əyləşib beş məqam üstə,
Beşi qocalmışdı, beşi norəstə,
Beşi ayaq üstə beşi bir dəstə,
Beşini qism etdim bu dərindi bu.

Beş mənbərdi hər birində beş ayə,
Beş yerində zikr olunur beş ayə,
Beş yerində mən oxudum beş ayə,
Beşini beş etdim bu dərindi bu.

Beş ləldən bahalı, beşi xırdarı,
Beş ləldən bahalı beşi anbarı,

Beş tərəf dəryadır ey çeşmi-carı,
Beşini boylandım bu dərindi bu.

Beşi ağayana beşi məstana,
Beşidi divana, beşi əfsanə,
Beşidi İmanə beşi hər yana,
Beşini zikr etdim bu dərindi bu.

Növrəs İman qıfılbəndin möhürbəndini soruşanda Aşıq Sadıq söyləyir ki, bala, sən hara aşığısan? İman deyir:

- Mən Göyçəli Aşıq Ələsgərin qardaşı oğlu Növrəs İmanam.

Aşıq Sadıq üzr istəyir:

- Bala, bağışla, tanımamışam, böyük sənət ocağının övladısan.

Bundan sonra Aşıq Sadıq onu dilə tutub öz evinə qonaq aparır. Aşıq Sadığın arvadı ona işarə edir ki, getmə, Sadıq kinli adamdır, bu heyfi səndə qoymaz. İman Sadığın evində sazı köynəkdən çıxarıb bu şeiri oxuyur:

Hamı xəlq olubdu bir qətrə sudan,
Hər keçən ömrə şan demək olmaz.
Yatıbdı qəflətdə açmaz gözünü,
Nalayiq insana can demək olmaz.

Əyrilər nə bilər yolu ərkanı,
Çıxartmaz qəlbindən şəri, şeytanı,
Nanəcib nə bilər yaxşı, yamanı,
Namərd süfrəsində nan yemək olmaz.

Həmişə düz çıxar mərdin ilqarı,
Nanəcibin olmaz heç etibarı,
Çəkər qoynuna şirəni arı,
Çəkməsə nizama şan demək olmaz.

Gün xoş keçsə, ömür başın tacıdır,
Taleh bəd gətirsə, bəxt qıyğasıdır,
Tənəli söz zəhrimardan acıdır,
Hər yetən gədəyə xan demək olmaz.

İman qürbət eldə candan usandı,
Hərcayi sözlərdən hər vaxt utandı,
Hər gündə cəsədi bir zərrə yandı,
Ləhzədə alışıb yan demək olmaz.

Süfrəyə yemək gəlir. İman əlini süfrəyə uzatmır və aşağıdakı qoşmanı deyir:

Dünya qurulubdu iki üzü var,
Qarası görünür, ağı görünmür.
Hər sözün özünün bir mənası var,
Çürüyü görünür, sağı görünmür.

Barlı bir bağça idim barım kəsildi,
Vaxtsız xəzan dəydi, narım kəsildi,
Bu ilqardan ümidvarım kəsildi,
Qürbət ellər mənə yağı görünmür.

Növrəs İman haqdan istə payını,
Dərdə düşsün müxənnəti, xaini.

Yemə çörəyini, içmə çayını,
Namərd süfrəsində ağı görünmür.

Bundan sonra şaiyə yayılır ki, İmanı məhz Sadıq öcdürüb ancaq bu da məntiqdən kənar görünür. Çünki İmanın Sadığın evindəki qoşmalarını İmandan başqa heç kəs yaya bilməzdi. Gördüyümüz kimi, bu qoşmalar demək olar ki, bütün aşıqların repertuarında var.

## İmanın Tomaxlılar nəslində qonaq qalması hekayəti

Növrəs İmanın qoşmaları içərisində «Tomaxlılar» adlı bir qoşma da vardır. Tomaxlılar hansı coğrafi mühitdə yerləşir biz onu bilmirdik. Böyük axtarışdan sonra öyrəndik ki, bu ad Şəmkir rayonunun Zəyəm-Cırdaxan kəndində böyük bir nəslin adıdır.

Əvvəllər Zəyəm-Cırdaxan belə bütöv olmamışdır. Bir neçə obadan ibarət olan camaatı Sovet hakimiyyəti illərində bir yerə toplamışlar. Kolbasanlar, Gəzərəhlilər, Qaydallar və başqa nəsillərlə bərabər Tomaxlılar nəsli də indi bir yerdə yaşayırlar. Tomaxlılar say etibarilə çoxdurlar və özləri də saza-sözə bağlı tayfa olmuşlar. Onların özlərinin Aşıq Cəbrayıl kimi görkəmli aşıqları olmuşdur. Aşıq Cəbrayıl 1963-cü ildə aşıqların birinci qurultayında iştirak etmişdir. Onun özünün çoxsaylı əlyazmaları qalmışdır. Dirili Qurbaninin, Xəstə Qasımın bir sıra şeirləri, Tufarqanlı Abbasın şeirləri onun arxivində saxlanılmaqdadır.

Növrəs İman 30-cu illərdə bu kənddə olmuş, özünün yazdığına görə onu qonaq etməmişlər. O da Tomaxlıları qonaq saxlamamaqda qınamış, onlara məzəmmət dolu bir qoşma yazmışdır. Biz də həmin qoşmanı birlikdə oxuculara təqdim edirik:

Mən qıymıram sizə hədyan deməyə,
Bircə ərzi-halım var, Tomaxlılar.
Bu qaydada sizə insan demərəm,
Olsun sizin üçün ar, Tomaxlılar!

Dilimi açmadım mən hədyan sözə,
İgid istəyir ki, dastana dözə.
Qərib idim, qonaq gəlmişdim sizə,
Etdiniz dünyamı dar, Tomaxlılar!

Aşıqlar gördüyün söylər həmişə,
Necə qəhət oldu bir qeyri-peşə?!
Müxtəsər, nə deyim çərxi-gərdişə,
Eylədi tərlanı sar Tomaxlılar!

Mərd igidlər çörək verər, ad alar,
Namərd süfrəsinin nə dadı olar?
Yazaram bu işi axıra qalar,
Olarsız aləmdə xar, Tomaxlılar!

Eşq əhliyəm, özüm bir nocavanam,
Anlamaz nə bilir, yaxşı, yamanam.
Bağçası qurumuş Növrəs İmanam,
Gətirməz budağım bar, Tomaxlılar!

Vaxtı ilə böyük vətən müharibəsi illərində şair Cavad da Gəncə yaxınlığındakı Qızılca kəndində gecələyir. Şair Cavad səhərə qədər neçə qapını döyürsə, onu qonaq saxlayan olmur. Şair Cavad da İmansayağı, ondan da bir az kəskin Qızılcalılara bir həcv yazır. Hər iki qoşma eyni xarakter daşıdığına, hər iki sənətkar eyni mövzuya toxunduqları üçün bu qoşmanı da aşağıda veririk. Təəssüf ki, bu qoşma bütövlükdə bizə gəlib çatmamışdır:

Şairin qəlbinə təzə söz gəlib,
Qoy deyim incimə ay Qızılcalı.
Yeriniz qayalıq, zatınız qırıq,
Kərtənkələyə tay Qızılcalı.

Adam bildik qonaq gəldik evinə,
Bayan dərəsində... Qızılcalı.

Vaxtilə şair Cavad Növrəs İmanla görüşmüş və onlar öz qoşmalarını bir-birlərinə oxumuşlar. Bəlkə də şair Cavad İmanın məlum qoşması ilə tanış olandan sonra bu qoşmanı yazmağı qərara almışdır. Çünki hər iki qoşmanın arasında misra və məntiq oxşarlığı qabarıq şəkildə verilmişdir.

İman çox yaşasaydı, sözsüz ki, çox maraqlı hekayətlər və dastanlar yaranardı. Onun qısa zamanda yaratdığı yurdu olan şeirləri bundan xəbər verir. Qarının Koroğluya qayqanaq bişirməsi ilə, başqa bir qarının Növrəs İmanı xəngəl bişirməsi arasında bir bənzəyiş vardır. Növrəs İman «Miskin Abdallıya səfər eylədim» dedikdə yəqin ki, Gədəbəyin Miskinli bölgəsində Böyük Qarabulaq kəndini nəzərdə tutur. Bu kənddə Abdallı nəsli yaşayır. Bu kənddəki Abdal

Musa, Cahan Abdalov, həmin tayfanın çox tanınmış nümayəndələridir. Yəqin ki, həmin kənddə bir qarı İmana duzu artıq, xəngəl bişirir. Həmin xəngəldən razı qalmayan şair «Xəngəl» adlı şeirini yazır. Bu əhvalat məclislərdə gülməli şəkildə əhvalat danışılır. Əgər həmin şeirin yurdu olmasaydı aşıqların dilində qalmazdı. "Xəngəl" adlı şeirini İmanın ədəbi irsindən bir nümunə olaraq olduğu kimi təqdim edirik:

Miskin Abdallıya səfər eylədim,
Başıma nə gəldi əlamət oldu.
Güzarım düşmüşdü bir şam bazarı,
Qarışdı əhvalım, qiyamət oldu.

Ev yiyəsi qarı fərman buyurdu,
Gəlini gətirib xəmir yoğurdu,
Ələdi tabağı bir-birə vurdu,
Asıldı qazanlar, nəhayət oldu.

Dedim sarımsağı duz ilə döymə,
Döysən də mən üçün xəngələ tökmə,
Dedi bəsdir qonaq özünü çəkmə,
Aralıqda xeyli ədavət oldu.

Qarı çox aldadıb yenə tökdü şor,
Fasiqi biəməl, özü gorbagor,
Deyirdi hərdən bir götür elə hor,
Ləzzəti dilimdə nə qayət oldu.

Utandım bir-iki qismət götürdüm,
Əlimi ağzıma güclə yetirdim,
İki yol qatladım, bir yol ötürdüm,

İki duz sinəmdə hərarət oldu.

## III) Növrəs İmanın təcnis yaradıcılığı

Növrəs İmanın qoşma və qıfılbənd yaradıcılığında müəyyən aşıqlara bənzər cəhətlər olsa da o, təcnis yaradıcılığında tamamilə bənzərsiz bir sənətkardır. Növrəs İmanın yaradıcılığındakı qeyri-adilik ondan ibarətdir ki, o, hadisələri elə obrazlaşdırır, ola bilməz, başqa sənətkar öz şeir yaradıcılığını belə ustalıqla əks etdirə bilsin. Onun ən obrazlı fikirləri təcnislərindən əvvəl məhəbbət dastanlarına bağlı yaranan qoşmalarındadır. Növrəs İman «Gözlər» rəditfli Qoşması məhz belə ölməz sənət incilərindəndir:

Aman Allah, sevgi necə şirindi,
Məcnun Leyli deyib bu dağı gözlər.
Leyli vədə verdi, gələrəm dedi,
Bir ildi sərbəsər bulağı gözlər.

Məcnun gözü qaldı Leyli qaşında,
Yazıq canı yandı eşq ataşında,
Çöl quşları yuva salıb başında,
Tutulmuş nitqi, qulağı, gözlər.

Növrəs İman özünü Məcnunun yerinə qoyur, sevgilisi gözünə Leyli libasında görünür. O, elə xəyal edir ki, bulaq başında Leylisini o qədər gözləyib ki, çöl quşları onun başında yuva salıbdı. Doğrudan da İman, sözün əsl mənasında, bu vəziyyətdə idi. Sevgilisi Şəkər xanımı başqasına verdikdən sonra İman divanə olmuşdur. Aylarla evə getmirdi. Onu nəinki yaxın qohumları, hətta, dostları da günlərlə axtarırdılar. O günkü vəziyyətini «Mənəm, mən» qoşmasının ilk bəndində belə izah edir:

Tərk olan vətəndən, yad olan eldən,
Qürbət eldə bir avara mənəm, mən.
Kür gələn taleyi ruzi-əzəldən,
Sinəsi sədparə olan mənəm, mən.

İman dərdini nəinki yerdə insanlara söyləyir, o, göydəki durnalara da dərdini açıb deyir:

Elim, günüm geri yanda qalıbdı,
Qayğı-qəmlər şirin canım alıbdı,
Fələk məni gör nə günə salıbdı,
Alışır cəsədim nara durnalar.

İman təcnis yaradıcılığına hamıdan çox müvəffəq olmuşdur. Ona görə ki, o, dilimizin lüğətinə, omonimlərinə, cinaslı ifadələrinə yaxından bələd idi. Hər sözün mənasını, ifadə çalarlarını dərindən bilirdi. Onları zərgər dəqiqliyi ilə ölçüb-biçdikdən sonra şeirə gətirirdi. İmana görə təcnis, qıfılbənd açılması müşkül olan bağlamalar yaratmaqdan da çətindir. Təcnisdə sözlə-söz arasında, məna ilə məna arasında mətləb

gizlənir. Ona görə də hər bir aşıq bu incəlikləri duya bilmir. Nəinki təcnis yaratmaq, onun təhlili də aşıqlar üçün çox çətin olur. Bu bir həqiqətdir ki, aşıqlar indi də bir-biri ilə deyişəndə qarşısındakına ya Növrəs İmanın, ya da Xəstə Qasımın qıfılbəndlərini deyirlər. Növrəs İmanın «Nə də anam indi» təcnisi nəinki Göyçə, Kəlbəcər mühitində yetişən sənətkarları, ümümiyyətlə, Azərbaycanın bütün bölgələrində yaşayan aşıqları heyrətdə buraxmışdır. Aşıq Ələsgər Növrəs İmanın bu təcnisinin bənzərsiz bir əsər olduğunu söyləmiş və dönə-dönə demişdir ki, belə bir təcnisi ancaq İman kimi bir istedad sahibi yarada bilərdi. Təcnisdə müəmma şəklində söylənsə də, insana zövq verən, estetik güc aşılayan lövhə yaratmışdır. O, körpə ilə ananın, südəmər uşağın addım-addım böyüməsini izləyir. Hətta, mən deyərdim ki, kiçik bir əsərdə böyük bir süjet yaratmışdır.

İki şeş fəslində tifri-büstanam,
Altıda yox atam nə anam indi.
On ikidə yetişmiş bağı bostanam,
On üçdə yox barım nə tanam indi.

Mənası budur ki, iki şeş fəslində, yəni üç yaşıma qədər tifiləm, anamı əmirəm. «Altıda yox atam, nə anam indi», yəni mən bu yaşımda sərbəst oynamaqla məşğulam. On üç yaşımda hələ bostanımın barı yoxdur. Bu təcnis olduğu qədər də bağlamadır. Lakin onun açılması, təhlili insana zövq verir. İkinci bənddə İman, bəlkə də özündən söz açır, öz gəncliyini göz önünə gətirir.

Şam idim əzəldən, yar işığıyam,
Leyli, Məcnun kimi yar aşığıyam,
Məclislər zinəti, yaraşığıyam,
Söz keçmir isbata, nə danəm indi.

Birinci misrada yar üçün bir işıq olduğunu, ikinci misrada Leyli və Məcnun kimi yar aşığı olduğunu, üçüncü misrada məclislərin yaraşığı olduğunu bildirir. İman təkcə sözdə məna axtarmır, həm də onun gözəlliyinə xüsusi diqqət yetirir. Burada sənətkarın giley-güzarı da vardır. Söz sərrafı olan sənətkarın sözü zəmanəsində isbata keçmir. Lakin o, sözünün isbata keçmədiyini danmır, hər kəsə söyləyir. Bunun özü də sənətkar cəsarətidir. Təcnisin sonuncu bəndində İman daha hikmətli sözlərlə, fikirlərlə məqsədini tamamlayır.

İman, eşqin nə az verib, nə az alar,
Can dərdə gələndə titrər əzalar,
Dost yad olsa, məhəbbətlər azalar,
Qalmaz sel yerində, nə də nəm indi.

Doğrudan da cana dərd gələndə insan əzaları titrər, yəni sızıldar, dost yad olsa, məhəbbətlər azalar: «Qalmaz sel yerində, nə də nəm indi». Doğrudan da çayın, bulağın suyu çəkildikdən sonra yerində nəm, yaş qalmır. Hətta, həmin yerdən bulaq çıxdığına, çay axdığına da inanmırsan.

Onun «A yarə məndən» təcnisi də böyük ustalıqla yaradılmışdır.

Vaxt dolandı, gəldi keçdi zəmanə,
Niyə əl çəkmədin a yarə, məndən.

Nə əcəl gəlmədi, yetişəm cana,
Nə xəbər getmədi o yara məndən.

Sözlər bir-birinə bənzər şəkildə olsa da, məna ayrıdır. Zəmanədən gileylənir, canından gileylənir şair. Nə əcəl gəlmir, nə də yara aşığın canından əl çəkmir. Nə də ki, belə darda olan insandan öz yarına bir xəbər çatmır. Şair möhürbənddə deyir:

İman qələm çalır, nə xoş səfadı,
Nə nizam yoxdumu, nə xoş səf adı,
Pərişan xəyalım naxoş səfadı,
Xain bəd qandırar, a yarə məndən.

Şairin intizarı odur ki, xain adam onun sevgilisinə bəd qandırar.

«Ay mar al, Maral» təcnisi daha pərgar, daha gözəl cinaslardan qurulmuşdur. Adam bu təcnisi oxuduqca, dinlədikcə təbiətə, onun faunasına, florasına vurğunluq daha da artır. Düşünürsən ki, İman nə böyük müşahidələrə malik imiş. Elə bil, onun ömrü, günü təbiəti seyr etməklə, gözəllikləri müşahidə etməklə keçirmiş. O, bunları duyub dərk etdiyi üçün öz poeziyasına aşıq şeirinin çətin janrı olan təcnisləri ustalıqla gətirə bilmişdir. Gördüyü obyekti qələm almaqda, təsvir və tərənnüm etməkdə İmanın sözdən çətinliyi yoxdur:

Ovsunçusan, mənlə dərdə yarısan,
Ovsun sal dağlara ay mar al, mar al.

Bu beytin mənası budur ki, ovsunçusan, ilan tutansan, dağlara ovsun sal, ilan tut zəhər al. Mən də sənin kimi ilanlara ovsun salmaqdayam. İkinci beytdə deyilir:

Əndəlib gülüsən, bağça barısan,
Zənbur tək sinəmdən ay mar al, mar al.

Əndəlib bülbüldür, bağçadakı bütün güllər, çiçəklər onunkudur. Aşıq zənbura, arıya müraciət edir ki, mənim sinəmdən də mar al, zəhər al. Şeirin ikinci bəndində Maral adlı gözəl bir qıza müraciət var.

Durubsan qarşımda hər zaman gözəl,
Vurubsan sinəmə hər zaman göz, əl,
İşarət eyləsəm hər zaman gözəl,
Kərəm et dəstinlə ay Maral, Maral.

Üçüncü bənddə Maralın özünün də ovçunu kəməndinə keçirə biləcəyinə işarə edir:

Səyyad gələr, sən də keç ərkə, mən də,
Yönüm düşüb dağa keçərkən mən də,
Növrəs İman səndə keçər kəməndə,
Gəzər göz önündə ay maral, maral.

İmanın təcnisləri bir-birindən gözəldir. Onun hər bir misrasında bir məna gizlənir. Hər bir təcnisdə xüsusi omonimlər, cinas ifadələr seçilir. «Ay üzər, üzər» deyərkən nə qədər zərif, incə ifadələrdən istifadə olunmuşdur. Bu təsvir və tərənnüm, seçmə sözlər gözəlin camalının şöləsinə, qəmər hüsnünə çox yaraşır.

Sanki hər bir misra üzərində, bənd üzərində xüsusi dayanır, təcnisi bax belə sənətkarlıqla yaradarlar deyir:

Camalın şöləsi gəzir cahanı,
Necə ərş üzündə ay üzər-üzər.
Həsrət dolanmağın yandırır canı,
Demə ki, danışır ay üzər, üzər.

Birinci beytdə gözəlin camalında gəzən gözləri aya bənzədir, gözəlin üzündə şölə, işıq elə gəzir ki, ərşdə, göy üzündə ay elə üzür - deyə müqayisə aparır. Yəni yarın üzündəki işığı, şöləni ayın nuruna bənzədir. O, şeirində insanla təbiət arasında qırılmaz bir vəhdət yaradır. Təbiətdə olan gözəlliyi insanın üzərinə, insanın gözəlliyini təbiət üzərinə elə şəffaflıqla köçürür ki, insanda bu təsvirlər heyrət yaratmaya bilmir. O, həm də bildirir ki, mən bunları gəlişi xoş olan sözlər kimi demirəm, bunlar həqiqi mənada təsvir etdiyi gözəlin əlamətləridir. İkinci bənddə öz fikrini bir az da geniş şəkildə açıqlayır:

Qəmər hüsnün seyrağıbdan daldala,
Yar ismində yaraşıqdı daldala,
Sənin dərdin mənə gəldi daldala,
Tək çəkə bilmirəm, ay üzər, üzər.

Sonuncu misrada aşıq bildirir ki, sənin dərdini tək çəkə bilmirəm, birdən çəkə bilmərəm ay üzər, üzər. Növrəs İman təcnisinin möhürbəndində bütün qəminin, kədərinin cəmini ifadə edir. Bəzi tədqiqatçıların aşıq təcnisdə mənanı formaya qurban verir deməsminə qətiyyən inanmır. Çünki İmanın hər bir təcnisi dərin mənaya və forma gözəlliyinə malikdir.

İman təcnislərdə öz fikrini tam mənası ilə ifadə edə bilir:

Geydim ayağıma hicran çəkməsin,
Qəm başdan tutuban hicran çəkməsin,
Heç kəs İman təki hicran çəkməsin,
Axırda ömrünü ay üzər-üzər.

«Geydim ayağıma hicran çəkməsin» ifadəsi xalq inamları ilə əlaqədardır. Deyərlər ki, yuxuda ayaqqabı görmək darlıqdır. Son beytdə isə Növrəs İman öz fikrini daha açıq söyləyir:

Heç kəs İman təki hicran çəkməsin,
Axırda ömrünü ay üzər-üzər.

Növrəs İman təcnislə o qədər məşğul olmuşdu ki, hətta güllü qafiyə üzərində qıfılbənd yaratmışdır. Bu aşıq yaradıcılığında, aşıq poeziyasında bir möcüzədir:

Könlümün novrağı, şəmsi çırağı,
Qəlbi natəvanım bir ay əmindi.
Dedim: dilbər, məni salma fərağa,
Dedi: cəbr eyləsən bir ay əmindi.

Dedim: bu bülbülün bağçası bir gül,
Dedi: allanıbsan, bağçası bir gül,
Dedim: al bəzənmiş bağçası bir gül,
Dedi: bağlam var bir ayə mindi.

Dedim: bu on birin, yoxsa on üçün,
Dedi: doqquz qəbul olub on üçün,

Dedi: üçü alacaqdı on üçün,
Dedi: İman doğru bir ayə mindi.

Növrəs İmanın açılmamış qalan qıfılbəndlərindən biri də bu təcnis qıfılbənddir.

«Yananı gözlə» təcnisi həm də Növrəs İmanın ustadnaməsi kimi qəbul oluna bilər. İman aşıq sənətinin sirrinə, sehrinə dərdindən bələd olduğu üçün yaxşı dərk edirdi ki, təcnis şəklində məclisdə deyilən ustadnamə daha təsirli ola bilər:

Sərəfraz gəzirsən büllur otaqda,
Qıraqdan oduna yananı gözlə.
Hədyan söz danışma ağır yığnaqda,
Ya namusu gözlə, ya nanı gözlə.

Məclisə, yığnağa nəsihət verən, "sözün əvvəli ilə sonuna qiymət ver" - deyən İman üzünü büllur otaqda sərəfraz gəzən gözələ tutub deyir:

Cəsəd üstə təşbeh olub ziya da,
Eşidənlər nifrin eylər ziyada,
Məhəbbət əhlinin eşqi ziyada,
Ataşı ürəkdə, yananı gözlə.

Təcnisin möhürbəndində İman daha dərinlərə baş vurur, təcnis dəryasından, söz dəryasından yeni ləl-cəvahirat çıxarıb təcnis binasının tağlarını bəzəməyə çalışır:

İman dildə cəm saxlayar asarı,
Kəmənd əldə, at xədəngin hasarı,
Çəkəndə nəqqaşı, sirli hasarı,

Dedi: vaxta kimi yan, anı gözlə.

«Yaşı nəm ağlar» təcnisində özünün kür taleyindən söhbət açır:

Qəhrim çoxdu, sən də qurma ayalar,
Əcəl gəlsə, vaxtsız canım ay alar,
Düşəndə yadıma əziz ayalar,
Ah çəkər gözlərim yaşı nəm ağlar.

Növrəs İman bu bənddə bir əfsanəni yada salır. «Maral süddü, vaxtsız ovçu yaralı» Əgər maralın döşü süddüsə, demək onu körpə balaları gözləyir. Ovçu isə onu vaxtsız yaralamışdır. Bu hadisəni İman ürək yanğısı ilə belə söyləyir:

Növrəs İman, könlün olsa yar alı,
Geyinib qəddinə qəmdən yar alı,
Maral süddür, vaxtsız ovçu yaralı,
Deyər vaxtı gözlə, ya sin, əm ağla.

«Maralı dağlar», bəlkə də şair aşığın Ən gözəl təcnisidir:

Gözəl məni saldı öz bəlasına,
Mənim dərdim budur, öz bəlası nə?
Yaranan qıyarmı, öz balasına,
Ox dəysə tifilinə, maralı dağlar.

Ümumiyyətlə, İman yaradıcılığından, İman poeziyasından bir giley-güzar, bir sızıltı keçir. O, öz bəxtindan, taleyindən heç zaman razı qalmır. Başqa

gəraylılarında, qoşmalarında olduğu kimi, zəmanəyə etiraz motivi onun təcnislərində də yer almışdır.

«Sağalam gedəm» təcnisi də yüksək məzmun və mənaya malikdir. İman deyir:

Qəfil bir ox atdım, tökdün qanımı,
Qoymadın gəzməyə ha qalam gedəm.
Sənin fikrin xəstə saldı canımı,
Ümid yox, ellərə sağalam gedəm.

Şeirin ikinci bəndində deyir:

Gətirdin rəngimə Sarı gözəl sən,
Rəhm eylə, yaramı sarı gözəl sən,
Mərhəmət qıl bizə sarı gözəl sən,
İstərəm, ölməmiş sağalam gedəm.

Başqa aşıqlar kimi, İman da məhəbbət obrazlarının adlarını tez-tez dilə gətirir, özünün də taleyini, aqibətini onlarla bağlayır:

İgidlər meydanı, dağı şirindi,
Çapdıran Fərhada dağı Şirindi,
İmanam ləbində ağı şirindi,
Hey gözlər, xəstə sağ alam gedəm.

«Sənəm al» rədifli çox sənətkarlar, hətta Xəstə Qasım da təcnis yazmışdır. Lakin hər bir sənətkarın öz təcnisində dəsti-xətti görünür. İman təcnisində deyir:

Ay təzə şahbazım, həm sərvinazım,
Qulluğuna bir ərzim var, Sənəm al.

Yolunda sadağa candı niyazım,
Layiq deyil qurban kəsim sənə mal.

Növrəs İman üç bəndlik şeirində belə sona qədər nikbin qala bilmir, dərd, kədər duman kimi onun sinəsinə çökür:

Növrəs İman, günün gəldi nə qarə,
Bad əsdi zimistan oldu nə qarə,
Çarxı-gərdiş yenə çaldı naqara,
Ay, gün kəmənd atdı, qurdu Sənəm al.

«Qala yar qala» təcnisində də daim cinaslardan istifadə edir. Təcnisin möhürbəndinə diqqət yetirmək yetər:

Çarx hərləndi, qara gəldi sənə yaz,
Xətalı gərdişdən axtar sən az,
Növrəs İman, dərdin desin sənə, yaz,
Həsrətin sinəmdə qala yar qala.

«Nə qala sən sən» təcnisində deyilir:

Dərs alanlar zikr eyləyər hər aya,
Gedəcəkdi, gedəcəksən haraya?
Çağırar ağasın, yetər haraya,
Nə qala leşkərin, nə qalasan sən.

Əgər ki. Ağan harayına çatmasa, fələk sənə yar olmasa, nə leşkərin-qoşunun qalar, nə də sən özün.

«Sin ayəsinə» təcnisində isə başqa bir mətləbdən danışılır:

Səyyadlar seyr eylər dağlar sərində,
Quş da gərdiş eylər dağlar sərində,
Dərd əhli İmanın Dağlar sərində,
İstər ki, sinəmdən sin ayə sinə.

Növrəs İman Tufarqanlı Abbas kimi, Ələsgər kimi yalnız təcnis şeir formasından istifadə etməmişdir. O da öz gücünü digər növdə, cığalı təcnisdə sınamışdır.

«Qeyri sinayə» cığalı təcnisi ölməz bir sənət abidəsilir. Bu cığalı təcnisin müzəyyənliyi, gözəlliyi ondadır ki, o, qıfılbənd üzərində qurulmuşdur. Növrəs İman ona görə belə ölməz abidələr yarada bilmişdir ki, o, Xəstə Qasımın qıfılbəndlərindən çox bəhrələnmişdir. Bu yaradıcı istifadə ona çox şey vermişdir. Növrəs İman bununla onu demək istəyir ki, mən sələflərimdən nə qədər öyrənsəm də, aşıq poeziyasında məndən əvvəl nə qədər qaynaqlar varsa, mən də öz sələflərim üçün özüm bir qaynaq yarada bilmişəm. Ona görə də İmanın çoxçalarlı, çoxçeşidli olmasına dərindən diqqət yetirmək lazımdır. Biz yuxarıda gördük ki, o, aşıq poeziyasına təkcə qıfılbənd məzmunu gətirməmişdir, o həm də aşıq poeziyasında bir qeyri adilik yaratmışdır. Növrəs İmanın nümunə kimi yaratdığı bu bağlama qıfılbəndə diqqət yetirək:

Beş kəlmə sini lə bir lam içində,
On dörddü cəmində qeyri sinayə.
    Aşıq dildə sin ayə,
    Üç nisbətdi sin ayə.
    Altı beşlə mücəssəm,
    İki tək bir sin ayə.

Səkkiz onu istər bir lam içində,
Bir qətrəsi bənzər sinayə.

Dildə əzbər, əldə ləngər bir ayə,
On səkkizdən iyirmidi bir ayə.

Aşıq oxur bir ayə,
Dörd mənzildi bir ayə
Altıdan beşi çıxdım,
Yerdə qaldı, bir ayə.
Şux camalda zikr eylədim bir ayə,
On üç kəlmə bənzər qeyri sinayə.

Səd sal, seyr elə sən seyri yasində,
Bir günə təşbehdi seyri yasin də,
Aşıq seyri yasində,
Könül seyri yasində.
Qırx kənarda, altı əldə,
Ruhum seyri yasində.
İman qəm bəsləyər seyri yasində,
Üç gülə bəstəyəm, qeyrisi nayə?

İmanın açılmamış, bağlı qalan qıfılbəndlərinin biri də budur. İman bununla aşıqlara demək istəyir ki, mən sələflərimin yaratdığı qıfılbəndlər üzərində baş sındırdığım kimi, xələflərim də mənim qıfılbəndlərimi açmağa çalışsınlar. Yaratdığım gövhərləri sinələrinə, zehinlərinə yığsınlar.

İkinci cığalı təcnisində İman dini hadisələrə, digər həyat hadisələrinə də istinad edərək «Dal əyər-əyər» cığalı təcnisini yaratmışdır. O, cığalı təcnis yaradarkən on bir hecalı qoşma bəndlərini ikiyə bölür, beytlər

arasında əlaqə yaradan müxtəlif cinaslı bayatılardan istifadə edir:

Can gəlsə dağlara, yellər əsdirər,
Qışda çətin gəlsə, dal əyər-əyər.

Aşıq deyər əyərdən,
Nə gətirdin Əyərdən?
Laçın getsə şikara,
Gətirərsə, əyər dən.
Elin səsin qayalardan kəsdilər,
Eşitsə qəddini dal əyər, əyər.

Yəqin kəsər zəhri, zəhri sal salı,
Qəza Cana zəhri, zəhri sal salı.
Aşıq deyər sal salı,
Yar qəddinə sal salı.
Canan cana nəzərdən,
Əyər yaxşı sal salı.
İçəndə qardaşı zəhri Salsalı,
Səslərdi dilində Dal əyər, əyər.

Yazıq Cana, canan, getdin, aya, nə?
Nahaq yerdən sirrin saldın ayanə.
Aşıq deyər ayanə,
Dilin eşqə a yanə.
Xain nədən qaralı,
Gəzər eldən a yanə
İman istər cahan gəzə, ay anə,
Yaralı sinəsi dal əyər, əyər.

İndiyə qədər Növrəs İmanın şeir yaradıcılığı, onun qoşmaları, gəraylıları, eləcə də, təcnisləri tədqiqat obyektinə çevrilməmişdir. Belə böyük sənətkarın təcnis yaradıcılığını, özü də müəmmalarla dolu təcnis yaradıcılığını təhlilə cəlb etmək, ümumi nəticələr çıxarmaq o qədər də asan deyildir. Nə qədər çətin olsa da təcnis yaradıcılığı mənim üçün də maraqlı olmuş, onun hər bəndindən, hər misrasından xüsusi zövq almışam.

## *IV) Növrəs İmanın taleyinin son məqamları*

Növrəs İman öz şeirlərinin xislətinə görə aşıq poeziyasında xüsusi yer tutur. Müasirlərindən fərqli olaraq aşıq poeziyasının daha böyük nəhəngləri ilə adı bir sırada çəkilir. Dərin məzmunlu qıfılbəndlrdən söz düşəndə onun adı Tufarqanlı Abbas, Xəstə Qasım kimi sənətkarlarla yanaşı səslənir. Bədahətən, gözlənilmədən söz deməkdə, hazırcavablıqda Abdalgülablı Valehlə eyni tutulur. Təcnis yaradıcılığında onu Aşıq Ələsgərlə, Zodlu Abdulla ilə eyni məharətli sənətkarlar gözündə görürlər. Aşıq Ələsgər özü də baxmayaraq ki, onların nəslində saz çalan, söz qoşan adamlar çox idi, amma o, İmanı istedadına görə hamıdan birinci görürdü. İmanın Ələsgərə çatan şeirləri, təcnisləri, qıfılbəndləri onu heyrətdə buraxmışdır. O, İman şeirlərinə möcüzə kimi baxırdı.

Çox erkən yaşlarından Ələsgər ocağından od-alov alan İman tezliklə Göyçənin saz-söz məclislərinin söhbətinə çevrilir. Onun bədahətən şeir söyləməsi, həm də çox kamil fikirlər ifadə etməsi İmana böyük hörmət və nüfuz qazandırıb.

Növrəs İman bir müddət Kəlbəcər mahalının Seyidlər kəndində müəllim işləmiş, eyni zamanda saz-söz yaradıcılığını davam etdirmişdir. İman 1930-cu ildə həm ailə, həm də siyasi hadisələrin kəskin təzyiqlərinə davam gətirə bilməmiş, əsəbləri gərilib ruhi xəstəliyə düçar olmuşdu. 1933-cü ildə isə itgin düşmüşdü. İmanın haqqında yaranan müxtəlif söz-söhbətlər rəvayətə çevrilmiş, sonra dastanlaşmışdır. Aşıqlar İmanın Qazax, Tovuz, Borçalı səfərlərini, bəzi aşıqlarla deyişmələrini dastan kimi danışırlar. Növrəs İmanın onlarla şeiri dillərdə dolaşmadadır. Onların bir qismi H.Əlizadə, Ə.Axundov, İ.Ələsgərovun tərtib etdikləri kitablara daxil edilmişdir.

Cəmi otuz il ömür sürən İman qeyri-adi təbə malik, dinin ali qanunlarını, təriqətləri, qədim mifik obrazları mükəmməl mənimsəyən, əsərlərində onlardan yerli-yerində istifadə edən, özünəməxsus təbii baxışı olan, hər şeydə bir mahiyyət axtaran, eyni zamanda, özünə tapınma idrakına malik, mütəsəvvüfə meyilli bir şəxsiyyət olmuşdur.

İman Ələsgər ocağının ən parlaq alovudur. Bu alov sönməzdir. İman taleyini ilahinin ixtiyarına buraxmışdır:

Əziz ata, itgin gedən fərzəndin,
Ağla, hey yadına düşəndə doyunca.
Mənim gərdənimdə çarxın kəməndi,
Dolandırır bu dünyada doyunca.

Məndən dost-qohuma azca gileylə,
Nə qarğa dalımca, nə hədyan söylə.
Əl götür duaya, minacat eylə,

Bəlkə yetəm bir murada doyunca.

Halal qıl İmanı, qohum-qardaşım,
Çeşmim ağlar, qaranlıqda günəşim.
Əgər bar İlahi düzəltsə işim,
Şad olaram Kərbəlada doyunca.

Son beytdən güman etmək olar ki, İman Kərbəlaya səfər edib. İmanı tanıyanlar onun 33-cü ildə bir sərhədçi zabitin köməyi ilə xaricə getdiyini söyləyirlər.

İman yaradıcılığına kölgə salan, Aşıq Ələsgər nəslinin böyük kədəri ondan ibarətdir ki, istedadlı şair-aşıq Növrəs İman gənc ikən itmiş, öldü, qaldı xəbəri bəlli olmamış, yurdunda və ondan kənarda qəbri, nişanəsi qalmamışdır. Onun itgin düşməsi və ya ölümü haqqında bir-birindən fərqli rəvayətlər yaranmışdır. Bir məlumata görə Tbilisi şəhərində Aşıq Sadıqla deyişmiş, onu məğlub etmiş və bu səbəbdən də guya Sadıq onu aradan götürtdürmüşdür. Başqa bir məlumata görə guya Aşıq Əsəd şagirdi olduğu Aşıq Ələsgərin bir sıra şeirlərini Göyçədən kənar yerdə öz adına oxuyurmuş. Bu səbəbdən də bir neçə dəfə o, İmanla qarşılaşmışdı. İman bir çox məclislərdən Aşıq Əsədi yarımçıq çıxmağa məcbur etmişdi. Bunu qəbul edə bilməyən Əsəd İmanı hər vəchlə aradan götürməyi məqsəd seçmişdi. Başqa bir fikrə görə İman Kərbəlanı ziyarət etmək arzusuna düşmüş, bu məqsədlə İrana keçmiş, Nəcəfi-Əşrəfə gedib, Həzrət Əlini ziyarət etmişdi. İrandan Azərbaycana İmanın adı ilə göndərilmiş «Doyunca» rədifli qoşmasında deyilir:

Əgər bar İlahi düzəltsə işim,

Şad olaram Kərbəlada doyunca.

Hətta, aşıqlar arasında belə bir rəvayət də yayılmışdır ki, böyük vətən müharibəsi illərində İranda Növrəs İmanı görmüşlər. Onun İran aşıqları ilə deyişməsi və qalib gəlməsi haqqında bir rəvayət də yayılmışdı.

Böyük Vətən müharibəsindən sonra belə bir xəbər verilir ki, İman sağdır və onun Qarsda və Anadoluda yerli aşıqlarla deyişmlərinin şahidi olanlar var. İmanı hər məqamda, hər hekayətdə ona görə deyişmə meydanında təsvir edirlər ki, İmana qədər Xəstə Qasım kimi nəhəng bir sənətkarın qıfılbəndlərini açan olmamışdır. Növrəs İman qabağına dəftər qoyub, baş sındırıb bu qıfılbəndləri açmağa səy göstərməmişdir. O, Aşıq Sadığın, şair Cavadın meydanında Xəstə Qasımın, Tufarqanlı Abbasın qıfılbəndlərini açmış, hətta, özü də bədahətən heç də ustadların qıfılbəndlərindən geri qalmayan, dərin məzmunlu, nəhəng sənət abidələrinə bərabər qıfılbəndlər yaratmışdır. Hələ bu günə qədər İmanın qıfılbəndlərini açan olmamışdır. Ona görə də hər bir aşıq, İmana bələd olan hər bir sənətkar İmanın sözləri ilə Azərbaycanda və onun hüdudlarından kənarda, saz-söz meydanlarında onun istedadına güvəndikləri üçün  qalib gələcəyinə inanır.

# Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-halı



**1.** Paşayev Sədnik Xəlil oğlu.

**2.** Pirsultanlı.

**3.** Şair.

**4.** Filologiya elmləri doktoru, professor.

**5.** 1988-ci ilin dekabr ayının 30-da "Əmək veteranı", 1992-ci ilin may ayının 4-də "Əməkdar Mədəniyyət işçisi", 2007-ci ilin yanvar ayında "Qabaqcıl Təhsil işçisi", Türkiyə Cumhuriyyəti Kültür Bakanlığının "Teşekkür belgesi"-ni almışdır.

**6.** 20 may 1929-cu il tarixdə Azərbaycan Respublikasının Daşkəsən rayonunun Qazaxyolçular kəndində anadan olub.

**7.** 1946-cı ildə “Daşkəsən” qəzetində “Zəfər bayramı” adlı ilk şeiri çap olunub.

**8.** Natamam orta təhsilini Qazaxyolçular kəndində, orta təhsilini Dəstəfur internat məktəbində alıb. 1950-ci ildə H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) birinci kursuna qəbul olunub, 1954-cü ildə Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib.

**9.** 2004-cü ildən AYB-nin üzvüdür.

**10.** 1955-ci ildən 1970-ci ilə qədər “Yeni Daşkəsən” (Daşkəsən), “Mübariz” (Goranboy) və “Yenilik” (Kəlbəcər) rayon qəzetlərində redaktor, “Kirovabad kommunisti” qəzetinin məsul katibi işləyib. 1970-ci ilin oktyabr ayında H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna müsabiqə yolu ilə müəllim qəbul olunub, baş müəllim, dosent vəzifələrində işləyib. Hal-hazırda Gəncə Dövlət Universitetinin professorudur.

**11.** 1993-cü ildə Ankarada keçirilən “İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumu”nda və

Nevşehirdə keçirilən "Hacı Veli Bektaşi" törənində məruzəçi kimi çıxış edib.
1955-ci ilin iyul ayından "Bilik" cəmiyyətinin, 1960-ci ilin iyun ayından Jurnalistlər Birliyinin, 1989-cu ilin aprel ayından Aşıqlar Birliyinin, 1998-ci ilin oktyabr ayından Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin (fəxri), 2003-cü ilin iyun ayından Yeni Azərbaycan Partiyasının, 2004-cü ilin aprel ayından Yazıçılar Birliyinin üzvüdür.

**12.** Almaniya Avropa Türk-İslam Birliyinin dəvəti ilə "Yunus İmrəyə sevgi ili" kutlamalarında məruzəçi kimi çıxış edib, Türkiyədə elmi konfraslarda və simpoziumlarda iştirak edib, İranda yaradıcılıq səfərində olub.

**13.** 2007-ci ildə "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 2009-cu ildə "Tərəqqi" medalı ilə təltif olunub.

**14. Kitablarının siyahısı**

1. Lalə, Aşıq Bəsti. Gənclik, Bakı, 1969, 55 səh, 10.000 nüsxə.
2. Yaşayan əfsanələr, Gənclik, Bakı, 1973, 78 səh, 4.000 nüsxə.
3. Xəstə Qasım, Gənclik, Bakı, 1975, 64 səh, 2.200 nüsxə.

4. Yurdumuzun əfsanələri, Bakı, 1976, 45 səh, 30.000 nüsxə.
5. Nizami və folklor, Bilik, Bakı, 1976, 65 səh, 2.500 nüsxə.
6. Yanardağ əfsanələri, Gənclik, Bakı, 1978, 160 səh, 20.000 nüsxə.
7. Azərbaycan xalq yaradıcılığının inkişafı, Bilik, Bakı, 1981, 40 səh, 1000 nüsxə.
8. Nizami və xalq əfsanələri, Gənclik, Bakı, 1983, 128 səh, 4.000 nüsxə.
9. Bayatılar (toplayanlar: V.Vəliyev, S.Paşayev), Yazıçı, Bakı, 1985, 200 səh, 40.000 nüsxə.
10. Azərbaycan əfsanələrinin öyrənilməsi, Bilik, Bakı, 1985, 70 səh, 500 nüsxə.
11. Azərbaycan xalq əfsanələri, Yazıçı, Bakı, 1985, 285 səh, 50.000 nüsxə.
12. Azərbaycan mifoloji mətnləri, Elm, Bakı, 1988, (toplayanlar Sədnik Paşayev, Maqbet Əhmədov, Arif Rəhimov, Arif Acalov), 180 səh, 25.000 nüsxə.
13. Azərbaycan folkloru və aşıq yaradıcılığı (dərs vəsaiti), Azərbaycan Dövlət Universiteti Nəşriyyatı, Bakı, 1989, 88 səh, 500 nüsxə.
14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989, 48 səh, 500 nüsxə.
15. XIX əsr Azərbaycan aşıq yaradıcılığı (dərs vəsaiti), Azərbaycan DPİ-nin nəşriyyatı, Bakı, 1990, 98 səh, 500 nüsxə.

16. Öz səsim (şeirlər), İdeya nəşriyyatı, Gəncə, 1990, 72 səh, 500 nüsxə.
17. Azərbaycan xalq söyləmələri, Yazıçı, Bakı, 1992, 211 səh, 10.000 nüsxə.
18. Pirsultan bulağı (şeirlər), Elm, Bakı, 1994, 110 səh, 1000 nüsxə.
19. İnciçiçəyim (şeirlər), Gəncə, 1996, 100 səh, 500 nüsxə
20. Karağan Usubun lətifələri, Gəncə, 1997, təkrar 2000, 2001, 37 səh, 1000 nüsxə.
21. Xalqın söz mirvariləri, Azərnəşr, 1999, 110 səh, 500 nüsxə.
22. İlahi bir səs (şeirlər), Gəncə, 1999, 110 səh, 500 nüsxə.
23. Unnu Ağcanın lətifələri, Ekologiya nəşriyyatı, Gəncə, 1999, 60 səh, 500 nüsxə.
24. Ağdabanlı şair Qurban, Gənclik, Bakı, 2000, 177 səh, 500 nüsxə.
25. Dabrovol Qasımın lətifələri, «Əsgəroğlu», Gəncə, 2001, 62 səh, 200 nüsxə.
26. Yəhya bəy Dilqəmə el-oba məhəbbəti, Bakı, Agah 2001, 105 səh, 600 nüsxə.
27. Aşıq Bəsti "Bənövşələr" "Əsgəroğlu", Gəncə, 2001, 80 səh, 300 nüsxə.
28. Heca vəznli şeir və mənzum atalar sözləri, Gəncə, Agah, 2001, 110 səh, 200 nüsxə.
29. Heca vəznli tapmacaların inkişafı, AGAH nəşriyyatı, Gəncə, 2001, 110 səh, 300 nüsxə.

30. Azərbaycan eposunun əfsanə qaynaqları, Azərnəşr, Bakı, 2002, 102 səh, 500 nüsxə.
31. Qaraxanlı Künə Dəmirin lətifələri, Gəncə, «Pirsultan», 2002, 51 səh, 200 nüsxə.
32. Qamışlı şair Rüstəm, «Laçın qaya, çal yadıma düşəndə», Gəncə, «Pirsultan», 2002, 80 səh, 300 nüsxə
33. Yuxular olmasaydı, «Pirsultan», 2002, 60 səh, 150 nüsxə.
34. Ozan-Aşıq sənətinin nəzəri məsələləri, Bakı, Ozan, 2002, 208 səh, 250 nüsxə.
35. Ozan-Aşıq yaradıcılığına dair araşdırmalar, I cild, Gəncə, «Pirsultan», 2002, 203 səh, 150 nüsxə.
36. Ozan-Aşıq yaradıcılığına dair araşdırmalar, II cild, Gəncə, «Pirsultan», 2002, 230 səh, 100 nüsxə.
37. Bir içim nəğmə (şeirlər), Gəncə, «Pirsultan», 2003, 70 səh, 100 nüsxə.
38. Heca vəznli bayatı və qoşma möcüzələri, Gəncə, «Pirsultan», 2003, 80 səh, 100 nüsxə.
39. Gəncəbasar lətifələri, Gəncə, «Agah», 2005, 201 səh, 300 nüsxə.
40. Bir çiçək də Vətəndi, Gəncə, 2005, 127 səh, 200 nüsxə.
41. Əsatirlər, əfsanələr, rəvayətlər (S.P.Pirsultanlı və digər müəlliflər), "Şərq-Qərb", 2005, 304 səh, 2500 nüsxə.

42. Mir Cəfər Bağırov yaddaşlarda, «Pirsultan», Gəncə, 2005, 80 səh, 100 nüsxə.
43. Eldən-obadan eşitdiklərim, Gəncə, «Agah», 2005, 170 səh, 200 nüsxə.
44. Yıldızdağdan əsən külək, Gəncə, 2006, 100 səh, 200 nüsxə.
45. Azərbaycan folkloruna dair tədqiqlər, Gəncə, 2006, 402 səh, 200 nüsxə.
46. Publisistika və folklor, Gəncə, 2007, 330 səh, 200 nüsxə.
47. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi, Elm, 2007, 310 səh, 500 nüsxə.
48. Pirsultan Pinarı (Şeirlər), «Pirsultan», Gəncə, 2007, 666 səh, 100 nüsxə.
49. Saz nəfəsli şeirlərim, «Pirsultan», Gəncə, 2008, 121 səh, 200 nüsxə.
50. Aşıq Şəmşirin poetik aləminə səyahət, "Təknur", Bakı, 2008, 295 səh, 500 nüsxə.
51. Azərbaycan türklərinin xalq əfsanələri, Azərnəşr, Bakı, 2009, 427 səh, 200 nüsxə.
52. "Novruz-Qəndab" və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi, Azərnəşr, Bakı, 2009 112 səh, 200 nüsxə.
53. "Aşıq Tifil Əsəd və Aşıq Ağbulaqlı Aqil", "Pirsultan", Gəncə, 2009 114 səh, 100 nüsxə.
54. "Qızıl beşik və Ana maral", "Pirsultan", Gəncə, 2010, 126 səh, 100 nüsxə .

55. "Lilpar bulağı", "Pirsultan", Gəncə, 2010, 120 səh, 100 nüsxə.
56. Azərbaycan aşıq yaradıcılığına dair araşdırmalar, "Azərnəşr", Bakı, 2010, 260 səh, 200 nüsxə.

# *MÜNDƏRİCAT*

Tikmədaşlı Xəstə Qasımın sələfləri və xələfləri .......... 3

Aşıq Ələsgər sənətkarlığı və Aşıq Ələsgər ucalığı ...... 24

Bu səs Aşıq Əsədin sazının bağrından qopub ............. 41

Aşıq Şəmşir və Bəhmən Vətənoğlu ........................... 52

Həmid Araslı və folklor ............................................ 65

Şəmşiri yaradan bir yol yaratdı .................................. 78

Bəhmən, - ruhun Murovun başındakı
ağ buludlardan yuxarıdadır ........................................ 84

Bozalqanlı Aşıq Ələsgər ........................................... 91

Aşıq Bilal haqqında bildiklərim ................................. 95

Aşıq Tağlabiyanlı Şamil haqqında xatirələrim ........... 97

Meydan sənindir ..................................................... 106

"Əsli-Kərəm" dastanı haqqında .............................. 113

"Şəhriyar" dastanının şifahi və yazılı variantları ...... 124
Göyçəli Zodlu Abdulla ........................................... 139
Növrəs İman ........................................................... 196
Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik
Xəlil oğlu) qısa tərcümeyi-halı ............................... 252

# *SƏDNİK PAŞA PİRSULTANLI*

## *AZƏRBAYCAN AŞIQ YARADICILIĞINA DAİR ARAŞDIRMALAR*

***Kompüter tərtibatçısı:***
***Turanə İmanova***

***Bakı - "Azərnəşr" - 2010***

Yığılmağa verilmişdir: 30.04.2010
Çapa imzalanmışdır:  22.05.2010
Qiyməti  müqavilə yolu ilə
Tiraj: 200